AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU

QASIMOVA KAMİLƏ QƏZƏNFƏR QIZI

# MÜASİR QLOBAL PROSESLƏR VƏ MƏDƏNİYYƏTLƏRİN DİALOQU

AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun
Elmi Şurasının 27 noyabr 2013-cü il tarixli
(10 saylı protokolu) qərarı ilə çapa
məsləhət görülmüşdür

- 15413 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI - 2014

77 + 72.05 + 60.035 + 66.7(0)

Q 25

Elmi redaktor:
**ƏLİKRAM MİRHƏSƏN OĞLU TAĞIYEV**
**fəlsəfə elmlər doktoru, professor**

Rəyçilər: **ƏLİ SEYİDABBAS OĞLU ABASOV**
**fəlsəfə elmlər doktoru, professor**

**AZƏR XOŞBƏXT OĞLU MUSTAFAYEV**
**fəlsəfə elmlər doktoru, professor**

Kamilə Qəzənfər qızı Qasımova. Müasir qlobal proseslər və mədəniyyətlərin dialoqu . BAKI. 2014.165 s.

Monoqrafiya müasir şəraitdə mədəniyyət və sivilizasiyaların dialoqu məsələsinə həsr olunmuşdur.

Eyni zamanda bu problem müasir qlobal *proseslər şəraitində nəzərdən keşirilmiş, mədəniyyətin digər sosial-siyasi fenomenlərlə əlaqəsi nəzər-təhlil olunmuşdur.*

*Monoqrafiyada Qafqaz regionu, Şərq-Qərb mədəniyyətlərinin birləşdiyi, qovuşduğu, ayrıldığı bir məkan kimi nəzərdən keçirilmiş, habelə Avropa və Amerika mədəniyyətlərinin oxşar və fərqli cəhətləri göstərilmişdir. Monoqrafiyada sonda müharibə və sülh şəraitində sülh mədəniyyəti problemi şərh olunmuşdur.*

*Kitab elmi işçilər, müəllimlər, doktorantlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*



## MÜNDƏRİCAT

**GİRİŞ ........................................ 4-12**

**I FƏSİL.**

**MƏDƏNİYYƏT VƏ SİVİLİZASIYA QLOBAL PROSESLƏR KONTEKSTİNDƏ ........................ 13**

1.1. Mədəniyyət və sivilizasiya ümumbəşəri sərvətlərin məcmusudur ........................ 13-38

1.2. Mədəniyyətdə milli-etnik və dini-konfessional amillərin nisbəti ........................ 38-61

1.3. Qlobal siyasi proseslərlə milli-mədəni inkişafın qarşılıqlı təsiri ........................ 61-87

**II FƏSİL.**

**MÜASİR QLOBAL ROSESLƏRİN MƏDƏNİYYƏT VƏ SİVİLİZASİYADA ƏKSİ ........................ 87**

2.1. Mədəniyyətlərin və sivilizasiyaların dialoqu: Şərq Qərb problemi Qafqaz regionunda. ........................ 87-113

2.2. Mədəniyyətlərin və sivilizasiyaların dialoqu: Amerika və Avropa ........................ 112-125

2.3. Millətlərarası və ölkələrarası münasibətlərdə müharibə və sülh amili ........................ 126-146

**NƏTİCƏ ........................ 147-156**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT ........................ 157**

## GİRİŞ

Müstəqillik və demokratiya yolu ilə irəliləmək, həyatın bir çox sahələrində köklü dəyişiklikləri həyata keçirmək çox mürəkkəb, məsuliyyətli, ziddiyətli prosesdir. Bu prosesin bütün çətinliklərinə, ağrılı məqamlarına baxmayaraq, biz çalışmalıyıq ki, 1991-ci ilin sonunda əldə etdiyimiz tarixi nailiyyəti - dövlət müstəqilliyimizi qoruyaq və daha da möhkəmləndirək, qədəm qoyduğumuz yeni əsrdə respublikamızı hərtərəfli inkişaf edən, çiçəklənən bir diyara çevirək. Bu məsul vəzifənin reallaşdırılması güclü iqtisadiyyatın formalaşmasını, fəal ictimai-siyasi intibahın, zəngin mədəniyyətin olmasını tələb edir. Ölkəmizdə və dünyada baş verən sosial-siyasi proseslər, mədəniyyətlərin qarşılıqlı əlaqə və təsir xüsusiyyətləri aydın təsəvvür olunmalı, onların həqiqi elmi mənzərəsini **yaratmaq** istiqamətində tədqiqatçılıq axtarışları fəallaşdırılmalıdır. Təsadüfi deyildir ki, ümummilli lider H.Ə.Əliyev yüksək mənəvi-intellektual potensialla uğurlu vətəndaş cəmiyyəti quruculuğu arasında dərin əlaqəyə xüsusi diqqət yetirmişdir: "Bu gün artıq bütün bəşəriyyət, bütün xalqlar və millətlər bilirlər ki, mədəniyyət, elm və təhsil insanların ən böyük mənəvi dəyərləri olaraq sabit inkişafı təmin edən mühüm amillərdən biridir. Qlobal dəyişikliklər baş verən bir dövrdə biz bütün səylərimizi bu böyük sərvətin qorunub saxlanılmasına sərf etməliyik. Məhz belə yüksək intellektual potensialı olan ölkədə qüdrətli vətəndaş cəmiyyəti yarana bilər" [1, 127].

Azərbaycan mədəniyyəti ümumdünya mədəniyyət sisteminin tərkib hissəsi olmaqla tarix boyu dünya mədəniyyətinin inkişafına öz bənzərsiz töhfələrini vermişdir. Məhz mədəni inkişaf sayəsində dünya mədəniyyətində öz dəsti xətti ilə seçilən xalqımız bütövlükdə həyat tərzini, mənəviyyatını dəyişdirmiş, yeniləşdirmiş, qloballaşan dünyaya inteqrasiya olunmaq imkanlarını artırmışdır. Son illərdə respublikamızda Azərbaycan mədəniyyətinin tarixi ənənələrinin inkişaf etdirilməsi, mədəniyyət nümunələrinin mühafizəsi, milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində xeyli işlər görülmüşdür. Məsələn, Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 1996-cı ildə yaradılmış Azərbaycan Mədəniyyətinin Dostları Fondu xalqımızın mədəni irsinin bütün dünyada təbliğinə, qiymətli incəsənət abidələrinin qorunmasına xidmət edir. O, haqlı olaraq qeyd edir ki, Azərbaycan özünün çoxəsrlik tarixi boyunca həm də mədəniyyətlərin dialoqunda öz sözünü deməyə qadir olan bir ölkə kimi tanınır. Mən fəxr edirəm ki, ölkəmizdə tamamilə bənzərsiz bir mədəni məkan yaranmışdır. Biz öz mədəniyyətimizin, adət-ənənələrimizin, tarixi irsimizin təkrarolunmaz incilərini qoruyub saxlayaraq dünya mədəniyyətinin nümunələrini qəbul edə bilmişik. Bu gün biz müxtəlif xalqların mədəniyyət elementləri ilə milli mədəniyyətimizin tərkib hissəsi arasında oxşarlığın şahidi oluruq. Bu isə heç də təsadüfi deyildir. Belə ki, bu proseslərin arxasında öz tolerantlığı, xeyirxahlığı, öyrənib-öyrətmək bacarığı ilə seçilən və mədəniyyətlər arasında körpülər yaradan azərbaycanlıların neçə-neçə nəsli durur.

Görkəmli Avstriya filosofu Lüdviq Vitgenşteyn (1889-1951) yazırdı ki, mədəniyyət nəhəng bir təşkilat olub hər kəsə özünün hara mənsub olduğunu göstərir. Bu sözlər tədqiq etdiyimiz mövzunun açıqlanması üçün bir açar verir. Müasir sivil dünya insanların və onların mənsub olduğu tarixi insan birliklərinin yerinin və rolunun nədən ibarət olması faktını üzə çıxarır, onların müasir qlobal sosial-siyasi proseslərdə oynadığı rolunu əks etdirir. Həqiqətən də mədəniyyətlərin və sivilizasiyaların dialoqu problemi, onların bu günkü qlobal proseslərə təsiri məsələləri hazırda ictimai elmlərin diqqət mərkəzində dayanan məsələlərdəndir. İnsanlar istər-istəməz Şərq-Qərb dixotomiyası ilə üzləşir, müxtəlif mədəniyyətli insanlar özlərinin mənsub olduqları mədəniyyətləri digərləri ilə müqayisə edir və müəyyən nəticə çıxarırlar. Mədəniyyət və mədəni sərvətlər şəxsiyyətin dünyagörüşünün və sosial

keyfiyyətlərinin formalaşmasına, davranış normalarının qərarlaşmasına mühüm təsir göstərən amillərdən biridir. Müəyyən mədəni səviyyəyə malik olmayan insan öz hərəkətlərini məntiqi ardıcıllıqla qurmağa qadir deyildir. Mədəniyyətin şərti modellərindən, başqa sözlə, simvollar sistemindən istifadə etmədən insanın davranışı mənasız hərəkətlərdən, idarə olunmayan emosiyalardan ibarət olardı. Yalnız cəmiyyətdə, sosial-mədəni mühitdə, başqaları ilə ünsiyyət prosesində fərdin əqli və fiziki qabiliyyətləri inkişaf edir və o, insani keyfiyyətlər əldə edir. Mədəniyyət həmçinin insan təbiətindəki aqressiv cəhətləri məhdudlaşdırmağa kömək edir, onları bu və ya digər formada təzahür etməyə qoymur. Lakin bununla belə mədəniyyətin insanın davranışına göstərdiyi təsiri azaldan müəyyən amillər də mövcuddur. Araşdırmalar göstərir ki, cəmiyyət üzvlərinin mədəni səviyyələrinin yüksək olduğu hallarda asayişin, birgəyaşayış normalarına əməl etməyin səviyyəsi də yüksək olur, başqa sözlə, mədəniyyət özünün sosial nəzarət funksiyasını daha fəal şəkildə yerinə yetirə bilir.

Bəşəriyyət öz inkişafında yeni keyfiyyət mərhələsinə qədəm qoymuşdur. Bu mərhələ dünya inkişafının, ictimai tərəqqinin bilavasitə mənəvi sərvətlərə qiymətvermənin səviyyəsindən əhəmiyyətli dərəcədə asılı olduğunu bir daha sübut edir. Ümumi inkişafda müxtəlif funksiyaları yerinə yetirən sosial institutların fəaliyyəti məhz şəxsiyyətin təkmilləşdirilməsi, yeni keyfiyyət çalarları əldə etməsi istiqamətində qurulur. Kant tərəfindən irəli sürülən vahid planetar dövlət ideyası, Hegelin ümumdünya-tarixi təfəkkür ideyası, K.Yaspersin «istiqamətlənmiş zaman» təlimi və s. ictimai zəruri inkişaf meylini ifadə etməklə fərddən millətə, millətdən bəşəriyyətə gedən yolun qanunauyğunluqlarını, mahiyyətini izah edir. «Humanist cəmiyyətin planetar ideologiyası» adlandırılan bu ideologiyanın obyekti də, subyekti də insandır. Belə bir ideologiyanı məhşur «Roma klubu»nun yaradıcısı A.Peççei «Sonsuzluq qarşısında» (1969) kitabında da ciddi şəkildə əsaslandırılmışdır [25, 65].



Sivilizasiyaların və mədəniyyətlərin inkişafı millətləri və xalqları biri-birinə yaxınlaşdırmalı, onların qovuşma imkanlarını artırmalıdır. Bu gün Qərbin bir sıra ideoloqları mədəniyyətlərin və sivilizasiyaların getdikcə sürətlə inkişaf etməsindən tamamilə başqa nəticələr çıxarır, gələcəkdə onların mütləq birinin digərini məhv edəcəyi fikrini təlqin edirlər. Məsələn, F.Fukuyamaya görə, guya ideologiyaların mübarizəsini artıq dinlərin mübarizəsi əvəz etmişdir. S.Hantinqtonun məşhur «sivilizasiyaların toqquşması» ideyası bu gün Qərbin təkcə bir çox alimləri tərəfindən deyil, həm də siyasi xadimləri tərəfindən dəstəklənir və geniş təbliğ olunur. Tez-tez xristian həmrəyliyinə çağırışlar eşidilir, İslama qarşı yeni «səlib yürüşləri»nin təşkil olunması tələbləri irəli sürülür. Amerika sosioloqu P.Sorokinə görə, mədəniyyətlərin bir tipindən başqasına keçməsi ilə əlaqədar sosial münasibətlər dəyişilir. Mədəniyyətin müxtəlif tiplərinin bir araya sığışmaması tarixdə həmişə müharibələrə, böhranlara, fəlakətlərə və başqa kataklizmlərə səbəb olmuşdur. Şübhəsiz, P.Sorokinin bu fikirlərində müəyyən həqiqətlər var. Amma onu da unutmaq olmaz ki, xalqlar arasında baş verən müharibələr və konfliktlər heç də həmişə qeyd edilən səbəblərdən baş vermir. Ermənilərin Azərbaycandakı işğallarını əsaslandırmağa çalışan bir sıra ermənipərəst Qərb ideoloqları da azərbaycanlılarla ermənilərin arasında olan münaqişəni məhz bu şəkildə yozmağa çalışır, ermənilərin böyük dövlətçilik və şovinizm planlarını isə mədəniyyət, din və sivilizasiya müxtəlifliyi ilə pərdələməyə çalışırlar.

Sosial-siyasi proseslər geniş anlayışdır və söz yox ki, öz əksini müasir qloballaşma şəraitində mədəniyyətlərin dialoqunda, qarşılıqlı əlaqəsində tapır. Bugünkü milli inkişafı məhdud və dar bir çərçivədə təsəvvür etmək qeyri-mümkündür. Bu inkişaf mütləq digər millətlərlə qar-

şılıqlı əlaqəyə də müsbət təsir göstərir və qabaqcıl xalqların milli-mənəvi dəyərlərindən səmərəli şəkildə bəhrələnməyə şərait yaradır.

Müasir şəraitdə dünyada gedən qlobal proseslər ictimai inkişaf sürətini daha da artırmış, ictimai proseslərdə baş verən inteqrasiya meylləri bir tərəfdən dünyanın tale ümumiliyi barədə təsəvvürləri dərinləşdirmiş, digər tərəfdən isə millət və xalqları sosial tərəqqinin mərkəzinə çəkmişdir. Xüsusilə də SSRİ dağılandan sonra həm dünya sivilizasiyasının özündə, həm də milli münasibətlərin inkişaf dialektikasında diqqəti cəlb edən əsaslı keyfiyyət dəyişiklikləri bu proseslərin elmi-nəzəri səviyyədə ümumiləşdirilməsinə tələbatı xeyli artırmışdır. Uzun müddət yeni kommunist sivilizasiyasını formalaşdırmaq adı altında millət və xalqları dünya inkişafının magistral yolundan uzaqlaşdırmaq, vahid kommunist millətinin formalaşdırılacağı şüarları ilə milli-özünəməxsus inkişafı yolundan sapdırmaq cəhdləri həm sivilizasiyaların, həm də milli inkişafın özünə xeyli dolaşıqlıqlar gətirmişdir. Belə bir proses Azərbaycandan da yan keçməmişdir. Belə bir şəraitdə dünya sivilizasiyasının inkişafındakı yeni meyllər kontekstində ilkin münasibətlərdə təzahür edən amillərin elmi-nəzəri tədqiqinin aktuallığı durmadan artır. Xüsusən getdikcə təkmilləşən, yeni-yeni keyfiyyət çalarları ilə zənginləşən ictimai praktikanın tələbləri baxımından elmi araşdırmaların aparılmasına böyük ehtiyac vardır.

Bu gün dünya sivilizasiyasının inkişafını səciyyələndirən əsas cəhət sosial-iqtisadi, intellektual, mədəni həyat və dövlət idarəçiliyinin bütün sahələrində baş verən mütərəqqi dəyişikliklərdən və bunların hər bir xalqın taleyinə ciddi surətdə təsir göstərməsindən ibarətdir. Söhbət tarixin subyekti və dünya sivilizasiyasının müstəqil yaradıcısı və hərəkətverici qüvvəsi kimi millət və xalqların qarşılıqlı təsir və əlaqələrindən, habelə onların ağıllı özünütəsdiq yollarını arayıb tapmasından gedir. Son illər köhnə SSRİ məkanında millətlərarası münasibətlərdə



yaranın gərginlik, habelə qlobal milli proseslərdəki yeni təzahürlər, milli şüurun, milli hisslərin güclü inkişafı nəticə etibarilə milli gerçəklikdə yeni vəziyyət yaratmış, sivilizasiya kateqoriyasının təhlilində onun daha ciddi surətdə nəzərə alınmasını real tələbata çevirmişdir. Belə ki, sivilizasiyanın məzmununda iqtisadi, siyasi, ideoloji və nəhayət, milli amillərin nisbəti dəyişir və bunlar ictimai münasibətlərin bütün sistemində dərin iz buraxır. Müasir şəraitdə sivilizasiya hər bir adamın konkret «mən»i ilə, xalqların sosial həyatına xas olan xüsusiyyətləri və ideya-mənəvi birliyini özündə təcəssüm etdirən milli mədəniyyətlərlə sıx vəhdətdə inkişaf edir. Ona görə də müstəqil milli dövlət quruculuğu, ictimai-siyasi həyatın dərindən demokratikləşdirilməsi və humanistləşdirilməsi, sözün əsl mənasında milli intibaha nail olunması dünya sivilizasiyası ilə sıx əlaqələrin qərarlaşmasını tələb edir. Beləliklə, problemin tədqiqinin aktuallığı ictimai tərəqqinin real məntiqindən doğur. Daha konkret ifadə etsək, aşağıdakı məqamlar kitabı xüsusilə aktuallaşdırır:

*Birincisi,* milli inkişafın sivilizasiyanın inkişafı ilə əlaqəli tədqiqi həm qlobal prosesləri daha yaxşı dərk etməyə, həm də bu proseslərin praktik vəzifələrinin həllini düzgün istiqamətləndirməyə imkan verir;

*İkincisi,* bu problemin tədqiqi bəşəriyyətin ictimai tərəqqisi, burada ayrı-ayrı millət və xalqların yeri və rolu haqqında, xüsusən də müasir dövrdə qlobal ictimai-siyasi və milli proseslərin ictimai inkişafa verdikləri töhfə barəsində aydın təsəvvür yaradır;

*Üçüncüsü,* problemin araşdırılması cəmiyyətin və ictimai münasibətlərin yetkinlik dərəcəsi, bu ictimai münasibətlər sistemində şəxsiyyətin mövqeyi barədə ciddi elmi nəticələrə gəlməyə imkan verməklə nəzəri biliklərimizi xeyli dərəcədə zənginləşdirir;

*Dördüncüsü,* Azərbaycanda müstəqil dövlət quruculuğu vəzifələri uzun müddət siyasi-ideoloji təhriflərə məruz qalmışdır. Bu baxımdan da milli münasibətlərə yeni

müstəvidə yanaşmaq, xalqımızın tarixi mənşəyi, dili, mədəniyyəti və dilçilik ənənələri ilə bağlı məsələləri müasir sivilizasiyanın nailiyyətləri ilə sıx bağlamaq və elmi-nəzəri baxımdan mənalandırmaq zərurətini yaradır;

*Beşincisi,* «etnik partlayışlar» kimi səciyyələndirilən XX əsrin sonuncu onilliyində milli hisslərin coşğun inkişafı cəmiyyət üzvlərinin ovqat və davranışlarına, millətlərarası ünsiyyət və əlaqələrə fəal təsir göstərdiyindən həmin hisslərin düzgün başa düşülməsindən və istiqamətləndirilməsindən həm milli dövlət quruculuğunun, həm də dünyada formalaşan sivilizasiyalı beynəlxalq münasibətlərin taleyi xeyli dərəcədə asılıdır;

*Altıncısı,* bu cür tədqiqatlar ictimai və milli şüurun inkişaf yolunda əngəl olan hər cür elməbənzər yalanlardan, siyasiləşdirilmiş ehkamlardan xilas olmağa, milli idrak və milli düşüncəni əsrlərin sınağından çıxmış ümumbəşəri istiqamətə yönəltməyə kömək edir.

Monoqrafiyanın əsas məqsədi müasir sosial-siyasi proseslər kontekstində mədəniyyətlərin qarşılıqlı əlaqə və təsirinin nəzəri-metodoloji problemlərini araşdırmaqdan ibarətdir. Əsərdə qarşıya qoyulan məqsədin reallaşması üçün aşağıdakı vəzifələrin həll edilməsi nəzərdə tutulmuşdur:

- mədəniyyəti və sivilaziyanı ümumbəşəri sərvətlər kimi səciyyələndirmək, onların təkamülünə xas olan xarakterik xüsusiyyətləri aşkara çıxarmaq;

mədəniyyətdə milli-etnik və dini-konfessional amillərin rolunu və nisbətini araşdırmaq;

tarixi inkişaf prosesində milli-mədəni inkişaf səviyyəsini çox mühüm sosial xarakteristika kimi səciyyələndirmək, onunla qlobal siyasi proseslərin qarşılıqlı əlaqə və təsirini təhlil etmək;

mədəniyyətlərin və sivilizasiyaların dialoqu kontekstində Qafqaz regionunda, Avropa və Amerikada sosiomədəni proseslərin başlıca meyllərini və xüsusiyyətlərini müqayisəli şəkildə araşdırmaq;



millətlərarası və ölkələrarası münasibətlərdə müharibə və sülhün bir-biri ilə diametral əkslik təşkil etdiyini, müasir sivilizasiyanı qorumaq və zənginləşdirmək üçün fəal sülh mədəniyyətinin qərarlaşması zərurətini əsaslandırmaq.

Monoqrafiyanın elmi yeniliyi qarşıya qoyulmuş məqsəd və vəzifələrdən irəli gəlir və konkret olaraq aşağıdakı məqamlarda ifadə olunur:

mədəniyyət və sivilizasiya ən müxtəlif amillərin təsiri və qarşılıqlı təsiri ilə şərtlənən, ziddiyətli təkamül yolu keçən mürəkkəb sosiomədəni fenomen kimi araşdırılmış , onun müasir sosial-siyasi proseslərin cərəyanı şəraitində kəsb etdiyi yeni çalarlar təhlil edilmişdir;

mədəniyyətlərin və sivilizasiyaların dialoqu kontekstində Şərqlə Qərbin, Avropa ilə Amerikanın, İslamla xristianlığın müqayisəli təhlili verilmiş, müvafiq ümumiləşdirmələr aparılmışdır;

müasir sosial-siyasi proseslərlə mədəniyyət və sivilizasiyaların qarşılıqlı əlaqəsi və təsiri prosesinin regional, milli-etnik, dini-konfessional və s. xüsusiyyətləri konkret faktlar əsaında araşdırılmış və mümkün proqnozlar işlənib hazırlanmışdır;

ölkələrarası və millətlərarası münasibətlərin inkişafının başlıca meylləri nəzərdən keçirilmiş, bu inkişafın bir sıra hallarda müharibələrlə, kəskin münaqişələrlə müşayiət olunmasının səbəbləri açıqlanmış, sülh mədəniyyətinin qərarlaşması müasir sivilizasiyanın müqəddaratı üçün son dərəcə vacib fəaliyyət istiqaməti kimi əsaslandırılmışdır.

- sistemli yanaşma metoduna əsaslanmaqla sivilizasiyanın mənşəyinin, onun tarixi tipləri arasındakı varislik əlaqələrinin və bunun milli inkişafa təsir imkanlarının araşdırılmasına səy göstərilmişdir;

- milli inkişafı səciyyələndirən ictimai-siyasi və mədəni proseslərin qlobal sivilizasiyasının məğzini təşkil edən proseslərlə əlaqəsinin müəyyənləşdirilməsinə və

onun təzahür xüsusiyyətlərinin açıqlanmasına cəhd göstərilmişdir;

- qlobal ictimai-siyasi proseslərin təsiri altında şəxsiyyətin mürəkkəb mənəvi aləmində baş verən emosional-psixi dəyişikliklərin ümumləşdirilmiş səciyyəsi verilmiş və bunun milli proseslərə təsiri araşdırılmışdır;

-əsərdə indiki mürəkkəb keçid dövrü şəraitində Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğunun konseptual əsaslarının işlənib hazırlanması üçün əhəmiyyətli olan müəyyən praktik tövsiyələr işlənmışdır.

Kitab gələcək elmi araşdırmalarda, xüsusilə müasir sosial-siyasi proseslərin dinamikası, mədəniyyətlərin qarşılıqlı münasibətləri problemlərinin tədqiqi işində istifadə oluna bilər. Çıxarılan nəticələr, əsaslandırılan nəzəri müddəalar ümumiyyətlə müasir sosial-mədəni proseslərə dair elmi axtarışlara müəyyən kömək göstərə bilər. Monoqrafiyanın materialları sosial fəlsəfə, sosiologiya, mədəniyyətşünaslıq, sosial iş və s. fənlərin tədrisi, əhalinin maariflәndirilməsi, sosial-siyasi və sosial-mədəni problemlərin həllinə kömək istiqamətində dövlət proqramlarının işlənib hazırlanması üçün də müəyyən əhəmiyyətə malikdir.



# I FƏSİL

# MƏDƏNİYYƏT VƏ SİVİLİZASİYA QLOBAL PROSESLƏR KONTEKSTİNDƏ

## 1.1. Mədəniyyət və sivilizasiya ümumbəşəri sərvətlərin məcmusudur

Mədəniyyət sosial-siyasi fenomendir. O, ictimai-siyasi həyatın bütün sferaları ilə əlaqədar olub insanların tarixi təcrübələrindən toplanmış maddi və mənəvi sərvətlərin məcmusundan ibarətdir.

Mədəniyyət anlayışı ictimai həyatın çox geniş sahəsini əhatə etdiyindən onun müxtəlif aspektlərdən öyrənilməsinə və həllinə böyük ehtiyac vardır. Çünki bəşəriyyət inkişaf etdikcə onun mədəni prosesləri hadisələri, predmetləri və s. dəyişir, yeniləşir və dayanmadan təkamül edir. Mədəniyyət maddi və mənəvi sərvətlər məcmusu kimi daha da zənginləşir. Müasir elmi yeniliklər, ictimai-siyasi proseslər mədəniyyət anlayışının kateqoriyalarının da sayını artırır. Beləliklə də, cəmiyyət daxilində mədəniyyətin çoxfunksiyalı olduğu aşkarlanır. Məlum olur ki, mədəniyyətin birinci və əsas funksiyası humanist xarakterli proseslərin yaradılması və inkişaf etdirilməsindən ibarətdir. Bu güclü maddi və mənəvi sərvətlər toplusu əldə edir, eyni zamanda təkamülün dialektik inkişafının əsasını yaradır. Humanist məqsədlərlə inkişaf edən maddi və mənəvi sərvətlər tarixin bütün dövrləri üçün yararlı olur. Bu baxımdan onlar mənəvi irs kimi gələcək nəsillərin həyat və yaradıcılığında xüsusi əhəmiyyət kəsb edir və mənəvi sərvət kimi daima qorunub saxlanılır. Bu cəhətinə görə humanist mədəniyyət tarixi varislik funksiyasını da yerinə yetirir. O bir çox nəsillərin sosial-mədəni təcrübəsini özündə cəmləşdirdiyinə görə böyük bilik mənbəyinə çevrilir, tarixi yaddaş xarakteri daşıyır [17,

s.23-24].

Müxtəlif dövrlərdə mədəniyyətin məzmununda yaranan dəyişikliklər onun adının anlaşılmasına da təsir etmişdir. Məhz mədəniyyət anlayışı təkamüldən doğan əsaslı tarixi dəyişiliklərlə əlaqədar olaraq həmişə aktual tədqiqat obyektinə çevrilmişdir. Elə bu səbəbə görə də XVII-XVIII əsrlərdə yaşayıb yaradan Avropa alimlərindən S.Pufendorf, C.Vikon, K.Helvetsi, B.Franklin, İ.Herder, İ.Kant və başqaları mədəniyyətin mahiyyəti haqqında maraqlı fikirlər söyləmişlər. Eyni zamanda mədəniyətin müxtəlif tiplərinə Y.Burhard, E.Teylor, K.Levi-Bryul, B.Malinovski, M.Baxtin və başqa alimlər münasibət bildirmiş, elmi təhlillər vermişlər. Yuxarıda adları çəkilən alimlərin hər birinin mədəniyətə müxtəlif, özünəməxsus təriflər verməsini məhz ictimai həyatın qanunauyğunluqları ilə əlaqələnqdirmək lazımdır. Amerika mədəniyyətşünasları Alfred Kreber və Klayd Klakson apardıqları birgə tədqiqatlar zamanı mədəniyətin 180 tərifi olduğunu göstərmişlər. L.E.Kertmana görə isə mədəniyətin 400-dən çox tərifi mövcuddur.

Mədəniyyət haqqında müxtəlif dövrlərdə ayrı-ayrı, bir-birindən fərqli şərhlərin və təriflərin verilməsi çox təbiidir. Çünki mədəniyyət hər bir ictimai-tarixi dövrdə öz xüsusi formasında, həmin dövrün xarakterik cəhətlərinə uyğun şəkildə təzahur edir. Mədəniyətin məzmunu ictimai quruluşlara uyğun olaraq tez-tez dəyişir. Hər bir dövrün istehsal üsuluna uyğun olan mənəvi dəyərlər, bütövlükdə isə ümumi mədəniyyət formalaşır. Buna görə də müasir dövrdə «kültür və mədəniyyət» anlayışlarını milli və beynəlmiləl cəhətlərə şamil etməyin özündə də nisbilik vardır [56, s.18].

Belə ki, müasir mərhələdə dünya xalqları arasında yaranan elmi, mədəni, dini, ictimai, iqtisadi əlaqələr bu iki anlayışın hər birinə öz təsirini göstərmiş, minilliklər ərzində bəşəri olanın vəhdətini yaratmışdır. Yəni indi demək olar ki, hər bir kültür və mədəniyyət həm millidir,



həm də ümumidir, beynəlmiləldir.

Mədəniyyətin müasir inkişaf mərhələsində bir sıra kültüroloji konsepsiyalara meyllər artmış, yeni elmi ədəbiyyatlarda onlar haqqında kifayət qədər məlumatlar verilmişdir. Bünlar ən çox K.Levi-Strossun antropologiyası, neofreydistlərin, eksiztensialistlərin, ingilis yazıçısı C.Snounun və başqalarının konsepsiyalarıdır. Onların çoxu vahid mədəniyyətin əskikliyini sübut etməyə çalışır, bəziləri mənəvi mədəniyəti mənəvi istehsalla eyniləşdirməyə cəhd edirlər.

Sivilizasiya dedikdə əsasən cəmiyyətin və mədəniyyətin inkişaf səviyyəsi, onun maddi və mənəvi dəyərlərinin mənimsənilməsi və inkişafı nəzərdə tutulur. Texniki sivilizasiya müxtəlif tipli mənəvi dəyərlərin müxtəlif mədəni ənənələrə malik olan insan qrupları və cəmiyyətləri tərəfindən də mənimsənilməsinə imkan yaradır. Texniki sivilizasiya bəşər mədəniyyətinin təkamül etməsini daha da sürətləndirir. Ayrı-ayrı milli nümunələrin inteqrasiyasına əlverişli şərait formalaşdırır. Məhz buna görə də kütlələrin millətçi qanadları çox zaman texniki sivilizasiyasının ənənəvi mənəviyyata daxil olmasını qısqanclıqla qarşılayırlar. Xüsusilə insan dünyasında şəriət qanunlarına uyğun gəlməyən-informasiyalı, «texnotron» qərb yönümlü sivilizasiya formaları inkar edilir, onların təqlid olunması mənfi emosiyalarla qarşılanır.

Müasir dövrdə elmi-texniki tərəqqinin təsiri mədəniyyətin bütün sahələrində özünü büruzə verir. Mədəniyət müəssisələrinin iş fəaliyətini texniki vasitələrdən ayrı təsəvvür etmək mümkün deyildir. Milli adət və ənənələrin, hətta dini ayin və mərasimlərin icra olunması prosesində də texniki vasitələrin təsiri ilə böyük modernləşmə aparılmışdır. Toylar, el şənlikləri səs gücləndiricilərinin köməyi ilə keçirilir. Məscidlərin minbərlərindən səslənən azan mətni maqnitafon lentinin və səs gücləndiricinin köməyi ilə yayılır. Bütün el şənlikələri videokameralar vasitəsi ilə lentə köçürülür.

Təbii ki, vaxtaşırı baş verən elmi-texniki inqilab yeni mədəniyyətin yaranmasının əsas vasitəsinə çevrilir. İnsan təfəkkürü inkişaf etdikcə mədəniyyət də yeniləşir. Bu yeniləşmə dinamik olaraq tez-tez təkrarlanır. Məhz bu səbəbə görə də mədəniyətin funksiyası çox şaxəlidir. Onun məzmunu və mahiyyəti də bir mənalı deyildir.

Qeyd olunan misallardan aydın olur ki, mədəniyyət müəyyən zaman daxilində bir millət və ya dini anlayışla bağlı olduğu halda, zaman keçdikcə o bəşəriləşir, əhatə dairəsi genişlənir. Buna görə də mədəniyyət insanların bəşər tarixi boyu yaratdıqları maddi və mənəvi sərvətlərin toplusu kimi başa düşülür. Bu maddi və mənəvi sərvətlər toplusunda hər bir mədəniyətə milli kolorit, milli xüsusiyyət gətirir. Lakin milli kolorit milli tərəqqinin yeganə meyarı kimi başa düşülməməlidir. O, şişirdilb ifrat həddə çatdırılmamalıdır. Milli mənəvi dəyərlər humanist ideyaların inkişafına, inteqrativ mədəni proseslərin yaranmasına xidmət etməlidir. Çünki mədəniyyət qapalı sistem deyildir, o açıq şəkildə bəşəri məzmuna malik olan əxlaqi təsir gücünü nümayiş etdirir. Mədəniyyət bütün dövrlərdə insanın ictimai fəaliyyətinn konkret üsul və formalarını reallaşdırır. Buna görə də müasir inkişaf mərhələsində milli mədəniyyətlərin bütün ənənəvi xüsusiyyətləri qarşılıqlı mənəvi zənginləşmə və humanistləşmə prosesinə xidmət etməlidir. Belə bir vəziyyətin ictimai həyata realizə olunması adət və ənənələrin və həmçinin milli hissin bütün tərəflərinin sosial bazasını genişləndirir, xüsusi ilə mədəniyyətin inkişafının azad mənəvi mühitini yaradır.

Yuxarıda deyilənlər onu göstərir ki, mədəniyətin inkişafı cəmiyyətin və xalqın tarixi inkişafı ilə qırılmaz suratdə əlaqədardır. Mədəniyyət öz təsdiqini və əksini məhz qarşılıqlı əlaqədə tapır.

Müasir fəlsəfi ədəbiyyatda «mədəniyyət» termini qədər mübahisəli başqa bir anlayış tapmaq çox çətindir. Əgər yarım əsr bundan əvvəl işıq üzü görmüş olan A.Kreber və K.Klasxonun «Mədəniyyət anlayışlarının və



15413

definisiyaların tənqidi şərhi» əsərində Qərb elmi ədəbiyyatında (Avropa və Amerika) mədəniyyətə 170-dən artıq tərif verilmişdirsə, fransız sosioloqu A.Molun 1967-ci ildə nəşr olunmuş «Mədəniyyətin sosiodinamikası» əsərində 250-dən sox tərifə rast gəlinir. Qeyd etmək lazımdır ki, o vaxtdan tədqiqatlarda bu təriflərin sayı artmaqda davam edir. Son illərdə mədəniyyət probleminə həsr olunmuş əsərlərin demək olar ki, hamısında mədəniyyətə yeni tərif verilməsinə çalışırlar. Mədəniyyət bir fenomen kimi insanın təkmilləşməsi, onun daxili aləminin fəlsəfə, incəsənət, etik və normaların vasitəsi ilə təkmilləşməsi prosesini ifadə edir. [96, s.283]

Dahi humanist Albert Şveytser cəmiyyət tarixində mədəniyyətin yerini çox doğru müəyyən etmişdir. O, qeyd edirdi ki, mədəniyyət istər insanın, istərsə də bəşəriyyətin bütün sahələrdə əldə etdikləri elə nailiyyətlərin məcmusudur ki, həmin nailiyyətlər şəxsiyyətin mənəvi təkmilləşməsinə və ictimai tərəqqiyə şərait yaradır.

İngilis etnoqrafı və tarixçisi, kulturoloji konsepsiyanın tanınmış nümayəndələrindən biri E.V.Teylorun fikrincə, mədəniyyətdən söhbət gedərkən yalnız mənəvi mədəniyyətdən danışılmalıdır. Yəni əxlaq, incəsənət, etiqad, bilik, hüquq və s. Teylor qeyd etmişdir ki, mədəniyyətdə təkcə ümumbəşəri yox, həm də ayrı-ayrı xalqlar üçün spesifik olan dəyərlər də vardır... O, mədəniyyətin inkişafında təkcə onun daxili təkamülünü deyil, həm də tarixi təsirini və tarixi mənimsənilmənin əhəmiyyətini açıqlamışdır. V.Teylor göstərirdi ki, mədəni inkişaf düz xətlə gedə bilməz. Yalnız o, fikrini bəşəriyyətin mədəni inkişafının vəhdətdə olmasını sübuta yetirmək üçün cəmləmişdir. Halbuki tədqiqatçıların əksəriyyəti vahid mədəniyyətin yaranmasının qeyri-mümkünlüyünü söləyirlər.

Bəs əslində mədəniyyət nədir? - sualına fəlsəfə elmləri doktoru professor A.Şükürov öz fikrini belə bildirmişdir: «Çox saylı tədqiqatçıların bu fikri ilə razılaşmaq lazımdır ki, mədəniyyət sırf sosial hadisə olub, insanların

İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

həyat fəaliyyəti ilə əlaqədardır... Cəmiyyətdə mədəni və sosiallığın birliyi yalnız onun aşağı pilləsində mövcud olmuşdur. Doğrudur, mədəniyyət prosesləri bütün ictimai hadisələrlə qarşılıqlı əlaqədə baş verir. Lakin bütün hallarda mədəniyyət spesifik cəhətlərə malik olur, yəni özündə ümumbəşəri dəyərləri cəmləşdirir. Konkret olaraq mədəniyyətə belə bir tərif vermək olar. Mədəniyyət-cəmiyyətin bütün tarixi boyu əldə etdiyi maddi və mənəvi sərvətlərin məcmusudur, həmçinin onların yaradılması qabiliyyəti və bəşəriyyətin tərəqqisi üçün onlardan istifadə etmək və onları nəsildən-nəsilə vermək bacarığıdır. Onun özünü dərk etməsi və şəxsiyyətin mövcüdluğu üsuludur». [52, s.42]

*Mədəniyyət ictimai həyatın bütün tərəflərinə,* onun iqtisadi ukladina, ümumiyyətlə cəmiyyətin inkişafına bilavasitə təsir göstərir.

Mədəniyyət onun məzmunu və strukturunu təşkil edən bir sıra elementlərə malikdir. Geniş formada desək mədəniyyət insanın bütün fəaliyyətini-adi məişət və davranış normalarından tutmuş insan əqlinin ən yüksək zirvələrini belə əhatə edir. Gündəlik həyatda «əmək mədəniyyəti», «ünsiyyət mədəniyyəti», «davranış mədəniyyəti», «məişət mədəniyyəti», «musiqi mədəniyyəti», «nitq mədəniyyəti» və s. bu kimi anlayışlar geniş işlənir. Mədəniyyət anlayışı ən geniş mənada insanın əqli və fiziki əməyi nəticəsində yaradılmış nə varsa hamısını əhatə edir və eyni zamanda insanın təbiət, ictimai münasibətlər, öz fərdi fəaliyyəti üzərində nəzarət etməsi dərəcəsini xarakterizə edir. Bununla əlaqədar olaraq Karl Marks göstərirdi ki, təbiət insan üçün nə dərəcədə «insani mahiyyət» kəsb edirsə, yəni onun tərəfindən nə dərəcədə dəyişdirilmiş və iradəsinə tabe edilmişdirsə, o dərəcədə də insanın ümumi mədəniyyəti haqqında fikir yürütmək olar.

Deməli, mədəniyət mürəkkəb və çox cəhətli ictimai hadisə kimi aşağıdakı tərəfləri özündə dialektik vəhdətdə birləşdirir.



1) ətraf aləmin dərk edilməsinə, mənimsənilməsinə və dəyişdirilməsinə yönəlmiş olan insanın fəal yaradıcı fəaliyyəti;

2) cəmiyətin inkişafı prosesində əldə olunmuş maddi və mənəvi sərvətlərin məcmusu;

3) cəmiyyətin hər bir üzvünün mənəvi istehlakı üçün özünəməxsus obyekt olması;

4) insan fəaliyyətini fəallaşdıran və dərinləşdirən mühüm amil olması.

*Bəşəriyyətin* mənəvi həyatı mürəkkəb və çətin bir yol keçmişdir. Bu yolda yüksəliş və tənəzzül dövrləri bir-birini əvəz etmiş, ancaq son nəticədə bəşəriyyət daim mənəvi-əxlaqi təkmilləşmə və inkişaf yolu ilə irəliləmişdir. F.Engelsin dediyi kimi, «Mədəniyyət yolunda irəli atılan hər bir addım azadlığa doğru atılan addım idi».

Bildiyimiz kimi mədəniyyət əməyin fiziki və zehni fəaliyyət növlərinə bölünməsi ilə əlaqədar olaraq, maddi və mənəvi formalara bölünür. Maddi mədəniyyət mənəvi mədəniyyətin inkişafı üçün baza rolunu oynayır.

Mənəvi mədəniyyət insan idrakının cəmiyyəti və təbiəti dərketmə prosesində əldə etdiyi dəyərləri əhatə edir. Mənəvi mədəniyyət sosial əhəmiyyət kəsb edərək maddi və mənəvi tələbatları əks etdirməklə, sosial mənəvi sərvətlər sisteminin konkret tarixi inkişafını, onların bölgüsünü və istehlakını, cəmiyyətin mənəvi tərəqqisini özündə təcəssüm etdirir.

Demək olar ki, mənəvi mədəniyyətə də çox müxtəlif təriflər verilmişdir. Bunun da əsas səbəbi, birinci, sinifli cəmiyətlərdə mənəvi mədəniyyətə sinfi münasibət bəslənməsidir. Belə şəraitdə mənəvi mədəniyyət çox vaxt hakim siniflərin iradəsinin ifadəçisinə çevrilmişdir. Bu fikri Karl Marks və Fridrix Engelsin aşağıdakı müddəası da təsdiq edir. «Hakim sinfin fikirləri hər bir dövrdə hakim fikirlərdir. Bu o deməkdir ki, cəmiyyətin maddi hakim qüvvəsini təmsil edən sinif eyni zamanda cəmiyyətin hakim mənəvi qüvvəsidir».

*İkincisi,* mənəvi mədəniyyət özünün çoxcəhətli tərəfləri ilə müəyyən maddi əsas üzərində meydana gəlib inkişaf edir və deməli, onunla sıx bağlı olur. Lakin onun müxtəlif tərəfləri maddi istehsalın müxtəlif istiqamətləri ilə ya bilavasitə, ya da dolayısı ilə əlaqədardır. Bu əlamət və nisbi müstəqillik, mədəniyyətdə varislik, habelə bir sıra başqa amillər mənəvi mədəniyyətin ayrı-ayrı elementlərinin qeyri-bərabər və ziddiyyətli inkişafını başa düşməyə imkan verir.

*Üçüncüsü,* mənəvi mədəniyyətin bütün elementləri qarşılıqlı dialektik əlaqədədirlər. Bu qarşılıqlı təsir uzun və ya qısa müddət ərzində baş verə bilər, o, birbaşa və ya dolayı yolla, əsaslı və ya ikinci dərəcəli ola bilər. Mənəvi mədəniyyətin elementlərinin qarşılıqlı təsirinin nəzərə alınması mühüm metodoloji, elmi-idraki və praktik əhəmiyyət kəsb edir.

*Dördüncüsü,* yuxarıda göstərildiyi kimi, mədəniyyətin ayrı-ayrı tərəflərinin inkişafı ilə cəmiyyətin iqtisadi inkişafı arasında mürəkkəb dialektik qarşılıqlı əlaqə və qarşılıqlı təsir mövcuddur. Bu özünü təkcə iqtisadi əsasın mənəvi mədəniyyəti müəyyən etməsində deyil, həm də ikincinin birinciylə fəal təsvirində də biruzə verir.

Mənəvi mədəniyyətin bütün komponentləri (elm, maarif, əxlaq, incəsənət və s) mürəkkəb struktura malik olub öz növbəsində çoxaspektliklə səciyyələnirlər.

Bu gün tədqiqatçılar belə bir ideyadan çıxış edirlər ki, sivilizasiyanın bu və ya digər tarixi tiplərinin müəyyən edilməsində daha obyektiv meyarlar- sosial-iqtisadi faktorlar aparıcı yer tutur. Məhz bu faktorlar sivilizasiyanın müəyyən formasiya ilə əlaqəsini dərk etməkdə vacib şərtlərindəndir. Təbii ki, sivilizasiya anlayışının hər hansı formasiya ilə eyniləşdirilməsi tədqiqat metodologiyası baxımından qətiyyən düzgün olmazdı. Hazırda qəbul edilən meyarlar içərisində dini-mədəni yönümlər, müvafiq sosial-tarixi ailə formaları, qarşılıqlı əxlaqi münasibətlərin formaları da mühüm yer tutur. Daha konkret şəkildə



deyilsə, xristian, İslam, buddizm kimi dünya dinləri sivilizasiyasının məzmununun formalaşmasında önəmli rol oynamışlar. Təsadüfi deyildir ki, müasir sosial-fəlsəfi ədəbiyyatda xristian sivilizasiyası, İslam sivilizasiyası və b. bəşər sivilizasiyasının ayrılmaz tərkib hissəsi kimi tədqiq olunmaqla kifayətlənməyib onların özünü müxtəlif regionlarda formalaşmış müstəqil sivilizasiya kimi öyrənirlər. Ümumiyyətlə, belə bir həqiqət unudulmamalıdır ki, sivilizasiyaların tarixi tiplərindən asılı olmayaraq onun bütün inkişaf mərhələlərində xalqların mədəniyyətləri, dinləri və dini dəyərləri müstəsna əhəmiyyət kəsb etmişlər. Bunlarsız sosial-iqtisadi tərəqqi də mümkün deyildir. Başqa sözlə, əgər söhbət ümumiyyətlə bəşər sivilizasiyasının inkişafından gedirsə, qeyd edilməlidir ki, bu fenomenin təşəkkülündə bütün dünya xalqlarının mədəni incilərinin böyük rolu olmuşdur. Burada söhbət xalqların kiçik, yaxud böyük töhfə verməsindən getmir, bəzən ən kiçik töhfə bir sivilizasiyanı tamamlayır.

Sivilizasiyanın inkişaf məntiqi elə qurulmuşdur ki, bəzən çox-çox əsrlər əvvəl meydana gələn bir mühüm kəşfə ictimai-tərəqqinin sonrakı mərhələsində daha çox ehtiyac duyulur. Məsələn, tarixən Qədim Yunanıstanda meydana gələn ilk buxar mexanizmləri əvvəllər əyləncə üçün oyuncaqların düzəldilməsinə tətbiq edilmiş və ona görə də tezliklə unudulmuşdur. Yalnız sonralar XVI əsrdə cəmiyyətin buxarla işləyən mühərriklərə ehtiyacı olduğu zaman ondan faydalı istifadə edilməyə başlanmışdır.

L.Morqan «Qədim cəmiyyət» əsərində qeyd etdiyi kimi sivilizasiya müəyyən mənada tarixi inkişafın bir formasının yekunu və yenisinin başlanmasıdır. Lakin sivilizasiyanın aramsız inkişafı üçün hər şeydən əvvəl ictimai-siyasi və iqtisadi şərait lazımdır.

Sivilizasiyanın məzmununu və mahiyyətini zənginləşdirən ən mühün sosial amil və mexanizm xalqların mədəni inkişafıdır. Deməli, sivilizasiyanı mədəniyyətdən əlahiddə götürmək mümkün deyildir.

Tədqiqatçılar belə bir ümumi fikirdədirlər ki, «sivilizasiya» termini cəmiyyətin maddi və mənəvi inkişafının səviyyəsini bildirir. Belə ki, V.Qumbold yazırdı ki, mədəniyyət elm və sənətdir, sivilizasiya isə xalqların insanilaşmasinin dərəcə və səviyyəsini anlamağa kömək edir, o, xarici təsisatları və cəmiyyətdə mövcud olan ənənə və adətləri, eləcə də insanın bunlara münasibətdə daxili durumunu göstərir. Filosoflar qeyd edirlər ki, mədəniyyət və sivilizasiya bir-birlərilə sıx əlaqədədir. Özü də sivilizasiya mədəniyyətin inkişafının bir hissəsidir, həmin inkişafın dərəcəsinin göstəricisidir. Bununla belə tədqiqatçıların əksəriyyəti belə fikirdədir ki, sivilizasiya insanın intellektinin və əxlaqi keyfiyyətlərinin inkişafını nəzərdə tutur, amma mədəniyyətin tərəqqisi vəhşilikdən, barbarlıqdan sivilizasiyaya aparan yoldan başlayır. Adını çəkdiyimiz L.Morqan isə sivilizasiyanın inkişafının ən aşağı pilləsini yazının və əlifbanın meydana gəlməsi ilə əlaqələndirir.

XIX əsrin sonunda «sivilizasiya» termini kapitalizm cəmiyyətini xarakterizə etmək üçün işlədilmişdir.

Osvald Şpenqler «Avropanın qürubu» əsərində göstərir ki, hər bir mədəniyyət unikal hadisədir və həyatın xüsusi formasıdır, hər bir canlı kimi yaranır, yetkinləşir, inkişaf edir, məhv olur. O, hər bir mədəniyyətin sonunu sivilizasiya hesab etmişdir. Bu mərhələ elm və texnikanın yüksək səviyyəsi, ədəbiyyat və incəsənətin süqutu, iri şəhərlərin artması (urbanizasiyası) ilə xarakterizə olunur.

Onun fikrincə, bu dövrdə xalq «mədəniyyətin ruhunu» itirir. Həyat fəaliyyətinin bütün sahələrində «kütləviləşmə» baş verir. İngilis filosofu A. Toynbi hesab edir ki, dünya tarixində 21 sivilizasiya olmuşdur, indi isə 6 sivilizasiya mövcuddur. Lakin o, Şpernqlerdən fərqli olaraq hesab etmir ki, sivilizasiya həmişə deqredasiya və tənəzzül dövrüdür. Onun fikrincə, sivilizasiya xüsusi sosiomədəni fenomen olub müəyyən zaman-məkan çərçivəsi ilə məhdudlaşır və aydın idarə olunmuş texnoloji



inkişafı bildirir. Hər bir sivilizasiyanın ömrü onun tarixin sınaqlarından çıxmağından asılıdır, belə ki, əgər cəmiyyət tarixin çağırışına cavab verə bilməzsə və silaha əl atarsa sivilizasiya ömrünü başa vurur, məhv olur.

Təbii ki, tədqiqatçıları düşündürən ən mühüm metodoloji məsələ bu və ya digər sivilizasiyanın meydana gəlməsi səbəbini obyektiv öyrənməkdir. Maraqlıdır ki, daha geniş yayılmış mülahizə sivilizasiyanın meydana gəlmə səbəbinin dini baxımdan izahıdır. Məsələn, yəhudilərin «Allah tərəfindən seçilmiş» xalq olması, yaxud xristian mədəniyyətinin xilaskarı olan «Messiyan Rusiya» barədə təsəvvürlər.

Hazırda bir çox dövlətlərin siyasi ideologiyasında planetimizin «ümumi ev» olması konsepsiyası mühüm həmrəylik amili kimi qəbul edilmişdir. Bu ideyanın mühüm humanist mahiyyəti vardır. İnsanlar müasir bəşəriyyətin həyatını ümumdünya miqyasında dərk etməyə başlamışlar. Liberal demokratiyanın inkişaf etdiyi bir şəraitdə dövlətlər dünya xalqlarının mövcud mədəniyyətlərini vahid planetar sivilizasiya kimi qəbul edirlər.

Təsadüfi deyildir ki, Roma klubunun analitiklərinin dünya dövlətlərinin diqqətinə təqdim etdikləri «Birinci qlobal inqilab» (1991) məruzəsi müasir sivilizasiyanı qoruyub saxlamaq problemlərinə həsr edilmişdir. Burada deyilir ki, bizim məqsədimiz bundan ibarətdir: hansı cəmiyyətdə yaşamaq istədiyimizi fikrən təsəvvür edək, onun resurs bazasını (maddi, insani və mənəvi resurslarını) qiymətləndirək, onun perspektivlərinə realistcəsinə və ardıcıl görüşümüzü formalaşdıraq və nəticədə bəşəriyyətin enercisini və siyasi iradəsini yeni dünya birliyini qurmaq üzərində cəmləşdirək.

Göründüyü kimi, Roma klubunun təqdim etdiyi «dünya problematikası» son nəticədə bəşəri sivilizasiyanı qoruyub saxlamaqla bağlı sosial narahatlıq hissindən meydana gəlmişdir.

Müasir siyasi iqtisadi proseslərə inamla inteqrasiya

edən Azərbaycan Respublikasında yaşayan xalqların yaratdığı mədəniyyətlər də dünya sivilizasiyasının ayrılmaz tərkib hissəsidir.

Modernləşmə ideyasının meydana gəldiyi 50 ildən artıq bir dövr ərzində dünyanın sosiomədəni siması tanınmaz dərəcədə dəyişmişdir. Dəyişikliklər prosesi təhlükəli konfliktlər yaratsa da, zamanın tələblərinə cavab vermiş, tərəqqinin mühüm istiqamətlərini müəyyənləşdirmişlər.

Modernləşmə fəlsəfi ədəyyatda bəzən inkişafın sinonimi kimi təsnif edilir. Təbii ki, burada söhbət təkmilləşməkdən, pozitiv keyfiyyət dəyişikliklərinin toplanması prosesindən gedir. İqtisadi, sosial-demoqrafik, mədəni dəyişikliklər, ümumiyyətlə, cəmiyyətdə pozitiv trasformasiya prosesləri özlərində potensial qüvvə və enerji daşıyırlar. Daha ətraflı desək.

Dünyanın bugünkü mənzərəsini yaratmış sosiomədəni hadisələrin gedişi və mahiyyəti göstərir ki, inkişafla modernləşmə arasında elə bir ciddi fərq yoxdur, lakin belə fərqin nəzərə alınması da vacibdir. Məsələn, müqaviləşmə müasirliyin (modernliyin) nümunəsi, etalonu kimi başa düşülür. İkinci bir tərəfdən, mədəni inkişafın qeyri-bərabər keçməsi, qabaqcıl inkişaf etmiş və geri qalmış dövlətlərin, az inkişaf etmiş ölkələrin yanaşı yaşaması faktı istər-istəməz kimisə, nəyisə ötüb keçmək, yaxud ona çatmaq inkişafı deyilən fenomeni normal və daimi tarixi prosesə çevirmişdir.

Bütün sivilizasiyalar tarixi inkişafdan geri qalmış ölkələrin tez və surətlə inkişaf etmiş ölkələrə çatmaq yolunda qarşılıqlı, lakin ziddiyyətlərlə müşayiət olunan münasibətlərinin tarixidir. Bu yarışda, necə deyərlər, heç bir ölkə daim bir səviyyədə qalmır, o ya özündən əvvəlkini ötüb keçir, ya da geri qalır. Siyasi, iqtisadi qüdrət, mədəniyyət nümunələri və ictimai quruluşla birlikdə bir ölkə sosiomədəni həyatından digərinin sosial gerçəkliyinə nüfuz edir. Məsələn, tarixə müraciət etsək görərik ki, XVI



əsrdə qüdrətli V Karl İspaniyası tədricən ikinci dərəcəli ölkəyə çevrilmiş və bu gün də qabaqcıl Avropaya çatmağa can atır. Bununla yanaşı neçə yüzilliklər ərzində hələ mövcud olmamış dövlət - ABŞ isə dünyanın ən iri dövlətinə çevrilmişdir.

Qeyd edək ki, «müasirlik» anlayışının özü də olduqca ziddiyyətli termindir. Geri qalmış yarımfeodal Almaniya bu günə kimi də Fransa və İngiltərə kimi unitar dövlət olmamışdır, amma buna baxmayaraq ikinci dünya müharibəsindən sonra bu ölkə özünün ən inkişaf etmiş federal quruluşlu dövlət formasını yarada bilmişdir. XVIII-XIX əsrlərdə Almaniya Avropaya və dünyanın digər ölkələrinə fəlsəfə, təbiətşünaslıq və incəsənət məktəbi vermişdir. Dünya bədii fikrinin inkişafında mühüm mədəni rol oynamış romantizm istiqaməti Almaniyada məhz həmin dövrdə yaranmışdır. Lakin özünün sənaye və hərbi qüdrətini isə XIX əsrin sonunda, XX əsrin əvvəlində təmin edə bilmişdir. Sənayenin o dövrdə müasir nailiyyətlərini mənimsəməklə Almaniya böyük «İntellektual yarışda» XX əsrin sivilizasiyasında iki böyük nailiyyət qazanmışdır - avtomobil sənayesini və qrammafon yazısı sənətini inkişaf etdirmişdir. O, hərbi sənayedə də liderlik mövqeyi tutaraq ilk qanadlı raketlər, reaktiv təyyarələr istehsalına başlamışdır. Modernizasiya prosesi, eləcə də sivilizasiya ümidlər, xülyalar, məyusluq yaratmış, bir sözlə, gözlənilməz problemlər də meydana gətirmişdir. Və bü gün «Yeni nizam» deyiləndə həyatın çiçəklənməsi, insan hüquqlarının bərqərar olunması, daha dəqiq deyilsə, bir ölkədəki firavanlığın digər ölkədə də təmin edilməsi nəzərdə tutulur. Bütün bunlar ümumi demokratikləşmə proseslərinin ayrılmaz hissəsidir. Bizim dövrdə bu mənada demokratikləşmə - ictimai həyatın, onun dəyərlərinin beynəlmiləlləşməsi deməkdir, bu özü də getdikcə bəşəri mahiyyət kəsb etməyə başlayır. Leo İstauenin biz hələ də belə bir səhvimizi aradan qaldıra bilməmişik: biz bu gün də təsəvvür edirik ki, bütün dünya qərbin müstəsna

çiçəklənmə yolu ilə gedəcəkdir. Lakin belə olmadı. Hesab edirdik ki, insan hüquqlarına tam riayət etmək insana azad inkişaf imkanı verəcəkdir və hamı da belə hərəkət edəcəkdir və deməli, hamı bərabər olacaqdır, tərəqqi çoxlu çiçəklənmə imkanı yaradacaqdır. Bu isə çoxlu ədalət və azadlıq bəxş edəcəkdir. Bu tərəqqi ümumi bərabərlik cəmiyyətinə, azad və bərabər millətlərin ümumdünya birliyinə aparacaqdır.

Bu günün təcrübəsi göstərir ki, «Qlobal demokratiya» mümkün olmadı. Yəni Qərb demokratiyasının yerdə qalan dünyanın demokratikləşməsi hesabına saxlanması xülyaya çevrildi. Zaman göstərdi ki, gerçəklik neoliberalların təkmillərindən daha mürəkkəbdir. Modernləşmə, eləcə də sivilizasiya prosesi bir çox cəhətdən, bəzi parametrlərə görə qeyri-bərabər şəkildə cərəyan edir.

Müxtəlif şəraitlərdən, böhranlardan plüralizmin və tolerantlığın çatışmazlığından, siyasi oyunlardan asılı olaraq modernləşmə, sivilizasiyanı ləngidə bilər, yaxud da dayandırıla bilər. Belə halda, cəmiyyətin tarixi mənlik şüurunun böhranı baş verə bilər.

Qəribə görünsə də, etiraf etməliyik ki, təbii tarixi inkişafın ayrılmaz hissəsi olan modernləşmə ayrıca dövlətin, hakimlərin, ayrıca insanların, qrupların təşəbbüsü, yaxud tarixə məxsus, ona xas hadisədir? Hər iki cavab yerinə düşür. «Hə», həm də «yox». Nə modernləşmə, nə də sivilizasiya məcburi proseslər deyildir. Lakin bu proseslərə daxil olmaq, bu proseslərlə yaşamaq ciddi tarixi səhvlərə gətirib çıxara bilər. Təcrübə göstərir ki, heç bir repressiya metodları ilə heç bir ölkəni müasirləşdirmək mümkün deyildir. Belə bir inkişafın inperativ faktoru yalnız cəmiyyətin dəyişikliklərə can atması və siyasi hakimiyyətin iradəsi ilə bu transformasiya proseslərini istiqamətləndirməkdir.

Deməli, modernləşmə, eləcə də sivilizasiya idarə olunun prosesdir. Müharibədən sonrakı neoliberal nəzəriyyə bu prosesi universal və immunitet hesab edir. Qeyd



edək ki, BMT-nin yaradılması onun bəyannamələrinin və sənədlərinin başlıca mənası məhz həmin dünyanın universal idarəetmə prinsipini həyata keçirməkdir. Təbii ki, bu prosesdə arxaik ideologiya yalnız ətalət yarada bilər.

Modernləşmə yarımçıq qaldıqda, yaxud dayandırıldıqda mədəniyyətin geriləməsinə, avtoritarizmin kök salmasına, şovinizmə, dini fanatizmə gətirib çıxarır. Belə olduqda siyasi avantürizmin yaranması hər cür tərəqqiyə ölümcül zərbə deməkdir. Bununla belə, dialektik proses olan moderinləşdirmə özündə yeni pozitiv ideyaların həyata keçirilməsi imkanlarını daşıyır. Buna görə də son nəticədə modernləşmə və sivilizasiya prosesləri qarşısı alınmaz fenomenlərdir.

Elmi ədəbiyyatda sivilizasiyanı ictimai həyatın və mədəniyyətin sosial təşkili kimi müəyyənləşdirirlər. Bu anlayışın struktur ünsürləri olmaq etibarilə həmçinin ictimai sərvət, maddi və mənəvi dəyərlərin mübadiləsini təmin edən kommunikAsiya vasitələri də nəzərə çarpdırılır.

Ümumiyyətlə, alimlər sivilizasiyanı iki mənada başa düşürlər. *Biriinci halda* sivilizasiya barbarlığın əvəzinə gələn *tarixi dövrü* bildirir, başqa cür deyilsə, *bəşəriyyətin inkişafının daha yüksək mərhələsini* ifadə edir.

*İkinci halda* sivilizasiyanı *coğrafi məkanla* əlaqələndirir və bu zaman lokal, regional və qlobal sivilizasiyaların mövcud olduğunu nəzərdə tuturlar, məsələn, Şərq və Qərb sivilizasiyaları.

«Sivilizasiya» sözü latınca *civilis* sözündən əmələ gəlib, «mülki», «vətəndaş», «dövləti» mənasını verir. Bu söz orta əsrlərdə məhkəmə praktikasına aid olan hüquqi məna daşıyırdı. Sonralar sivilizasiya anlayışının məna tutumu daha da genişləndi. Məsələn, özünü yaxşı aparmağı bacaranları «sivil» insanlar adlandırmağa başladılar.

L.Fevrin fikrincə, «sivilizasiya» sözünü ilk dəfə baron Holbax işlətmişdir; 1776-cı ildə C.C.Russo hələ bu sözdən istifadə etməmişdi, yaxud da onun mövcud-

luğundan xəbərsiz idi. Halbuki həmin söz böyük mütəfəkkirin köməyinə gələ bilərdi. Axı o, əslində mədəniyyəti deyil, məhz sivilizasiyanı tənqid etmişdir. Müvafiq söz tapılmadığından tənqid hədəfi mədəniyyət olmuşdur. Lakin «sivilizasiya» sözü Russonun vaxtında, özü də ən gərəkli bir məqamda - «Ensiklopediya»nın nəşri başa çatanda meydana gəlmişdir.

Mədəniyyət və sivilizasiya anlayışlarının qarşılıqlı münasibəti ilə əlaqədar elmdə əsasən iki fikir mövcuddur. Birinci fikir adı çəkilən anlayışları əslində eyniləşdirir. İkinci fikir mədəniyyət və sivilizasiya kateqoriyalarını qarşı-qarşıya qoymasa da, hər halda onları bir-birindən fərqləndirməyə, ayırmaba əsaslanır: texnikanı və texniki nailiyyətləri sivilizasiyaya, insanın mənəviyyat, fəlsəfi-humanitar və bədii yaradıcılıq sahəsindəki bütün fəaliyyətini isə mədəniyyətə aid edir.

Mədəniyyətə verilən təriflərdə bu anlayışın müxtəlif struktur ünsürləri nəzərə çarpdırılır. Mədəniyyət burada maddi və mənəvi dəyərlərin məcmusu kimi, insanın bu dəyərlərin yaradılmasına, yayılmasına və çoxaldılmasına yönəlmiş yaradıcı fəaliyyəti kimi çıxış edir. Mədəniyyət həmçinin maddi və mənəvi dəyərlərin istehsalı və yayılması prosesində insanın topladığı tarixi təcrübədir.

İctimai münasibətlərdən yalnız elələri mədəniyyətə aiddir ki, onlar ictimai-tarixi inkişayın subyekti olan insanın mövqeyini bildirir. İctimai fəaliyyət prosesində insan nəinki özünə lazım olan maddi və mənəvi dəyərlər yaradır, o həm də öz-özünü istehsal edir, özü bu fəaliyyətin nəticəsi kimi meydana çıxır.

Müasir rus filosofu A.N.Çanışev mədəniyyət və sivilizasiyanın qarşılıqlı əlaqəsini aydınlaşdırmaq üçün çox maraqlı bir müqayisədən istifadə edir. O yazır: «Mədəniyyət və sivilizasiya bir medalın iki üzüdür: mədəniyyət insan və təbiətin qarşıllıqlı münasibəti, sivilizasiya isə insanların bir-biri ilə qarşılıqlı münasibəti sferasıdır; mədəni insan çeşmənin gözünə, sivil insan isə başqasının üzünə tüpürmür...»



Zaman keçdikcə Avropa şüurunda sivilizasiyaya dair belə bir təsəvvür qərarlaşır ki, o, bəşəriyyətin texniki nailiyyətlərinin zirvəsidir. Bu nailiyyətlər isə əsasən kosmosun fəthi, kompüter texnologiyasının tətbiqi və misli görünməmiş enerci mənbələrinin aşkarlanması ilə bağlıdır. Sivilizasiya deyəndə maddi nailiyyətləri, mədəniyyət deyəndə isə insanın mənəvi aləmini təsəvvürə gətirirlər. «Sivilizasiya» termininin ikinci mənası onun latın kökünə gedib çıxır: civiş nəinki vətəndaşdır, o həm də şəhərlidir. Buna görə də sivilizasiya şəhər mədəniyyətini bildirir. Bu mənada şəhərlərin nə olduğunu bilməyən bütün ibdidai xalqlar sivil xalqlar deyildir, halbuki «mədəniyyət» anlayışı onlara da şamil edilir.

Elmi ədəbiyyatda hələ də sivilizasiyanın vahid anlayışı yoxdur. Məsələn, o, mədəni inkişafın müəyyən səviyyəsi kimi başa düşülür ki, hes də bütün ölkələr həmin səviyyəyə yüksəlməmişdir. Sivilliyin bir çox göstəriciləri vardır: ölümün, xüsusən uşaq ölümünün səviyyəsi, şəhərlərin sanitar vəziyyəti, ekologiya və s. Yazının mövcudluğu ən mühüm göstərici sayılır: bütün mədəniyyətlərdə dildən istifadə olunsa da, onların hamısı yazıya malik deyildir.

Rusiya etnoqrafları, xüsusən də Y.İ.Semyonov belə hesab edirlər ki, sivilizasiyaya keçilməsinin əlamətləri aşağıdakılardır: maddi mədəniyyət sahəsində - monumental daş, yaxud kərpic tikililərin (saraylar, məbədlər və s) özünə yer tapması, mənəvi mədəniyyət sahəsində - yazının meydana gəlməsi.

Antropoloqlar üçün sivilizasiya mədəniyyətin yalnız daha mürəkkəb, yaxud da daha yüksək tipidir. Etimologiyanın mövqeyinə inansaq belə çıxır ki, sivilizasiya şəhərlərdə yaşayan insanların mədəniyyətidir. Şəhərlilərə mürəkkəb həyat tərzi və yazılı dil xasdır.

Beləliklə, sivilizasiya yazı və əkinçilik dövründən başlanmışdır. O, bəşəriyyətin sosial tərəqqisinin zirvəsi

olmuşdur.

Cəmiyyət və mədəniyyət əvvəl, sivilizasiya sonra meydana gəlmişdir. Bəşəriyyət mövcud olduğu bütün tarixin yalnız 2%-ni sivilizasiya şəraitində yaşamışdır.

*Sivilizasiya* mədəniyyətin inkişafının müəyyən hissəsi və ya dərəcəsidir. Tədqiqatçıların əksəriyyəti belə bir fikirlə razıdır ki, sivilizasiya intellektin və mədəniyyətin inkişafını, xalqların insaniləşməsinin dərəcə və səviyyəsini nəzərdə tutur.

Sivilizasiya və mədəniyyət anlayışlarını ilk dəfə alman filosofu İmmanuil Kant fərqləndirmiş, XX əsrin əvvəllərində isə digər alman filosofu Osvald Şpenqler həmin anlayışları tamamilə bir-birinə qarşı qoymuşdur.

Bəzi kulturoloji təlimlərdə əbədi olaraq keçmişdə qalmış icma münasibətlərinin ideallaşdırılması mədəni pessimizm konsepsiyasının və mədəniyyətin tənqidi adlandırılan fikir cərəyanının yaranmasına gətirib çıxarmışdır. Burada söhbət əslində guya mədəniyyətin tənəzzülünə və məhvinə səbəb olan müasirliyin tənqidindən gedir. Mədəniyyətin tənqidi cərəyanının banisi Fridrix Nisşe olmuşdur, bəzən neoromantik ənənə adlanan bu ənənə isə, dolayısı ilə olsa da, tamamilə mürtəce nəticələr çıxarmağa əsas vermişdir.

1919-cu ildə özünün məşhur «Avropanın qürubu» kitabını nəşr etdirən Osvald Şpenqler sivilizasiyada Qərbin gözlənilən məhvinin sübutunu götürdü. Onun fikrincə, Qərbin məhvi, nə az - nə çox, sivilizasiya problemi kimi təsəvvür edilir. Sivilizasiya son dərəcə zahiri və olduqca süni vəziyyətlərin məsmusudur; inkişafın son mərhələsinə yüksəlmiş insanlar belə vəziyyətlərə düşə bilirlər. Sivilizasiya - tamamlanmadır. Həyatdan sonra ölüm gəldiyi kimi, mədəniyyətdən sonra da sivilizasiya gəlir. O, qaçılmaz sondur; bütün mədəniyyətlər dərin daxili zərurət nəticəsində sivilizasiyaya gəlib çıxır.

Bir çox başqaları kimi, Şpenqler üçün də mədəniyyət və sivilizasiyanın qarşı-qarşıya qoyulması - həyatın



mənəvi, idealist tərəfinin onun texnoloji və utilitar - materialist tərəfinə qarşı qoyulmasıdır. Təbii, yaradıcı, konkret olan hər şey mədəniyyətə, qeyri-yadadıcı, qeyri-təbii, ümumi hər şey isə sivilizasiyaya aiddir.

Mədəniyyət və sivilizasiyanın qarşıdurmasına dair təlim, nə qədər inanılmaz görünsə də, XX əsrdə mövcud olmuş totalitar ideologiyanın hər iki variantının əsasında dayanmışdır. Mədəniyyətin tənqidi cərəyanının nasist təbliğatı ilə əlaqəsi məlumdur. Mədəniyyətin tənqidindən millətçiliyə, irqçiliyə, antisemitizmə və digər nasist «izmlərinə» aparan fikrin gedişi olduqca aydın izlənir. Belə ki, insan münasibətlərini korlayan sivilizasiyanın «zərurli» təsiri ilə birdəfəlik qurtarmağı qarşısına məqsəd qoyan nasizm ideologiyası bütün təbliğat vasitələrinin gücünü ona yönəltmişdi ki, soyun, millətin, irqin üzvlərinin emosional yaxınlığını simasız və hissiz-duyğusuz kosmopolitzmə qarşı qoysun («biz bir qandanıq - sən və mən...»), yəhidiləri alverçiliyin və qənaətçilliyin simvolu kimi, demokratiyanı səmərəli idarəçilik üsulunun təntənəsi kimi pisləsin və yer üzündən silsin, bunların əvəzində fürerçilik prinsipini bəyan etsin; bu prinsipə görə, hərarətlə sevilən fürer millət və xalq ideyasının təcəssümüdür.

Mədəniyyət və sivilizasiya arasında münasibətləri ayrı cür təfsir edənlər də vardır; belə şərh zamanı inkar və mədəniyyətin sivilizasiya tərəfindən udulması məqamları aradan qaldırılır. Bu cür mövqedə dayanan müəlliflərin fikrincə, mədəniyyət nə dərəcədə sivilizasiyanın mahiyyətidirsə, sivilizasiya da bir o dərəcədə mədəniyyətin əsasıdır. Mədəniyyət heç də sivilizasiyanın təsirini passiv şəkildə qəbul edən bir fenomen deyildir, o, sivilizasiyanın köhnəlmiş və öz dövrünü keçirmiş formalarını bir kənara atmağa, zamanın sınağından çıxmış yeni dəyərlər və ideallarla zənginləşməyə qadirdir. Mədəniyyət və sivilizasiyanın ümumi taleyi qarşılıqlı tənqidlə bağlıdır. Lakin bu tənqid qarşıdurma xatirinə deyil, birlik xatirinədir. Dağıdıcı qarşıdurmadan müdafiə üçün tarixi təcrübə

toplanmışdır: sivilizasiya mədəniyyətin inkişafını nəzarət olunan məcraya yönəldir, lakin insanların fəaliyyəti üçün geniş meydan saxlayır; mədəniyyət psixoloji istiqamətlər müəyyən edir, dərk olunmuş tələbatlar formalaşdırır, bu tələbatların reallaşdırılması isə sivill strukturların dağıdılmasına deyil, yenidən qurulmasına imkan verir.

Tarixi tərəqqi gedişində sivilizasiyanın təşəkkül və inkişafında mədəniyyət mühüm rol oynamışdır. Eyni zamanda mədəniyyət həmişə sivilizasiyanın inkişaf səviyyəsinin göstəricisi və onun ən yüksək nailiyyəti olmuşdur. Sivilizasiya isə mədəniyyətin inkişafına şərait yaratmışdır. Sivilizasiya mədəniyyətin inkişafının əsasını təşkil edir, ona səmərəli və ümumi xarakter verir. Sivilizasiya mədəniyyətin inkişafı üçün iqtisadi və sosial şərait yaradır, eyni zamanda da bu prosesi tənzimləyir. Buradan belə bir nəticə çıxır ki, hər bir ictimai quruluş, hər bir sivilizasiya mədəniyyətin formalaşması və inkişafı üçün müxtəlif cür şərait yaradır.

Sivilizasiyanın mədəniyyəti təcrid olunmuş şəkildə mövcud deyildir. Müəyyən müstəqilliyə malik olan, öz daxili qanun və prinsipləri ilə inkişaf edən mədəniyyət eyni zamanda sivilizasiyanın bütün iqtisadi, sosial həyatı ilə sıx əlaqədədir və onun tərəflərindən hər birinə təsir göstərir. Mədəniyyət və sivilizasiyanın araşdırılması zamanı daha böyük tutumlu elə meyar tapmaq lazımdır ki, onun köməyi ilə həmin anlayışların təmas nöqtələrini və fərqlərini müəyyənləşdirmək mümkün olsun. Fikrimizcə, yalnız cəmiyyətin başlıca şərvəti olan insan belə bir meyar rolunu oynaya bilər. İnsan bu məqamlarda əlaqələndirici vəsilə kimi çıxış edir.

İctimai inkişaf tarixində bəzən sivilizasiya probleminə marağın xüsusilə artdığı müşahidə olunur. Bu maraq ən çox keçid dövrləri ilə, sosial-siyasi böhranlarla bir vaxta düşür. İnsanlar ictimai prosesləri bəşəriyyətin keçib gəldiyi yollar baxımından dərk etməyə, bugünü dünənlə tutuşdurmağa, gələcək üçün perspektivləri müəyyənləşdirməyə ciddi zərurət duyurlar.



Bəşər sivilizasiyası probleminə marağın artması onunla izah olunur ki, böhranlı dövrlərdə texniki tərəqqinin əldə edilmiş səviyyəsi ilə mədəniyyət arasında ziddiyyətlər məsələsi xüsusilə kəskin şəkildə qarşıda dayanır. Ümumbəşəri, əxlaqi dəyərlərin qiymətdən düşməsi də bu ziddiyyətlərin nəticəsidir.

Tarixin keçid dövrlərində sivilizasiya kateqoriyasından mövcud sosial-mədəni birliklərin vəziyyətini əvvəlki sosial-mədəni birliklərin vəziyyəti ilə müqayisə etmək üçün istifadə olunur. Məsələn, antik dövrdən başlayaraq «bəşəri qaydabarbarlıq» sərvət meylinin müəyyən qatı sivilizasiya anlayışının məzmununa daxil edilmişdir. Roma mütəfəkkirləri barbarlıq adı altında vəhşilik vəziyyətini, qeyri-mütəşəkkilliyi, qayda-qanunun olmamasını başa düşürdülər. Roma cəmiyyəti isə, məsələn, vətəndaş cəmiyyəti, faydalı cəmiyyət kimi qəbul edilirdi; burada hakimiyyət, imperiya hissi var, qanun hissi var.

Sivilizasiya ictimai həyatın spesifik formasıdır. İnsanların birgə fəaliyyəti, əmək məhsullarının ümumi (universal) mübadiləsi məhz burada baş verir. Vəhşilik və barbarlıq mərhələsində həmin cəhətlər yoxdur. Sivilizasiyanın formalaşması bu və ya digər bölgənin, yaxud qitənin maddi və mənəvi mədəniyyətinin müəyyən tarixi vəziyyəti ilə bağlıdır. Həmin tarixi vəziyyətdə sivilizasiyanın dəyərləri bütün bəşəriyyətin malı olur. Hər bir sivilizasiya öz nailiyyətləri ilə bəşəriyyəti daha bir pilə yüksəldir, ətraf mühiti və özlərini dərk etməkdə insanların köməyinə gəlir.

Məsələn, Qədim Yunanıstanın mədəniləşdirici vəzifəsi əsatirdən loqosa keçilməsindən, təbii-elmi və fəlsəfi səmərəliyinin təşəkkülündən ibarət olmuşdur. Bu vəzifənin yerinə yetirilməsi Avropa sivilizasiyasının, sonralar isə həm də mədəniyyətinin beşiyi rolunu oynamış, təfəkkürün və elmin inkişafı üçün çox mühüm əhəmiyyət kəsb etmişdir. Babilistan sivilizasiyasını səciyyələndirərkən biz

ilk növbədə astronomiya sahəsindəki nailiyyətləri nəzərə çarpdırırıq. Şumer sivilizasiyası mixi yazının, kotanın, təkərin və s. ixtira edilməsi ilə səciyyələnir. Buna görə də bu və ya digər sivilizasiya üçün spesifik olan bəzi cəhətlər, məsələn, incəsənətin, mədəniyyətin, şəxsiyyətlərarası münasibətlərin xüsusiyyətləri, maddi və mənəvi mədəniyyət təzahürlərinə, təbiətə münasibət sabitlik kəsb edə və bir ictimai-iqtisadi formasiyadan digərinə keçə bilər.

Ümummədəni amillərə bir-biri ilə qarşılıqlı əlaqədə olan iki qrup amili də aid etmək mümkündür: a) mövcud sivilizasiyaya xas olan həyat tərzi amilləri; b) onlara uyğun gələn ümumdemokratik sosial hərəkatlar. Bu hərəkatlar öz antipoladları ilə mübarizədə sosial və mənəvi dəyərlərin qorunub saxlanmasına spesifik təsir göstərir. Məsələn, müasir şəraitdə bəşəriyyətin bütün mütərəqqi qüvvələri kütləvi qırğın silahları ilə sürətlə silahlanma əleyhinə, təbii mühitin qorunub saxlanması uğrunda mübarizə aparırlar.

Məlumdur ki, hər hansı sosial-mədəni birliyin mütərəqqiliyinin ən mühüm göstəricisi yalnız onun maddi və mənəvi həyat sahəsindəki nailiyyətlərinin miqdarı deyildir, həm də bu nailiyyətlərin insanın cəmiyyətdəki durumuna necə təsir göstərməsidir. Məsələn, respublikamızda baş verən demokratikləşdirmə prosesi tərəqqinin, sivilizasiyanın humanistləşdirilməsini nəzərdə tutur: insan hər şeyin ölçüsüdür. Söhbət ondan gedir ki, istənilən texniki qərarın, elmi kəşfin praktikaya tətbiqi sosial-etik ekspertizadan keçməlidir. Bu cür ekspertiza yalnız azadlıq, demokratiya, aşkarlıq, fikir plüralizmi kimi ümumbəşəri dəyərlərin cəmiyyət həyatında kök salması şəraitində mümkündür.

Sivilizasiya problemi həmişə onun inkişafının ziddiyyətli xarakterindən irəli gələn çoxlu sual doğurmuşdur. Həmin suallardan bəziləri bunlardır: sivilizasiya ümumbəşəri dəyərlərin itirilməsinə doğru aparmır ki? Sivilizasiya hamıya müyəssərdirmi? Sivilizasiya bizim bu



gün onu qavradığımız şəkildə lazımdırmı? Onun qiyməti və dəyəri nədən ibarətdir?

Bəzilərinin sivilizasiyaya inamı, digərlərinin onu skeptik münasibəti sivilizasiyanın özündə mövcud olan real proseslərin, ziddiyyətlərin adekvat inikasıdır. Buna görə də fəlsəfənin, filosofların vəzifəsi hər halda labüd olan ziddiyyətləri nəzəri şəkildə dərk etməkdən, onları cəsarətlə aşkara çıxarmaqdan ibarətdir.

Keçmiş dövrlərin böyük mütəfəkkirləri sivilizasiya ilə bəşəri tərəqqi arasındakı ziddiyyətlər problemi barədə çox düşünmüşlər. Sosial inkişaf, sosial ədalət, insanın özünün cəmiyyətdəi durumu, dövlət təsisatlarının ona münasibəti bu mütəfəkkirlər üçün həmişə başlıca meyar olmuşdur. Onlardan bəziləri yaşadıqları dövrün sivilizasiyasını kəskin tənqid etmişlər. Lakin həmin tənqid sivilizasiyanın ümumiyyətlə faydalı təsirinin prinsipial inkarından deyil, belə bir mülahizədən irəli gəlmişdir ki, o, xalq kütlələrinin mənafeyinə, tələbatına biganəlik göstərir. Böyük humanistlər elmdə, incəsənətdə, texnikada tərəqqinin rolunu azaltmadan tələb edirdilər ki, cəmiyyət yalnız yuxarı təbəqələrə deyil, həm də xalqa xidmət göstərsin, xalqın həyatını yaxşılaşdırmaq məqsədi güdsün.

Sivilizasiya maddi məişət sahəsində tərəqqi ilə müşayiət oluna bilər, lakin bu heç də ictimai məişətin (ailənin vəziyyəti, şəxsiyyətlərarası münasibətlər), mənəvi mədəniyyətin avtomatik surətdə təkmilləşməsinə gətirib çıxarmır. Tərəqqi və tənəzzül anlayışları nisbidir. Sivilizasiyanın inkişafı bütün bəşəriyyət üçün bir istiqamətdə cərəyan edən proses deyildir. Sivilizasiyanın bir hissəsindəki tərəqqi onun digər hissəsindəki tənəzzüllə müşayiət oluna bilər.

Sivilizasiyanı səciyyələndirmək üçün tarixən müəyyən meyar təşəkkül tapmışdır: bu, sivilizasiyanı barbarlıq və vəhşiliklə müqayisə etməkdən ibarətdir. Belə ənənə maddi və mənəvi fəaliyyət sahələrində, bölgü və istehlak sferasında, insanların həyat tərzində olan nailiyyətləri

aşkara çıxarmağı nəzərdə tuturdu. Lakin müqayisənin başqa bir cəhəti də mövcud olmuşdur və indi də mövcuddur: sivilizasiyanın özünün artan inkişafından irəli gələn mənfi halları da görmək vacibdir. «Sivill barbarlıq», «sivil qaniçənlər» ifadələri də bu inkişafdan törəmişdir. Rolyak filosofu və yazıçısı V.Tatarkeviç yazır ki, böyük coğrafi kəşflər dövpü sivill xalqlara ibtidai insanlarla qarşılaşmaq imkanı vermişdir. «Avropalılara elə gəlirdi ki, onlar ibtidai xalqların simasında özlərinə məlum olmayan xoşbəxtliyi dərk etmiş insanları görürlər. Avropalılar öz təsəvvürlərində istər ibtidai insanların mehribanlığına, alicənab xarakterinə, istərsə də onların xoşbəxtliyinə, çox sadə və yaxşı ictimai sistemlərinə valeh olurdular...»

İbtidai insanların həyatı bəşəriyyətin «qızıl əsri» kimi dərk edilirdi. Başqa mühitdə, şəraitdə yaşayan insanlar sivil həyatın tünlüyünün əldən saldığı, incitdiyi Avropa səyyahlarına, missionerlərinə, avantüristlərinə xoşbəxt görünürdülər. Söhbət insanların xoşbəxtliyindən daha çox onların kamilliyindən, həyatda ədalətin bərqərar edilməsindən, ağlauyğun qayda yaradılmasından gedir.

Ümumbəşəri dəyərləri aşkara çıxarmaq məqsədilə sivilizasiyanın barbarlıqla müqayisəsi problemi həmişə ictimai fikrin diqqət mərkəzində olmuşdur. Bu müqayisənin kökləri əsrlərin dərinliyinə gedib çıxır. Bəşər sivizasiyası və mədəniyyəti tarixi itkilərin və kəşflərin çətin yolunu özündə əks etdirir. Artıq qədim yunan dramaturqu Esxilin «Zəncirlənmiş Prometey» pyesində sivilizasiya üçün insanın cəzaya məruz qalması ideyasının özülü qoyulmuşdur. Təsadüfi deyildir ki, müasir məişətin gündəlik problemlərinin həllinə çalışarkən biz uzaq keçmişə müraciət edirik. Tarixi varislik prinsipi elmin inkişafının əsas prinsiplərindən biridir. Tarixin hərtərəfli qavranılması nəinki keçmişin, həm də bugünün və gələcəyin dərk olunmasına imkan yaradır.

Bu gün belə bir fakt heç kəs üçün sirr deyildir ki, cəmiyyətimiz əxlaq sahəsində ciddi itkilərə məruz qalmışdır. Adi gözlə görünən korrupsiya, həyasızcasına oğurluq, aldatma, hesabatların qəsdən təhrif edilməsi, «qizli iqtisadiyyatın» inkişafı, istehsalatda intizamsızlıq, qeyri-mütəşəkkillik yaxın keçmişdə həyatı zəhərləyir, hər bir namuslu adamın işləməsinə mane olurdu. Xalq həyatının dərinliklərində qəzəb dalğaları coşur, narazılıq, açıq artır, dəyişikliklər arzusu özünü getdikcə daha qabarıq surətdə büruzə verirdi. Təsadüfi deyildir ki, ilk növbədə rəhbər işçilərin mənəvi siması ilə bağlı hər şey xalq tərəfindən xüsusilə kəskin şəkildə qavranılır. Xalqın ürəyindən xəbər verən dəyişikliklər üçün yüksək mənəviyyatlı, təsərrüfatsızlığa, bürokratizmə, süründürüməçiliyə qarşı amansız olan adamlar lazımdır. Sivilizasiyanın inkişafından ötrü mənəvi dəyərlər o mənada ötəri əhəmiyyətə malik deyildir ki, ictimai inkişaf mənəviyyata əsaslanmadan ümumiyyətlə ağlasığmazdır. Mənəvi mədəniyyət sərkisində götürülən sivilizasiya ümumtarixi mənada əxlaqi poliqon kimi göz qabağına gəlir. Qədim yunan tarixçisi K.Tasit inandırıcı şəkildə göstərmişdir ki, dağılma, tənəzzül əlamətlərinə malik hər bir dövlətdə həmişə korrupsiya, məhkəməbazlıq, siyasi demaqoqluq bəlası güclənir. Bu bəlalar cəmiyyəti sürətlə içəridən dağıdır, onun intellektual, fiziki və mənəvi qüvvələrini tükəndirir. Roma sivilizasiyasının təcrübəsi bu cəhətdən ibarətlidir.

Görünür, sivilizasiyanın hazırkı vəziyyətini real şəkildə qiymətləndirməyin də vaxtı çatmışdır. Sivilizasiya, tərəqqi haqqında sonsuz iqtisadi yüksəlişlə, təbiətin ram edilməsi ilə bağlı əvvəlki təsəvvürlər nəinki yer üzərindəki həyatın, həm də blosferin reallıqları ilə ziddiyyət təşkil edir. Müasir sivilizasiya böhran keçirir, buna görə də təbiət kimi onu da xilas etmək lazımdır. Sivilizasiyanı, tərəqqini izah edən əvvəlki ənənəvi üzullar nə elmin, texnikanın inkişaf səviyyəsinə, nə də yeni təfəkkürün vəziyyətinə uyğun gəlir.

Aşağıdakı məqamların dərk edilməsi hazırda çox

mühüm əhəmiyyətə malikdir: a) müasir sivilizasiyanın inkişafını şərtləndirən qanunlar hansılardır; b) sivilizasiyanın böhranının əsas səbəbi nədir; c) insan, onun mənəvi-əxlaqi aləmi necə dəyişir.

Bütün bunlar yeniləşən dünyada insanın yerini və rolunu, onun səriştəlilik səviyyəsini, mənəvi aləmini, tərəqqinin inkişaf perspektivini və istiqamətini, bugünkü və sabahkı sivilizasiyanın simasını aydınlaşdırmağa imkan verir. Həm də belə bir həqiqəti daim yadda saxlamaq lazımdır ki, sivilizasiyanın meyarı hər şeydən öncə insandır.

## 1.2. Mədəniyyətdə milli-etnik və dini-konfessional amillərin nisbəti

Milli etnik və dini-konfessional proseslər, mədəniyyətlərin və sivilizasiyaların dialoqu problemi bugünkü sosial-siyası elmlərin diqqət mərkəzində duran məsələlərdəndir. Müasir fəlsəfənin və siyasət haqqında elm olan politologiyanın bu problemləri vaxtında öyrənə bilməsi ondan gələcək siyasi proqnozlar çıxarıla bilməsi üçün əsas ola bilər. Digər tərəfdən, fəlsəfənin və siyasət elminin çıxardığı bir sıra nəticələr mövcud iqtidarın yeridəcəyi daxili və xarici siyasətin planlaşdırılmasında da xeyirli ola bilər. Bu mənada bizim tədqiq etdiyimiz problem keçid dövrü Azərbaycan cəmiyyətinin siyasi proseslərinə aiddir. Şübhə yoxdur ki, müasir sosial-siyası proseslərin əksəriyyəti qlobal xarakter daşıyır. Çünki müasir dünyada siyasi proseslərin qloballaşması dedikdə regional siyasi proseslərin beynəlmiləlləşməsi və onların beynəlxalq təşkilatların nəzarəti altına düşməsi başa düşülür. Daha aydın desək, qloballaşma siyasi proseslərin universal xarakter alması deməkdir. Siyasi proseslərin sürəkliliyi artdıqca insanların siyasi həyatda iştirak səviyyəsi də yüksəlir. İnsanlar ardıcıl olaraq yeniləşir və demokratiya dalğalarının təsiri altında öz hüquq və azadlıqları yolunda



daha radikal addımların atılmasını tələb edir, liberal dəyişikliklər edilməsini, fərdi müstəqilliyin və suverenliyin təmin olunmasını arzu edirlər. Cəmiyyətin yeni inkişaf halını alması azlıqların öz hüquqları uğrunda mübarizə aparmasına şərait yaratmış, gender hərəkatı genişlənmişdir. Bir tərəfdən milli müstəqillik, digər tərəfdən isə qloballaşmaya olan meyl milli azadlıq hərəkatı uğrunda gedən mübarizəyə yeni çalarlar vermiş, milli-etnik proseslərin yeni balansını meydana çıxarmışdır. Bu yeni meylləri əldə bayraq edən bəzi siyasi qüvvələr separatçılığa yeni milli müstəqillik hərəkatı rəngini verməyə və ondan öz məqsədləri üçün istifadə etməyə çalışırlar. Beləliklə də milli münaqişələr zəminində «nəzarətsiz ərazilər» yaranır ki, onlardan da terrorizmi və narkomaniyanı genişləndirmək üçün istifadə olunur, insanların bu kimi siyasi proseslərə cəlb olunmasına, onların özləri də bilmədən bir qrup adam tərəfindən aldadılmasına və manipulyasiya olunmasına səbəb olur. Bu kimi hadisələr isə əsas politaloji anlayışların və problemlərin öyrənilməsi zərurətini yaradır. Müasir dünyada baş verən siyasi hadisələrin biri digərini tamamladığı üçün onların öyrənilib tədqiq olunması adamlara imkan verəcəkdir ki, onlar real siyasi proseslərə daha ayıq yanaşsınlar, nəyin pis, nəyinsə yaxşı olduğunu dərk edə bilsinlər. Bu mənada bizim apardığımız tədqiqatlar aktual və əhəmiyyətlidir.

Elmin elə sahələri vardır ki, həmişə bəşəriyyət üçün böyük əhəmiyyət kəsb etmişdir. Belə sahələrdən biri də mədəniyyətdir. Onun insan həyatında rolunu, yerini qiymətləndirmək, dəyərləndirmək çətindir. Mədəniyyət problemləri hər zaman birinci dərəcəli problemlər olub, ictimai inkişafın, tarixin, tərəqqinin aparıcı amili, meyarı olub. Mədəniyyət xalqların aynasıdır. Məhz mədəniyyət sahəsində xalqların özünəməxsusluğu, onların tarixdə yeri, rolu təyin olunur. Ona görə də mədəniyyət anlayışının dərindən, hərtərəfli dərk edilməsi, insanlıq tarixinə təkanverici prosesinin təhlili günümüzün reallıqlarından irəli

gəlir. Onu da qeyd etmək lazımdır ki, tarixən bütün mütəfəkkirlər bu məsələyə bu və ya digər aspektlərdən diqqət yetirmiş, onun rolunu xüsusi olaraq qiymətləndirmişlər.

Mədəniyyət geniş mahiyyət kəsb etdiyindən sosial həyatda baş verən bütün hadisələri, prosesləri, münasibətləri əhatə edir. O, insanın ictimai varlıq kimi fəaliyyətini, davranışını və bunların nəticələrini əks etdirir. Deməli, mədəniyyət anlayışının dolğunluğu ictimai sferanın genişliyi, dərinliyi, tarixi və mədəni problemlərin mürəkkəbliyi və bu anlayışa müxtəlif yanaşmalarla şərtlənir. Mədəniyyət bir sıra elmlərin tədqiqat obyektinə çevrilib, müxtəlif aspektlərdən təhlil edilir.

Əlbəttə ki, belə bir dərin, geniş, hərtərəfli mahiyyətin dərk edilməsi, izah olunması üçün mədəniyyət termininin və onunla bağlı olan bütün təsəvvürlərin mənşəyi və əmələ gəlməsi tarixini, mahiyyətini öyrənmək, müasirlik baxımından təhlil etmək lazımdır.

Qərb demokratiyası bəzən (yaxud əksər hallarda) «siyasi plüralizm» ideyasını israrla tətbiq etsə də, «mədəni plüralizmi», bir növ qəbul elmir. Qərbin mədəniyyət tərzinə, dəyər və ölçülərinə müvafiq olmayan hər şeyi «keçmişin qalığı», yanlışlıq kimi şərh edənlər hələ də çoxdur.

Bu gün dünyada «mədəni hegemoniya» kimi səciyyələndirilən ideyanın müəllifləri. Q.Almond və S.Verba özlərinin «Vətəndaş mədəniyyəti» adlı məşhür əsərlərində mədəniyyətlərin-əsasən siyasi mədəniyyətin belə iyerarxiyasını təqdim etmişlər.

Birinci yerdə, etalon mədəniyyət kim «ingilis-amerikan» mədəniyəti durur. Daha sonra qarışıq, ənənəvi və modernist cizgilərini əks etdirən «kontinental-avrasiya» mədəniyyəti gəlir; sonuncu yerdə «ənənəvi avtoritarizim» mədəniyyəti durur. İngilis-amerikan mədəniyyəti belə xüsusiyyətlərə görə «nümunə» sayılır: homogenlik (yekcinslik, mədəni dəyər müxtəlifliklərinin olmaması), dünyəvi praqmatizm (yəni inam və dəyərlər barədə mübahisə etmirlər, bunlar heç kimi maraqlandırmır, yalnız maraqlar mövcuddur) və sentrizm-mərkəzçilik (sağ və sol radikallığa meyl) göstərilmir.



Vitgenşteyn yazır: «Mədəniyyət nəhəng bir təşkilat olub hər kəsə özünün hara mənsub olduğunu göstərir». Müasir sivill dünya insanların və onların mənsub olduğu tarixi insan birliklərinin yerinin və rolunun nədən ibarət olması faktını üzə çıxarır, onların müasir qlobal siyasi proseslərdə oynadığı rolunu əks etdirir. İnsanlar istər-istəməz Şərq-Qərb dixotomiyası ilə üzləşirlər. Onlar mənsub olduqları mədəniyyəti digərlərinin fövqünə qaldırır və bununçün müxtəlif vasitələrdən istifadə edirlər. İ.Kant yazır ki, «Mədəniyyə-insanın insan ola bilməsi üçün onun şəxsən dərk edilmiş cəhdidir». Başqa sözlə desək, «Mədəniyyət-insan mövcud olmasıdır» (M.Mamordaşvili). «İkinci təbiət» (Demokrit) olan mədəniyyət insandan yüksək tolerantlıq tələb edir. Biz bu fəsildə mədəniyyətin və xüsusən də milli mədəniyyətin dinlə əlaqəsi məsələsindən bəhs edəcək, dini və milli amillərin nisbətini araşdırmağa çalışacağıq.

Viko Canbatista yazır ki, mədəniyyətlərin də çiçəklənməsi və qocalması var. Gənc və qoca palıdlar, çiçəklər, budaqlar və yarpaqlar mövcud olduğu kimi, xalqların dillərinin, həqiqətlərin, allahların və mədəniyyətlərin də çiçəklənməsi və qocalması var. Ən yüksək keyfiyyətə malik olan varlıqlar, mədəniyyətlər çöl çiçəkləri kimi tamamilə məqsədsiz böyüyür, bitki və heyvanlar kimi onlar da yalnız təbiətə malikdirlər».

Bir sıra alimlər isə mədəniyyəti iki yerə: ümumbəşəri mədəniyyətə və milli mədəniyyətə bölürlürlər. Ümumbəşəri mədəniyyət deyərkən, onlar sivilizasiyanı nəzərdə tutur. Onun milli mədəniyyətlə əlaqəsini birtərəfli şəkildə şərh edirlər. Məsələn, Z.Göyalp özünün «Türkçülüyün əsasları» kitabında yazır ki, guya sivilizasiyanın inkişafı milli mədəniyyətə dağıdıcı təsir göstərir. Siviliza-

siya tarixindən və millətlərin həyatından çoxlu misallar gətirən Z.Göyalp sübut etməyə çalışır ki, sivilizasiyaya yiyələnmək nəticəsində xalqlar öz milli mədəniyyətlərindən məhrum olur və bunun nəticəsində onlar milli mədəniyyətləri hələ sivilizasiya tərəfindən dağılmamış xalqlar qarşısında asanlıqla məğlubiyyətə uğrayırlar.

Z.Göyalpın türklərin milli azadlıq hərəkatında qalib çıxmalarının əsas səbəbini onların milli mədəniyyətlərinin sivilizasiya tərəfindən dağıdılmış olmaması faktı izah etmək cəhdi elə də inandırıcı deyildir. Çünki, tarixən üç sivilizasiya (Altay, Şərq, Qərb) formasını yaşamış olan Türk milli mədəniyyəti istər-istəməz dünya sivilizasiyası ilə qarşılıqlı şəraitdə inkişaf etmiş, ona müəyyən təsirlər göstərdiyi kimi, özü də ondan xeyli bəhrələnmişdir.

Bəzi alimlər kimi Z.Göyalpın da digər bir məhdud cəhəti onun dini mədəniyyətin bir növü, forması, tərkib hissəsi və s. kimi qəbul etməməsidir. Buradan da çıxış edərək, o, səhvən «İslam mədəniyyəti», xristian mədəniyyəti» və s. anlayışların mövcudluğun inkar edir, onun əvəzində isə Qərbi Roma mədəniyyətinin varisi kimi Qərb mədəniyyətini, Şərqi Roma mədəniyyətinin törəməsi olmaq etiabarilə isə Şərq mədəniyyətinin mövcudluğu faktını irəli sürür. Halbuki, İslam mədəniyyətinin köklərində adları yuxarıda göstərilən bu mədəniyyətlərin izləri yaşamış olsa da, onlar heç də bu mədəniyyətin yeganə mənbəyini təşkil etməmişlər. Bu sözləri eynilə xristian mədəniyyəti haqqında da demək mümkündür.

«Sivilizasiyanın həddindən artıq inkişafı da milli kulturu pozur. Milli kulturu pozulmuş olan millətlərə degenerasiya halına düşmüş millətlər deyilir». (yenə orada, s.47-48). Z.B.Göyalpa ona görə mədəniyyətin yüksəlməsi milli kulturun pozulmasına, milli kültürün zəifləməsi isə əksinə, mədəniyyətin yüksəlməsinə səbəb olur. «Milli kültürü güclü, ancaq mədəniyyəti zəif olan bir millətlər milli kültü pozulmuş, ancaq mədəniyyəti yüksək olan



başqa bir millət siyasi savaşa girəndə kültürü güclü olan millət daim qalib gəlmişdir. Məsələn, əsgi misirlilər mədəniyyətdə yüksələn kimi milli kulturları pozulmağa başladı. O zaman yeni doğulmağa başlayan fars dövləti isə mədəniyyətdə daha geri olmaqla bərabər, güclü bir milli kultura malik idi. Bu səbəbdən farslar misirliləri məğlub etdilər. Bir neçə yüz ildən sonra İranda da mədəniyyət yüksəldi. Təbii ki, bunun əvəzində milli kultur zəifləməyə başladı. Bu dəfə isə milli kulturları hələllik pozulmamış yunanlara yönəldirlər. Bir müddət sonra yunan kulturu da pozulmağa başladığından həm yunanlar, həm də iranlılar güclü bir kulturla meydana çıxan mədəniyyətsiz (mədəni olmayan) makedoniyalılara məğlub oldular. Şərqdə Əşkani və Sasani soylarının-sülalələrinin, qərbdə isə romalıların milli kulturu pozulmağa başlayan makedoniyalılara qələbəsi eyni şəkildə izah edilə bilər. Nəhayət, mədəniyyətdə heç bir payı olmayan, ancaq milli kültüləri son dərəcə güclü olan ərəblər meydana çıxaraq həm sasanilərə, həm də romalılara qalib gəldilər. Ancaq çox keçmədən ərəb milləti də mədəniləşməyə başladığından milli kültürünü itirərək, siyasi hakimiyyəti Türküstandan yeni gəlmiş olan törəli Səlcüq türklərinə verdilər. Tərətürklərin milli kültüründən başqa bir şeyləri yoxdur. Türklərin indiyədək bağımsız-müstəqil qalması, Çanaq qaladan ingilislərlə fransızları qovması və müvəqqəti barışıqdan (mütarəkədən) sonra, ingilis silahları və pulu ilə təchiz edilmiş yunanlarla ermeniləri yenərək, mənəvi cəhətdən ingilisləri yenməsi, büsbütün bu milli kültürün gücü idi».

Məlumdur ki, siyasi mədəniyyət siyasi davranışın tərkib hissəsi olub, özünü onun vasitəsilə biruzə verir. [76, s.191] Bundan başqa, siyasi mədəniyyət cəmiyyətin və eləcə də xalqın siyasi həyatını, onun dövlətinin siyasi sistemini, siyasi həyatda iştirak səviyyəsini, siyasi şüurunu ifadə edir. [130] Siyasi mədəniyyəti yüksək olan xalqlar siyasət sahəsində daha çox uğur qazanır, onların siyasi

şüuru başqalarına nisbətən daha tez formalaşır. Müasir qlobal siyasi proseslərdən daha tez baş çıxarmağa, dünya birliyində özünün yerini və rolunu müəyyən etməyə şərait yaradır. Bu sonuncu siyasi proseslər siyasi mədəniyyətin əvvəllərdə olmayan yeni bir tipini-yeni siyasi mədəniyyəti yaratmışdır. [131] Yeni siyasi mədəniyyət yeni siyasi şüurun təşəkkül tapmasını tələb edir. Çünki əvvəllər geridə qalmış xalqlar hesab olunan üçüncü dünya xalqlarının, eləcə də dünya sosializminin və SSRİ-nin çökməsi nəticəsində müstəqilliyə nail olmuş xalqların müstəqil siyasi həyata qoşulmaları, insanların dünyagörüşündə yeni stereotiplərin yaranması, yeni siyasi üslubların və yeni siyasi liderlərin meydana gəlməsi, dünyanın iki qütblü nizamlanmasından bir qütblü (yaxud, bir sıra siyasətçilərin və alimlərin ifşa etdikləri kimi çoxqütblü) dünya nizamlarına keçid insanların siyasi şüurunda da yeni meyllər və xüsusiyyətlər yaratmışdır. Onu da deyək ki, yeni siyasi mədəniyyətə yiyələnmək üçün xalqın kifayət qədər varlı, iqtisadi cəhətdən təmin olunması vacibdir. Bundan başqa sosial amil və rəhbərlik amili də gərəkdir. Yeni siyasi mədəniyyətə yiyələnmiş adamlar təhsilli, informiasiya cəhətdən təmin olunmuş, məlumatlı insanlar olmalıdırlar. Bütün bunlarla əhatə olunmaqdan ötrü xalqın siyasi şüurunu durmadan yüksəltməliyik. Biz hazırda adi siyasi mədəniyyətdən yeni siyasi mədəniyyətə doğru gedirik. Daha aydın desək, bu gün Azərbaycan cəmiyyəti köhnə eklektik, qarışıq tipli siyasi mədəniyyətdən yeni tipli vətəndaş siyasi mədəniyyətinə doğru gedir və o, yuxarıda göstərilən meyarlara uyğun gəlir. [57, s.155-156; 65]

Siyasi mədəniyyət hüquqi münasibətlərin nizamlanmının mənbəyi olub, şəxsiyyətlə dövlətin hərəsinin özünəməxsus vəzifələrinin yerinə yetirilməsinə qarant verən amildir. Müstəqillik şəraitində insanların dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı anlaşma yaradan bir körpü olub, cəmiyyətin aksioloji dəyərlərini tamamlayır.



Adları yuxarıda çəkilən, bu amillər göstərir ki, müasir Azərbaycan həyatı üçün siyasi mədəniyyətin tədqiq olunması aktuallıq kəsb edir və respublikanın qarşısında duran mühüm sosial-iqtisadi, sosial-mədəni proseslərin həllində çox mühüm rol oynayır.

Burada, əlbəttə, dəyər və inam probleminə biganə olan «siyasi inam» göz önündə canlanır. Lakin insan yalnız «siyasi» simadan ibarət deyildir. Ona bütövlük xasdır. Mədəni-mənəvi hiss və təsəvvürlər başqalarını nəinki tamamlayır, hətta təməl və əsası təşkil edir. Bu həm də hər bir xalqa, mədəniyyətə xasdır, dəyişikliklər dövründə min illər boyu formalaşan mədəni-mənəvi dəyərlərin ən dərin qatlarına müraciət edilir. [7, s.5-6]

Din və mədəniyyətin qarşılıqlı əlaqəsi məsələsi bütün sosial-siyasi və fəlsəfə elmlərinin diqqət mərkəzində duran əsas məsələlərdən biridir. Vaxtilə H.B.Zərdabi yazırdı ki, «din də dil» kimi millətin sütunlarından biridir. Lazımdır ki, bu gün biz də millətə tərif verərkən bu amili yaddan çıxarmayaq. Çünki dinsiz milləti, onun mənəviyyatını, mədəniyyətini təsəvvür etmək qeyri-mümkündür.

Sovet rejimi dinə qarşı mübarizədə bütün vasitələrdən istifadə edirdi, hətta dinə qarşı mübarizə bayrağı altında dindarları, dini-elmi-fəlsəfi kitabları, keçmiş irsin maddi mədəniyyət nümunələrini repressiya qurbanına çevirirdi.

Şübhə yoxdur ki, bu iddialarla çıxış edərkən biz dini mütləqləşdirmək fikrindən uzağıq, çünki biz dünyəvi dövlət qururuq və ona görə də dini dövlətdən ayırmışıq, yəni din hər bir kəsin öz şəxsi, vicdan işidir, ona itaət də edə bilər, etməyə də bilər, hətta istəsə ateist də ola bilər. Burada söhbət ondan gedir ki, biz istəsək də, istəməsək də dini milli həyatdan, milli mədəniyyətdən təcrid olunmuş şəkildə öyrənə bilmərik. Sovet hakimiyyəti illərində isə belə bir qeyri-elmi konsepsiya ortaya qoyulurdu ki, guya mədəniyyətlə din ayrı-ayrı şeylərdir və ona görə də onlar ayrı-ayrılıqda öyrənilirdi. O vaxtkı mövcud idealogiya

dinə qarşı çox qısqanc idi. Amma elə o vaxtlar da alimlər, yazıçılar, mədəniyyət işçiləri aralarında elələri yaranırdı ki, onlar mövcud idealogiyanın bu məhdud cəhətlərini tənqid edirdilər. Məsələn, xristianlığın min illik yubileyindən sonra Çingiz Aytmatov demişdi ki, bu yubiley bizi ayıltdı. Biz gördük ki, din xadimləri arasında necə də samballı, savadlı, obyektiv adamlar varmış! [47, s.13]

Alimlərimiz gec də olsa sübut edirlər ki, dini mədəniyyətdən ayırmaq olmaz, o, mədəniyyət sisteminə daxildir. Lakin biz bunları deməklə kifayətlənirdik. Onu öyrənən, tədqiq edən, ona xüsusi bir tədqiqat əsəri həsr edən yeni bir tədqiqatçı yox idi. Belə bir məqamda deyilən problemin tədqiqi lap yerinə düşür.

Elmi tədqiqatımızın müsbət məziyyələrindən birini də mədəniyyətin din içərisində əridilməsi meylinin tənqidi təşkil edir. Bir sıra Qərb və Şərq alimləri illərlə İslam xalqlarının topladığı zəngin mədəniyyəti «İslam mədəniyyəti», xristian dünyasında yaşayan xalqların yaratdıqları mədəniyyəti isə «Xristian mədəniyyəti» adlandırmışlar. Bu meyl də adını yuxarıda çəkdiyimiz sovet mədəniyyət siyasəti kimi (yəni mədəniyyətin inkişafında dinin rolunun inkar olunması) qəbul edilməzdir və milli mədəniyyətləri dinin içərisində əritmək məqsədini güdür. Bürada ədalətli olan odur ki, Ə.Ağaoğlunun təbiri ilə desək «allahınkını allaha, qeysərinkini isə qeysərə vermək lazımdır»). [24, s. 62] Yəni onların hər birinin sərhədlərini düzgün müəyyən etmək və onların birinin digərinə nüfuz etmək dərəcəsini dəqiqləşdirmək lazımdır. Eynilə də «Şərq mədəniyyəti» «İran mədəniyyəti», «Qafqaz mədəniyyəti» və s. anlayışlar da milli mədəniyyətin mahiyyətini və özəlliklərini bir növ ört-basdır edir.

İslam-türk dünyasında XX əsrin əvvəllərində yeniləşmə hərəkatının önündə azərbaycanlılıran getməsi heç də təsadüfi deyildi, çünki onların yaratdıqlları zəngin mədəniyyət bu prosesin getməsi üçün ilkin mənbə rolunu oynamaqda idi. Bununla belə onlar bu mədəni yenilişmələrin İslam xaricində baş verə bilməsini qeyri-mümkün hesab edirdilər. Hətta onlar sosializmin və demokratiyanın da İslama zidd olmadığını qeyd edirdilər. Heç də təsadüfi deyildir ki, S.Əfqanidən sonra M.Ə.Rəsulzadə «İslami sosializmin» mümkünlüyünü əsalandırmağa çalışırdı. Məhz M.Ə.Rəsulzadə ümmətçilikdən millətçiliyə, milli məhəlli muxtariyyətdən milli müstəqilliyə, İslamçılıqdan türkçülüyə və azərbaycançılığadək əhəmiyətli bir təkamül yolunu keçmişdir. O, məharətlə mədəniyyət sahəsindəki yeniləşməni sosial-siyasi sahədəki modernləşmə ilə culğaşdırırdılar. Tarixi M.F.Axundov və H.B.Zərdabi ilə başlanan bu müasirləşmə hərəkatı Molla Nəsrəddinçilərin fəaliyyəti ilə reallığa çevrilirdi. Biz işdə onları «vahid axın» şəklində təqdim edirik. Əslində göstərilən dövrdə həm Molla Nəsrəddinçilər, həm də fyuzatçılarla milli tərəqqi tərəfdarı idilər. Sadəcə olaraq ona çatmaq yolunda tətbiq etdikləri metodlar müxtəlif idi. Bu sadə həqiqəti dərk edə bilməyən bir sıra tədqiqatçılar isə illərlə «Fyuzat»la «Molla Nəsrəddin»i düşmən cəbhələrdə zənn etmişlər.

Millətin siyasi mədəniyyətinin inkişafında dinin rolu böyükdür. İslam dini, məsələn İslam şərqi xalqlarının sadəcə bir dini olmayıb, həm də onların həyat tərzlərinin əsasını təşkil edir. Sovet dövründə elmi ateizm təbliğatı adı altında əslində İslamın bu amilinə qarşı mübarizə aparılırdı. İndinin özündə də Qərb ideoloqları və şovinist dairələr öz ideoloji mübarizələrinin əsas istiqamətini İslama qarşı yönəldir, «İslam fundamentalizmi» haqqında yalançı iddialarla çıxış edirlər.

Milli məsələ və din həm bir-birinə yaxın, həm də biri digərindən fərqlənən anlayışlardır. Din tarixən daha qədim olub millətlərin formalaşmasında müəyyən rola malik olmasına görə də bir sıra Qərb və Şərq alimləri dini millətin mövcudluq şərtlərindən biri saymışlar. Bu həm də onunla əlaqədardır ki, din həmişə millətin mənəvi həyatının çox mühüm tərkib hissələrindən biri kimi çıxış

etmişdir. Bir sıra hallarda milli oyanışlar dini bayraq altında inkişaf etmişdir. Məsələn, son yüzillikdə qonşu İranda baş verən milli proseslər əsasən dini rəngdə inkişaf etmişdir. Buna əsas səbəb İslam dininin və onun xadimlərinin xalq içərisindəki sosial dayaqlarının möhkəm olması və İslamın İran xalqlarının həyat tərzinə çevrilməsi idi. Bir sıra xarici ölkələrdə isə əksinə, milli hərəkatların mübarizə obyektlərindən biri də məhz din olmuşdur. Məsələn, Türkiyədəki Kamalçılıq hərəkatı K.Atatürk dinə və din xadimlərinə qarşı açıq-aşkar mənfi münasibət bəsləmiş və sivilizasiyalı cəmiyyət quruculuğunda dindən istifadə etməyin əleyhinə çıxış etmişdir. Sovet dövründə dinə qarşı aparılan mübarizə ateizm təbliğatı adı altında ayrı-ayrı hallarda dindarlara qarşı da yönəlirdi. Bu səhv hərəkat idi və xalq tərəfindən haqlı narazılığa səbəb olurdu. Dindarların və din xadimlərinin xalq içərisində böyük nüfuzu vardı və onlara qarşı aparılan repressiya bütün millətə qarşı aparılan repressiya şəklində başa düşülürdü. Hazırda isə din xadimləri müstəqil Azərbaycan Respublikasının daxili və xarici siyasətində yaxından iştirak etmək imkanı əldə etmişlər. Din milli mədəniyyətin mühüm bir forması olmaq etibarilə millətin mənəvi cəhətdən zənginləşməsində, xarici düşmənlərə qarşı aparılan mübarizədə çox mühüm rol oynaya bilər.

Dinin, xüsusən İslam dininin Azərbaycan xalqının həyatında oynaya biləcəyi bu mühüm rol onun əleyhidarlarını qorxuya salır və ona görə də onlar bugünkü erməni-Azərbaycan ziddiyyətlərinə dini don geyindirmək, məsələni xristian-İslam qarşıdurması şəklində təsvir etmək siyasətini yeridirlər.

Bugünkü imperialist qüvvələr Azərbaycanda baş verən milli proseslərə İslam fundamentalizmi rəngi verməyə çalışırlar. Buradan da çıxış edərək onlar İslam dinini dünyanı hədələyən mürtəce bir din kimi qələmə verməyə səy göstərirlər. Erməni təbliğatına uymuş bəzi burcua alimləri və dövlət xadimləri də tez-tez İslamın



yayılması təhlükəsindən, dünyanı «güya təhdid etməsindən» danışır. İslam xalqlarına qarşı yeni «səlib müharibəsi»nə çağırırlar. Dünya sosializm sistemi dağılandan sonra dünya xalqlarının gözündə İslam dinindən ibarət yeni «Düşmən obrazı»nın formalaşdırılması bugünkü Qərb mətbuatının xüsusi vəzifələrindən birinə çevrilmişdir.

Qarşıya çıxan və öz həllini gözləyən ümdə məsələlərdən biri də dini və milli ideyaların nisbəti məsələsidir. Müasir milli azadlıq proseslərində milli amil lap ilk vaxtlardan etibarən dini amili üstələmişdir. Azərbaycanda yaşayan yerli xalqların əksəriyyəti İslam dininə etiqad edənlərdir. Lakin bu heç də onların milli-mədəni muxtariyyət uğrunda apardıqları mübarizələrə mane ola bilmədi. Deməli, indiki hərəkatlarda milli amil aparıcı rola malikdir. Ona görə də vahid milli ideyanın daşıyıcısı rolunu Azərbaycanın müstəqilliyi ideyaları daha yaxşı yerinə yetirə bilər. Din isə bu prosesdə yalnız instrumental rola malik ola bilər. Lakin bizim verdiyimiz bu qiymət dindarları və din xadimlərini heç də ruhdan salmamalıdır. Onlar tarixən Azərbaycan xalqının həyatında həmişə çox mühüm rola malik olmuşlar və indi də xalqın böyük bir hissəsi onlara inanır və onların ardınca gedir. Məlumdur ki, din, xüsusən İslam dini böyük mənəvi və siyasi qüvvə olmaqla kütlələri müəyyən bir istiqamətə yönəltməkdə həmişə nüfuzlu bir qüvvə kimi çıxış etmişdir. Dinin xalqın həyatında oynadığı bu rolu çox gözəl bilən və qiymətləndirən bəzi alimlər və siyasətçilər son vaxtlarda ondan sui-istifadə etməyə çalışırlar. Lakin onlar yerli şəraiti düzgün qiymətləndirə bilmir və İslam dininin Azərbaycanın cənubunda oynaya biləcəyi rolla Şimali Azərbaycandakı rolunu səhvən eyniləşdirirlər. Yuxarıda dediyimiz kimi yeni tarixi dövrdə Cənubi Azərbaycanda baş verən sosial proseslər əsasən İslam bayrağı altında baş vermişdir. Şimali Azərbaycanda isə belə misalların sayını minimuma endirmək olar. Çünki

sovet dövründəki sekulyarizasiya prosesi buraya öz təsirini göstərməmiş deyildir. Bu da təbii ki, Şimali Azərbaycanda dinin sosial köklərinin zəifləməsinə səbəb olmuşdur. Deməli, bugünkü Azərbaycan Respublikası əhalisinin bu əsasda vahid dini ideologiya ətrafında birləşə bilməsi imkanları təxminən aradan qaldırılmış kimidir. Bütün bunlar göstərir ki, müasir Azərbaycan cəmiyyəti üçün nə türkçülük, nə də İslam ideyaları inteqrativ və universal rola malik deyillər. Ortada olan yeganə ideoloji görüş isə mütərəqqi Azərbaycan millətsevərliyi ideyalarından ibarətdir. Bu ideoloji görüşü azərbaycançılıq kimi formalaşdırmaq və inkişaf etdirmək lazımdır. Bu, habelə, bütün ideoloji təsir vasitələrinin gündəlik əməli işinə çevrilməlidir. [59]

Müasir fəlsəfi, sosioloji və politoloji ədəbiyyatda «İslam təməlçiliyi»ndən çox danışılır. İslam mədəniyyəti qaydalarında təməlçiliyə ümumi siyasi proseslər təsir göstərir. Bu həm də müasir dünya dinlərindən biri olan İslamın rolunu yeni mövqelərdən qiymətləndirməyə imkan verir. Məlumdur ki, kesən əsrdən başlayaraq İslam ölkələrinə yeni texnologiyanın daxil olması onların mənəvi həyat tərzini dəyişmişdir. Bu isə adət edilmiş həyatın əsaslarını sarsıdır, yeni əlamətlərin yaranması qatı dindarları qorxudur. Təməlçilik də elə buradan yaranmışdır. Bunun da nəticəsində mühafizəkar qaydaların qorunması uğrunda yeniləşməyə qarşı çıxışlar başlayır. Qərb ədəbiyyatında bir qayda olaraq «İslam təməlçiliyi» adı altında bütün İslam Şərqi nəzərdə tutulur. Halbuki İslam Şərqində müxtəlif ölkələr var, xalqlar yaşayır, mədəniyyətlər fəaliyyət göstərir.

Klassik təməlçilər İslamı hər cür «yeni fitnələr»dən qorumağa, onu korroziyaya uğramaqdan sapındırmağa çalışırlar. Onlar (məsələn, Taliban hərəkatının nümayəndələri) İslamın saflığına, təmizliyinə, təmiz İslam cəmiyyətinin yaradılmasına, həqiqi İslamın təntənəsinə nail olmağa səy göstərirlər. Bu mənada təməlçilik modernizmə



qarşıdır. Modernistlər də özlərini haqlı sayırlar. Modernistlər İslamda edilən dəyişiklikləri təbii sayırlar.

Modernistlərdən Rifaət-Təhtavi (1801-1873) İslamda ediləcək dəyişikliklərin onun həqiqi mahiyyətindən irəli gəldiyini qeyd etmişdir. Təməlçilər isə əksinə, rəsmi din xadimlərini təməlçilikdə, İslamı korlamaqda və s. təqsirləndirirlər. Çünki özünün çoxəsrlik tarixi müddətində İslam yadların təsirinə məruz qalmış, ona yad ünsürlər qoşulmuş və o başqa dünyagörüşü formaları və həyat tərzləri ilə qarışmışdır. Belə ki, İslam özünün həyatverici qüvvəsini itirmişdir. İndi isə onun öz ilkin xüsusiyyətlərinə qayıtmaq vaxtı çatmışdır. «Həqiqi İslamın» əsas xüsusiyyəti onun elmi rasionalizmindədir. Bu İslamın mənəvi sütunudur və o, modernistlərin «ümumi mənafeyə xidmət etmək» tezisinə ziddir. İslam təməlçiləri insanları təmizlənməyə, öz günahlarını yumağa, ilkin İslami dəyərlərə qayıtmağa təşviq edirlər. Bu baxımdan təməlçiliyi *modernizm* də qıcıqlandırır. Modernizmin mahiyyəti ondadır ki, onlar ilkin İslami dəyərləri inkar etmədən universal şüur formasının axtarılmasına, mənəvi idealın əldə olunmasına cəhd göstərirlər. Dini yeniləşmə adı altında bu və ya digər dinin çərçivəsi daxilində ənənəçiliyə və təməlçiliyə qarşı duran, inkişafı və dəyişiklikləri əks etdirən fəlsəfi dünyagörüşü cərəyanı modernizm adlanır. Din və dini təşkilatların (kilsə, məscid, sinaqoq) yeni sosial şəraitə, dəyişən mənəvi vəziyyətə uyğunlaşması dini həyatın yeniləşməsində öz ifadəsini tapır.

Avropa mədəniyyəti tarixində dini yenilikçilik və islahatçılıq hərəkatından klassik nümunələr var. Martın Lüter, Tomas Münser, Can Kalvin kimi reformatorların təlimlərindən başlamış Bibliya mənbəli inamın bərqərar olmasınadək olanlar nəinki xristianlığın əsas ehkamlarını bərpa etdirdilər, hətta Avropa mədəniyyətinin xeyli zənginləşməsinə və irəliləməsinə səbəb oldular. Müxtəlif dəyişmələr prosesi protestantizmi xristianlığın tez uyuşan növlərindən birinə çevirdi. Katolistizmə və pravoslavlığa

isə bu işi görmək üçün xeyli vaxt lazım oldu.

XIX əsrdə İslamın həyatında da belə bir hərəkat başladı. Bu hərəkata «islahatçılıq» adı verildi. Bu hərəkatın mahiyyətini İslamın dövr və şəraitə uyğunlaşdırılması təşkil edirdi. Lakin İslam islahatçıları xristian reformatorlarından fərqli olaraq heç də dinin əsasına toxunmamışlar, onlar «dünya işlərini» yalnız dini nöqteyi-nəzərdən əsaslandırmağa çalışmışlar.

Müasir İslamşünaslıqda bu islahatçılıq hərəkatı Rifa-ət-Təhtavinin (1801-1873), Əbd ər-Rəhman Əl Kövkabinin (1847-1902), Camal-əd-din-əl Əfqaninin (1839-1897), Şeyx Məhəmməd İqbalın (1849-1905), Rəşid Rzanın (1805-1935) və başqalarının adları ilə bağlıdır. Bu hərəkat onunla əlaqədar idi ki, artıq XIX əsrin ortalarından başlayaraq İslam cəmiyyətinə Avropadan yeni ideyalar daxil olur, onlar İslami ideyaları çıxışdırır və yaxud onlara qarışaraq yeni mahiyyət kəsb edirdilər. Bu sosial dəyişiklikləri dərk edən Rifa-ər-Təhtavi bu yeniləşmənin Avropa mədəniyyətinin əldə etdiyi uğurlarla əlaqələndirilməsi zərurətini qeyd edirdi. O, öz mövqeyini belə əsaslandırırdı: «Məqsəd diyarımızın əhalisini onlara qüvvət və güc gətirəcək, onları qaydalara diqqət etməyə hazırlayacaq şeyləri əxz etməyə həvəsləndirməkdir». Qərb dəyərlərini qəbul etməyi Rifa-ər-Təhtavi Allahın öz bəndələri üçün xəlq etdiyi nemətlərdən «ümumi mənafe naminə faydalanmaq» kimi qiymətləndirirdi. Dini yenilikçilik ortodoksal inamın bir çox əsas kateqoriyalarını yenidən qiymətləndirir. O, müasir insanın dünyaduyumunu, onun əxlaqi axtarışlarını, həyat qaydalarını yaradır, yalnız dinin daxilindəki ziddiyyətləri axtarmır, habelə, Avropa mədəniyyətinin ən yaxşı nümunələrini əxz etməyə çağırır. [60, s. 36-37]

Öz köklərini və irsini qorumaq instinktləri bütün xalqlara xasdır. Bu mənada din mədəniyyət forması olmaqla hər bir xalqın həyatında əhəmiyyətli rol oynayır. İslam dini də xalqımızın mənəvi mədəniyyətinin



mühüm bir ünsürü olmaq etibarilə xalqın tarixi düşüncəsində və həyat tərzində özünə möhkəm yer tutmuşdur. İllər keçdikcə İslam dininin ehkamlarında da bəzi dəyişikliklər baş vermiş, zaman və məkana uyğun gəlməyən müddəalar köhnəlmiş, yeni həyat qaydalarına uyğun bir sıra normalar yaranmışdır. Bu zərurəti başa düşən İslamşünas alimlər və din xadimləri elə indinin özündə də onu modernləşdirməyə çalışır, İslamda reformaların vacibliyini qeyd edirlər. Məsələn, onlardan bəziləri «İslam protestantizminin» yaradılması zərurətini xüsusi vurğulayırlar. Çünki bugünki Qərb mətbuatı İslamın bir sıra konservativ ehkamlarını əldə bayraq tutaraq hər yerdə «İslam fundamentalizmi» axtarmaqla məşğuldurlar. Bununla onlar əslində İslamın «düşmən obrazını» yaradır, onu sivil xalqların gözündən salmağa cəhd göstərir, İslamın elm və mədəniyyətə, tərəqqiyə zidd bir din olduğunu əsaslandırmağa çalışırlar.

Tarixən də, elə indinin özündə də bir sıra Qərb alimləri belə bir fikir yaymağa səy göstərirdilər ki, guya İslam Şərqində adamların geriliyinin və cəhalətinin əsas günahkarları İslamdır. Məsələn, fransız sosioloqu O.Renan belə hesab edirdi ki, guya İslam və eləcə də orta əsrlər ərəb təfəkkürü həmişə elmin və mədəniyyətin əleyhinə çıxış etmişdir. Bu ideyalar vaxtında öz cavabını almışdır. Türkçülüyün (yeni osmançılığın) banilərindən olan Namiq Kamal və Əhməd Rza Renanın bu qeyri-elmi iddialarını təkzib etmişlər. [111, s. 81-82] Daha sonra Cəmalləddin Əfqani Renanı faktlarla təkzib etmiş və orta əsrlərdə İslam dünyasının Avropanı 500 il qabaqladığını sübut etmişdir. Onu da deyək ki, Renan Cəmaləddin Əfqani ilə şəxsən söhbətlərindən sonra bu böyük alimin pərəstişkarına çevrilmiş və öz iddialarının düzgün olmadığını etiraf etmişdir. [29, s. 207, 209, 210, 216]

Bu kimi ideyalar sonralar bir sıra alimlərin əsər-

lərində, eləcə də V.Montqomerinin, H.Bammatın kitablarında öz geniş elmi şərhini tapmış və İslamın bir sıra sahələrdə Avropadan 1000 il öndə olduğunu göstərmişdir. [11, s. 9; 102, s.17]

Sonrakı illərdə İslam xalqlarının geri qalmasının bir sıra obyektiv və subyektiv səbəbləri olmuşdur və bütün bunlar Azərbaycan mütəfəkkirləri tərəfindən açılıb göstərilmişdir. Buna səbəb heç də İslam dini olmamışdır, əksinə, İslam heç vaxt tərəqqiyə və inkişafa qarşı çıxmamışdır. Şərqdə feodal-patriarxal şəraitin, absolyutizmin, mütləq monarxiyanın hökm sürməsi, İslam daxilində sünnilik, şiəlik və digər təriqətlərin yaranması, işsizlik (Ə.Hüseynzadə) və s. kimi hallar İslam Şərqi xalqlarının elmi və texniki tərəqqidən uzaq düşməsinə səbəb olmuşdur. Bu səbəbdən də Azərbaycan mütəfəkkirləri Qərbləşmək (Vesternizasiya) yolu ilə getməyi təlqin etmiş, bu zaman qərbdə yaxşı nə varsa, hamısını götürüb ondan istifadə etməyi, amma «Qərbin mədəsində ərpməməyi» (Ə.Hüseynzadə) məsləhət görmüşlər. Bununla belə yeniləşmə hərəkatının nümayəndələri Qərbi kor-korana təqlid etməməyi, özünün mənəvi müstəqilliyini saxlamağı, dili və dini hər vasitə ilə inkişaf etdirməyi (H.B. Zərdabi) lazımlı bilirdilər. «Türkləşmək, İslamlaşmaq və müasirləşmək» şüarını belə anlamaq lazımdır: «İslam və türk mövcudluğu çərçivəsində müasirləşmək» (Ə.B.Hüseynzadə).

Müasir milli inkişafda dini amillərin rolunu xüsusi qeyd etmək lazımdır. Çünki millətin mənəvi həyatının mühüm tərkib hissəsi kimi din milli proseslərin tənzim edilməsində, milli konsolidasiya və milli-mənəvi keyfiyyətlərin formalaşmasında çox mühüm rol oynayır. Din yaranma etibarilə qədim olsa da, millətin formalaşması dövrlərində digər amillərlə yanaşı çox fəal rol oynayır, bəzən isə milli oyanışın, milli hərəkat və milli intibahın aparıcı qüvvəsinə çevrilir. Son dövrlərdə dini amil həm milli həyatda, həm də sivilizasiyanın inkişafında təzadlı



rol oynamaqdadır. Bir tərəfdən, o, bəşəri əxlaq və təfəkkürə, ictimai-siyasi proseslərin təkamülünə ciddi təkan verir, digər tərəfdən isə öz mühafizəkar və xurafatçı təzahürləri ilə regional və qlobal xarakterli ziddiyyətlər yaradır. Bütün dinlər-istər İslam, istər xristianlıq, istər də buddizim xurafata və təməlçiliyə əsaslandıqda bəşəri normalardan tamamilə uzaqlaşır, insanı milli əlahiddəlik və bəsit düşüncə tərzinin əsiri edir, dünyəvi dəyərlərin inkişaf edib yayılması yolunda ciddi sədlər yaradır. Məsələn, şah rejiminə qarşı İran xalqlarını səfərbər etmiş, bu hərəkata güclü emosional və intellektual təpər vermiş İslam dini son vaxtlar təməlçi prinsiplərə əsaslandığından siyasi rejimin aqoniyasını gücləndirmiş, onun dünya sivilizasiyasından təcrid olunmasına gətirib çıxarmışdır. İslam fundamentalizmi ifadəsi Qərbin müəyyən dairələrində az qala təhdidedici bir bəhanəyə çevrilmiş, İslama etiqad edən xalqların milli heysiyyatına toxunmağa başlamışdır. Salman Rüşdinin «Şeytanayələri» əsəri də İslamın intellektual və mədəni əhəmiyyətini qiymətləndirməyib, onu yalnız mövhumat, təməlçi prinsiplər əsasında başa düşənlərin bu və ya digər tarixi hadisələrə yanlış reaksiyasıdır. Bu isə davakar dairələrdə İslam-xristian qarşıdurması kimi də təqdim edilir. Dünya hələ də Şərqə doğru Xaç yürüşlərinin acı xatirəsini unuda bilməmişdir. Bir sözlə, ictimai inkişafda dini və milli amillərin nisbəti elə tənzimlənməlidir ki, ictimai inkişaf qanunauyğunluqlarında ziddiyyət yaranmasın, sivilizasiya öz təbii axarı ilə inkişaf edə bilsin.

Ümumiyyətlə, ictimai proseslərdə dinin yeri və rolu dəqiq müəyyənləşdirilməli, onun siyasiləşməsinə əsla imkan verilməməlidir.

Azərbaycanda milli inkişaf və milli dövlət quruculuğunda dini amilin rolunu xüsusi qeyd etmək lazımdır. Çünki uzun müddət SSRİ-nin tərkibində aparılmış ateist siyasət, din xadimlərinə qarşı repressiya cəza tədbirləri dinin əhatə dairəsini, onun dünyagörüşü əhəmiyyətini və

şüurlara təsirini xeyli azaltmış, əslində onun milli-mənəvi həyatdakı rolunu heçə endirmişdir. Bu həm də milli-mənəvi mühitə xeyli təsir etmiş, Azərbaycan xalqının Şərq sivilizasiyası və mədəniyyətindən bəhrələnmək imkanlarını tam məhdudlaşdırmışdır. Hətta müəyyən dövrlərdə kosmopolitizm davakar ideologiya mahiyyəti kəsb etmiş, milli inkişafın əsas cəhətlərini inkar etməyə çalışmışdır. Süni surətdə aparılan bu təbliğat proletar beynəlmiləlçililiyin bir qolunu təşkil edirdi. Nəticədə beynəlmiləlçilik və ateizm şüarları altında milli məfkurəni boğmaq və faktik olaraq kosmopolit ideyaları yaymaq mümkün olmuşdur. Son vaxtlar, xalqın öz dininə, soykökünə qayıdışı ilə əlaqədar olaraq dinin həm mənəvi həyatda, həm də milli inkişafda oynadığı rol xeyli dinamikləşmişdir. O, həm əxlaqi potensialın, həm də dövlətçilik və təəssübkeşlik baxışlarının daşıyıcısı kimi milli şüurun inkişafında, adamların dünyagörüşünün vahid milli ideya ətrafında səfərbər edilməsində müəyyən rol oynayır. Bu amilin rolunu mütləqləşdirmədən belə bir faktı xüsusi vurğulamalıyıq ki, 1988-ci ildən başlayan milli azadlıq hərəkatımızda milli amillər dini amilləri həmişə üstələmişdir. Elə bununla əlaqədar İslamın milli xüsusiyyətlərlə bağlı müəyyən kosmopolit cəhətlərini də qeyd etmək istəyirik.

Vahid müsəlman dininə mənsubiyyəti-ümmətçiliyi milli mənsubiyyətdən üstün tutan İslam milli inkişaf və dövlət quruculuğu məsələlərində nəinki inkişaf etmiş baxışlar sisteminə malik deyil, əksinə, milli ideya və baxışların dini ideyalar içərisində əridilməsinin möhkəm tərəfdarıdır. Odur ki, müasir sivilizasiya dinin cəmiyyətdəki yeri və rolu məsələsində pozitiv dəyişikliklər yaratsa da, dinin, xüsusən də müsəlman dininin özünün milli münasibətlərdə oynadığı rol o qədər də çevikləşməyib. Elə bü günün özündə Azərbaycanda milli proseslərin tənzimlənməsində, müstəqil dövlət quruculuğunun ideoloji əsaslarının işlənib hazırlanmasında Qafqaz Müsəlmanları İdarəsinin o qədər də fəal rolunu görmürük. Milli xasiyyətin, milli əxlaq və mənəviyyatın bir sıra köklü problemlərinin həllində dinimizin oynaya biləcəyi böyük rol çox zəif hiss olunur. Zorla cəlb olunduğumuz təcavüzkar müharibəyə münasibətdə də müsəlman həmrəyliyi yox dərəcəsindədir. Bu sıradan erməni Qriqoryan kilsəsinin oynadığı rol sadəcə olaraq heyrət və qibtə doğurur. Yüz illər boyu erməni dövlətçiliyi ideyasını qoruyub saxlayan bu kilsə bu gün Qarabağ uyğunda aparılan fitnəkar planların ön cərgəsində gedir, dünya ermənilərinin katalikosu isə bu irticaçı idealogiyanın yaradıcılarından və ilhamvericilərindən biridr. Fərqli dinlərin milli inkişafda oynadığı fərqli rollar, ümumiyyətlə ictimai şüurun bu forması haqqında nəticələrə gəlmək üçün ciddi faktlar verir.

Millətlərarası münasibətlərdə meydana çıxan müəyyən təzadlara baxmayaraq müasir sivilizasiyanın əsas missiyası milli irqi və dini mənsubiyyətindən asılı olmayaraq bütün insanlar üçün layiqli həyat tərzi yaratmaq, planetimizin məskunluğunu və salamatlığını qoruyub saxlamaqdan ibarətdir. Bu dünyamızın surətlə artan vəhdəti və sivilizasiyanın məzmumundakı ümumiliklər nəzərə alınmaqla milli münasibətlərin inkişafına qayğı göstərilməsini tələb edir. [75, s. 24] Yəni insanın, bəşəriyyətin və sivilizasiyanın inkişafına mane olan nə varsa hamısı kənarlaşdırılmalı, milli amillərlə ümumbəşərinin sıx sintezinə nail olunmalıdır. Yalnız belə bir şəraitdə hər bir ölkənin və xalqın sosial-iqtisadi, siyasi və ideoloji inkişaf yolunu azad seçə bilməsinə, mənasız silahlanma və hərbi qarşıdurmalardan yan keçilməsinə, mənəvi və əxlaqi təcavüzə son qoyulmasına imkan yaranır, millət və xalqlar XXI əsrə biri-birinə dərin inam və qarşılıqlı etimad hissi ilə qədəm qoyurlar.

Keçid dövrü şəxsiyyət tipinin davranışı və fəaliyyəti, həm də milli-etniki amillərin, milli münasibətlərin müasir səviyyəsinin xarakterindən irəli gələn yeniliklərin güclü təsirinə məruz qalır. Müstəqil milli dövlətçilik və

demokratikləşmə şəraitində milli mənafelərin dərk olunması dərinləşir və milli dirçəliş baş verir. Onun gedişində milli münasibətlər sahəsində keçmişdən miras qalmış bir çox problemlər və ziddiyyətlər aşkara çıxır, bu isə bəzən müttəfiq respublikaların bir-birinə ərazi iddiaları və bu zəmində silahlı milli toqquşmalar baş verməsi ilə nəticələnir (məsələn, Ermənistanın Azərbaycana qarşı ərazi iddaları və elan olunmamış müharibəsi).

Marksizm fəlsəfəsi cəmiyyətdə milli-etnik sərkinin rolunu lazımınca qiymətləndirmir, onu sinfi münasibətlərə tabe vəziyyətdə götürürdü. Son illərdə baş verən əsaslı dəyişikliklər bu baxışın məhdudluğunu sübut etdi. Belə ki, milli-etniki amillər Sovetlər Birliyinin dağılmasında çox mühüm rol oynadı və postsovet respublikalarının sonrakı ictimai inkişafında da əsas hərəkətverici qüvvələrdən biri kimi çıxış etməkdədir.

Hər bir şəxsiyyətin sosiotipik davranışında onun mənsub olduğu etnik birlik üçün ümumilikdə səciyyəvi olan mümunələr əsas yeri tutur. Fərd onlara özünün sosiallaşma prosesində tədricən və şüurlu surətdə yiyələnir. Şəxsiyyətin fəaliyyəti və davranışına etniki stereotiplər çox güclü təsir göstərir. Onlar sosiallaşmanın konkret mexanizmləri olan təqlidetmə və identifikasiya (özünü başqasının yerində hiss etmə) vasitəsilə mənimsənilir və subyektin məhz bu etniki birliyin nümayəndəsi kimi səciyyələndirən davranış xüsusiyyətlərini müəyyənləşdirir. Bu onu sübut edir ki, şəxsiyyət və onun mənsub olduğu milli-etniki birlik forması bir-birilə ayrılmaz əlaqədə olan bütöv bir tam kimi çıxış edir [67, s.300]. Lakin şəxsiyyətin davranışının, onun mənsub olduğu etniki birlik forması üçün xas olan ümumi cəhətlər ilə vəhdətdə olduğu fikrini bəsit anlamaq doğru olmazdı. Belə ki, real həyatda şəxsiyyətin davranışında milli etnik nümunələrdən və etalonlardan kənara çıxma halları da özünü göstərir. Ümumilikdə isə hər bir milli-etnik birlik müəyyən özünəməxsusluğa malik olduğu üçün, onun nümayəndəsi olan şəxsiyyətdə də insanın ümumi mahiyyəti müvafiq spesifiklik ilə çıxış edir.



Müstəqillik illərində Azərbaycanda millətlərarası münasibətlərin nizama salınması, burada əməkdaşlıq şəraitinin yaradılması, azlıqda qalan xalqların dilinə, mədəniyyətinə, adət-ənənələrinə qayğı ilə yanaşılmasına yönələn düzgün milli siyasətin həyata keçirilməsi, milli separatçılıq cəhdlərinin qarşısının alınması istiqamətində qazanılan uğurlar həm də şəxsiyyət ölçüləri baxımından özünün müvafiq inikasını tapır.

Keçid dövründə gedən milli proseslər şəxsiyyətin həyat fəaliyyətinin bütün sahələrinə dərin təsir edir. Bu təsirin mexanizmi onda ifadə olunur ki, şəxsiyyətin sosial davranışında təzahür edən funksional rolu etnik xarakter kəsb edir, yəni burada etnik stereotiplərin təsir dairəsi genişlənir. Həmin prosesin milli mənlik şüurunun inkişafı və milli özünüdərk, milli dəyərlərə, tarixi keçmişə qayıdış, milli mədəni irsin və dilin qorunmasına qayğı ilə bağlı tərəfləri, şəxsiyyətin ümumi yüksəlişinə, onun daxili aləminin zənginləşməsinə təkan verir. Bununla yanaşı göstərilir ki, milli oyanış həm də müəyyən neqativ məqamları potensial vəziyyətdə əhatə edir (milli əlahiddəlik, mənsub olduğu millətin və ya etnik qrupun başqalarından üstün olması haqqında təsəvvürlər, öz normal hüdudlarını aşmış millətçilik ideyaları, milli şovinizm və s.).

Deyilənlər sübut edir ki, etnik stereotiplər müəyyən milli-etnik birlik formasına daxil olan şəxsiyyətin funksional rolu ilə bağlı bütün keyfiyyətlərə sirayət edir, onun sosiotipik davranışında özünəməxsusluğu şərtləndirir [127, s.137].

Müasir şəxsiyyətin formalaşması və inkişafında milli-etnik səpkinin artmaqda olan rolu milli mənlik şüurunun yüksəlişində özünün təmərküzləşmiş ifadəsini tapır. Monoqrafiyada şəxsiyyətin milli mənlik şüurunun mürəkkəb və çoxstrukturlu fenomen olduğu vurğulanır, onun formalaşmasının obyektiv və subyektiv amilləri araşdırılır,

bu baxımdan milli müstəqillik dövründə onun inkişafına əlverişli şərait yarandığı qeyd olunur.

Müasir şəraitdə Azərbaycanda şəxsiyyətin milli mənlik şüurunun formalaşmasında, ölkəmizdə həyata keçirilməkdə olan əsaslı siyasi, iqtisadi, sosial və mədəni islahatların milli inkişaf baxımından pozitiv mənalandırılması əsas yer tutur. Şəxsiyyət öz təcrübəsi, birliyi və müşahidəsi sayəsində müəyyən edir ki, açıq cəmiyyətə keçid vəzifələrinin həlli gedişində ölkədə milli münasibətlər sahəsində totalitar rejimdən miras qalmış bir çox problemlər tərdicən aradan qaldırılır, milli inkişafa və millətlərarası münasibətlərdə əməkdaşlığın möhkəmlənməsinə real şərait yaranır. İctimai həyatın bütün sferalarında əsaslı dəyişikliklər, demokratiyanın genişlənməsi, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu yolunda atılan addımlar, ölkədə siyasi sabitliyin möhkəmləndirilməsi, habelə xarici siyasət sahəsində qazanılan uğurlar, müstəqil Azərbaycanın dünya birliyi ölkələri ilə daim artan əlaqələri hər bir insanda, bu millətə mənsub olmasına görə yüksək qürur hissi və fəxarət yaradır ki, bütün bunlar onun milli mənlik şüurunu yeni məzmunla zənginləşdirir.

Milli mənlik şüuru ilə şəxsiyyətin inkişafı ikitərəfli vahid proses kimi çıxış edir. Belə ki, bir tərəfdən milli mənlik şüuru şəxsiyyətin inkişafına güclü təsir göstərir. Bu başlıca olaraq aşağıdakılarda ifadə olunur: şəxsiyyət özünün milləti ilə və bütövlükdə cəmiyyət ilə çoxtərəfli əlaqələrini milli mənlik şüurunun fəaliyyət mexanizmləri ilə sıx əlaqədə həyata keçirir. Sonra milli mənlik şüuru aid olduğu millətin nümayəndələri olan şəxsiyyətlərin birləşməsində və ümummilli vəzifələrin yerinə yetirilməsinə səfərbər olunmasında mühüm rol oynayır. Digər tərəfdən isə milli mənlik şüurunun sözügedən və başqa funksiyalarını həyata keçirilməsi prosesi və onun intensivlik dərəcəsi konkret şəxsiyyətlərdən, onların ümumi yetkinlik göstəricilərindən, habelə dünyagörüşündən və mədəni inkişaf



səviyyəsindən çox asılıdır. Deyilənlərdən aydın olur ki, milli mənlik şüuru və şəxsiyyətin inkişafı ayrılmaz qarşılıqlı təsirdə olunmaqla, biri digərini zənginləşdirir və təkmilləşdirir.

Hazırda cəmiyyətimizdə milli ideya və milli ideologiya axtarışları getməkdədir. Söhbət hər şeydən əvvəl kommunist ideyalogiyasının ləğv edilməsindən sonra şüurlarda yaranmış ideoloji vakkumun aradan qaldırılmasından gedir. Digər tərəfdən isə bütünlükdə Azərbaycan xalqının həqiqi mənafeylərini tam dolğunluğu ilə müvafiq surətdə əks etdirən ümummilli ideologiyanın yaradılması zamanın tələbidir. Bununla əlaqədar əsərdə göstərilir ki, indi genişlənməkdə olan azərbaycançılıq ideologiyası onun özəyini təşkil edir. Çünki, bu anlayışın məzmunu ölkəmizin ərazisində məskunlaşan bütün insanların və etnik birliklərin əsas mənafelərinə tamamilə uyğun gəlir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev Dünya Azərbaycanlılarının I qurultayında demişdir: «Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı-Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq» [10, s.2].

### 1.3. Qlobal siyasi proseslərlə milli mədəni inkişafın qarşılıqlı təsiri

Hər bir sivilizasiyanın mahiyyətinə, onun tarixi dəyərlərini müəyyən etmək üçün ümumbəşəri əhəmiyyətinə, hansı zaman çərçivəsində fəaliyyət göstərməsinə, ictimai münasibətlər sistemində oynadığı rola xüsusi diqqət yetirmək lazımdır. Müasir elm dünya sivilizasiyasında artan ümumiliyi nəzərə almaqla elə bir faktı sübuta yetirmişdir ki, həm ümumbəşəri, həm də milli inkişaf edən, qarşılıqlı dialektik asılılıq telləri ilə bağlı bir proses olan bu sahədə maraqlı meyllər müşahidə edilməkdədir. İctimai inkişafda

ümumbəşərinin, yoxsa milli-əlahiddə cəhətlərin aparıcı meylə malik olduğunu mütləq mənada söyləmək çox çətindir. Çünki ictimai vəziyyətdən, qlobal və milli cəhətlərin qarşılıqlı təsirindən asılı olaraq onlardan hər birinin əhəmiyyəti arta və yaxud azala bilər.

Həm müasir sivilizasiyanın, həm də milli münasibətlərin səciyyəvi cəhətlərini, onların qarşılıqlı təsir dialektikasını öyrənərkən həm dünyanın, həm milli-etnik proseslərin inkişafındakı ən xırda meyllərə belə sosial-fəlsəfi biliklər sisteminin bütün səviyyələrində həm emprik ümumiləşdirmə, həm də sosioloji tədqiqatlar səviyyəsində yanaşmaq lazımdır. [21, s.43] Çünki bu cür yanaşma zamanı ayrı-ayrı zaman kəsiyindən, konkret tarixi şəraitdə, spesifik sosial mühitdə sivilizasiyanı inkişaf xarakteri, onun ictimai münasibətlərin bütün sistemində, o cümlədən də milli münasibətlərdə oynadığı rol daha qabarıq şəkildə üzə çıxır.

Müasir sivilizasiya dəyişən dünyamızın sosial-siyasi və elmi-mədəni siması ilə qırılmaz surətdə əlaqədardır. Müxtəlif hərəkət və ideologiyaların yarandığı, istiqlaliyyətə, milli dövlət quruculuğuna, sosial ədalətə güclü meyl oyandığı indiki vaxtda ictimai inkişafın obyektiv qanunauyğunluqlarının fəaliyyət mexanizmi dəyişməsə də, subyektiv amillərin rol və əhəmiyyətinin xeyli artdığının şahidi olmaqdayıq. Özü də subyektiv amillər milli proseslərin simasında, onların təzahür formalarında daha qabarıq üzə çıxır. Çünki ictimai həyat hadisələrinin məzmununda milli amillər çevik və dinamik rol oynayır, ictimai inkişafın əsas cəhətlərini əsasən ifadə edə bilirlər.

Müasir dünyamız çoxsimalıdır, müxtəlif ictimai-siyasi sistemlərin və inkişaf səviyyələrinin, həyat tərzi və adət-ənənə nümunələrinin, qarşı-qarşıya duran meyllər və ziddiyyətlərin sıx palitrasını özündə əks etdirir. Hər bir tarixi mərhələdə isə ən vacib ümumbəşəri vəzifələrin müəyyən edilməsi, ictimai inkişafın başlıca meyllərinin aşkarlanması son dərəcə vacib elmi və praktiki əhəmiyyətə malikdir.



Bu gün sivilizasiyanın səciyyəvi əlaməti belədir ki, bəşəriyyət bir tərəfdən nəhəng məhsuldar qüvvələr yaratmış, digər tərəfdən isə onun doğurduğu qorxulu qlobal problemlərlə, ilk növbədə də ekoloji problemlərlə üzləşmişdir. Kütləvi qırğın silahlarının yaradılması, habelə dünyanın mənasız silahlanmaya cəlb edilməsi, dünyanın bir sıra regionlarında hərbi-siyasi münaqişələrin mövcudluğu müasir sivilizasiyanın təzadlı inkişaf meyllərindəndir. [54, s.9]

Hər halda sivilizasiyanın bu günkü durumunda müəyyən tarixi hadisələrin, habelə bunlardan doğan ictimai-siyasi proseslərin rolunu araşdırmaq lazım gəlir.

Müasir sivilizasiya uzun müddət iki ictimai siyasi sistemin kəskin qarşıdurması şəraitində mövcud olmuşdur. Belə ki, Rusiyada 1917-ci ilin oktyabr inqilabı dünyanı iki sistemə ayırdı və qeyri-ənənəvi bir sivilizasiyanın-kommunist sivilizasiyasının başlanğıcını qoydu. İkinci dünya müharibəsindən sonra sosializmin dünya sisteminə çevrilməsi bu sivilizasiya haqqında təsəvvürləri daha da genişləndirir, onun dünya sivilizasiyasında müəyyən mərhələ olmaq şansını yaradır. Lakin ictimai-siyasi həyatın və bütün gerçəkliyin ciddi idealoji çərçivəyə salınması son nəticədə ictimai inkişafda obyektiv qanunauyğunluqların unudulmasına, subyektivizmin və volyutarizmin meydan sulamasına səbəb olur.

Maddi və mənəvi həyatın magistral inkişaf yolundan sapdırılması son nəticədə kommunist sivilizasiyasını dalana gətirib çıxarır, o nə iqtisadi, nə də sosial-siyasi sistem kimi özünü doğrulda bilmir. Dünya sosializm sisteminin-bu qapalı cəmiyyət sisteminin iflası bəşəriyyətin bu hissəsini yenidən ənənəvi inkişaf yoluna qaytarmaqla dünya sivilizasiyasının tamlığı və bölünməzliyi haqqında baxışları bir daha təsdiq etdi. Bu özünü daha çox onda təzahür etdirir ki, beynəlxalq Aləmdə hadisə və proseslərin qarşılıqlı asılılığı artır, ictimai inkişaf dialektikasında səbəbiyyət əlaqələri güclənir, tarixi prosesdə millət və xalqların rolu isə dönmədən yüksəlir. Beləliklə, ictimai inkişafın dinamikliyinin

artması ilə bərabər sivilizasiyanın subyekti və tarixin hərəkətverici qüvvəsi kimi insan amilinin əhəmiyyəti durmadan genişlənir. İnsan həm milli, həm də bəşəri dəyərlərin daşıyıcısı kimi milli və ümumbəşəri əlamətlərin dialektikasının təmin edilməsində misilsiz rol oynayır.

Filosoflar və digər tədqiqatçılar müasir sivilizasiyanı qiymətləndirərkən bəzən çoxölçülü, çoxrəngli dünya anlayışından istifadə edirlər. Sivilizasiyanın yeni mərhələdə inkişaf xüsusiyyətlərini ümumiləşdirən bu qiymət ictimai inkişafın surətlənməsi, cəmiyyətin maddi və mənəvi əsaslarında dərin keyfiyyət dəyişikliklərinin baş verməsi, sosial quruluşların və siyasi sistemlərin humanistləşdirilməsi, millət və xalqların tale ümumiliyinin və ümumiyyətlə müasir dünyamızın biri-birindən asılılığının dərk edilməsi və s. bu kimi keyfiyyət dəyişilikləri ilə səciyyələnir. Lakin hədsiz inkişaf və tərəqqi ilə yanaşı dəhşətli səfalət, orta əsr geriliyi də müasir dövrün təzadlarındandır. Bəzən inkişaf etmiş Qərb və hələ də problemlər içərisində çırpınan Şərq anlayışları götürülür və tərəqqi edən müasir sivilizasiyada qarşı-qarşıya qoyulan xətlər kimi təqdim edilir. Əlbəttə, müasir dünyada spesifik milli mənafe və geosiyasi maraqlar, fərqli inkişaf səviyyələri hələ də qalır. Lakin diqqəti cəlb edən əsas cəhət ondan ibarətdir ki, dünya kəskin konfrontasiya ruhlu nüvə müharibəsindən demək olar ki, qurtulmuş, müasir sivilizasiyanın salamatlığı, onun qorunub saxlanılması üçün daha real imkanlar yaranmışdır. Bu, həm dövlətlərarası, həm də millətlərarası münasibətlərdə özünü açıq şəkildə büruzə verir.

Beynəlxalq terminologiyada artıq bir sıra kateqoriyalar, məsələn, «iki sistemin mübarizəsi», «soyuq müharibə» və s. kimi konfrontasiya ruhunu əks etdirən terminlər tədricən dövriyyədən çıxmağa başlayır. İndi zorakılığa arxalanmayan, nüvə silahı olmayan dünya idealı getdikcə özünə daha çox tərəfdar toplamaqdadır. Məsələn, dünyada hələ də münaqişə ocaqlarının qalmasına baxmayaraq regional və bütün dünyanı əhatə edə biləcək kollektiv təhlükəsizlik sistemləri ideyaları utopiyadan reallığa çevrilməyə başlamışdır. Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropada Təhlükəsiz və Əməkdaşlıq Təşkilatı (ATƏT) və digər beynəlxalq siyasi və humanitar təşkilatlar uğurlu sülhməramlı tədbirlər hazırlayıb həyata keçirməkdədir. NATO-nun şərqə doğru genişlənməsi bu hərbi-siyasi təşkilatın daha çox siyasi tədbirlərə meylləndiyini nümayiş etdirir. Sivilizasiyaya qayğı, onun nailiyyətlərinin qorunub inkişaf etdirilməsi indi ümumbəşəri tale və məsuliyyətə çevrilməkdədir. XX əsrin sonlarına yaxın insanlar müharibə haqqında deyil, sülh və əmin-amanlıq, sivilizasiyanın qorunub gələcək nəsillərə ötürülməsi haqqında daha çox düşünməyə başlanmışdır.

Deməli, yeni dünya müharibəsi təhlükəsinin uzaqlaşdırılması, bəşəri əməkdaşlığa və xalqların bir-birinə yaxınlaşmasına əsaslanan yeni təfəkkür tərzinin beynəlxalq münasibətlərə yol tapması sivilizasiyada baş verən başlıca keyfiyyət dəyişikliyidir.

Müasir sivilizasiya ictimai proseslərin dinamikasını xeyli surətləndirdiyindən ictimai münasibətlərin milli münasibətlərlə bağlı sahələrinin xeyli fəallaşdığını qeyd etmək lazım gəlir. Milli həyatın bütün sahələri-dil, mədəniyyət, milli şüur və s. yaşadığımız dövrün ictimai-siyasi mühitinin səciyyəvi xüsusiyyətlərinin hamısını özündə əks etdirir. Etnik birliklər daxilində baş verən dəyişikliklərin əsas keyfiyyət göstəricisi ondan ibarətdir ki, mənəvi həyatın əsaslı dirçəlişi və tərəqqisi surətlə getməkdədir, xalq öz tarixi yaddaşını və keçmişini özünün bütün koloriti ilə sosial hafizədə yenidən bərpa edir, milli-mənəvi dəyərlər sistemində tarixin «ağ ləkələri» aradan qaldırılır, millət və xalqların sosial orqanizm kimi inkişafı və özünüdərki prosesi qüvvətlənir. Milli həyatdakı bü yeni meyllər həm renessans, həm də etnik partlayışlar dövrü kimi səciyyələndirirlər. [20, s.42] Milli münasibətlərdəki yeni meyllər bu və ya digər regionu deyil, bütün dünyanı əhatə edən qlobal meyllərdir, onlar az və ya çox dərəcədə dünyada

məskunlaşmış bütün millət və xalqların həyat tarixində, dünyagörüşündə özünü hiss etdirir.

Doğrudan da, XX əsrin sonuncu rübündə milli inkişafdakı yeni meyllər, xüsusilə də milli dirçəliş və milli inteqrasiya xarakterli meyllər diqqəti cəlb edir. Bir tərəfdən, milli proseslərdəki dinamizm sivilizasiyanın aparıcı qıvvəsi kimi dünyanın siyasi mənzərəsinə güclü təsir göstərmiş, digər tərəfdən, millətlərarası əlaqə və ünsiyyətdə müsbət meyllərin inkişafına təkan vermişdir. Milli şüur və milli özünədərkin dərin vüsət alması ilə müşayiət olunan bu proses milli tərəqqiyə, xalqların mənəvi potensialının açılmasına, onların dünya sivilizasiyasına töhfələrinin daha da genişlənməsinə xidmət edir. Odur ki, dünyanın həm sosial, həm də siyasi mənzərəsinin yeni təfəkkür qayda və qanunlarına uyğun qurulmasında, dünya sivilizasiyasında yeni cizgilərin formalaşmasında milli amillərin rolu artır. Bu, hər şeydən əvvəl, tarixi səhnədən sıxışdırılmış, müstəqil dövlətçilik atributlarından məhrum edilmiş xalqların yenidən tarixin yaradıcı qüvvələrinə çevrilməsi, onların siyasi və mənəvi inkişafları üçün meydan açılması hesabına baş verir.

Milli münasibətlərin ideya-nəzəri əsasları da sürətlə dəyişir. Belə ki, bu sahəni həddən artıq ideologiyalaşdırmağın, onu müəyyən sosial-sinfi məqsədlərə tabe etməyin perspektivsizliyi getdikcə aydınlaşır. Digər tərəfdən, milli münasibətlər haqqında baxışlar yeni dövrün gerçəkliklərini cəsarətlə özündə əks etdirən elmi müddəalar hesabına zənginləşməkdədir. Son vaxtlara qədər sosializm cəbhəsində milli münasibətlərin ehkam xarakterli ideoloji qəliblərə salınması onların inkişafını təbii axardan çıxarmış, praktikanın tələblərindən uzaq streotiplərin yaranmasına şərait yaratmışdır. Nəticədə, müəyyən tarixi məqamlarda milli münasibətlərdə yaranan gərginliyin təbiəti düzgün anlaşılmadığından, müxtəlif səbəblərdən doğan problemlərə bir prizmadan yanaşılmış, yanlış mühakimə və mücərrəd ümumiləşdirilmələrin meydan sulamasına əhəmiyyət verilmə-



mişdir. Məsələn, sosial və etnik proseslərin sosializm şəraitində də ziddiyyət yarada biləcəyi ehtimalı, nəzəri fikirdə belə yaxına buraxılmır, yalnız sosializmin milli münasibətlərdə harmoniya yarada biləcəyi fikri geniş təbliğ edilirdi. Lakin SSRİ-nin dağılması gedişində milli münaqişələrin geniş rəvac alması bu fikirlərin həm elmi-nəzəri, həm də praktiki əsassızlığını sübuta yetirdi.

Müasir dövrdə milli münasibətlərdə təhlükəli meyllərdən olan və sivilizasiyanın mahiyyəti ilə daban-dabana zidd olan davakar millətçilik və təcavüzkar separatizm təzahürləri xüsusilə qorxulu hal almışdır. Sosializm dövründə geniş inkişaf tapmış davakar kosmopolitizm, beynəlmiləlçilik adı altında milli özünəməxsusluğun boğulması bir ifrat mövqe idisə, milli münasibətlərin emansipasiyası ilə bağlı qatı millətçiliyin oyanması yeni ifrat mövqedir. Milli inkişaf və özünəqayıdış şüarları ilə pərdələnmiş bu təzahürlər təkcə milli münasibətləri düyünə salmır, eyni zamanda beynəlxalq münasibətlərdə sivilizasiyalı qaydaların inkişafı yolunda ciddi əngəllər yaradır. Köhnə SSRİ məkanında daha geniş yayılmış bu təzahürlər özünün ideoloji bazası kimi millətlərin öz müqəddəratını təyin etməsi prinsipini əsas götürür, bu prinsipi mütləqləşdirərək dünyada bərqərar olmuş reallıqları təftiş etməyə çalışır. Əlbəttə, milli dövlətlərin yaranmasında beynəlxalq hüququn fundamental prinsiplərindən olan öz müqəddəratını təyin etmə bu gün də öz aktuallığını saxlayır. Lakin 2-ci dünya müharibəsindən sonra dünyada sülhü, əmin-amanlığı qoruyub saxlamaq məqsədilə müharibədən sonrakı sərhədlərin toxunulmazlığı haqqında qəbul edilmiş digər bir prinsip müasir sivilizasiyanın inkişaf edib möhkəmlənməsi məqsədlərinə xidmət etdiyindən daha üstün əhəmiyyət kəsb etməyə başlamışdır. Yəni dövlətlərin ərazi bütövlüyü və sərhədlərinin pozulmazlığı, dünyanın siyasi xəritəsinin formalaşmış reallıqlarının qəbul edilməsi müasir milli inkişafın əsas dialektikası olmaqla yanaşı, sivilizasiyanın nizamının qorunub saxlanılması məqsədlərinə də xidmət edir. Çünki müasir siviliza-

siyanın doğurduğu güclü inteqrasiya prosesləri milli inkişafdakı özünəməxsus cəhətləri bir çox hallarda üstələdiyindən milli məsələlərə yanaşma və onların həllində yeni kateqoriya və anlayışların meydana çıxması tamamilə təbiidir. Məsələn, bütün dünyada 2 mindən çox millət və xalq yaşasa da, onlardan yalnız 189-u öz müqəddəratını təyin edib milli dövlətlərini yarada bilmişlər. Dağlıq Qarabağ ermənilərinin öz müqəddaratını təyin etmək haqqında demoqoq iddiaları, onların Ermənistan-Rusiya alyansı şəklində Azərbaycanın 20 faizdən çox torpaqlarını işğal etmələri gah milliazadlıq müharibəsi, gah Qarabağ ermənilərinin öz tarixi vətənlərinə qovuşması kimi təqdim edilsə də, bu əslində Azərbaycanın erməni əsilli vətəndaşlarının silahlı qiyamının böyüyərək Ermənistanın Azərbaycana qarşı açıq təcavüzündən başqa bir şey deyildir. Ümumiyyətlə isə, dünya praktikasında bir millətin öz müqəddəratını iki dəfə, özü də başqa-başqa coğrafi ərazilərində təyin etməsi faktına rast gəlmək mümkün deyildir. Çünki hər bir millət və ya xalq özünün yalnız bir milli dövlətinə malik ola bilər. Odur ki, Dağlıq Qarabağ ermənilərinin separatçı hərəkətləri həm BMT-nin məlum qətnamələrində, həm də ATƏT-in Budapeşt və Lissabon sammitlərində özünün layiqli hüquqi-siyasi qiymətini almışdır. Abxaziya, Cənubi Osetiya, Dnepryanı bölgələrdə baş verən hadisələr də bu qəbildəndir.

Bütün bunlar təsdiq edir ki, xırda xalqların davakar separatizmi dünyada formalaşmaqda olan yeni iqtisadi və siyasi qayda-qanunların məntiqinə zidd olub dünya sivilizasiyasının inkişafı yollarında süni əngəllər yaradır. Burada ayrı-ayrı dövlətlərin «böyük dövlətçilik» ambisiyaları da az ziyanlı rol oynamır.

Son vaxtlar bir sıra ölkələrdə, xüsusən də Rusiyada millətçilik və şovinizm meyillərinin xeyli gücləndiyinin şahidi olmaqdayıq. Statistiklər 10-dan çox millətçi, 20-yə qədər antisemit və digər təşkilatların burada açıq fəaliyyət göstərdiyini qeyd edirlər. [2]

Qlobal sivilizasiyanın inkişafı ilə dissonans təşkil



edən bu meyl imperiya ambisiyalarının qalıqları olsa da, Rusiyada gedən demokratikləşmə və açıq cəmiyyət quruculuğuna ciddi əngəllər yaradır. Kommunistlərin və digər sol qüvvələrin cəmləşdiyi milli-vətənpərvərlər cəbhəsi isə Rusiyanı geriyə qaytarmaq niyyətlərini gizlətmir.

Özü də heç kəsə sirr deyildir ki, keçmiş SSRİ məkanında milli zəmində baş verən münaqişələrin əksəriyyətinin dirijor çubuqları Moskvanın əlindədir, müəyyən dairələr etnik münaqişələr kartından yeni imperiya nastolgiyasını həyata keçirmək üçün istifadə etməyə çalışırlar.

Əlbəttə, millətçilik bütün millət və xalqların milli dövlət quruculuğu prosesində tarixən keçdikləri bir mərhələdir. Əgər o, başqa xalqlara nifrət hissi ilə qovuşmursa, milli şüurun, milli ideya və baxışların formalaşmasına xidmət edirsə müəyyən dövrlər üçün mütərəqqi rol oynaya bilər. Lakin o, irqçilik və şovinizm ideologiyası ilə birləşdikdə faşizm və digər eybəcər formalarda təzahür edə bilər. Nə qədər təəccüblü olsa da, bu gün də bəzi inkişaf etmiş Avropa ölkələrində neofaşizm meyllərinə rast gəlmək olur. Fransada Le Pen, Almaniyada Şellenberq, Rusiyada Jirinovski kimilər faşizm və nasional-sosializm ideyalarını açıqca təbliğ edir, hətta xeyli tərəfdarlar da qazanırlar. [66]

Azərbaycanda da millətçi platformada dayanan partiyalar mövcuddur.Lakin onların proqramlarında millətçilik baxışları liberal-demokratik dəyərlərlə sıx əlaqələndirilmişdir və bu mənada keçid dövründə Azərbaycan cəmiyyəti qarşısında duran müəyyən vəzifələri özündə əks etdirir.

Azərbaycandakı siyasi partiyalar milli yönümlü partiyalar sırasına daxil olub, milli və ümumbəşəri dəyərlərə əsaslanan dövlət quruculuğunu öz qarşılarına bir məqsəd kimi qoyurlar. Mübahisəsiz vurğulamaq olar ki, bir ictimai-iqtisadi sistemdən digərinə keçid dövründə başqa millətlərə nifrət üstündə köklənməyən millətçilik

milli həyatı səfərbər etmək, milli şüuru yetginləşdirmək və beləliklə də milli dövlət quruculuğunu daha da sürətləndirmək baxımından mütərəqqi rol oynaya bilər. Bir çox mütəfəkkirlər əzilən millətlə əzən millətin millətçiliyi arasında fərq qoymağın tərəfdarı olmuş və qeyd etmişlər ki, istismar olunan, müstəmləkə zülmü altında işləyən xalqın millətçiliyində həmişə ümumdemokratik bir məzmun olmuş və o, mütərəqqi xarakter daşımışdır. [31, s.123] Bu mənada, öz müstəqilliyini qoruyub saxlamaq uğrunda ölüm-dirim mübarizəsi aparan Azərbaycanda mövcud olan millətçilik ideyaları ilə Rusiya kimi nəhəg bir dövlətdə yayılmış «böyük dövlətçilik» ideyalarının (yeni şovinizmin) yerlə göy qədər fərqi vardır. Ümumiyyətlə, böyük dövlətlərin siyasi maraqları bəzi dünya ziddiyyətlərinin yaranması üçün səbəb rolunu oynayır. Odur ki, fövqəl dövlətlərin nüfuz dairələri uğrunda mübarizəsi bir qayda olaraq kiçik dövlətlərin və yenicə müstəqillik qazanmış ölkələrin milli maraqları ilə üst-üstə düşür, siyasi sabitliyin pozulmasının başlıca amillərindən birinə çevrilir.

Belə bir faktı da qeyd etməliyik ki, millətçilik bir ideya kimi özünü tükəndirdiyindən müasir sivilizasiyanın inkişaf məntiqinə getdikcə o qədər də uyğun gəlmir və bu mənada öz tarixi missiyasını başa vurmuş baxışlar sistemi kimi tədricən aradan qalxır. Çünki milli inkişafı əks etdirən dəyərlər üsumbəşəri dəyərlərlə sıx birləşərək milləti sivilizasiyanın əsas inkişaf yoluna çıxarır, ictimai tərəqqidə milli ilə ümumbəşərinin sıx varisliyini təmin edir. Bu gün milli münasibətlərin müasir sivilizasiyanın təbiətinə uyğun surətdə formalaşdırılması o deməkdir ki, millətlərarası əlaqələr yüksək sivilizasiyalı normalarla aşılansın, bu münasibətlərdə arxaik, köhnə olan nə varsa hamısından imtina olunsun, bu münasibətlər birdəfəlik ədalət və vicdan qanunlarına uyğun surətdə tənzim olunsun.

Millətçilik tarixi bir kateqoriya kimi tədricən ara-



dan qalxmağa başlasa da, elmi dövriyyədə «kiçik xalqların böyük millətçiliyi» termini geniş istifadə olunur. Belə ki, dünyanın bir çox çoxmillətli ölkələrində azlıqda qalan xalqların böyük dövlətçilik tələbləri etnik separatizmin yeni dalğasını doğurmuş, millətçilik hərəkatlarına vüsət vermişdir. Millətçiliyin bu forması dövlətlərarası münasibətlərdə ciddi gərginlik yaratdığından dünya ictimai rəyi və beynəlxalq təşkilatlar tərəfindən mənfi qarşılanmışdır. [39, s.102]

Müasir sivilizasiyanın fəal təsiri altında milli-özünəməxsus cəhətlər milli sərhədləri aşıb keçsə də, onların səciyyəvi-əlahiddə cəhətləri yeni şəraitdə keyfiyyət çalarları ilə daha da zənginləşir. Milli gerçəkliyə, millətin adı ilə bağlı səciyyəvi xüsusiyyətlər toplusuna nəzər salsaq görərik ki, orada sırf milli cəhətlərlə yanaşı, digər millət və xalqların, ümumiyyətlə sivilizasiyanın tarixi inkişaf təcrübəsindən əxz edilmiş çoxlu nümunələrə rast gəlmək olar. Çünki hər bir etnik qrup, millət və xalq bütün qlobal ictimai münasibətlər və əlaqələr sistemindən təcrid edilmiş avtonom bir qurum deyildir, onlardan hər biri bəşər adlı nəhəng sosial orqanizmlə yüzlərlə, bəlkə də minlərlə tellərlə bağlıdırlar. Müasir sivilizasiyanın səciyyəvi cəhəti kimi xalqların sosial hafizəsində millətlərarası münasibətin milli mədəniyyətlərarası inteqrasiyanın olduqca mütərəqqi formaları yaşayır. Bunlar millət və xalqların mehriban qonşuluğuna, onların iqtisadi, siyasi və mədəni əməkdaşlıqlarının humanist formalarına aiddir. Hər halda bu cür əlaqə formaları digər mənfi əlaqə formalarından qat-qat çoxdur. Xalqlararası əlaqələrin müsbət ənənələri bəzən dil, sosial-psixoloji, etnik və dini fərqlərdən daha qabarıq ortaya çıxır, beynəlxalq münasibətlərdə sivilizasiyalı davranış məhək daşına çevrilir. Həm də bu ənənələr dini mövhumatın, milli zehniyyətin yaratdığı maneələri aradan qaldırmağa kömək edir, müxtəlif milli mədəniyyətlərin inteqrasiyasını, sosial-iqtisadi və siyasi əlaqələrin

yeni formalarını yaratmaqla dünya sivilizasiyasının inkişafına möhkəm təməl yaradır.

Bunlar insani münasibətlərin milli cəhətlərlə bağlı sahələrində sivilizasiyalı mənəviyyatın, millətlərarası əlaqələrdə sağlam düşüncənin bərqərar olması və bu sahədə toplanmış tarixi təcrübənin yeni keyfiyyətlərlə zənginləşməsində mühüm rol oynayır. Bu gün Qərbi Avropada gedən iqtisadi inteqrasiya prosesləri milli münasibətlərə də dərindən təsir göstərir. Belə ki, Avropa Birliyinə (AB) daxil olan ölkələr arasında vizasız gediş gəliş, kömrük sərhədlərinin olmaması, vahid valyuta və s. bura daxil olan ölkələr arasında millətlərarası münasibətlərin rəvan və normal məcrada inkişafı üçün misilsiz imkanlar açır. Müasir sivilizasiyanın təsiri altında bu ölkələrdə ümumbəşəri dəyərlərlə milli dəyərlərin sıx əlaqəsi yaradılmış, bütün bunlar isə öz növbəsində bu münasibətlərin problemsiz inkişafı üçün gözəl şərait açmışdır.

Qərb ölkələrində sivilizasiyanın tərəqqisi ilə əlaqədar ictimai münasibətlərdə, onun tərkib hissəsi kimi milli münasibətlərdə baş verən müsbət dəyişiklikləri idealizə etmədən belə bir faktı hökmən ön plana çəkməliyik ki, milli problemlər, millətlərarası münaqişələr təbiət etibarilə daha çox iqtisadi və mədəni inkişafın zənginliyi, siyasi sistemlərin geridə qaldığı regionlarda daha çox baş verir.

Əlbəttə, bu heç də milli vəzifələrin, milli mənafelərin unudulması demək deyildir. Çünki sivilizasiyanın qlobal tərəqqisi kontekstində həm millət və xalqların tükənməz yaradıcılıq potensialı üzə çıxır, həm də bu sahədə ziddiyyətlər və antaqonizmlər yaradan meyllər tədricən aradan qalxır. Odur ki, bu prosesdə ən çətin vəzifələrdən biri milli və humanist ideal və dəyərlərin bir vəhdətdə birləşdirilməsi, bu sahədə ümumbəşəri təməlin möhkəmləndirilməsindən ibarətdir. Bu yolda millətlərararası ünsiyyət mədəniyyətinin bərqərar edilməsi



daha ciddi əhəmiyyətə malikdir. Bu isə bu münasibətlərdə yüksək əxlaq qaydalarının və bəşəri mənəviyyatın təmin edilməsini tələb edir.

Bu məsələnin aktuallığı həm milli münasibətlərdə vaxtilə yol verilmiş təhrif və deformasiyalarla, həm də müasir sivilizasiyanın doğurduğu yeniləşmə və təkamüllə sıx bağlıdır. Belə ki, bir tərəfdən, xalqların müstəqillik uğrundakı mübarizələri real nəticələr vermiş, milli əlahiddəliyə meyl güclənmiş, digər tərəfdən dünyada gedən iqtisadi, siyasi və mədəni inteqrasıya prosesləri vahid dünya təsərrüfatının yaradılması ideyasını da zəruri etmişdir. Bütün bunlar müəyyən etik normalar üzərinə qoyulmadan dünya miqyasında nə sivilizasiyalı münasibətlər yaratmaq, nə də sivilizasiyanın bütün potensialından istifadə etmək olar.

Çünki etnik fəallıqlar, milli emosiyaların kükrəməsi milli planda müəyyən pozitiv meyllər yaratsa da, beynəlxalq planda ciddi problemlərə, regional gərginliklərə, hətta bütün dünyada sabitliyə xələl gətirən irimiqyaslı və uzunmüddətli toqquşmalara səbəb olur.

Bü gün milli münasibətlərdə yaranmış yeni meyllər istər müsbət olsun, istərsə də mənfi çox vaxt öz mənbəyini xalqların və millətlərin tarixinin ayrı-ayrı dövr və mərhələlərindən götürür. Çünki tarixi irs və tarixi praktika millətlərarası münasibətlərin rəngarəng formaları ilə zəngin olduğundan bu ənənələr həmişə varislik meyllərinə malik olur. Lakin əsas məsələ ondan ibarətdir ki, keçmiş tarixdən nələr əxz edilir, millətin yaddaşına nələr həkk edilməyə çalışılır.

Tarixdən həm od, həm də kül götürmək olar. Tarixə ehtiyatla yanaşanlar keçmiş irsdən millətlərarası etimadı möhkəmləndirən, xalqları biri-birinə yaxınlaşdıran məqamları, avantüristlər isə milli nifaqı dərinləşdirən, qarşıdurmalar yaradan faktları götürüb dövriyyəyə buraxırlar.

Şovinizm azarına tutulmuş ermənilər uydurulmuş,

şişirdilmiş tarixi keçmişlərindən bir qayda olaraq millətlərarası nifaqı qızışdıran cəhətləri özlərinin milli şüuruna sırıyaraq millətçilik azarını daima qızışdırırlar. Uydurma erməni genosidi, dənizdən-dənizə «Böyük Ermənistan» və s. bu cür xəstə təxəyyülün məhsulları olmaqla son vaxtlar millətlərarası münasibətlərə, xüsusən də Ermənistan-Azərbaycan münasibətlərinə çox böyük düşmənçilik gətirmişdir. Tarixdən heç vaxt ibrət dərsi götürməyən bu başabəla millət özünün təcavüzkar niyyət və əməlləri ilə regiondakı münasibətlərə ağır zərbələr vurmuşdur. Lakin tarix öz yaddaşında xalqlararası münasibətlərin həm də gözəl nümunələrini yaşadır. Məhz belə nümunələr müasir sivilizasiyasının inkişafına nümunə ola bilər. Məsələn, doğma xalqımızın milli praktikasında başqa millət və xalqlara münasibətin, elə ermənilərin özlərinə münasibətin nə qədər desən humanist formalarına rast gəlmək mümkündür. Genişüreklilik, yüksək səmimiyyət, əsl beynəlmiləlçilik Azərbaycan xalqının mentalitetində aparıcı yer tutmuşdur. [55, s.18]

Lakin son vaxtlar Azərbaycana qarşı aparılan ideoloji-təxribat işlərindən respublikamızda yaşayan azsaylı xalqların milli hissələrinin qızışdırılması, onlarla əsas aborigen etnos olan azəri türkləri arasında süni gərginliklər yaradılmasına xüsusi diqqət yetirilir. Ləzgi, talış, kürd kartları Rusiyanın və Ermənistanın xüsusi xidmət orqanlarının fəaliyyətlərində mühüm yer tutur. Hətta, guya rusların sıxışdırılması barədə iddialara rast gəlmək olar. Azərbaycanın federallaşdırılması bu cür məkrli planların tərkib hissələrindəndir. Bu gün Azərbaycanda təxminən 80 millət və xalqın nümayəndəsi yaşayır. Onlardan 400 min rus, 160 min yəhudi, 30 min tatar, 26 min ukraynalı, 11 min gürcü, 36 min Dağıstan xalqlarının nümayəndələri yaşayırlar. Ermənistandan qovulmuş 200 min azərbaycanlının içərisində 20 mindən çox kürd vardır. Onların hamısı üçün respublikada



lazımi şərait yaradılmışdır. Azsaylı xalqların dillərində radio və televiziya verlişləri təşkil edilir, qəzetlər buraxılır. Müxtəlif mədəni cəmiyyətlər bu istiqamətdə faydalı iş aparır. Təkcə Bakı şəhərində 100-dək rusdilli orta məktəb, bütün ali məktəblərdə rus bölmələri vardır. Azərbaycan MDB məkanında yeganə ölkədir ki, orada azsaylı xalqların dilinin, mədəniyyətinin inkişafına qayğı məqsədilə xüsusi prezident fərmanı imzalanmışdır. İsrailin Azərbaycandakı səfiri Elizabet Yotvat qeyd etmişdir ki, dünyanın heç bir ölkəsində yəhudi icmasi özünü Azərbaycandakı kimi sərbəst hiss etmir. Odur ki, keçmiş Sovet respublikaları içərisində yəhudilərin ən az mühacirət etdiyi respublika Azərbaycandır. [8] Bir sözlə, müstəqil Azərbaycan insan hüquqlarının milli hüquqlarla bir vəhdətdə qorunmasına dair beynəlxalq hüquq konvensiyasının tələblərinə ciddi surətdə əməl edir. Azərbaycana qarşı aparılan təxribatlarda imperiya təfəkkürü daşıyıcılarının oynadıqları bədxah rol xüsusi qeyd edilməlidir. Millətlərarası nifaqın bu cür qızışdırılması II Dünya müharibəsindən sonra müstəmləkə sistemi dağılanda da müstəmləkəçi dairələrin davranışlarında açıq aydın özünü biruzə vermişdir. Ümumiyyətlə böyük imperiyalar dağılanda sərhədlərin yenidən biçilməsi cəhdləri, müstəqillik qazanmış dövlətlərin biri-birilərinə ərazi iddiaları xeyli güclənir. Ayrı-ayrı xalqların xəstə millətçilik təxəyyülü zəminində bu proses daha təhlükəli vəziyyət alır. Ölkəmizə qarşı ermənistanın 10 ildən artıq apardığı müharibə ərazilərimizin 20 faizdən artığını itirilməsinə, 1 milyondan artıq adamın öz doğma yerlərindən qaçqın düşməsinə gətirib çıxarmışdır. Bütün bunlar təsdiq edir ki, müasir dövrdə ifrat millətçilik təzahürləri müasir sivilizasiyanın əsaslarını hədələyən qorxulu amillərdən biridir. O, harada olursa-olsun dünyada gedən obyektiv xarakterli iqtisadi, siyasi və mənəvi inteqrasiya proseslərinin əleyhinə gedir və beləliklə də, müasir sivilizasiyanın inkişafı yolunda süni əngəllər yaradır.

Odur ki, son dövrlərin tədqiqat əsərlərində «davakar» və «təcavüzkar» millətçilik terminlərindən geniş istifadə olunur, bu kateqoriyaların siyasi, iqtisadi və sosial səbəblərinin araşdırılmasına böyük diqqət verilir.

Milli inkişafın qlobal siyasi proseslərlə qarşılıqlı əlaqəsinin öyrənilməsi prinsipial əhəmiyyətə malikdir. Bu səpkidə həm milli münasibətlərin dialektikası, həm də beynəlxalq siyasi münasibətlərin mürəkkəb anatomiyası daha yaxşı anlaşıla bilər. Bu iki amilin bir-birinə qarşılıqlı təsiri mexanizmində ictimai münasibətlərin geniş məzmununun daha dəqiq öyrənilməsi mümkündür.

Milli münasibətlərin müasir meyli etnik partlayışlar, milli həyatın oyanması,onlarla millət və xalqın fəallaşmış milli-siyasi proseslərə cəlb edilməsi, onların müstəqil dövlət yaratmaq, beynəlxalq münasibətlərin müstəqil subyektinə çevrilmək uğrunda mübarizəsi, müəyyən regionlarda milli münaqişələrin beynəlxalq münasibətlərdə ciddi problemlər yaratması və nəticə etibarilə milli amilin mühüm siyasi fakt kimi meydana çıxması ilə səciyyələnir. Digər tərəfdən, qlobal proseslərdə qarşıdurma, soyuq müharibə vəziyyətinin, müharibə riskinin tədricən azalması, beynəlxalq münasibətləri daha sivil məcraya yönəltmək cəhdləri müşahidə olunur.

Həm milli, həm də qlobal amillər isə müasir sivilizasiyanın inkişafını şərtləndirdiyindən onların qarşılıqlı əlaqəsi sosial tərəqqidə böyük rol oynamışıdır.

XX əsrin axırlarına doğru milli proseslərdə müşahidə edilən intensivlik sözsüz ki, qlobal proseslərin həm dinamikasına, həm də onun ümumi mənzərəsinə xeyli təsir göstərir. Yəni xalqların dünya siyasətinə fəal müdaxiləsi, onların beynəlxalq aləmdə daha güclü mövqe tutmaq cəhdləri, bir tərəfdən, qlobal siyasi prosesləri canlandırır, digər tərəfdən isə millət və xalqların sivilizasiyalı beynəlxalq münasibətlərə cəlb edilməsinə lazımi şərait yaradır.



Bir faktı qeyd etmək lazımdır ki, müxtəlif dövrlərdə xalqlararası münasibətlərin yolu o qədər də hamar olmamışdır. İqtisadi və siyasi liderlik uğrunda mübarizə müxtəlif xalqların «qaniçən», «qəsbkar», «vəhşi» obrazını yaratmış, beynəlxalq münasibətlərdə zorakılığı bir növ normaya çevirmişdir. Dünyəvi siyasi proseslər etnik münaqişələr və millətlərarası çəkişmələrdə dəfələrlə müharibə həddinə gəlib çıxmış, bundan sivilizasiyanın maddi və mənəvi dayaqlarına çox böyük ziyan vurmuşudur. Tarixçilər hesablamışlar ki, indiyədək yer kürəsində irili-xırdalı 9300-dən çox müharibələr olmuşdur. Bəşər tarixinin yalnız 214 ili müharibəsiz keçmişdir. Odur ki, tədqiqatçılar dünyəvi proseslərin inkişafı ilə etnik proseslər arasında qırılmaz əlaqənin olduğunu dönə-dönə vurğulayırlar.

Bəziləri beynəlxalq münasibətlərdəki zorakılığı, müharibələri insan təbiətində olan «vəhşi instiktlərlə» izah edirlər. Onlar müharibələri insan xislətinə mənsub olan təbii keyfiyyət, insan xarakterinin yırtıcı əlaməti kimi təqdim etməyə çalışırlar. Lakin bu zaman dün-yanın sosial inkişaf qanunauyğunluqları, tarixdə sosial-sinfi, etno-psixoloji amillərin rolu məsələsi nəzərdən qaçırılır. Axı insan öz təbiətinə görə sırf bioloji məxluq deyildir, onun mahiyyəti daha çox sosial-siyasi cəhətli əsrin sıx çulğaşması ilə qırılmaz əlaqədədir. Konkret siyasi mənafelərin başqa üsullarla, zorakı metodlarla davamı olan müharibələr isə daha çox siyasi, iqtisadi, etnik mənafelərə xidmət etmişdir. Odur ki, tarixi proseslərin, qlobal münasibətlərin təbiətində etnososioloji amillər həmişə aparıcı rol oynamışdır. Məsələn, XIX əsrin ortalarına qədər tarixi inkişafda etnik dövrdən başlayaraq sosial-sinfi amillər dünyanın siyasi mənzərəsinə daha ciddi təsir göstərməyə başlayır. Ciddi siyasi qüvvə kimi ortaya çıxmış proletariat və onun sinfi ideologiyası olan marksizm qlobal prosesləri sarsıtmağa başlayır.

[31, s.15]

Əlbəttə bu heç də qlobal proseslərdə etnosiyasi amillərin arxa plana keçməsi demək deyildir. Sadəcə olaraq sinfi amillər etnosiyasi amilləri bir qədər sıxışdıraraq beynəlxalq münasibətlərə, ictimai inkişaf proseslərinə daha fəal təsir göstərməyə başlayır. Bu dövrdə dünya proletarlarının sinfi birliyi şüarının reallaşdırılması özünün praktiki təzahürünü proletar inqilabı və onun ixracı modelində tapır. 1917-ci il Rusiyadakı oktyabr inqilabı XX əsrin başlıca hadisəsi, yeni dövrün sosialist inqilabları və bütün dünya sosializmin və kommunizmin qələbəsi kimi təqdim edilir. Doğrudan da, XX əsrin ortalarına qədərki dövrü sosializmin zəfər yürüşü, onun qlobal siyasi proseslərdə artan rolu kimi qiymətləndirmək olar. Bu dövrdə etnik proseslərin qlobal miqyasda əhəmiyyəti minimuma enir, beynəlxalq münasibətlər xeyli dərəcədə ideolojiləşir, sinfi ehkamlar bir çox beynəlxalq məsələlərə yanaşmada qəti imperativlərə çevrilir. [27, s.27] Sosializmin dünya sisteminə çevrilməsi dünyanı iki ictimai-siyasi sistemə parçalayır və onların qarşıdurması «soyuq müharibə»nin başlanğıcını və beynəlxalq münasibətlərdəki gərginliyin əsasını qoyur. 3-cü minillik ərəfəsində qanlı müharibələrdən, biabırçı zorakılıqlardan cana gəlmiş dünya iki sistemin kəskin ideoloji mübarizəsi ilə üzləşir, dünya sivilizasiyası ağır sınaqlara məruz qalmalı olur.

Əgər sosializm zorla bütün dünyaya kommunizmin ixracını məqsəd hesab edirdisə, kapitalizm də sosializmi tarixin səhvi kim qiymətləndirir, onu tarixin zibilliyinə atacağı ilə hədələyirdi. Bu kəskin qarşıdurma dünyanın maddi və mənəvi ehtiyatlarını sürətlə silahlanmaya, hətta lokal xarakterli hərbi qarşıdurmalara gətirib çıxarırdı.

Sosializmin tarixi perspektivsizliyinin aşkara çıxması, onun bir sistem kimi süquta uğraması qlobal proseslərdə əvvəlcə Şərqi Avropa ölkələrinin rolunun artmasına gətirib çıxartdı. Sosializmin düşərgəsindən qopub ayrılan Polşa, Macarıstan, Çexiya, Slovakiya, Bolqarıstan, Şərqi Almaniya, Rumıniya, eləcə də Yuqoslaviya və Albaniya sürətlə bazar iqtisadiyyatı və plüralist siyasi sistemin yaradılması yoluna qədəm qoydular. Həmin ölkələrin həmçinin Qərb sivilizasiyası və qlobal siyasi münasibətlər sisteminə inteqrasiya edilməsi prosesi də çox çevik surətdə həyata keçirilməyə başladı. Bütün bu dəyişikliklər həmin ölkələrin beynəlxalq münasibətlərdə daha fəal rol oynamalarına şərait yaratdı. Sosializmin düşərgəsində bir çox dövlətlərin iqtisadi və siyasi orientasiyalarını dəyişməsi qlobal siyasi münasibətlərin də ideologiyasızlaşdırılmasına geniş meydan verdi. Dünyanın bütövlüyünün, onun tale vahidliyinin dərk edilməsi ictimai quruluşundan asılı olmayaraq bütün dövlətlərin xarici siyasətdə aparıcı yer tutmağa başladı.

Sosializmin ideoloji sistem kimi zəifləməsi beynəlxalq münasibətlərdə ayrı-ayrı dövlətlərin, o cümlədən də hətta kiçik dövlətlərin rolunun artmasına gətirib çıxarır. Varşava hərbi paktının aradan qalxması ilə hərbi siyasi blokların qarşıdurması ilə aparılan siyasət də tədricən iflasa uğrayır. Güc mövqeyindən siyasət, nüvə doktrinaları öz həlledici əməhiyyətini itirməyə başlayır. Bu gün yeganə hərbi-siyasi blok olan NATO daha çox siyasi ittifaq funksiyasını icra edir. Keçmiş Varşava müqaviləsinə daxil olan dövlətlərin (Macarıstan və Polşa) bu bloka daxil olma cəhdləri, bir sıra MDB dövlətlərinin, o cümlədən də Azərbaycanın NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmaları Avropanın və bütün dünyanın formalaşmaqda olan yeni siyasi mənzərəsindən xəbər verir. Bu fonda keçmiş Sovet respublikalarının da dünya siyasi proseslərinə daha fəal cəlb olunmalarını müşahidə etmək olar. Baltikyanı respublikalar - Latviya, Litva və Estoniya özlərinin çoxdan apardıqları müstəqil xarici siyasət kursu ilə Avropa və

dünya siyasi proseslərinə çox ciddi surətdə inteqrasiya edə biliblər. Həmin ölkələr iqtisadi və siyasi islahatları uğurla aparmaqla yanaşı, özlərinin müstəqil xarici siyasət xətləri ilə qlobal siyasətin formalaşmasına kifayət qədər təsir göstərməyə başlamışlar. Köhnə SSRİ məkanı ilə əlaqələri minimuma endirmiş, inkişaf etmiş Avropa ölkələri ilə hərtərəfli iqtisadi və siyasi əlaqələr yaratmışlar. Elə bu səbəbdəndir ki, həmin ölkələrdə müstəqil dövlət quruculuğu, etnik və siyasi şüurun inkişafı yüksək surətlə gedir. Bu gün həmin ölkələrdə keçmiş asılılıq münasibətlərindən əsər-əlamət qalmamışdır. Köhnə SSRİ respublikalarının bəzilərində isə vəziyyət bir qədər başqadır.

Məsələn, Zaqafqaziya respublkalarında-Azərbaycan, Güncüstan və Ermənistanda həm oxşar, həm də xeyli fərqli cəhətləri vardır. Belə ki, demokratik idarəçilik metodlarının tətbiqi baxımından bu ölkələrdən hər biri fərqli səviyyələrdə dayanır. Məsələn, Avropa Şurasının məlumatlarında Gürcüstan demokratik seçkilərin keçirildiyi bölgəyə aiddir. Lakin bu sözləri Azərbaycan və Ermənistan haqqında söyləmək çətindir. Lakin Azərbaycan və Gürcüstan eyni zamanda daxili separatizmlə üzləşmişlər. Odur ki, uzun müddətdir ki, bu region üzücü müharibə ilə üzləşmiş və qlobal siyasi proseslərdə daha çox öz ərazi bütövlüklərini qorumaq uğrunda mübarizə ilə iştirak edirlər. Son vaxtlar neft kontraktlarının imzalanması, neft kəmərləri marşrutlarının müəyyənləşdirilməsi Azərbaycan və Gürcüstanı dünya siyasətinin ön cərgələrinə çıxarmışdır. Transavrasiya nəqliyyat yolu ideyası da Azərbaycan və Gürcüstanın strateji əhəmiyyətini xeyli artırır. Regiondakı Ermənistan dövlətinin Azərbaycana qarşı təcavüzü, onun fövqəldövlətlərin əlində oyuncağa çevrilməsi Zaqafqaziya regionunun strateji əhəmiyyətinin potensial imkanlarını tam reallaşdırmağa imkan vermir. Yəqin ki, bu regionda ədalətli və möhkəm sülh yarandıqdan sonra bu regionun qlobal



siyasətdə yeri və rolu əhəmiyyətli dərəcədə artacaqdır.

Orta Asiya respublikaları və Qazaxıstan iqtisadi və siyasi inkişafın ciddi problemlərini həll etməkdədirlər. Tacikistan istisna olmaqla bu region demək olar ki, sabit iqtisadi artım yoluna qədəm qoymuşdur. Öz aralarında normal iqtisadi və siyasi əlaqələr qurmağa müvəffəq olmuş bu respublikalar təkcə MDB məkanında deyil, qlobal siyasi proseslərdə də fəal iştirak edirlər. Bu ölkələrdə demokratik siyasi islahatlar demək olar ki, yerində saysa da, iqtisadi tənəzzül və digər ciddi böhran meyllərini dəf etmək, xarici investisiyaları ölkəyə gətirmək, struktur islahatları həyata keçirmək mümkün olmuşdur. BMT və digər beynəlxalq təşkilatların üzvü olan Qazaxıstan, Türkmənistan, Özbəkistan, Qırğızstan, Tacikistan böyük İpək yolunun və mühüm yanacaq-energetika ehtiyatlarının hövzəsi kimi qlobal siyasətin və bir sıra inkişaf etmiş ölkələrin diqqətini surətlə özünə çəkməkdədir.

Daxili separatizmdən tədricən qurtulmağa çalışan Moldova respublikası da fəal siyasət mövqelərinə çıxmaqdadır.

Köhnə SSRİ məkanında siyasi proseslərin cərəyanına ən fəal təsir edən ölkə Rusiya Federasiyasıdır. Bu ölkə MDB kimi nəhəng qurumun özəyində dayanmış və bu mənada geniş bir coğrafi ərazidə ictimai-siyasi proseslərə fəal təsir etmək imkanlarına malikdir. Dünyanın ən güclü nüvə dövləti olan Rusiya hələ də qlobal proseslərdə mühüm rol oünamaqda davam edir. Bununla yanaşı, o, fövqaldövlət kimi öz mövqelərini təhvil verməkdə, tədricən adi dövlətlər cərgəsinə qoşulmaqdadır. Onun BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri kimi rolu da əvvəlki təsir gücünü saxlaya bilmir.

İndi dünya siyasətində yeni, cavan dövlətlərin rolu durmadan artmaqdadır. Onlar dünyanın müxtəlif regionlarına səpələnmişlər, demək olar ki, oxşar problemlərin həlli ilə məşğuldurlar, dünya sivilizasiyasına doğru hə-

rəkət sürətləri o qədər də fərqli deyildir. İnkişaf etməkdə olan ölkələr kimi səciyyələndirilən bu ölkələr tədricən dünya siyasətinə güclü təsir amilinə çevrilməkdədirlər. Bütün bunlar isə həmin ölkələrdə milli-etnik proseslərin yüksəlişi ilə, milli dövlət quruculuğunun tədricən möhkəmlənməsi ilə paralel surətdə baş verir.

Etnik münasibətlərdə yaranan kriminal meylləri də hökmən qeyd etmək lazımdır. Son vaxtlar bir sıra etnik qrupların milli-etnik maraqlar uğrunda mübarizəsi bəzi regionlarda öz həddini aşaraq kriminal məcraya yönəlmiş, davakar millətçilik mərəzinə tutulmuşdur. İdeoloji platforması guya öz xalqının mədəni yüksəlişinə xidmət kimi təqdim edilən bu hərəkətlər əksər hallarda siyasi-hüquqi çərçivədən çıxaraq açıq kriminal hərəkətlərə çevrilir və faktik olaraq milli ideyaları gözdən salır. Bu gün belə addımlar «kiçik xalqların böyük millətçiliyi» şəklində təzahür edir və bir çox tədqiqatçıların da qeyd etdiyi kimi dünyanı yeni hərcmərcliyə sürükləyir. [39, s.102]

Qeyd etmək lazımdır ki, kiçik xalqların böyük millətçiliyi oxşar ssenarilər üzrə cərəyan edir, əvvəl sosial-iqtisadi tələblərlə başlayıb, sonradan açıq siyasi tələblərin irəli sürülməsi ilə öz inkişafının aqressiv pilləsinə çatır. Kanadanın Kvebek, İspaniyanın Kataloniya (Baskskon), Böyük Britaniyanın Şimali İrlandiya, Belçikanın Flamandriya, Fransanın Korsika əyalətlərində bu hadisələr 60-70-ci illərdə belə baş verdi. Dağlıq Qarabağ erməni separatçılarının millətçi çıxışları da eyni məcrada inkişaf etdi. Odur ki, kiçik etnik qrupların yeni separatçılıq hərəkatları hal-hazırda dünyada formalaşmaqda olan yeni qaydaların məntiqinə, habelə onların qərarlaşmasına ciddi əngəllər törədir.

Bu gün beynəlxalq münasibətlərin inkişaf dialektikası daha da mürəkkəbləşmiş, xalqların və millətlərin, ölkə və dövlətlərin qarşılıqlı asılılığı daha da artmışdır. Planetimizdə mövcud olan sivilizasiyanın tamlığı və



bütövlüyü, onun problemlərinin vəhdətliyi bu gün daha qabarıq surətdə üzə çıxmağa başlamışdır. Bəşəriyyət, bir tərəfdən, nəhəng məhsuldar qüvvələr yaratmış, digər tərəfdən onun bütün dünya miqyasında doğurduğu sosial-ekoloji və sürətlə silahlanma ilə bağlı qorxulu nəticələri ilə qarşılaşmışdır. Odur ki, sivilizasiya və onun perspektivlərinin qorunması problemləri sosial-siyasi quruluşundan asılı olmayaraq bütün millət və xalqların səylərinin birləşdirilməsini tələb edir. Bu isə o deməkdir ki, əxlaq və etik normalar maksimum dərəcədə siyasət və diplomatiyaya nüfuz etməli, beynəlxalq münasibətlərdə sivilizasiyalı davranışlar və hərəkətlər mühüm normaya çevrilməlidir. İndiyə qədər siyasətdə tətbiq edilən bir sıra metodlar, məsələn, güc mövqeyindən siyasət, nüvə hədə-qorxusu kimi cəhətlər təsir və təzyiq vasitəsi kimi istifadə edilməməlidir. Bu isə siyasətdə, qlobal proseslərdə ümumbəşəri əxlaqın və yeni dünya reallığını özündə təcəssüm etdirən təfəkkür nümunələrinin addımbaaddım formalaşdırılmasını tələb edir. Bu vəziyyət həm də mədəniyyətlərin, sivilizasiya nümunələrinin qarşılıqlı təsir və zənginləşməsinin zəruriliyini xeyli artırır.

Deməli, müasir qlobal siyasi proseslər köhnə təsəvvürlərdən, dünyamıza aid köhnə stereotiplərdən azad olunduqca dünya inkişafının dialektikasını aydın ifadə edir. İndiyə qədər beynəlxalq münasibətləri sarsıdan iki sistemin mübarizəsi, həddsiz şübhəlilik, qarşılıqlı etimadın olmaması kimi amillərin tədriclə aradan qalxması, siyasətdə yeni gerçəkliyi, yeni reallığı əks etdirən məqamların formalaşması vəziyyəti əsaslı surətdə dəyişməkdədir.

Nüvə əsrinin qorxulu reallığının dünyanın, sivilizasiyanın bir andaca məhv edilməsi mümkünlüyünün dərk edilməsi qlobal proseslərə daha ayıq yanaşılmasının əsas istiqamətlərini müəyyənləşdirmişdir. Yeni təfəkkür kimi də qiymətləndirilən bu yanaşma XX əsrin sonlarına yaxın millətlərarası münasibətlərin humanist-

ləşməsinə xeyli dərəcədə yol açmış, dünyada sivilizasiyalı qaydaların yaranmasını asanlaşdırmışdır.

Bu gün dünyamız tamamilə başqa reallığa malikdir. Dünyanın tamlığı, vahidliyi, beynəlxalq aləmdə hadisə və proseslərin qarşılıqlı asılılığı, ümumbəşəri sərvətlərin xalqların həyatındakı rolunun xeyli artması qlobal proseslərdə yeni ideallarin formalaşmasını şərtləndirir, bəşər cəmiyyətini mənən yeniləşdirir. Məsələn, nüvə və kimyəvi silah ehtiyatlarının bəzi növlərinin ləğv edilməsi, adi silahların ixtisarı və s. belə bir keyfiyyət göstəriciləridir.

Bu prosesdə bəşər cəmiyyətinin mənəvi tərəqqisi, insanlararası münasibətlərin yeni mənəvi kateqoriyalarla zənginləşməsi, ümumbəşəri mənəvi dəyərlərin tətbiq dairəsinin genişlənməsi kimi mütərəqqi meyllər xeyli inkişaf edir, beynəlxalq ab-hava kökündən dəyişir. Siyasi etimadın dərinləşməsi ilə humanist düşüncə tərzi ciddi davranış norması kimi beynəlxalq münasibətlərə yol tapır, bəşəriyyəti sarsıdan ziddiyyətlərin, münaqişələrin həllində mühüm rol oynamağa başlayır. Dünən regional təhlükəsizlik sistemləri az qala utopiya kimi qavranılırdısa, bu gün bütün dünyanı əhatə edə biləcək kollektiv təhlükəsizlik sisteminin formalaşdırılması tədricən reallaşmaqdadır. Göründüyü kimi, beynəlxalq münasibətlər bütün millət və xalqların fəal iştirakı, həm də onların iqtisadi və siyasi mənafeyinə daha çox uyğun şəkildə formalaşmaqda, ictimai-siyasi proseslərdə daha çox insanların iştirakı ilə təmin edilməkdədir.

Bu bir daha təsdiq edir ki, XX əsrin axırlarına doğru dünyanın siyasi mənzərəsini nə Çerçilin Fulton nitqinə, nə Trumen doktorinasına, nə də proletar inqilabi ideyasına əsaslanıb qurmaq olmaz. Ziddiyyətli, lakin bir çox cəhətdən bir-birindən asılı dünya indi bütün xalqların ümumi məqsədlərinin nəzərə alınması, onların balanslaşdırılması yolu ilə gedir və deyəsən də az-çox uğurlar qazana bilir.



Odur ki, indi ictimai tərəqqinin, sivilizasiyanın inkişafının başlıca istiqaməti bütün xalqlar üçün layiqli insan həyatı təmin etməkdən, planetimizin ehtiyatlarını qoruyub saxlamaq və onun məskunluğunu təmin etməkdən və beləliklə insanları bir-birinə daha sıx yaxınlaşdırmaqdan ibarətdir. Bu, çoxrəngli, çoxölçülü dünyamızın reallıqlarının nəzərə alınması, dövlətlərin mənafelərinin müxtəlifliyinin qiymətləndirilməsi, onların qarşılıqlı asılılığının nəzərə alınması deməkdir.

Beynəlxalq aləmdə indi elə qüvvələr təşəkkül tapmışdır ki, onlar dünyanı bu və ya digər dərəcədə dinc dövrə qədəm qoymağa sövq edirlər. Xalqlar, ictiMaiyyətin geniş dairələri vəziyyətin yaxşılığa doğru dəyişməsini həqiqətən ürəkdən arzulayırlar.

Diqqəti cəlb edən odur ki, bu meyl fəal surətdə siyasətə sirayət edir, siyasəti nisbətən asan dərk edilən və deməli proqnozlaşdırıla bilən, onu millət və xalqların mənafeyinə qulluq etməyə məcbur edilən amilə çevirir.

Keçmiş yüzilliklərin və minilliklərin tarixi hədsiz-hesabsız məşəqqətlərin, insanın insana barbar münasibətinin ürəkbulandırıcı epizodlarını yaddaşında saxlamışdır. Onlar sosial və siyasi mənafelərin toqquşmasından, milli ədavətdən, ideoloji və dini uyuşmazlıqdan doğmuşdur.

İctimai inkişafın müasir məntiqi keçmişin ibrət dərslərini və indinin reallıqlarını ciddi surətdə nəzərə almağı, dünya inkişafının obyektiv meyllərinin axtarılıb tapılmasını və bunu xalqların mənafeyinə uyğunlaşdırmağı tələb edir. Yəni milli inkişafla sosial inkişafın sıx əlaqələndirilməsi həm dünyanın ictimai-siyasi mənzərəsinin təkmilləşdirilməsinə, həm də millət və xalqların tale ümumiliyinin dərk edilməsinə köməklik göstərmiş olardı. Tarix dəfələrlə təsdiq etmişdir ki, ideologiyalar mübarizəsindən o ideologiya qalib çıxır ki, o, müasir dünyamızı daha yaxşı dərk edə bilir, onun problem və ehtiyaclarını düzgün ifadə edir. Bu mənada, müasir dövrdə ideolo-

giyalar öz əhəmiyyətini tədricən itirsə də, millət və xalqların inkişaf yolunu özündə əks etdirən baxışlar hələ uzun müddət siyasi proseslərə təsir göstərəcək, dünyanın siyasi mənzərəsinin formalaşmasında öz əhəmiyyətini saxlayacaqdır. Odur ki, milli proseslərin siyasi proseslərlə sıx əlaqəsi haqqında baxışların sürətlə inkişafına tələbat durmadan artacaqdır.



# II FƏSİL

## MÜASİR QLOBAL POSESLƏRİN MƏDƏNİYYƏT VƏ SİVİLİZASİYADA ƏKSİ

### 2.1. Mədəniyyətlərin və sivilizasiyaların dialoqu: Şərq-Qərb problemi Qafqaz regionunda

Qloballaşma prosesi mürəkkəb və ziddiyyətli bir fenomendir. Burada bütün dövlətlərin payı eyni deyildir. İri və böyük dövlətlər daha varlı, kiçik və zəif ölkələr isə daha yoxsuldur. Qloballaşma bu prosesi daha da surətləndirir. Ona görə də bir sıra cəmiyyətlər və təşkilatlar onun əleyhinə çıxış edirlər. Vaxtilə K.Yaspers gələcəkdə dünyanın vahid qlobal vahidə çevriləcəyi proqnozunu vermişdir. Doğrudan da müasir dünyada hamının eyni dərəcədə informasiya almaq imkanı dünya adamlarının yeni, vahid mentalitetinin əsasını qoymuşdur. Dünya vahid tarixi məkana çevrilmək üzrədir. Xalqların ünsiyyətə olan zəruri tələbatı onların mədəniyyətlərinin inteqrasiyası problemini ön sıraya çəkir. İnsanlar bu inteqrasiyaya daxili tələbat hiss edirlər. Ona görə də dövrümüzdə vahid informasiya məkanı formalaşmaqdadır. İnsanlar informasiya vasitələrinin köməkliyilə bütün dünyada baş verən hadisələrdən xəbərdar olur, dünya mədəniyyəti sərvətlərinə daha asan qovuşmaq imkanı əldə edirlər. Amma daha güclü dövlətlər daha təkmil informasiya vasitələrinə malik olurlar. Burada siyasi məkanla informaisya məkanı arasında uyğunsuzluq əmələ gəlir. Hər bir ölkə özünəməxsus siyasi məkana malik olduğu halda bu sözü informasiya məkanı haqqında demək mümkün olmur. Böyük və güclü dövlətlər burada da zəifləri sıxışdırırlar.

Bir qrup ölkələr informasiya məkanını bölüşdürür və bundan istifadə edərək belə bir imkana malik olmayan ölkələrin əhalisinə hər cür ideoloji təsirlər göstərirlər. «İnformasiya müharibəsi» vasitəsilə dünyanın bir çox

millət və xalqlarını istədikləri kimi manipulyasiya edir və öz tərəflərinə çəkirlər. Biz bunun nümunəsini Dağlıq Qarabağ ətrafında baş verən hadisələrdə gördük. İlk illər «informasiya müharibəsində» düşmənə güzəştə getməli olduq. Çünki ermənilər öz işlərini planlı şəkildə qurmuş və illərlə onunçün hazırlıq işləri aparmışdılar. Belə ki, onlar dünya ictimaiyyətini aldatmağa və çaşdırmağa nail oldular. Böyük dövlətlərin dəstəyini və informasiya vasitələrini əldə etməklə onlar bir müddət bu sahədə hegemonluğu ələ aldılar və açığını deyək ki, elə indinin özündə də bəzi məqamlarda öz köhnə mövqelərini qoruyub saxlamağa nail olmuşlar.

Bir sıra qərb alimləri mədəniyyətdə ABŞ-ın diktatının əleyhinə çıxış edir, onun «mədəni imperializmə» doğru apardığını qeyd edirlər. Onlar yazırlar ki, bu proses nəinki mədəniyyətlərin qloballaşmasına, əksinə, mədəniyyətsizliyə, maddi dəyərlərin ağalığına aparıb çıxaracaqdır. A.Şükürova görə Avropasentrizmə əsaslanan modernləşmə milli özünəməxsusluq üçün təhlükə törədir və qloballaşmanı əksər xalqlar qərb ideyalarının və modellərinin yayılması kimi başa düşürlər. [50]

Z.Bjezinski «Böyük şahmat taxtası» kitabında yazır ki, SSRİ-nin dağılması Qərb yarımkürəsində ABŞ-ı yeganə qlobal dövlət kürsüsünə qaldırdı. [69, s.11] Frensis Fukuyama «Tarixin sonu» əsərində yeni dünyanın bundan sonra ABŞ-ın himayədarlığı altında birqütblü dunya quracağını iddia edir. Amma bügünkü dünyanı heç də birqütblü zənn etmək mümkün deyildir. Ən azı ABŞ-la rəqabətə girə biləcək yeni güc mərkəzlərinin (Avropa, Rusiya, Çin, Yaponiya, İslam dünyası, Latın Amerikası) meydana gəlməsi gələcəkdə ABŞ-ı qlobal dünyanın ağası kürsüsündən sıxışdırıb çıxarmağa və yaxud sürüşdürməyə səy göstərəcəkdir. S.Xantinqtonun hesablamalarına görə 2020-ci ildə Qərb dünya ərazisinin cəmi 24%-nə və dünya əhalisinin 10%-nə nəzarət edə biləcəkdir. Dünyanın ümumi məhsulun cəmi 30%-nə (halbuki bu rəqəm əvvəllər



70% olmuşdur), sənaye məhsulunun 25%-nə və silahlı qüvvələrin 10%-nə sahib olacaqdır. [133, s.135] Deməli, nə ABŞ, nə də ki Avropa dünyanın birqütblü nizamını təklikdə yarada bilməyəcəkdir. Deməli, gələcək qlobal siyasi və mədəni mübarizədən kimin «hakim», kiminsə «məhkum» kimi çıxa biləcəyi hələ sual altındadır. Amma bir şey aydındır ki, sivilizasiyaların dialoqu gec-tez bütün bəşəriyyəti vəhdətə aparıb çıxaran yoldur [49, s.9], yaxud qloballaşma son anda qlobal sivilizasiyanı meydana gətirəcəkdir. [49, s.24]

Z.Bjezinskiyə görə, müasir qloballaşma şəraitində mütləq mənada milli təhlükəsizliyə nail olmaq qeyri-mümkündür. [70, s.31] 11 sentyabr 2001-ci il hadisələri göstərdi ki, hətta dünyanın ən böyük super dövləti olan ABŞ da hər hansı bir kənar hücumdan nə terrorizm aktından yaxa qurtarmağa qadir deyil. Z.Bcezinskinin özünün etiraf etdiyi kimi, «bütün sahələrdə zəif olan, lakin kütləvi qırğın silahı yarada bilən, onları lazımi yerə çatdırmaq vasitələrini tapan ölkələrin qonşu dövlətlərə və yaxud dolayısı ilə Birləşmiş Ştatlara qarşı gözlənilməz təcavüzü» müasir qlobal dünyanın ziddiyyətlərindən biridir [70, s.26-27].

Qloballaşma prosesində baş verən bu iki proses, bir tərəfdən, dünyanın qlobal siyasi proseslərə cəlb olunması, digər tərəfdən isə hər bir xalqın və millətin öz milli gerçəkliyinə bağlılığı və onun uğrunda mübarizə aparması müasir qloballaşmanın ən əsas problemlərindən biridir və ona görə də mübarizə bu problemin neytrallaşdırılması və yaxud aradan qaldırılması uğrunda gedir. Bir sıra alimlər qloballaşmanın «Qlobal təhlükə», qlobal qorxu, qlobal fəsad törədəcəyini qeyd edir və ondan narahat olduqlarını bildirirlər. [50, s.379]

Ona görə də sosial məkanın genişlənməsi ucundan yeni təhlükələr gözlənilir. ABŞ alimi P.Uorsley yazır ki, indiyədək vahid cəmiyyət olmamışdır, amma onu da demək lazımdır ki, indi elə bir ölkə yoxdur ki, toxunulmamış

qalsın [136, s.2]. R.Robertson da onu dəstəkləyərək qeyd edirdi ki, qloballaşma elə prosesləri əhatə edir ki, o vahid dünyanı təmsil edir [135, s.396].

Qloballaşma çox zaman «vahid dövlət», «vahid dünya», «vahid bazar» anlayışları ilə birgə başa düşülür. Avropa İttifaqı, İnterpol, Avropa Şurası, NATO, BMT və b. qurumlar gələcək vahid dünyanın müasir nümunələridirlər. Proses mədəniyyət sahəsini də əhatə edib vahid dünya kütləvi mədəniyyətin yaradılmasına doğru gedir. Bu şou mədəniyyətidir. «Mədəniyyətlərin dialoqu» və «dialoq mədəniyəti» ideyaları Qərbdən gəlmədir. Amma Qərb bu ideyaları özlərinə lazım olan şəkildə qəbul edir, öz mədəniyyətlərinin digərləri tərəfindən qəbul olunması şəklində başa düşür, daha doğrusu bu şüarlar elə əslində köhnə imperiya ambisiyalarının yeni sözlərlə pərdələnməsindən başqa bir şey deyil [91].

Qlobalistlərin bir çoxu gələcək dünyanı sivilizasiyaların toqquşması meydanı kimi görəcəklərini yazırlar. Onların sivilizasiya haqqında baxışları da müxtəlifdir. Məsələn, S.Xantinqton bir sıra məqamlarda sivilizasiya və mədəniyyəti eyni mənalarda işlədir və sivilizasiyanı insanların müəyyən dinə mənsubluğu kimi qeyd edir.

N.Moiseyev isə sivilizasiyanı cəmiyyətin yeniləşməsi kimi başa düşür. A.Toynbi isə «Tarix» əsərində sivilizasiyanı müxtəlif amilli cəmiyyət kimi qəbul edir. N.Danilevski və O.Şpenqler ictimai həyatın sivilizasiya quruluşu nəzəriyyəsini irəli sürmüşlər. N.Danilevski «mədəni-tarixi tiplər» haqqında yeni konsepsiya ilə çıxış etmişdir. Cəmiyyətin inkişafı biri digərindən fərqlənən mədəni-tarixi tiplərdən ibarətdir. O.Şpenqlerə və A.Toynbiyə görə sivilizasiya 4 inkişaf mərhələsini keçirir: doğulma, çiçəklənmə, qocalma və sönmə. A.Toynbiyə görə tarixdə 21 belə sivilizasiya mövcud olmuşdur və onlardan 17-si ölüb getmişdir. A.Toynbiyə görə indi dünyada cəmi 5 sivilizasiya mövcuddur. Qərb, Şərq-



provoslav, İslam, Hind və Uzaq Şərq. Ona görə sağ qalan sivilizasiyalar ancaq dinə əsaslananlardır. İbn Xaldun yazırdı ki, sivilizasiya dünyanın sonu deməkdir. ABŞ alimi F.Fukuyama «Tarixin sonu» əsərində liberalizmin bütün ideologiyalar üzərində qələbə çaldığını elan etməklə bundan sonrakı dünyanın ömürlük «əbədi sülh» içində yaşayacağını elan etdi. S.Xantinqton gələcəkdə Rusiya ilə Çin, ABŞ-la Rusiya, ABŞ-la Çin arasında müharibələrin baş verəcəyi ehtimalının çox az olduğunu yazır. Napaleon 1802-ci ildə dünyada cəmi iki millətin olduğunu qeyd etmişdi: Qərb və Rusiya. Napaleon müqəddəs Yelena adasında sürgündə olanda isə gələcək dünyanın ABŞ respublikasından və Rusiya monarxiyasından ibarət olacığını yazmışdır [107, s.253].

XX əsr tarixə Qərb mədəniyyətinin ekspansiyası, digər mədəniyyət sistemlərinə müdaxiləsi əsri kimi daxil olmuşdur. Ona görə də bu əsrdə mədəniyyətlərin «təkmilləşməsi» yolu ilə onların Qərb modeli əsasında yenidən formalaşması prosesi baş verir. Çünki insan bütövlükdə cəmiyyəti əks etdirdiyindən o, bütün keçilmiş tarixi təcrübənin bir nümunəsini xatırladır.

İnsanın həyatı, onun modelləşməsi, Qərb həyat tərzinə uyğunlaşması heç də həmişə düz, hamar yolla getmir, insanlar bu prosesi bəzən könüllü, bəzən isə məcburən həyata keçirirlər. Qabaqcıl Qərb texnologiyasının qəbul edilməsi, onunla birlikdə Qərbin təfəkkür və yaşayış tərzinin qəbul edilməsi məcburiyyətini yaradır. Bunun da nəticəsində insanlar yeni bir milli mentalitetin istilasına məruz qalır. Özününkünü isə itirməyə başlayır.

«Mədəniyyətlərin dialoqu»nun daim başqa şəkildə başa düşülüməsi insanları milli və dini zəmində birini digərinə qarşı qoyur.

Avropa alimləri Avropa təfəkkür tərzinin başqa regionların xalqlarının təfəkkür tərzindən fərqləndiyini irəli sürən konsepsiyalarla çıxış etmişlər. Burada milli ideya milli-etnik ideyadan ümumi avropa evinin vətəndaşı

olmaq ideyasına doğru inkişaf etmişdir. [78; 116; 77] Bu konsepsiyaya görə avropalı vətəndaşı olduğu ölkənin inkişaf səviyyəsindən asılı olmayaraq özünü avropalı kimi hiss etməli, dünyanı idarə etməyə daim hazır olmalı və onun işinə qarışa biləcək digər regionların vətəndaşlarına və hakimiyyətinə qarşı, ən əvvəl isə şübhə yoxdur ki, asiyalılara qarşı barışmaz olmalıdır.

Bu cəhətdən Avropa uzun illər türk-tatarlara və Rusiyaya qarşı mübarizə aparmalı olmuşdur. Hər dəfə də onlar bu xalqların mənfi obrazlarını yaratmağa səy göstərmiş və onlar haqqında yaratdıqlarını «qara əfsanə» adlı ideoloji bir takt altında səfərbərliyə almışlar. Bu «mədəni işğalçılıq» siyasətinin arxasında söz yoxdur ki, müəyyən səbəblər gözlənir. Burada məqsəd dünya proseslərini, istər iqtisadi sahədə, istərsə də sosial-siyasi və mədəni sahələrdə təkbaşına idarə etməkdir. Bu siyasəti həyata keçirmək üçün ideoloji əsas yaradılmalı, Qərb mədəniyyətinin üstünlükləri ictimai şüura yeridilməlidir. Bir sıra filosofların və sosioloqların hesablamalarına görə başqa mədəniyyətlərə belə təsir, onların aradan çıxarılması səyləri beynəlxalq miqyasda ciddi münaqişələrə, hətta xalqlararası və ölkələrarası müharibələrə gətirib çıxara bilər. Bu da öz növbəsində bir sıra xalqların və millətlərin öz ənənələrindən əl çəkmələrilə nəticələnə bilər. Bu kimi proseslər habelə mədəniyyətdə Qərb-Şərq dialoqunu kəskinləşdirməyə doğru apara bilər. XXI əsrin Azərbaycan mədəniyyəti Qərbin və Şərqin bir sıra mədəni dəyərlərindən bəhrələnməklə inkişaf edir. Buna baxmayaraq, bütövlükdə Şərq mədəniyyəti üzərində köklənən Azərbaycan mədəniyyəti də digər Şərq xalqlarının mədəniyyətləri kimi Qərb mədəniyyət modelinin təcavüzü şəraitində yaşayır. Azərbaycan cəmiyyəti bu paradoksal vəziyyətdən, Qərb mədəniyyətinin amansız hücumlarından, Qərbin təklif etdiyi yeni sosial-mədəni modellərdən özünü qoruya biləcəkmi? Görəsən sosiumun bir üzvü olan Azərbaycan şəxsiyyəti öz heysiyyatını və siyasi səbatlığını



təsdiq edə biləcəkmi, bir millət kimi öz müstəqilliyini, ərazi bütövlüyünü, milli mənəvi dəyərlərini, dinini adət-ənənələrini və s. saxlaya biləcəkmi? Bütün bu kimi problemlər bizim nəzərdən keçirdiyimiz məsələlər çevrəsinə daxildir və dövrümüzün təlatümlü hadisələri bu problemlərin qoyulmasını tələb edir. Demokratikləşmə prosesi dövründə şəxsiyyətin siyasi mədəniyyətinin yüksəldilməsi, şəxsiyyət azadlığının inkişafı, milli siyasi şüurun formalaşması, insanların dövlətə və dövlətin də öz növbəsində insanlara olan etimadlarının möhkəmlənməsi kimi səbəblər bizi bu yuxarıda sadaladığımız «Zenon aporiyaları»nda xilas edə bilər və edə bilməlidir. [60, s.12]

Çünki Azərbaycan xalqı tarixin bir sıra belə çətin döngələrindən çıxmağa qabil bir xalq olduğunu artıq çoxdan sübut etmişdir. 1955-ci ildə Bandunqda keçirilən Asiya və Afrika ölkələrinin konfransında belə bir fikir konfransın gündəliyinə çıxarılmışdı ki, Qərb öz mədəni dəyərlərini yenicə müstəqillik qazanmış ölkələrə zorla sırımaq istəyir. Onlar bu zaman heç bir yerli amili nəzərə almır, Qərbin açıq-saçıqlığını və əxlaqsızlığını müxtəlif vasitələrlə Şərq xalqlarına aşılamağa çalışırdı. Qərb mədəniyyətinin Şərq ölkələrinə, xüsusən İslam Şərqi ölkələrinə və Azərbaycana necə nüfuz etdiyini son illərdə tədqiqinə başlanmış genderologiyanın timsalında aydın görmək olar. Əvvəllər bizdə bu problem ya yox idi, ya da var idisə də ona əhəmiyyət verilmirdi. İndi yaxşı haldır ki, bizdə də bu probem insan-insan, insan-cəmiyyət, insan-təbiətarxası münasibətlər oxu boyunca tədqiq olunub öyrənilir. Gender (ingilis dilində olan «gender»-cins sözündəndir) problemi yalnız bir tək qadın-kişi münasibətlərini deyil, çox böyük bir sahəni əhatə edir. Yalqız insanların, əzab çəkən adamların probemlərindən tutmuş insanların Genderlə yüklənmiş zümrələrinədək hamını əhatə edən bu problem əslində Qərb ölkələrini uzun illərdir ki, məşğul edir. Onun bizə ixracı və yaxud eksportu bizim bu problemləri bilmədiyimiz ucbatından əks təsirlər

də verə bilər və həmin prosesin qarşısını almaq üçün biz onu da öyrənməliyik. Şübhə yoxdur ki, Qərbdə olduğu kimi Şərqdə də gender problemləri mövcuddur və onun öyrənilməsi gözlənilməz hadisələrin, cəmiyyət üçün yaramaz hal sayılan anomaliyaların aradan qaldırılmasına gətirib çıxara bilər. Amma Qərb modelini bu sahədə olduğu kimi Şərqə tətbiq etmək olmaz. Tarixdən məlumdur ki, insanların əxlaqsızlığı həddini aşanda Allah həmişə onları cəzalandırmışdır. Məsələn, Nuhun tufanı, Sədum xalqının cəzalandırılması və s. Amma indi vəziyyət dəyişilmişdir. Bir para bəzi məsələlər kimi gender probleminin özü də getdikcə daha artıq qloballaşır və onun problemlərinin həlli milli sərhədlərdən kənara çıxır. Ona görə də problemin öyrənilməsinə qlobal spektrdən yanaşılmalıdır, amma bu heç də o demək deyildir ki, bizdəki problemlər Qərbdə baş verən genderoloji proseslərlə eynidir və oradakı profilaktikanı bizdə də mexaniki surətdə tətbiq etmək səmərəli nəticələr verə bilər. Əgər Qərbdə baş verən gender problemlərini kontr-kulturanın nəticəsi hesab etmək mümkündürsə, bizdə ona ancaq Qərbin kor-koranə təqlidi kimi baxmaq olar. Bu da yuxarıda adını çəkdiyimiz «mədəniyyətin ekspansiyası» anlayışına uyğun gəlir. Əgər bu ekspansiyanın qarşısı alınarsa, süni surətdə mətbuatda, KİV-də, telekanallarda, kinoteatrlarda və s. Qərbin bu modelləri təbliğ olunmazsa və onun yerinə milli-mənəvi sərvətlərimizin təbliğinə və şərhinə daha geniş yer verilərsə, yalnız onda Qərbin mədəni işğalından xilas ola bilərik. Gender problemlərinin özünün bu sayaq göstərilməsi mədəniyyətin deqradasiyası və böhranının nəticəsidir. Keçid dövrlərində, bəşəriyyətin həyəcanlı anlarında, müharibələr, yoxsulluq və Şəfalətin hökm sürdüyü anlarda belə problemlər həmişə fəallaşır. Çünki yuxarıda göstərilən amillər bu problemi qidalandırır. Ona görə də bu xəstəlikləri yaradan xəstə mühitin sağlamlaşdırılması isə çoxlu obyektiv və subyektiv amillərdən asılıdır. Buraya insanların sosial təminatından tutmuş şəxsi azadlıqlarının



təmin olunmasınadək xeyli məsələlər daxildir. İnsanların və millətin mentaliteti, cəmiyyətin mənəvi-siyasi inkişaf səviyyəsi, dövlətin mövqeyi və s. kimi kompleks məsələlər onun çözülməsində mühüm rol oynaya bilər. İkinci bir tərəfdən Qərb mədəniyyətinin qabaqcıl ənənələrdən getdikcə daha çox əl çəkməyə meylli olması onun süqutunu şərtləndirən cəhətlərdəndir. Şpenqler «Avropanın qürubu» əsərində bu sahədə artıq həyəcan təbilini çalmışdır. Qüruba uğramaqda olan bu mədəniyyət Şərqə yaxşı nə vəd edir? Axı mədəniyyətlər böhranla üzləşəndə onda mürtəce romantizm ünsürləri baş qaldırır. Bu romantika isə XIX əsrin inqilabi romantikasından əsaslı surətdə fərqlənir. O dövrdə romantiklər yerdə olanları göylərə qaldırırdılar. Ona min bir bəzəklərdən hörülmüş bir çələng taxardılar. İndiki romantiklər isə göylərdə olan ilahi gözəlliklərin özlərini belə yerə endirib onları daha da cılızlaşdırırlar. Bu xüsusiyyətlərinə görə Qərbin mədəniyyət ekspansiyası bizim üçün yaxşı heç nə vəd etmir. Bunu mütəxəssislər kimi digər adamların da bilməyi zəruridir. Çünki ekspansiya məşhur «Qərb hamıya qarşı!» şüarının tərkib hisəsidir və Avropasentrizmin qida mənbələrindən biridir. Həm də bu ideyalar bizə liberal-demokratik dəyərlər adı altında Avropa Şurasının müşayiəti ilə və xeyir-duası ilə göndərilir və bütün vasitələrlə təbliğ olunur. XX əsr mədəniyyətinin inkişaf istiqamətlərindən danışarkən onun Avropadan ABŞ-a doğru üz tutduğunu görürük. [109, s.58-74] 20-ci əsrin ortalarınadək Paris dünya mədəniyyətinin mərkəzi sayılırdı. Lakin əsrin II yarısından etibarən ABŞ bu rolu öz üzərinə götürdü. Amma ABŞ da estafeti əldə saxlaya bilmədi. Müasir dünyada baş verən miqrasiya prosesləri, «milli dövlətlərin» öz əvvəlki əhəmiyyətlərini itirmələri, qloballaşma prinsipinin genişlənməsi, yeni mədəniyyət mərkəzlərinin meydana gəlməsi, şou-biznesin (xüsusən Mərkəzi və Cənubi Amerika ölkələrində) mədəniyyətdə aparıcı rol oynamağa başlaması və s. kimi amillər mədəniyyətin coğrafiyasına ciddi

təsir göstərir və onun inkişafında hansı regionun aparıcı rola malik olacağı fikrini sual altına alır.

Dünya mədəniyyətinin inkişafında hiss olunan bu son meyllər əslində heç də Qərb mədəniyyətinin xeyrinə olan hadisələr deyil. İndi Asiyanın, eləcə də İslam Şərqi ölkələrinin mədəniyyətində elə yeni hallar meydana gəlir ki, Qərb onlarsız keçinə bilmir. Bu mənada Avropa alimlərinin «Qərb mədəniyyəti süqut ərəfəsindədir. O, böhran keçirir» deyə yazmalarını başa düşmək olar. Azərbaycan öz mədəniyyətini xilas edə bilər və etməlidir. Dünya mədəniyyətinin inkişafında baş verən son proseslər bu sahədə müəyyən nikbin nəticələrə gəlməyə əsas verir.

«Soyuq müharibədən» sonrakı dünyada, tarixdə ilk dəfə qlobal siyasət çoxqütblü və çoxsivilizasiyalı olmuşdur. Bəşər tarixinin müəyən dövrlərində sivilizasiyalar arasında münasibətlər (kontaktlar) fasiləli olmuş və ya heç olmamışdır. XVI əsrdən başlayaraq 400 il ərizində Qərb milli dövlətləri-Britaniya, Fransa, İspaniya, Avstriya, Prussiya, Almaniya, Birləşmiş Ştatlar və başqaları bir-biri ilə qarşılıqlı münasibətlərdə olaraq, mübarizə apararaq, müharibələr edərək Qərb

sivilizasiyaları tərkibində çoxqütblü beynəlxalq sistemlər yaratmışlar. Eyni zamanda bu dövlətlər öz ərazilərini digər dövlətlərin hesabına genişləndirir və digər sivilizasiyalı millətlərə öz təsirlərini göstərirdilər. «Soyuq müharibə» dövründə isə qlobal siyasət ikiqütblü olmuş və dünya üç hissəyə bölünmüşdür. Bir qrup güclü və demokratik dövlətlər ABŞ-nın rəhbərliyi ilə Sovet İttifaqının simasında kasıb kommunist ölkələri ilə ideoloji, siyasi, iqtisadi və bəzən də hərbi mübarizə aparırdılar. Bu münaqişələrin əksər hissəsi mövcud olan iki düşərgədən kənarda (kasıb, yenicə müstəqilliyini əldə etmiş, siyasi stabilliyi olmayan ölkələrdə), yəni «Üçüncü dünyada» baş verirdi.

Lakin 1980-ci illərin sonunda kommunist dünyası dağıldı və «Soyuq müharibə» adlanan bir beynəlxalq sistem tarixə çevrildi. «Soyuq müharibə»dən sonrakı dövrdə



xalqlar arasındakı ən vacib fərqlər artıq ideoloji, siyasi və iqtisadi deyil, mədəni-kulturoloji fərqlərdir.

Həmin dövrdə xalqlar və millətlər onlar üçün vacib olan bir suala cavab tapmağa cəhd edirlər: Biz kimik? İnsanlar özlərini, öz əcdadlarını dini, dili, tarixi, dəyərləri və adət-ənənələrinə əsaslanaraq müəyyən edirlər. Onlar özlərini mədəni qruplaşmalarla (tayfalar, etnik qruplar, dini birliklər, millətlər və ən geniş səviyyədə sivilizasiyalar) birləşdirirlər. İnsanlar siyasətdən yalnız öz maraqlarını irəli çəkmək üçün deyil, həm də özlərini müəyyən etmək üçün də istifadə edirlər. Amerika Siyasi Elmlər Assosiyasının prezidenti Samuel Hantinqton yazır; «Biz özümüzü bilmək, tanımaq üçün gərək bilək ki, biz kim deyilik və kimlərə qarşıyıq».

XX əsrin sonunda mədəniyyət həm ayrıcı, həm də birləşdirici rol oynayır. İnsanlar ideoloji cəhətdən fərqlənə bilərlər, lakin ümumi vahid mədəniyyətləri onları birləşdirir. İki Almaniyanın birləşməsi, iki Koreyanın bu sahədə cəhdləri buna misal ola bilər. Mədəni qohumluğu olan dövlətlər iqtisadi və siyasi əməkdaşlıq edir. Ümumi mədəniyyətə malik olan dövlətlər əsasında yaranmış beynəlxalq təşkilatlar (məsələn, Avropa Birliyi) öz inkişafında daha uğurlu nəticələr əldə etmişlər. Qırx beş il ərzində Avropa «dəmir xətlərlə» bölünmüşdür. Müasir dövrdə isə bu «xətlər» insan toplumlarını qərb, xristian, müsəlman və ortodoks xalqlarına bölərək Şərqə tərəf yerini dəyişmişdir.

«Rus inqilabının güzgüsü» Lev Tolstoyun «Hacı Murad» povestində bir maraqlı epizod var: Poltaratski Şamili, dağlıların əfsanəvi sərkərdəsini ilk dəfə görəndə bir anlığa çaşqınlıq keçirir-«dəhşətli» dağlının üzündəki məsum uşaq təbəssümü rus zabitin çaşdırır. Tolstoy yazır: «Çar zabiti heç zaman təsəvvür edə bilməzdi ki, düşmən qafqazlı Hacı Muradın çöhrəsində belə mehriban təbəssüm olsun». Ona elə gəlirdi ki, qarşısında duran hamını lərzəyə salan sərkərdə, düşmən deyil, çoxdan tanıdığı dostudur.

Bu səhnə onu deməyə əsas verir ki, insani ünsiyyət

və qarşılıqlı anlam kimi ali əxlaqi keyfiyyət naminə təfriqəçilikdən yüksəkdə durmaq, qəlblərin mənəvi yaxınlıq hissini yaşamaq ülvi bəşəri dəyərdir. Ona görə də bu gün millətlərarası münasibətlərə zərrə qədər faydalı təsir göstərmək imkanı olan hər bir şəxs böyük mənəviyyata xidmət etmiş olur. Axı, əxlaqilik yalnız öz borcunu ləyaqət və vicdanla yerinə yetirmək deyil, həmçinin xalqın mənəvi və ruhi sağlamlığına neqativ təsir edən köhnə səhvlərdən və zərərli hərəkətlərdən yaxa qurtarmağa səy göstərməkdir. Lakin müasir Qafqazda cərəyan edən hadisələr köstərir ki, yeni əsrə biz köhnə səhvlərsiz və ziyanlı stereotiplərsiz daxil olmuş, millətlərarası münasibətlərə yeni yanaşmaları işləmək həqiqəti qarşısında qalmışıq. Həmin yanaşmalar əsrlər boyu təşəkkül tapmış dostluq və mehriban qonşuluq ənənələrinə ehtiram göstərmədən, eləcə də azadlıq və demokratiyaya, xalqların hüquqlarına, insan haqlarına hörmət etmədən mümkün deyil.

Mübaliğəsiz demək olar, hazırda regiondakı hadisələrə həssas yanaşan qafqazşünaslar etiraf edirlər ki, «ağ saçlı» Qafqazın konfliktlərinin həllində təcrübəli siyasətçilər və səriştəli ekspertlərlə yanaşı böyük mənəviyyatın müdaxiləsinə daha çox ehtiyac duyulur. Türk mədəniyyətinin dərin bilicisi sayılan Nikolay Trubetskoy mənəvi simasızlaşma hesabına «qazanılmış» xalqlar dostluğunu mənfur saxtakarlıq adlandırmışdır. Yaxın keçmişin təcrübəsi göstərir ki, hakimiyyətin görünməmiş dərəcədə təmərküzləşməsi, həmişə sovet istehsal bazasının və cəmiyyətin özünün əslində bir çox tədqiqatçıların şəxsi mövqeyindən asılı olmayaraq vahid sosialist ideologiyasının təsiri ilə «sovet xalqı» stereotipinin səylə şüurlara yeridilməsi cəmiyyət həyatına sirayət olunması ilə nəticələnmişdi.

Lakin keçmiş ittifaqın dağılmasına baxmayaraq Qafqaz mənəviyyatı yaşayır və bu, bir daha tarixin belə bir danılmaz həqiqətini sübut edir ki, xalqlar, o cümlədən



Qafqaz xalqları dövlətlərin deyil (halbuki sovet dövləti dünyanın ən güclü dövləti idi), mənəvi mədəniyyətin, xalqın mənəviyyatı sayəsində zamanın sinaqlarından çıxırlar.

Doğrudur, sovet dövründə Qafqaz xalqlarının tarixən qarşılıqlı münasibətləri ərzində toplayıb qoruduqları bəzi dəyərlər itirilmişdisə də, təşəkkül tapmış etnik psixologiyanın dərin köklərinin və Qafqaz mədəniyyətinin kodunu məhv etmək mümkün olmamışdır. Söz yox ki, iqtisadiyyat xalqların sosial varlığında mühüm yer tutur, biz Qafqaz ideyasından danışarkən bunun cövhəri olan mədəni amillərə, qafqazlıların ruhuna dərin ehtiramla yanaşırıq.

Qeyd edək ki, Qafqaz ideyasının etno-siyasi tədqiqatlarda konsepsiya kimi formalaşmasının artıq 100 illik tarixi vardır.

Tarixi mənbələr göstərir ki, Qafqaz ideyasının formalaşması və şüurlara nüfuz etməsi burada yaşayan xalqların taleyi kimi keçməkeşli olmuşdur. Məsələn, orta əsrlərdə Qafqazda həmin inteqrativ ideya ağır siyasi və mədəni sarsıntılar nəticəsində real təcəssümünü tapa bilməmiş, onun taleyi dramatik təlatümlə də regional vəhdət amalını yerli xalqların etnosiyasi şüurundan uzun müddət kənarlaşdırmışdır.

Yeni dövrdə Qafqaz obrazının şüurlarda daha dərin kök salması Qafqaz müharibəsi və Şeyx Şamilin Qafqazda vahid dövlət yaratmaq cəhdləri ilə bağlı olmuşdur. Həmin mərhələdə Qafqaz düşüncəsinin siyasi-mədəni məziyyətləri azadlıq ideologiyasının tərkib hissəsi olmuş, İslam dəyərlərinə və kafirlərə qarşı mübarizənin imperativ tələbinə söykənmişdir.

Qafqaz məfkurəsinin inkişafında daha yeni bir mərhələ XX əsrin əvvəlinə təsadüf edir. Həmin tarixi dövrdə yerli mədəniyyət xadimləri dünyada yaşayan xalqların ümumi sərvəti olan Qafqaz sivilizasiyasının sosiumunda unikallığını əsaslandırır, regional birlikdə ümumi Qafqaz həmrəyliyi ideyalarını və qarşıdurmanı aradan

qaldırmağa çağırırdı.

Həmin dövrün «ağılasığmaz» hadisəsi bu idi ki, Rusiya tarixinin dönüş mərhələləsində Qafqaz maarifçilərinin ideyalarını müəyyən dərəcədə həyata keçirmək mümkün olmuşdu. Məsələn, 1918-ci il mayın 11-də tərkibində Dağıstanın, Çeçenistanın, İnquşetiyanın, Osetiyanın, Kabardanın, Qaraçayın, Balkariyanın, Adıqeyin, Abxaziyanın daxil olduğu Şimali Qafqaz Dağlıq Respublikası elan olunmuşdu. Qafqaz dövlətinin yaranacağına dərindən ümid bəsləyirdilər. Lakin tarix bu arzunu Dağlı xalqlarına çox gördü, bir il keçməmiş «vahid və bölünməz» Rusiyanın keşiyində sədaqətlə duran Denikinin Könüllü ordusu respublikanı devirdi. Lakin Qafqaz ideyası tarixin yaddaşında yaşamaqda davam edirdi. Diyarın ideoloqları siyasi sahədə başlıca məqsədi öz vətənlərini «rus-sovet diktaturasının» əsarətindən azad olmaqda, «Qafqaz Konfederasiyası» adlanan müstəqil dövlətin yaradılmasında görürdü. Önəmli haldır ki, regiondakı etnik və dini plüralizm vahid dövlət yaratmaq ideyasına mane olmamışdır.

Lakin zaman göstərdi ki, siyasi romantizm Qafqaz ideyasının ideal şəkildə həyata keçirilməsini tədricən şübhə altına alırdı. Belə ki, qafqazlılıq ideoloqu Heydər Bammatın «Millət dövlət yaradır» ideyası cazibədar səslənsə də əsərdə irəli sürülən ideyaya görə, Qafqaz Konfederasiyasının yaranması ilə «Qafqaz xalqının» formalaşması prosesi başa çatacaqdır. Hətta gürcü alimi Zurab Avalişvili bu mövqeyə etnointeqrasiya amili kimi yanaşaraq «Qafqaz xalqının» yaranması ilə rus dili millətlərarası ünsiyyət vasitəsi kimi aradan çıxaracaqdır, fikrinə gəlmişdi.

80-ci illərdən başlayaraq Qafqaz ideyası «siyasiləşmə»yə məruz qalır. Bunun bir sıra səbəbləri olmuşdur: birincisi, SSRİ-də siyasi həyatın demokratikləşməsi ictimai fikrin plüralist inkişafına şərait yaratmışdır; ikincisi, sosial dəyişikliklər və konfliktlərlə müşaiyət olunan böhran, sonradan SSRİ-nin dağılması ilə «yaranmış vəziyyətdən» regionlarda çıxış yollarını axtarmağa təkan vermiş və



nəhayət, Qafqazda sabitliyin pozulması, millətlər arasında baş verən qanlı konfliktlər, respublikaların ərazi iddialarının kəskin şəkil alması qafqazlıların ictimai şüurunu ciddi imtahana çəkmiş, bölgədə sülhün və razılaşmanın əldə edilməsi naminə «Qafqaz ideyasına» yenidən müraciət olunmasını şərtləndirmişdir. Bir qədər keçdikdən sonra - 1989-cu ilin yayında Abxaziya hadisələri zamanı regiondakı siyasət səhnəsində Qafqaz ideyası yeni hərəkatın ideologiya və praktika bayrağına çevrildi. Həmin ilin avqust ayında Suxumidə Qafqaz dağlı xalqlarının Assambleyası təsis edildi (sonralar Qafqazın Dağ xalqlarının Konfederasiyası, daha sonra Xalqlarının Konfederasiyası). Sanki Qafqaz dövlətçiliyi ideyasına tarixi sadiqliyi nümayiş etdirərək Konfederasiya özünü 1918-1919-cu illərdə fəaliyyət göstərmiş Dağ Respublikasının varisi elan etmişdir. Həmin dövrdə regionun siyasi leksikonunda «Qafqaz etnosu» (Mussa Şanibov), «Protoqafqazın bir beşiyindən çıxmış Qafqaz xalqları» terminləri səslənməyə başlayır. Təəssüf ki, nəcib ideal kimi meydana gəlmiş «Qafqaz ideyası» Z.Qamsaxurdiya kimi ambisiyalı və uzaqgörən olmayan siyasətçinin fəaliyyətində spekulyativ mahiyyət kəsb etmiş, bu ideyanın sivilizasiyalı məcrada inkişafına mane olmuşdur. Məsələ burasındadır ki, üzərinə az qala Qafqazın mənəvi lideri vəzifəsini götürən bu missioner hərəkəti ilə özünün antiabxaz və antiosetin siyasətini pərdələmək məqsədi güdürdü.

Regionda siyasi mühit yeni keyfiyyətlərlə zənginləşdikcə «Qafqaz ideyası» da özünəməxsus çalarlar kəsb edirdi. Cöhər Dudayev öz ideologiyasında hələ 1992-ci ildə «Qafqaz evi» konsepsiyasını əsaslandırmağa çalışmış, bunu regionun əsl müstəqilliyinin rəhni hesab etmiş, Rusiyanın neoimperiya ambisiyalarına qarşı yönəlmiş real siyasi qüvvə kimi irəli sürmüşdür.

Və nəhayət, Qafqaz ideyasının tarixi taleyində yeni bir məqam E.Şevardnadzenin «Qafqaz dialoqu» ilə çıxış etməsi olmuşdur. Təəssüf ki, Gürcüstan prezidentinin bu

nəcib təşəbbüsü ictimai rəydə gözlənilən, arzu edilən reaksiya oyatmamışdır. Hər halda bunu Gürcüstan-Abxaziya konfliktinin bu günə kimi tənzimlənməməsində görmək lazımdır.

Və bu günün ziddiyyətli davam edən hadisələri göstərir ki, «Qafqaz obrazı» hələ ki, münbit zəmini tapmamışdır.

Amma bu hələ «Qafqaz ideyasının» siyasi-mədəni səhnədən getməsi demək deyildir, əksinə, ümid etmək olar ki, bu inam deyildir. Özünün zəngin tarixi və intellektual potensialı ilə hələ böyük interaktiv imkanlara malikdir. Lakin hazırda regionun siyasi reallıqları belədir ki, Qafqaz ideyasının siyasi aspekti burada mühüm inkişaf mexanizmi kimi tam «işləyə» bilmir. Amma dünyada milli konfliktlərin həlli prosesi ağrılı keçməsinə baxmayaraq politoloqlar belə əqidədədirlər ki, möhkəm və dərin etnomədəni kökləri ilə tarixi yaddaşa əbədi həkk edilmiş Qafqaz ideyasının kulturoloji, humanitar aspektləri hələ bu ölkənin xalqları arasında mədəni dialoqun yaradılmasında və inkişafında müstəsna rol oynayacaqdır.

Bizdə bu nikbinliyə əsas verən ən mühüm amil budur ki, Qafqaz bütövlükdə özünü digər regionlara, başqa ölkələrə qarşı qoymur, hələ üstəlik, öz mədəniyyətlərini, humanist insani ənənələrini, xüsusilə zəngin irsində böyük mənəviyyata sədaqət amalını inkişaf etdirməklə Qafqaz xalqları digər millətlərin rəğbətini qazanacaqdır. [60, s.105]

Qafqaz onlarca millətin və milli qrupların mədəniyyətlərinin heyrətamiz dərəcədə rəngarəngliyindən ibarətdir. Bu mənada Qafqaz bir sırada etnokultur dünyaların unikal simbiozu olub min bir tellə bir-birinə bağlanmış mədəniyyətlərin dialoqlarının təcəssümüdür. Bu dialoq işğalların və fəthlərin, ara müharibələrin, geopolitik dəyişikliklərin, sivilizasiya transplantasiyalarının nəticəsi kimi yaranmışdır. Qafqaz xalqları tarixi inkişaflarının bütün



mərhələlərində özlərinin sivilizasiya statuslarını və identifik mədəniyyət özəlliklərini qoruyub saxlamaq üçün xarici hücumlara qarşı gah birləşib «Ümumi Qafqaz evi» yaratmağa səy göstərmiş, gah da müxtəlif sosial-siyasi, iqtisadi-mənəvi amillərin təsiri altında özgə mədəniyyətlərin bu və ya digər xüsusiyyətlərini özününküləşdirmişdir. SSRİ-nin dağılması, sosializmin və onun özünəməxsus ideologiyasının süqutu Qafqaz xalqlarını vadar etdi ki, onlar öz milli həyatlarını bir də nəzərdən keçirsin, yeni geosiyası etnopolitik şəraitdə milli inkişafın bəzi aspektlərini yeni mövqelərdən qiymətləndirsin, onu yeni reallıqlar əsasında qursun. Yeni etnopolitik vəziyyət milli şüurun inkişafına təkan verdi. Millətlər və xalqlar bir-birinə qarşı ərazi iddiaları irəli sürdülər, milli münasibətlərin neqativ münaqişəli səhifələri üstünlük təşkil etməyə başladı. Bununla belə qafqazlıların mentalitet və mədəniyyətlərində bir sıra oxşar cəhətlər, hətta müəyyən hallarda eyniyyət yaşayır. Akademik Ə.F.Daşdəmirovun yazdığı kimi, bu problem məsələdir və heç də hamı tərəfindən birmənalı qarşılanmır. [88, s.19]

Şübhə yoxdur ki, problemin belə mürəkkəb olması Qafqazlıların keçdikləri tarixi inkişaf yolu ilə əlaqədar olmuşdur. Gah iri imperiyaların tərkibinə daxil olmaları, gah müxtəlif super qüvvələrin döyüş meydanına çevrilmələri, gah da müəyyən tarix kəsiyində müstəqil yaşamaları qafqazlıların mədəniyyətlərinə və mentalitetinə güclü təsir göstərmişdir. Müxtəlif sivilizasiyalar, böyük dünya dinləri, müxtəlif sistemli dinlər və genopolitik maraqlar Qafqazda gah birləşmiş, gah da toqquşmuşlar...

Ardıcıl milli etnik, konfessional, etnokultur kontaktlar bu subregionun ab-havasını mütəmadi olaraq dəyişdirmişdir. Miqrasiyalar, qaçqınlıq və köçkünlük əhalinin istər milli, istərsə də sosial tərkibində əsaslı dəyişikliklər yaratmışdır. Bütün bunlar onu sübut edir ki, Qafqaz yalnız geopolitik və coğrafi bir anlayış deyildir, o həm də tarixi, tarixi-mədəni, tarixi-siyasi bir kateqoriyadır. Qafqaz öz

spesifik xüsusiyyəti ilə onunla həmsərhəd olan ölkələrə və xalqlara münasibətdə, habelə öz əhalisinin polietnik tərkibinə görə xüsusi bir etnokultur və sivilizasion bir vahiddir. Onun əsas xüsusiyyəti Qərb və Şərq mədəniyyətlərinin kəsişdiyi nöqtədə yerləşməsi, Avrasiya sivilizasiyasının sərhəddində olmasıdır. Qafqaz qədim mədəniyyətli xalqlarla məskunlaşdığından, bu qədim mədəniyyətlər əsrlər boyu bir-birinə müxtəlif kanallar ilə təsir göstərmiş, bir-birindən nəyi isə əxz etmiş, bu zəmində onların mədəniyyətləri zənginləşmişdir. Nəticədə mədəniyyətlərdəki bu identifiklik maddi və mənəvi əsaslara söykənmiş, adətlərə, ənənələrə, folklorlara, rituallara, rəqslərə, mahnılara və s.-yə sanki bir Qafqaz ətiri, ruhu bəxş etmişdir. Bu və buna oxşar xüsusiyyətlər ümumi «Qafqaz evi» ideyasının yaranıb inkişaf etməsinə səbəb olmuşdur. SSRİ vaxtında bu ideya Qafqazda SSRİ-nin digər xalqlarına münasibətdə «biz» və «onlar» kimi çıxış edirdi. İndiki şəraitdə Qafqazda geopolitik marağı olan xarici ölkələr bütün vasitələr ilə bu ideyanı aradan qaldırmağa, Qafqaz xalqlarını biri-birinin üstünə qaldırmağa, burada milli etnik zəmində düşmənçilik toxumu səpib genişləndirməyə, qafqazlıların birləşməyə olan meyllərini qırmağa və beləliklə də Qafqazı parçalamağa səy göstərirlər. Bu yolda onlar çox da uzağa getmirlər, elə qafqazlıların özlərindən istifadə edirlər. Erməni separatçıları və millətçiləri bu yolda ən yaxşı instrument rolunu oynayırlar. Onlar xarici imperialist qüvvələrin əli ilə «Qafqazın candarmı» rolunu öz üzərilərinə götürür, Qafqazda Rusiyanın dəyənəyi vəzifəsini həvəslə yerinə yetirirlər. Ona görə də bugünkü «Qafqaz evi»nin yaranması yolunda təhlükəli bir maneə kimi çıxış edirlər. Ermənilər fitnə-fəsadla dolu hərəkətlərilə özlərini yalnız azərbaycanlılara qarşı qoymur, bu regionda hegemonluğu ələ keçirməyə, digər xalqları isə sıxışdırıb regiondan qovub çıxarmağa çalışırlar. Bu mənada müasir Qərb ədəbiyyatında Qafqaz «Cənub və Qərb» mədəniyyətlərinin kəsişdiyi və toqquşduğu region kimi qələmə verilir. Qərb-



xristian, Cənub isə İslam sivilizasiyasının nümunəsi kimi təqdim edilir. Qafqaza əbədi qarşıdurma nümunəsi, «barışmazlıq regionu» və s. kimi baxılır. E. Qelnerin və S. Xantiqtonun əsərləri bu baxımdan daha səciyyəvidir. Onlar öz fikirlərini onunla əsaslandırırlar ki, müasir insanlar nə monarxa, nə ölkəyə, nə də dinə bağlı deyillər, onların əsas bağlı olduqları amil mədəniyyətdir. [84, s.90] Yaxud müxtəlif sivilizasiyaların adamlarının baxışları və münasibətləri də müxtəlif olur. [132, s.7] Yuxarıda adları çəkilən alimlərin bu fikirləri heç də elmi ictimaiyyət tərəfindən birmənalı qarşılanmır. Məsələn, akademik Ə.F.Daşdəmirov bu kimi fikirləri sivilizasiyaların toqquşması üçün heç də əsas səbəb saymayaraq qeyd edir ki, sivilizasiyalar və mədəniyyətlər arasındakı fərqlər siyasi ideologiyalar arasındakı fərqlərdən də dərin ola bilər və İslam ilə Xristianlıq Qafqazda heç vaxt qarşı-qarşıya durmamışlar, əksinə, bir-birlərini tamamlamışlar. [88, s.23]

Akademik Ə.F.Daşdəmirov haqlı olaraq qeyd edir ki, etnokultur fərqlər heç də millətlərarası ziddiyyətləri törədən ən başlıca səbəblər ola bilməz. İkinci bir tərəfdən, xristian sivilizasiyasını xilas etmək, qorumaq adı altında bir sıra hallarda digər xalqların, xüsusən İslam xalqlarının ərazilərini ilhaq etmək çağırışları da eşidilir və bu kimi iddialar müəyyən siyasi təahhüdlərin irəli sürülməsinə və həll edilməsinə xidmət edir. Məsələn, ermənilər özlərinin müstəqil Azərbaycan torpaqlarındakı ilhaqçılıq siyasətlərinə Xristianlıq naminə edilmiş bir hərəkat rəngi də verirlər. S. Xantiqtona görə bu regionda baş verən erməni - azərbaycanlı münaqişəsi də məhz, guya müxtəlif sivilizasiyaların barışmazlığı ucbatından törəmişdir. Belə bir fikir əslində erməni işğallarına bir növ haqq qazandırmaq məqsədini güdür. S.Xantiqton Qərb sivilizasiyasını digər sivilizasiyalara qarşı qoymaqla, Qərbi ehtiyatlı olmağa çağırır və digər sivilizasiya növlərinə qarşı mübarizə aparmaq zərurətini irəli sürür. Bu kimi iddiaların bizim üçün təhlükəli cəhəti orasındadır ki, Qafqazda «Ümumi Qafqaz

evi» yaratmaq, sülhü, əmin-amanlığı bərpa etmək yolunda bu ideyalar xeyirdən çox ziyan verə bilər.

SSRİ dövründə partiya-dövlət sənədlərində və bəzi müəlliflərin əsərlərində Qafqazda baş verən milli-etnik münaqişələrin əsas səbəbləri kimi münaqişəyə girən tərəflərin, xüsusən müxtəlif tələblər irəli sürən tərəflərin tələblərini guya sosial-iqtisadi cəhətdən geri qalmaları, maddi məişət ehtiyacları qidalandırmışdır. Söz yox ki, Qafqaz regionundakı milli münaqişələrin yaranması və inkişafında bu kimi amillərin rolu var idi, amma onlar heç də həlledici amillər olmayıblar. Akademik Z.Səmədzadə özünün «Dağlıq Qarabağ: naməlum həqiqətlər» adlı əsərində bu problemi faktlar ilə təhlil edib ermənilərin guya yuxarıda göstərilən səbəblər ucundan ayrılmaq tələblərinin tam əsassızlığını sübut edir. Bu tədqiqatlarda sübut olunur ki, DQMV ermənilərinin məişət şəraitinin təşkili və səviyyəsi respublikanın digər regionlarına nisbətən yüksək səviyyədə olmuşdur. [113] Bu tələblərin kökləri və səbəbləri isə tamam başqa mənbələrdən qidalanmışdır, onun tarixi, sosial-siyasi və geopolitik əsasları «erməni ideyasının» köklərində axtarılmalıdır.

Şübhə yoxdur ki, S.Xantiqtonun yazdığı kimi mədəni fərqlər və xarakteristikalar siyasi və iqtisadi fərqlərə nisbətdə daha az dəyişkəndir. Lakin bu fərqlər və spesifik xüsusiyyətlər heç də aqressiv konfliktliyin daşıyıcısı deyildir. Qafqaz identifikliyini yalnız regionun geokultur, etnokonfessional fərqlərində axtarmaq kiyafət deyildir, bu eyniyyət həm də onun tam məskunlaşmasında, orada müxtəlif etnosların min illərlə birlikdə yaşamasındadır.

İri imperiyaların tərkibində yaşayan xalqların taleyi bu imperiyaları qurub yaradan hakim millətin elitasının maraqlarının təmin olunması əsasında müəyyən olunmuşdur. Daha aydın desək, hər bir xalqın öz arzusu, istəyi, coğrafi ərazisi və tarixi mədəni tələbləri nəzərə alınmamışdır. Bu mənada çar Rusiyası və onun varisi kimi



yaranmış SSRİ də istisna təşkil etmir. Onların ərazisi - inzibati bölgüləri milli mənafelərdən çox inzibati geosiyasi tələblər əsasında həyata keçirildiyinə görə də SSRİ dağılandan sonra müxtəlif xalqlar «tarixi səhvlərin düzəldilməsi» naminə biri-birinə qarşı ərazi iddaları irəli sürmüşlər.

Bu da hazırkı milli münaqişələrin aparıcı xəttini təşkil edir. Ona görə də Azərbaycan ictimaiyyətşünas alimlərinin, xüsusən sosioloqların, politoloqların əsərlərində də millətlərarası problemlər, etnik konfliktologiya məsələləri aparıcı yer tutmalıdır. Söz yoxdur ki, Qarabağ münaqişəsinin davam etdiyi 20 ildən artıq bir dövr ərzində bu problem barədə istər daxildə, istərsə də xaricdə xeyli əsərlər, qəzet və jurnal məqalələri çap olunmuşdur. Bu illərdə erməni - Azərbaycan münaqişəsinin sosial-siyasi kökləri, başlanması, tarixi, münaqişənin gedişi xarakteri və s. məsələlər geniş şəkildə işıqlandırılmışdır. Bu problem habelə regionda baş verən sosial-siyasi hadisələr ilə əlaqədar və onun fonunda təsvir olunur. Bu sahədəki erməni tədqiqlərinə gəlincə onu deyə bilərik ki, onların əksəriyyəti problemi meylli və saxtalaşdırılmış şəkildə təqdim edir, öz iddialarını yalnız özlərinə əlverişli şəraitin axarına salmağa çalışırlar. [58, s.125] «Qafqaz evi» ideyasının həyata keçirilməsində başlıca manealərdən biri olan Dağlıq Qarabağ problemi ermənilərin əli ilə regional bir problemdən qlobal bir məsələyə çevrilmiş, bir çox xarici ölkələri də öz orbitinə daxil etməklə beynəlxalq təşkilatların müzakirə obyektinə çevrilmişdir. Bu səbəbdən də həm Ermənistan, həm də Azərbaycan Avropa Şurasına Gürcüstana nisbətən gec üzv seçilmişlər. Halbuki Avropa Şurası üç Zaqafqaziya Respublikasının-Gürcüstanın, Azərbaycanın və Ermənistanın Avropa Şurasına birlikdə qəbul edilməsini planlaşdırmışdı. Lakin Gürcüstan 41-ci ölkə kimi onun üzvlüyünə qəbul edildiyi halda, Qarabağ probleminin həll olunmaması səbəbindən Ermənistan və Azərbaycan bu şuranın üzvlüyünə 42-ci və 43-cü ölkələr kimi ondan sonra qəbul olunmuşlar.

Dağlıq Qarabağ probleminin həll olunmamasında isə əsas günahkar erməni tərəfidir. Ermənilər Dağlıq Qarabağın anneksiya olunmasını özlərinə əlverişli şəraitdə şərh etməyə səy göstərirlər.

Halbuki çoxmillətli dövlətlərdə milli azlıqların hüquqlarının tanınması, onlar barədə müəyyən güzəştlərin tətbiqi, onların milli mədəni muxtariyyətlərinin tanınması və s. faktlar heç də onları vahid ölkənin vətəndaşı olmaq vəzifəsindən azad etmir, onların separatizminə haqq qazandırmır. Milli azlıqların problemlərilə məşğul olan Beynəlxalq Liqa (1992-ci ildən) bu azlıqların hüquq və azadlıqlarının təmin olunmasını heç də onların mütləq ayrılıb əlahiddə bir dövlət olmaları ilə eyniləşdirmir. Əksinə, milli azlıqların iri, çoxmillətli dövlətlərdə digər iri etnoslarla birlikdə yaşaması onların sosial-iqtisadi və mədəni inkişafları üçün əlverişli bir zəmin yaradır.

ABŞ-ın BMT-də daimi nümayəndəsi, xüsusi səfir Morris Abram 1993-cü ilin fevral ayının əvvəlində Cenevrədə keçirilən insan hüquqları komissiyasının iclasında millətlərin öz müqəddəratını təyin etmək hüququnun müasir təfsiri haqda BMT-nin və ABŞ-ın rəsmi nöqteyinəzərini bəyan etmişdir. O bildirmişdir ki, tarixi məlum olan bu ziddiyyətli və mürəkkəb problemin müasir həlli konkret vəziyyətdə suveren dövlətin və millətin mənafelərinin nəzərə alınmasını tələb edir. Bununla belə, milli azlıqların hüquqları həll edilərkən suveren dövlətlərin ərazi bütövlüyünə üstünlük verilməlidir. BMT Xartiyasında milli müqəddərat hüququ milli azlıqların vətəndaşlıq və insan hüquqlarının müdafiəsi vasitəsi kimi qiymətləndirilir. Milli azlıqların bu hüquqdan istifadə edərək ərazilərində yaşadıqları dövlətin torpaqlarına milli xüsusiyyətlərinə görə göz dikməsi, onları parçalamağa səy göstərməsi qətiyyən yolverilməzdir. Öz müqəddəratını təyin etmək hüququnndan istifadə etmək iddiasında olan əsas kütləsinin və onların başqa dövlətlərin ərazisində yaşayan etnik icmalarının statuslarının müxtəlif səviyyəsi hamı



tərəfindən qeyd - şərtsiz qəbul edilmişdir. [12, s.777] Ona görə də bu icmaların milli və dini əlamələtlərinə görə ərazi iddiaları ilə çıxış etməyə haqqları yoxdur. 1992-ci ildən ATƏT tərkibində fəaliyyət göstərən Minsk qrupu və onun üzvləri olan ABŞ, Rusiya və Fransa Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll olunması istiqamətində bir sıra təkliflər ilə çıxış etmişlər. Lakin bu təkliflərin bəziləri Ermənistan, bir qismi isə Azərbaycan tərəfindən qəbul edilməmişdir. Ter-Petrosyanın istefa verməsinədək mövcud olan təkliflər ilə həm erməni, həm də Azərbaycan tərəfi razı idi. Bu təkliflərə əsasən problem mərhələlər ilə həll olunmalı idi. Lakin Ter-Petrosyanın istefası, Ermənistanda baş verən siyasi hadisələr, R.Koçeryanın prezident seçilməsi bu planları da alt-üst etdi. Daha doğrusu, erməni tərəfi və onun tərəfdarları süni dövlət dəyişiklikləri edib problemin həllini bilərəkdən uzatdılar. ATƏT tərəfindən irəli sürülən axırıncı təklif - Dağlıq Qarabağ ilə Azərbaycanın birlikdə «ümumi dövlət» təşkil etmək təklifi isə birtərəfli qaydada yalnız erməni mənafelərinə xidmət etdiyindən şübhəsiz ki, Azərbaycan tərəfindən qəbul edilmədi. İstər ermənilər, istərsə də bir sıra ermənipərəst beynəlxalq təşkilatlar həlli elə də çətin olmayan bir problemin həllini qəsdən dolaşığa salır və həlli muşkül olan bir problemə çevirirlər. Ermənilərin haqqında qürurla danışdıqları «böyük və qədim» dövlətləri 387-ci ildə İranla Bizans arasında bölüşdürüldükdən sonra erməni dövlətçiliyi tarix səhnəsindən silinmişdir. XX əsrdə yaranmış tarixi şərait yenidən onu tarix səhnəsinə çıxarmış, qonşu dövlətlərin, əsasən isə İran və Türkiyənin zəifliyi ucundan əvvəlcə çar Rusiyasının, sonra isə SSRİ-nin dəstək verməsi nəticəsində Rusiyanın vassalı vəziyyətində olsa da əvvəlcə keçmiş İrəvan xanlığının, sonralar isə İrəvan quberniyasının ərazisində kiçik bir erməni dövləti qurmuş, Azərbaycan torpaqları hesabına onu tədricən genişləndirmiş, əvvəlcə Zəngəzurun və Naxçıvan əyalətlərinin bir hissəsinin anneksiyasına nail olmuş, sonra isə

Dağlıq Qarabağı və onunla bitişik olan 6 rayonu işğal etmişlər. Belə ki, bu işğallar «Böyük Ermənistan» yaratmaq yolunda erməni milli ideyasının həyata keçirilməsi yolunda bir vasitədir. Erməni milli ideyası «Qafqaz evi» ideyasının həyata keçirilməsində ən böyük əngəldir. Çünki ermənilər bir tək Azərbaycan torpaqları ilə kifayətlənmir, bütün Qafqazı işğal etməyə çalışırlar. Onlar «Qafqaz evi» ideyasının guya əslində erməni ideyası olduğunu əsaslandırmağa çalışır və beləliklə bütün Qafqazı işğal etmək, onu «Böyük Ermənistan»ın tərkib hissəsinə çevirməyə çalışırlar.

Ermənilərin haqqında çox yazdıqları «Böyük Ermənistan» ideyası onların milli ideyalarının aparıcı xəttini təşkil edir. Erməni millətlərinə görə guya bütün Qafqazı, Cənubi Rusiyanı, İran və Türkiyənin bir hissəsini özündə birləşdirən belə bir böyük və güclü erməni dövləti mövcud olmuşdur. İndi isə onu bərpa etmək və öz keçmiş şöhrətini geri qaytarmaq vaxtı çatmışdır. Ona görə də onlar mərhələ-mərhələ bu problemi həll etmək işinə girişmişlər. Bu problem isə təbii ki, qonşu torpaqlara təcavüz, onların ilhaq edilməsi yolu ilə həyata keçirilə bilər. Ona görə də ermənilər bu planı reallığa çevirmək üçün əsas hücum hədəfi kimi bu gün məhz Azərbaycanı seçmişlər. Əsrin əvvəllərindən başlayaraq onlar əvvəlcə zəifləmiş və I Dünya müharibəsində məğlub olmuş Osmanlı imperiyasının şərqində 6 böyük vilayətdə üsyan qaldırmış və öz planlarını türklərdən təmizlənmiş bu ərazilərdə həyata keçirməyə səy göstərmişlər. Lakin türk xalqının əzmkar mübarizəsi nəticəsində erməni millətçiləri öz planları ilə birlikdə süquta uğradılar. Bunu görən ermənilər bu dəfə həmin planı Qafqazda yerli aborigen xalqların, ən əvvəl isə azərbaycanlıların torpaqlarını tutmaqla həyata keçirməyə başladılar.

Akademik Ə.F.Daşdəmirov Qarabağ probleminin mahiyyətini başa düşmək üçün aşağıdakı amillərin nəzərə



almasını və onlardan doğan suallara cavab verilməsini zəruri hesab edir:

1. Qarabağ probleminin tarixi və erməni-azərbaycanlı münasibətləri;
2. Azərbaycanda və bütün Zaqafqaziyada sovet milli siyasəti;
3. 1988-ci il hadisələri dövründə Azərbaycanda, DQMV-də və Ermənistanda etnokultur, etnopolitik və etnodemoqrafik vəziyyət;
4. Azərbaycanda yenidənqurma və Qarabağ böhranı ilə əlaqədar olaraq sosial-siyasi proseslərin kəskinləşməsi;
5. SSRİ-nin dağılmasının geopolitik və geostrateji nəticələri. [89, s.64]

Biz təqdim olunan bu fəslin qarşısında duran məqsəd və vəzifələri müəyyən edərkən yuxarıda sadalanan suallara da cavab verməyə çalışmışıq. Hazırki şəraitdə ümumdünya miqyasında ölkələr və xalqlar arasında inteqrasiya meyllərinin güclənməsi və onun sosial-siyasi, iqtisadi və mədəni sferalarda əldə etdiyi uğurlar məlumdur. Avropa miqyasında «ümumi bazarın», Cənub-şərqi Asiya ölkələrinin «ASSAN» məkanında iqtisadi birliyi bu regionlarda yaşayan xalqlar üçün iqtisadi cəhətdən sərfəli və faydalıdır. Dünyada gedən bu inteqrasiya prosesinin fonunda «Qafqaz evi»nin hələ də yaranmaması imperialist qüvvələrin «parçala və hökm sür» siyasətinin məntiqi nəticəsidir. [103, s.46]

Çünki ümumi «Qafqaz evi»nin yaranması «etnik təmizləmə» siyasətinə son qoyulması və «Ümumi Qafqaz - sülh deməkdir» devizinin reallaşması ilə nəticələnə bilər. Bu isə Qafqazlılar üçün həyati əhəmiyyətə malik olan bir hadisə olardı. Beynəlxalq sahədə «preventiv diplomatiyanın» («Marşall planının») həyata keçirilməsi, siyasi sahədə sərhədlərin toxunulmazlığı barədə Helsinki müşavirəsinin qərarlarının əldə rəhbər tutulması, iqtisadi sahədə «Ümumi Qafqaz bazarı»nın yaxud «Azad sahibkarlıq zonası»nın yaradılması, mədəni sahədə əməkdaşlığın geniş-

ləndirilməsi, hərbi sahədə demillitarizasiya siyasətinin həyata keçirilməsi yolunda ilk mühüm addımların atılması demək olardı. Bu addımların atılması nəticəsində üfüqdə «Qafqaz federalizmi»nin, «Qafqaz parlamenti»nin (Avroparlament tipli) və «Qafqaz birləşmiş ştatları»nın (Amerika Birləşmiş Ştatları tipində) yaradılmasının ilk nümunələri görünə bilər. [58, s.118]

## 2.2. Mədəniyyətlərin və sivilizasiyaların dialoqu: Amerika və Avropa

Hegel Qeorq Vilhelm Fridrix yazırdı ki, ümumdünya tarixi tərəqqidən və azadlığın dərk olunmasından ibarətdir. O yazırdı: «Şərq xalqları bilirdilər ki, bir nəfər azaddır, Yunan və Roma dünyası bilirdi ki, bir neçə nəfər azaddırlar, biz bilirik ki, bütün insanlar özlüyündə azaddırlar, yəni insanlar insan kimi azaddırlar» [83, s.19]. Hegel yazırdı ki, hər bir xalqın özünəməxsus tarixi təyinatı mövcuddur ki, xalqlar bunu öz konkret ruhlarının vasitəsi ilə reallaşdırırdılar. Hegel üçün Amerika gələcəyin dövlətidir. K.Marks və F.Engels Amerikanı sivlizasiyalı dünyanın bir hissəsi hesab edirdilər. Onlara görə Amerika ən inkişaf etmiş Fransa, Almaniya, İngiltərə kimi ölkələrlə bir sırada durur və onlarda baş verə biləcək birgə inqilab dünya inqilabına gətirib çıxara bilər. Bu mənada onlar Meksikanın da ona birləşdirilməsinə haqq qazandırırdılar. Yəni ayrıca Meksikada inqilab gözləmək olmaz, amma o, ABŞ-nın tərkibində olsa bu inqilabi prosesə qoşulardı. Eynilə K.Marks və F.Engels almanların zülmü altında olan Slavyan xalqlarının milli azadlıq çıxışlarını da məqbul saymır və bunu dünya inqilabına qarşı edilmiş bir qəsd kimi qiymətləndirirdilər. Onlar Almaniyada yetişməkdə olan sosialist inqilabını «öz miskin milli azadlıqlarına» qurban verirdilər, - deyə onlar yazırdılar.

Fransanın məşhur xarici işlər naziri olmuş Taleyran Fransanın polis naziri Cozef Fuşeni XVIII Lüdovkin tapşırığı



ilə dilə tutub ABŞ-a səfir göndərmək məqsədilə ona bu ölkə haqqında belə məlumat verirdi: «Ah, ora nə qədər füsunkardır-ibtidai qəbilələrin məskun olduğu keçilməz meşələr, tədqiq olunmamış nəhəng çaylar, güclü Potapmik çayı və böyük Eri gölü. Bu qəhrəmanlıq və romantika diyarında yeni, bərkdən-boşdan çıxmış, bərkimiş insanlar, vuruşmalarda təcrübə qazanmış azadlıqsevər, qeyri-məhdud imkanlara malik və nümunəvi qanunlar yaradan adamlar yaşayır. Bəli, orada öyrənməli şey çoxdur. Orada təzə və daha yaxşı gələcək, öz dövrünü başa vurmuş bizim Avropada olduğundan min dəfə çox duyulur. Yaşamalı və fəaliyyət göstərməli əsas yer də elə oradır. [48, s.184] Vaxtilə Fuşe özü də Napoleona belə bir məsləhət vermişdi. Lakin nə Napoleon, nə də Fuşe Amerikaya getmədilər. Amma getsəydilər hər ikisi qazanardı. Həyatlarının sonu belə əzablı və yorğun olmazdı. Amerika - Avropanın varisi, onun yetirməsidir. Bu günkü Avropaya və Amerikaya baxın. Onlar həqiqi sosializmin bir nümunəsidir ki, var. Tədrici inkişafla, proletariat diktaturasının olmaması, xüsusi mülkiyyətin aradan qaldırılmaması şəraitində yaranan bu cəmiyyətlər kommunistlərin sosial reformist adlandırdığı və daim yamanladığı K.Kautski ilə E.Bernşteynin göstərdiyi yolla gəlib çatmışlar. Bunun üçün Avropada və ABŞ-da sosial baza mövcud olmuşdur. Şərq ölkələri isə sosializmə hazır deyildi və burada sosializm bolşeviklərin təcrübədən keçirdikləri sınaq meydanı rolunu oynamışdır. Öz ideyalarında marksizmə arxalanan bolşeviklər əslində onu tam saxtalaşdırılmış şəkildə geridə qalmış Rusiya şəraitində tətbiq etmişlər. Əslində marksizmin sosialist inqilab nəzəriyyəsi Avropa və ABŞ üçün nəzərdə tutulduğundan burada onun tətbiqi təbii ki, uğursuzluqla nəticələnməli idi. Bolşeviklərin hakimiyyətə sahib olaraq, ondan istifadə edib digərləri üzərində öz diktaturalarını qurmaq ambisiyaları milyonlarla insanın məhv edilməsi bahasına başa gəlirdi və ona görə də nəhayətdə süquta uğradı. İkinci bir tərəfdən bolşeviklərin sonrakı nəzəriyyəçiləri bu cəmiyyətin sonrakı inkişaf yollarını göstərməkdə acizlik göstərirdilər.

1776-cı il ABŞ İstiqlaliyyət Bəyannaməsi Amerika qitəsində ilk müstəqil dövlətin yaranması aktı idi. Bir sıra xalqlar onun təsirindən sonra müstəmləkəçilik əleyhinə hərəkatı genişləndirdilər və müstəqilliyə qovuşdular. Lakin müasir dövrdə bir sıra xalqlar ABŞ-ı azadlıq və istiqlaliyyət simvolu kimi tanımaq istəmirlər. Çünki müasir dövrün əsas meyarı kiminsə hegemonluğunu qəbul etmək deyil, bərabər hüquq əsasında inkişafdan ibarətdir. Dünya miqyasında yaranan iri güc mərkəzləri: Çinin başçığılı altında fəaliyyət göstərən Cənub-Şərqi Asiya ölkələri, ərəb ölkələri, Slavyan dünyası, roman-qerman dilli ölkələr (yəni Qərbi və Mərkəzi Avropa), Afrika, Cənubi Amerikanın ispandilli ölkələri, Türk dünyası, İrandilli ölkələr və s. gələcəkdə birinciliyin ABŞ-dan alınması uğrunda elə indinin özündə mübarizəyə başlamışlar. Müxtəlif sivilizasiyaların, mədəniyyətlərin və dinlərin dialoqu və qarşıdurması prosesinə Yaponiya və portagiz dilli ölkələr də qoşuldular. Dünyanın belə rəngarəng palitrası fonunda ABŞ gələcəkdə öz hegemonlugunu, yaxud sadəcə müstəqilliyini qoruyub saxlaya biləcəkmi? Müasir dövr - ideyalar mübarizəsinin maraqlar mübarizəsilə əvəz olunduğu bir dövrdür. Bu dövr ABŞ maraqlarının bütün dünyanı əhatə etdiyi bir dövrüdür. Amma ABŞ-la yanaşı hər bir ölkənin də öz maraqları var. Ona görə də onlar həm culğaşır, həm də toqquşurlar. Bunu nəzərdə tutan Z.Bcezinski qeyd edir ki, bu kimi prosesləri görən ABŞ dünyada baş verən dəyişikliklərə maksimum şəkildə ehtiyatla yanaşır. Leopoldo Seaya görə bu gün ABŞ həqiqi azadlıq ideyalarının təcəssümü rolunu oynamır, əksinə, dünya xalqlarının azadlığı yolunda bir maneəni təşkil edir. [98, s.45] ABŞ-ın başçılığı ilə Qərbin eqalıtar liberalizmi onların bütün dünyaya şamil etmək istədikləri öz fərdi milli azadlıqlarıdır ki var. Onların azadlığı WASP-ın (White Anqlo-Saxon-Protestant-ağ, anqlo-saks-protestant-) adı altında irəli sürülmüş fərdi azadlıqlarıdır və onların əsası hələ XVII əsrdə qoyulmuşdur.



Con Qolsuorsi yazırdı: «Dünyanı həmişə İngiltərə idarə etmişdir». Doğrudan da İngiltərə, yaxud Böyük Britaniya və onun «city»si, yəni dünyanın iqtisadi və bank mərkəzi olan bu kiçik dünya yüz illərdir ki, biznesin ürəyi kimi bütün dünyanın pullarını öz təyinatları üzrə xərcləməkdədir. İndira Qandinin atası Cavahirləl Nehrunun belə bir kitabı var: «Dünya tarixinə bir baxış». C.Nehru bu kitabı qızına məktublar şəklində yazmışdır. Burada o göstərir ki, İngiltərə onun ölkəsinə böyük meydan vuruşlarında deyil, bazarda, biznes sahəsində, bircalarda qalib gəlmişdir. Yəni o qızına, eləcə də bu kitabı oxuyacaq həmvətənlərinə başa salmaq istəyirdi ki, müasir iqtisadiyyat bütöv ölkələrin taleyini məhz bu sahələrdə müəyyən edir. İngilislər Hindistana azadlıq verdilər. Amma onun iqtisadiyyatını əldən buraxmadılar, müxtəlif şirkətlərlə, firma və cəmiyyətlərlə onu öz əlində saxladılar və zorla olsa da onu 1931-ci ildən təvəllüd tapmış «Britaniya ölkələri birliyi» çevrəsində saxlamağa nail oldular. ABŞ-in «zəvvar ataları» da məhz bu torpaqdan çıxmışlar.1620-ci ilin 11 noyabrında Kor burnuna yan alan «Meyflauer» gəmisi də dini təqiblərdən yaxasını qurtarmış bir dəstə adamın bu torpağa pənah gətirməsi ilə nəticələnmişdir. O vaxt Amerikada nə dövlət, nə ordu, nə də polis var idi. Bu gəminin sahibləri gəlib burada əsl vətəndaş cəmiyyətini qurdular. Onlar ingilis adət-ənənlərini, idarəçilik qaydaqanunlarını, liberal ingilis quruluşunu bura gətirdilər. İngilislər ABŞ-ın mənəvi atası rolunu oynadılar, dillərinin də ABŞ-ın dövlət dili kimi tanınmasına nail oldular. İngilislər sonralar məğlub olsalar da öz milli mentalitetlərini ABŞ-ın siyasi həyatına qəbul etdirə bildilər. Ona görə də biz burada Böyük Britaniyadan danışmağı qərara aldıq. Çünki yuxarıda dediyimiz kimi, tarixi tale bu iki anqlosaks ölkəsini bir xətdə birləşdirmişdir. Onlar hər iki dünya müharibəsində eyni cəbhədə vuruşmuşlar, bütün beynəlxalq münaqişələrdə bir-birilərinə dayaq olmuşlar. «Atlantika» ideyasına bağlılıq, NATO quruculuğunda

birgə əməkdaşlıq, Folklend (Malvina) adaları böhranında ABŞ-ın İngiltərəyə, İraq və Əfqanıstan hadisələrində İngiltərənin ABŞ-a dəstəyi və başqa faktlar onların indinin özündə də bir nöqtəyə vurduqlarını nümayiş etdirir. İngilislər ikinci dünya müharibəsindən sonra «Xalqlar liqasının» BMT şəklində Amerikaya keçməsinə nəinki etiraz etdilər, əksinə, onu dəstəkləyən ölkələrdən birincisi oldular. Burada şübhəsiz ki, Amerikanın iqtisadi gücü də önəmli rol oynadı. Bu güc BMT-nin yaradılmasında əsaslı rol oynadı. ABŞ-dan əvvəl dünyanın fatehi Böyük Britaniya idi. Bu kiçik adalar sanki dünyanın yeni torpaqlarının məskunlaşması üçün bir baza idi. Lakin İngiltərə bu rolunu öz əlində çox saxlaya bilmədi. Əvəzində Amerika onu bütün dünyadan sıxışdırıb çıxardı, lap axırda isə SSRİ-ni də dağıdıb birqütblü dünya nizamını həyata keçirməyə başaladı. Amma yenə də İngiltərənin köməkliyi olmadan keçinə bilmədi, bütün tədbirlərin həyata keçirilməsində ondan istifadə etdi. Amerika və İngiltərə bugünkü dünyanın geopolitik nizamlanmasında özlərinin birgə fəaliyyəti ilə bütün dünyaya nümunə göstərdilər. Daha doğrusu, məhz onlar dünyanın «maraq dairələri»nə bölünməsində əlbir fəaliyyət göstərdilər və hər şeyə nail oldular. Zbiqnev Bjezinski özünün «Böyük şahmat taxtası. Amerika ağalığı və geopolitik imperativləri» (M., 1998) əsərində dünyanın siyasi arenasında ABŞ-ın oynadığı dominant rolu əsaslandırmışdır. Burada dünya ölkələrinin siyasətdə oynadığı rollar, hərəsinin özünə görə yerləri fiqurların böyüklüyündən və kiçikliyindən asılı olaraq yerləşdirilməsi və hərəkatı fonunda izah olunur. Zbiqnev Bjezinskinin kitabının əsas qayəsi ondan ibarətdir ki, müasir ABŞ dünyanın bir saylı superdövləti olmaqla özünü dörd əsas sahədə göstərməkdədir: 1) iqtisadi; 2) hərbi; 3) texniki; 4) mədəni. Bunların sayəsində ABŞ qlobal siyasi qüvvəyə çevrilmişdir. Bundan başqa o, xəbərdarlıq edərək bildirir ki, müasir dünyada ABŞ-ı üstələyə bilən Avrasiya super kontinenti də mövcuddur ki, ondan qo-



runmaq lazımdır. Dünya əhalisinin 75%-i, yer kürəsi ərazisinin 60%-i, ümumi daxili məhsulun 75%-i məhz bu regionda yerləşir. Bu regionun ən çox inkişaf etmiş ölkələri gələcəkdə siyasi baxımdan üç böyük güc mərkəzindən ikisinə-Qərbi Avropaya və Şərqi Asiyaya böyük təsir göstərmək imkanlarına malik olacaqdır. Almaniya və Fransa ABŞ-ın müttəfiqləri və NATO üzrə tərəfdaşları olduqları üçün elə də qorxulu deyillər. Amma onların arta biləcək Avropa millətçiliyindən və ABŞ-ın maraqlarına qısqanclıqlardan ehtiyatlanmaq lazımdır. Avrasiyanın Şərq flanqını təşkil edən Çin, Yaponiya (Z. Bjezinski onu ABŞ-ın protektatoru adlandırıb) və Hindistan (onu əvvəllər SSRİ dəstəkləyirdi, indi isə siyasi dəstəyi yoxdur) müəllifi narahat edir. Amma Çin iqtisadi cəhətdən zəif olduğu üçün ABŞ-ın bu zonada lövbər salmasına yardım göstərəcəkdir. [69]

Bu cəbhədə ABŞ-ın başlıca rəqibi Rusiyadır. O, dünya ölkələri içərisində ən böyük əraziyə malikdir. Ona görə də onu üç respublikaya - Avropa Rusiyası, Sibir Respublikası və Uzaq Şərq respublikasına bölməyi məsləhət görür. Bu konfederativ respublikanın birincisi NATO-ya daxil olur və digərlərinin üzərində ABŞ nəzarəti həyata keçirir.

Necə ki, Antik Romanın qüdrətli senatoru Katon hər çıxışının sonunda belə deyərmiş: «Bundan başqa, mənə belə gəlir ki, Karfagen mövcud olmamalıdır». ( Çeterun censen Carifiaginem essee delendam). Z. Bjezinskiyə görə SSRİ-dən qopub ayrılmış respublikalara - Azərbaycana, Özbəkistana, Ukraynaya və başqalarına köməklik göstərmək lazımdır ki, onlar güclənsinlər və Rusiyada yarana biləcək imperiya ambisiyalarına qarşı dayana bilsinlər. Belə ki, müəllif şahmat taxtasında yeganə bir fiqur da şahın salamat qalacağını əsaslandırır ki, bu fiqur da ABŞ-dır.

Zbiqnev Bjezinski başqa bir əsərində İslam xalqlarını ABŞ-ın milli maraqları üçün elə də qorxulu saymır

və göstərir ki, dünya sivilizasiyasının inkişafında guya onlar xristian və buddist dünyasının yüksək inkişafına bu tezlikdə yüksələ bilməzlər. [70, s.84-85] Ona görə də İslam xalqları ABŞ-ın qlobal siyasətdəki aparıcı roluna mane ola bilməzlər.

ABŞ-da fəaliyyət göstərən və siyasi prosesləri, xüsusilə dünya ölkələrindəki demokratik prosesləri öyrənən «Freedom hays» mərkəzi də onları ABŞ-ın Milli təhlükəsizlik mövqeyindən şərh edir. Bununla da ABŞ bütün dünyada özünün qlobal demokratiyanın atası olduğunu digərlərinə bir daha xatırladır.

Napoleon Bonapart Avropanın xəritəsini dəyişdiyi kimi, Latın Amerikasının da xəritəsini dəyişdi. İspaniyanı və Portuqaliyanı işğal etməklə onların imperiyalarına güclü zərbə vurdu. Latın Amerikası xalqları «Hakimiyyətsizlik vaakumundan» istifadə edib, öz dövlətlərini yaratdılar. Müstəmləkəçiləri ölkədən qovub yeni, azadlıq və bərabərlik cəmiyyəti yaratmağa çalışdılar. Ona görə də onların fəlsəfi düşüncələri «asılılıq şüurundan» azad olub müstəqillik şüurunu keçənədək uzun bir yol keçməli oldu. Lakin bu gün Amerikada doğulan nə ispan, nə də portəgiz əvvəlki millətlərin nümayəndəsi sayılmırlar. Onlar hindu da deyillər. Onların fəlsəfəsi də artıq Avropa fəlsəfəsi deyildir. Latın Amerikası xalqlarının tarixinin fəlsəfəsi azadlıq uğrunda mübarizə fəlsəfəsidir. Onun əsası Simon Bolivar və Xose Marti tərəfindən qoyulmuşdur.

Leopaldo Seaya görə «Latın Amerikası xalqlarının azadlıq fəlsəfəsi hazırda sosial problemlərin həlli və sosial azadlıq uğrunda mübarizənin bir vasitəsinə çevrilmişdir». [97, s.78-70]

Latın Amerikası xalqlarının fəlsəfəsi: 1) Qərbi Avropa xalqlarının; 2) İspandilli fəlsəfənin; 3) onların hər ikisinin sintezinin formalaşmasından yaranmışdır. Latın Amerikası xalqları da artıq ispan deyillər, onlar hindu da deyillər. İspanların, avropalıların, mayyalıların, inklərin və digər yerli Amerika xalqlarının, tayfa və qəbilələrinin



birləşməsindən əmələ gəlib formalaşmış yeni tipli millətlərdir. Onların dilləri ispan (portagiz) dili olsa da, bu dil artıq İspaniyada, yaxud Portuqaliyada danışılan dil də deyil, xeyli deformasiyalara məruz qalmış yerli dillərdir və hər bir ölkənin öz şəraitinə uyğun formalaşıb ədəbi dil halına düşmüş yeni dillərdir. Psixoloji amil, xarakter, əsaslı mədəniyyət fərqləri də mövcuddur. Onu da deyək ki, yerli xalqların qədim adət-ənənələrinin xüsusi çəkisi heç də Avropadan gəlmə adət-ənənələrinkindən aşağı deyil. Mədəniyyətlərin dialoqu burada onların qovuşmasına, simbiozuna, çarpazlaşmasına və bir-birinə nüfuz etmələrinə səbəb olmuşdur.

Ağ, qırmızı, bəzən də sarı və qara irqlərin birləşməsi nəticəsində konqlomerat yeni bir metis irqin yaranması prosesi gedir. Görünür, gələcək dünya vətəndaşının əsası məhz elə burada qoyulur.

1976-cı ildə Mexiko şəhərində humanitar elmlərin nümayəndələrinin XXX beynəlxalq konqresi keçirildi. Konqresdə Avropasentrizmin tənqidilə çıxış edən misirli alim Ənvər Abdel-Malik özünün «Fəlsəfə və müstəqillik» adlı məruzəsində Latın Amerikasının alimlərinin ünvanına da tənqidi sözlər dedi. Çünki onlar fəlsəfə tarixi problemlərində öz gerçəkliklərinə deyil, Avropa gerçəkliyinə əsaslanırlar. Halbuki onlar yerli xalqların zəngin mənəvi keçmişinə də müraciət edə bilərlər. Məsələn, məruzə müəllifi və eləcə də Misir alimləri fironların keçmiş mədəniyyətinə qayıtmağa səy göstərirlər. Halbuki Mexikonun küçələrindən keçmək kifayətdir ki, bu qədim mədəniyətin nümunələrini görəsən. Simon Bolivar yazırdı ki, biz nə avropalı, nə də hinduyuq, onların arasında (aborigenlərlə ispanların) nəsə aralıq bir varlığıq. Mənşəyimiz və qanunlarımız etibarilə avrropalıyıq. Amma doğulduğumuz ölkədə yerli adamların torpağını tutan işğalçıyıq. Ona görə də bizim problemimiz çox dolaşıq və qeyri-adidir». [72; 71, s.78-79] Leopaldo Sea yazır ki, bizim irqi və mədəni vəziyyətimiz elədir ki, biz bir mədəniyyəti

qəbul edib digərini inkar etməklə özümüz özümüzü inkar etmiş oluruq. Təbii ki, belə mürəkkəb problem nə asiyalının, nə də afrikalının qarşısına çıxmır, çünki onlar öz keçmiş mədəniyyətlərinin kökləri üstündə inkişaf edirlər.

L.Y.Slyozkin «Uistokov Amerikanskoy istorii» adlı iki cildlik qiymətli əsərində göstərir ki, ABŞ-ı tədqiq etmək istəyənlər adətən müasir dövrə daha çox müraciət edirlər. Görünür, bu da onun beynəlxalq nüfuzu ilə bağlıdır. Halbuki onun tarixinə müraciət edib oradakı zəngin hadisələri öyrənmək istər dünya xalqlarının tarixini, istərsə də orada yaşayan aborigen tayfalarının mənşəyini öyrənmək baxımından çox qiymətlidir. [79; 100] Bu adamların «Asiyadan köçüb gəlməsi indi hər bir sadə adama da bəllidir» (Kinzburq). O da bəllidir ki, Amerikanın coğrafi adalarında, buradaki insanların dillərində mövcud olan sözlərlə müştərəkdir. Mayya və ink imperiyalarının mövcudlüğu, hələ Avropada daş sarayların olmadığı bir dövrdə burada daşdan və mərmərdən tikilmiş zəngin mədəniyyət nümunələri mövcud olmuşdur. Hindu qəbilələrinin xarakterində mövcud mərdlik və qoçaqlıq, sadiqlik və s kimi xüsusiyyətlər gəlmə avropalıların onları hər addımda aldatmaları üçün bir şərait yaratmışdır. Sadəlövh hindu tayfaları tez-tez bu yeni gəlmələrin fırıldaqlarının qurbanı olurdular.

Nə qədər ki, avropalılar öz evlərinin divarından kənara qədəm basmamışdılar, onların antropoligiya elminə elə də böyük ehtiyacları yox idi. Amma dünyanın ucsuz-bucaqsız əraziləri fəth olunduqca, onlar yeni-yeni insanlarla qarşılaşdıqca bu elmin nə dərəcədə vacib olduğunu dərk etdilər, onu yaratdılar və inkişaf etdirdilər. Avropalılar yeni kəşf olunmuş yerləri və adamları həm fiziki, həm də mənəvi cəhətdən ekspansiyaya və assimliyasiyaya uğratdılar. Onlar bu yerlərdə yeni tarix yaratdılar: həm özlərinə, həm də onlara. Avropalılar böyük coğrafi kəşfləri həyata keçirərkən, yeni-yeni ərazilər və insanlarla birlikdə elə özlərini də yenidən kəşf edirdilər, özlərinin



başqalarına münasibətini, başqa varlıqda özlərinin fərqli cəhətlərini aşkara çıxarırdılar. Bu da antropoligiyanın, etnologiyanın, insanlarla bağlı digər elm sahələrinin inkişafına səbəb olurdu. Coğrafi kəşflərə hər cür tipli insanların qoşulması, onların sərt təbiətə və «səviç» (vəhşi-onlar yeni qarşılaşdıqları adamları belə adlandırırdılar) qarşı apardıqları ölüm-dirim mübarizəsi ən alicənab avropalını belə «xeyirxah vəhşi»yə (Russo) döndərmişdir. Onlara lap əvvəllərdən sitayiş etməyə başlayan yerli əhali az sonra gördülər ki, yox, bunlarda sitayiş ediləsi heç nə yoxdur. Onlar öldürməyə, zorlamağa və qarət etməyə gəlmişlər. Avropalıların özlərini belə aparmaları yerli hindu tayfalarının xoşuna gəlmirdi. Onlar da hər yerdə qisas almağa və əvəzini çıxmağa çalışırdılar. Uşaqlıq və cavanlıq illərindən üzü bəri kəşflər bu qətllər və mübarizələr haqqında oxuduğumuz bədi və tarixi kitablar bizi tez-tez bu hadisələrin ağuşuna elə alırdı ki, biz özümüzü də bəzən bu hadisələrin iştirakçısı sayır, hansı tərəfisə təqdir edir, digərini lənətləyirik. Burada sosial ədalət prinsiplərinin meyarı pozulmuşdu. İnsanlar baş verən hadisələrin burulğanında elə fırlanırdılar ki, onların əlindən nə vaxt xəta çıxdığının fərqinə belə varmırdılar. Çünki baş verən hadisələrin özü insanları buna doğru sürükləyirdi. Avropalılar bu yerlər uğrunda mübarizəyə, biri-birilə didişməyə başlayanda günahsız yerli tayfaları da öz geopolitik planlarına qoşur, onların bir ucdan qırılmasına səbəb olurdular. Avropalıların planlarına əks olaraq ilk illər Amerikanın yerli əhalisi nəinki xristianlığı qəbul etdi, əksinə ona şeytan, cin və iblis kimi baxmağa başladılar, avropalıların hinduları bu tezlikdə assimiliyasiya edə biləcəkləri planları iflasa uğradı. Ona görə də onları zorla xristianlaşdırmağa başladılar. Bu proses tam uğur qazanmasa da, gizli şəkildə keçdi. İki dünyanın qovuşmasından yaranan yeni metis insanlar xristianlığı qəbul edirdilər, amma etnos kimi də yeni və müstəqil bir tarixi birlik kimi formalaşırdılar. Bu da Avropaya imkan verirdi ki, öz mədəniyyətini

onlarınkının fövqünə qaldırsın. İberiyalılardan fərqli olaraq ingilislər yerliləri Avropa mədəniyyətinə şərik etmədilər. Onları xristianlaşdırmaq də istəmədilər, çünki ingilislərə ucuz işçi qüvvəsi və xammal mənbələri daha sərfəli görünürdü. Bundan başqa yeni bazarlar və məhsulun satışını reallaşdırmaq da lazım idi. Ona görə də bugünkü Şimali Amerika ilə Cənubi Amerikanın etnokultural həyatı fərqlidir. İngilislər belə hesab etdilər ki, onların mədəniyyəti daha yüksəkdir və ona görə də yerlilərin mədəniyyətinə laqeyd qaldılar. Müəyyən mənada elə özləri də digər mədəniyyətlərdən istifadə etmədiklərindən geri qaldılar. Amma ispanlar və portəgizlər əsrlərlə ərəblərin və afrikanların mədəniyyətlərilə qarşılıqlı münasibətdə olduqlarından onlar yad mədəniyyətə tez uyğunlaşdılar, yerlilərlə qaynayıb qarışmağa və onlardan müəyyən şeylər əxz etməyə daha meylli oldular. İngilislər isə Britaniya adalarında əlahiddə yaşadıqlarından, həm də ancaq anqlosakslara məxsus mədəniyyətlə qidalandıqlarından bunu edə bilmədilər və biz deyərdik ki, uduzdular. Amma avropalılar tezliklə öz mədəniyyətlərini bütün dünyaya yaydılar və ona görə də istər iberiyalıların, istərsə də anqlosaksların mədəniyyəti də eyni dərəcədə onun təsirinə məruz qaldı. Bu, artıq mədəniyyətlərin dialoqunda qloballaşma prosesinin özünü göstərməsi demək idi.

İspanların Amerikanı məskunlaşdırması ilə ingilislərinkində digər fərqlər də var idi. İspanları dövlət maliyyələşdirirdi. İngilislərdə isə bu güc yox idi və ona görə də onları ayrı-ayrı şirkətlər, pirat gəmiləri həyata keçirirdilər. Bu da qarətə və soyğunçuluğa əsaslanırdı. İngilislər ayrı-ayrı ispan gəmilərinə hücum edir, yerliləri soyur, talayır və öldürürdülər. İspanların qarşısında duran vəzifə burada yeni qaydalar yaratmaq, xristianlığı yaymaq, ideriya mədəniyyətini yerlilərə aşılamaq idi. İngilislərsə yerlilərdən bir vasitə kimi istifadəyə üstünlük verirdilər. [98, s.143] İspanların özündə də yerlilərə münasibətdə müxtəlif mövqelər var idi. Bəziləri «əvvəl qılınc, sonra xaç» şüarı ilə çıxış



edərək bütün hinduları zorla «özününküləşdirmək» istəyirdilər (məs.. Sepulveda). Digərləri isə hindulara da insan kimi yanaşıb onlardakı yaxşı şeyləri götürməyi mümkün sayırdılar (məs.. Las Kasas).

İngilislərə görə isə general Şjridanın aforizmi əsasdır. «Yaxşı hindu - ölü hindudur». Onların yaxşısı və yaxud pisi ola bilməz, lazımlısı və lazımsızı ola bilər. Ona görə də onlar istər öz aralarında, istərsə də hindu qəbilələrilə saziş bağlamağa üstünlük verirdilər. Lakin hindularla bağlanan müqavilə heç də zəvvar ataların öz aralarında bağladıqları müqaviləyə oxşamırdı. Burada onlar ancaq öz təhlükəsizliklərini gözləmək məqsədini güdürdülər və «dəymə mənə, dəyməyim sənə» prinsipilə hərəkət edirdilər. Bir dəfə hətta ingilislərdən qaydanı pozmuş üç adam özləri tərəfindən edam olunmuşdu. Bu, onların hörmətini bütün hindu qəbilələri arasında yüksəklərə qaldırmış və onlar bir növ kolonistlərin ədalət meyarlarına hörmətlə yanaşmağa başlamışdılar. Deməli, Amerikanın məskunlaşması üç xətt üzrə gedirdi: Kanadada fransızlar, Şimali Amerikada ingilislər, Cənubi Amerikada isə ispanlar və portagizlər, yəni iberiyalılar, onların hər üçünün məskunlaşdırma planlarında nə qədər fərqli cəhətlər olsa da mahiyyəti bir idi: «iqtisadi, stareji-siyasi və mənəvi» xeyir əldə etmək (Xuan A.Orteqi Medina). Onların həyatakeçirilmə mexanizmi müxtəlif idi: İspanlar çalışırdılar ki, yerliləri öz dinlərinə və cəmiyyətlərinə daxil etsinlər. Fransızlar da bu plana əsasən hərəkət edirdilər. İngilislər isə bir əlində Bibliya, digərində qılınc tutmuşdular. Onların peyğəmbəri İsa deyildi, Yeqova idi. [98, s.149] Yəni İsa humanizmin, Yeqova isə zorakılığın simvoludurlar. Pioner puritanların hindulara qarşı belə münasibəti hər halda ispan kolonistlərinə heç də haqq qazandırmır. Eləcə də fransızlara. Onlar da istisna deyillər. Xuan Orteqi Medina yazır ki, əgər İspan Amerikasında hinduları quldarlıq naminə qoruyub saxlayırdılarsa, puritan-pionerlər onları azadlıq ideyaları naminə qırırdılar. Əgər İspaniya və Fransa öz imperiya sistemlərində hindulara

müəyyən yer nəzərdə tuturdularsa, İngiltərənin imperiya sistemində, əksinə, onlara heç bir yer yox idi. Şübhə yoxdur ku, bu İspan mövqeyi idi və Daniel Defo özünün «Robinzon Kruzo» əsərində Cümənin dililə onları (yəni ispanları) hinduların qənimi adlandırır və ingilisləri tərifləyir. Doğrudan da, əgər bütün bunlar var idisə, bəs onda avropalıların özlərinin irəli sürdükləri lideral ideyalar, insan hüquqları, humanizm, azadlıq və bərabərlik ideyaları harada qalırdı. Görünür, avropalılar bütün bu şüarları ancaq mədəni insanlar üçün nəzərdə tuturdular, daha vəhşi hesab etdikləri hindular üçün yox. Onu da deyək ki, xoşbəxtlikdən bütün avropalılar bu fikirdə olmamışlar. Məsələn, Avropanın qabaqcıl ziyalıları bütün insanların yaşamaq hüquqlarını müdafiə edirdilər. Elə ABŞ-ın özündə C.Vaşinqton, Tomas Ceferson, T.Peyn, A.Linkoln kimi adamlar «ikinci növ vətəndaşların» qul vəziyyətlərinə qarşı çıxmış, quldarlığın aradan götürülməsinə çalışmışlar. Mişel Monten yazırdı ki, adət-ənənələrinin müxtəlifliyinə baxmayaraq bütün insanlar bərabər yaşamaq hüququna malik olmalıdırlar, bu göstəricilər onların birinin digərindən üstünlüyünü şərtləndirə bilməz. Deni Didro yazırdı ki, bütün sivilizasiyalı xalqlar ilk əvvəl vəhşi olmuşlar. Ona görə gec-tez vəhşi dediyimiz xalqlar inkişaf edib sivilizasiyalılıq mərhələsinə qədəm qoyacaqlar. Fransız maarifçiləri sivilizasiyanın insan mənəviyyatını pozduğunu qeyd edir, onun xoşbəxtlik deyil, «bədbəxtlik gətirdiyini qeyd edirdilər. «Vəhşi» insanları isə «təbii» adamlar, hələ sivilizasiyanın poza bilmədiyi adamlar adlandırırdılar. Russo Yeni dünyanın adamlarını «xeyirxah vəhşi» adlandırsa da, onları avropalılardan yüksək qiymətləndirir və yazır ki, onlar despotiyaya gedən yolu hələ keçmədiklərindən onlar avropalılardan daha təmiz, saf insanlardırlar. Russo o zaman sivilizasiyanın tərəfində dura bilər ki, o yaxşı idarə oluna bilsin. İnsan xüsusi mülkiyyətə və sivilizasiyalı dünyaya o zamandan qoşulmağa başladı ki, «bu bostan mənimdir», - dedi. Maarifçilər azadlıq, bərabərlik və insan hüquqlarını əldə



bayraq edərək «qara» İspaniyanı və Portuqaliyanı hinduları qırdıqlarına görə ciddi tənqid edirdilər. Las Kasas, Volter, Monteskye, Marmontel, Reynal, Didro və b. məskunlaşdırma əleyhinə çıxıb bu prosesin dayandırılmasını tələb edirdilər. Onların bu tələblərindən ruhlanan ABŞ əhalisi 1775-ci ildə İngiltərə ağalığına qarşı çıxdı, daha sonra Böyük Fransa inqilabı başlandı. Lakin maarifçilərin əsas tənqid hədəfi İspaniya və Rortuqaliya idi. Onların əllərində olan ucsuz-bucaqsız torpaqlarda onlara qarşı üsyana qalxanda İngiltərə və Fransa da üsyançılara havadar durur, bu yerlərdə onları əvəz etməyə çalışırdılar. Eləcə də ABŞ müstəqillik hərəkatına fransızlar yardım göstərirdilər. B.Franklin, general Lafayet bu mübarizəyə başçılıq edirdilər. Deməli, Avropa ölkələrinin əlbir olmaması, öz xüsusi maraqları olması və onu ödəməyə çalışmaları, yerli xalqlardan da bu məqsədlə bir alət kimi istifadə etməyə çalışmaları onların daim didişməsinə və sonra yerlilər və kolonistlər tərəfindən məğlub edilib Amerikadan qovulmalarına səbəb oldu.

Maarifçilərdən Monteskye ispanları onda təqsirləndirirdi ki, onlar bu yeni xalqların timsalında işğala məruz qalan xalqlar tapmışlar, başqa daha ağıllı xalqlar isə (çox ehtimal ki, ingilislər və fransızlar - K.Q.) onlara işgüzar tərəfdaş kimi, kommersiya meydanı kimi baxırlar. Maarifçilərin kolonizatsiyanı (məskunlaşmanı) tənqid etmələrinin bir səbəbini də Avropa şəhər və kəndlərinin boşalması, onların baş götürüb yeni koloniyalara axması idi, bunun da nəticəsində Amerikanın yerli əhalisinin yerini avropalılar tuturdular. Yerli əhali isə kütləvi qırğınlara və yaxud rezervasiyalara sıxışdırılmağa məhkum idilər. Yeni gələnlərin sayı artıqca onların müstəqillik hərəkatı da genişlənirdi. Mirabonun göstərdiyi kimi Yeni dünya gec-tez köhnə dünyanın hökmdarlığına son qoumalı idi və qoydu da. Onu da deyək ki, bu miqrasiya prosesi indi dönməz xarakter almışdır, amma bu dəfə əksinə. İndi dünyanın hər yerindən Avropaya axırlar. Avropalılıq daha nümunəvi bir

həyat tərzi və şəraiti yaratdıqlarına görə indi Asiya və Afrikadan olan mühacirlər oraya gəlir və təbii ki, burada əhalinin milli tərkibinə müəyyən təsirlər göstərirlər. Avropalılar isə bütün vasitələrlə bunun qarşısını almağa çalışırlar. Amma ona nail ola bilmirlər. Çünki özlərini ucuz işçi qüvvəsindən də məhrum etmək istəmirlər. Ona görə də Avropada irqlər və millətlər qarışırlar. Bunun da nəticəsində azsaylı avropalıların gələcəkdə çoxsaylı asiyalılar tərəfindən «udulması» təhlükəsi yaranmışdır.

### 2.3. Millətlərarası və ölkələrarası münasibətlərdə müharibə və sülh amili

Tarixdə müharibə probleminə ilk dəfə Fukidid toxunmuşdur. O, müharibələrin törənmə səbəblərini, onun siyasətlə bağlılığını qeyd etmişdir. Platon və Aristotel müharibələri «siyasi incəsənətin» bir hissəsini və qul əldə etməyin yolu sayırdılar. Heğel müharibəyə ilahinin əməli kimi baxırdı. L.Morqan və F.Engels yazırdılar ki, ibtidai insanar arasında baş verən müharibələr onların həyat tərzi ilə əlaqədar olmuşdur, onlar siyasi xarakter kəsb etməmişdir. Xüsusi mülkiyyət və dövlət meydana gələndən sonra isə müharibələr hakim siniflərin maraqlarına görə aparılmış və siyasiləşmişdir.

Prudon göstərmişdir ki, müharibə və sülh xalqların həyat şəraiti ilə əlaqədar yaranır və biri digərini şərtləndirir. O.Kont müharibələrin anarxizmə çevrildiyini qeyd edirdi. Ona görə, artıq müharibələrin bəşər həyatından birdəfəlik uzaqlaşdırılmasının dövrü gəlib çatmışdır.

K.Marks və F.Engels yazırdılar ki, insanların tarix yaratmaları üçün onlara imkan verilməlidir. Müharibələr isə bu İmkanları onların əllərindən alır və yaradıcı heç nə vəd etmir, ona görə də onlar tərəqqinin düşməni kimi bəşər həyatından uzaqlaşdırılmalıdır.

Nə qədər qəribə görünsə də həmişə müharibə aparmaq haqqında düşünən siyasətçilər sülhü qoruyub saxlamaq haqqında çox az düşünmürlər. Karl Fon Klausivits (1780-1831) tarixdə ilk dəfə olaraq müharibələrə dolğun tərif vermiş və göstərmişdir ki, müharibə - dövlət siyasətinin başqa vasitələrlə davamından başqa bir şey deyildir. O, ictimai inkişafın müstəqil bir hadisəsi olmayıb sırf siyasi mülahizələr ucundan baş verir. [95]



Son beş min il yarımda dünyada 14,5 min böyük və kiçik müharibə olmuşdur ki, burada 3,6 milyon insan həlak olmuşdur. [122, s.155]

Birinci dünya müharibəsində 33 ölkə iştirak edirdi. Burada yer kürəsi əhalisinin 62%-i, yəni 1,1 milyard nəfəri iştirak edirdi. Bu müharibədə 25 milyon insan həlak olmuşdur. Onlardan 9,5 milyonu döyüşdə, 0,5 milyonu bombardmanda, 10 milyonu aclıq və epidemiya nəticəsində ölmüşdür. İkinci dünya müharibəsində Yer kürəsi ərazisinin 78%-ini, daha doğrusu, 1,7 milyard nəfərini əhatə edən 62 ölkə iştirak edirdi. Burada 55 milyon insan həlak olmuşdur. Onlardan 27 milyonu hərb meydanında, 1.5 milyonu bombardmanda, 11 milyonu dövlət idarələrində, 2 milyonu partizanlıqda, 1 milyonu aclıq və epidemiyadan həlak olmuşdur. Deməli, iki dünya müharibəsində 87 milyon nəfər həlak olmuşdur.

Müharibə sosial hadisə olmaqla ölkələr və xalqlar arasındakı münasibətlərin (dialoqun) aydınlaşdırılması formasıdır. Müharibənin nəticələrindən asılı olaraq ölkələr və xalqlar arasındakı dialoq nizama salınır, onlar biri-birinin mədəniyyətlərinə nüfuz edir, biri-birlərini daha yaxından tanıyır, biri digərinin milli idealının nədən ibarət olmasını dərk edirlər. Bu mənada bir millətin milli mənəvi sərvətləri digəri üçün artıq əlçatmaz bir şey olmur, əksinə, hər iki tərəfin nümayəndələri bu mədəniyyətdən bəhrələnmək imkanları əldə edirlər. Müharibə onu aparan tərəflərə nə qədər ziyan vursa da müəyyən mənada onları həm də biri-birinə yaxınlaşdırır, istər-istəməz biri digərini daha yaxından hiss etməli olur. «Soyuq müharibə»nin və ikili dünya nizamının sona çatması xalqlar və millətlər

arasında, eləcədə bugünkü çoxnizamlı dünya şəraitində bir sıra problemlər doğurmuşdur. Bunların arasında mərkəzi yeri dövlətlər və xalqlar arasında müharibələr və konfliktlər problemi tutur. Hələ 1793-cü ildə R.Folmar yazırdı: «Dövlətlərin müharibəsi qurtardı, xalqların müharibəsi başlayır». Yəqin ki, müəllif bununla Avropada millətçilik dövrünün başlanmasına işarə edirdi. Müharibənin özünə gəldikdə isə bu haqda hələlik vahid fikir yoxdur və ola da bilməz. Bu müxtəlif fikirlər və ideyalar arasında müharibələrin bəşər həyatından birdəfəlik silinib getməsi eyforiyasından tutmuş «hamının - hamıya qarşı müharibəsi» fikrinədək hər bir ideya öz əksini tapır». [8, s.3] Müharibələrdən və qanlı toqquşmalardan azad olan bir cəmiyyətdə yaşamaq uzun illər bəşəriyyətin məşhur fikir dahilərinin ən böyük arzusu olmuşdur. Nizami Gəncəvinin ideal dövlətində insanlar qanlı müharibələrdə deyil, qocalıqdan ölürlər. İ.Kant xalqlar arasında sarsılmaz əbədi sülhün ideal layihəsini vermişdir. Pozitivizmin banisi O.Kont əsaslandırmağa çalışırdı ki, artıq müharibə bir anoxromizmə çevrilmişdir. O. Konta görə, müharibələr sənaye cəmiyyətinədək olan dövrlərdə tənbəlləri və anarxiyaya meylli olanları əməyə cəlb etmək üçün və böyük dövlətlər yaratmaq üçün lazım idi. İndustrial cəmiyyətin yaranması ilə zənginlik və var-dövlət artıq müharibələr nəticəsində deyil, əməyin elmi təşkilində əldə edilir. Ona görə də hərbi siniflər aradan çıxmış, onun yerini isə əmək sərvətləri və əmək fəaliyyəti tutmuşdur. Q.Bokl, O.U. Emerson, Q.Spenser və başqaları belə hesab edirlər ki, azad ticarətə icazə verilməsi xalqları bir-birinə qarşı müharibə etməkdən çəkindirəcək və onlar əmin olacaqlar ki, azad ticarətdən gələn gəlir müharibədən gələn gəlirdən müqayisə olunmaz dərəcədə artıq olacaqdır. Bu da öz növbəsində əməyin beynəlmiləl bölünməsinə və iqtisadi ixtisaslaşmaya gətirib çıxaracaqdır. Dövlətlər öz problemlərini və mübahisəli məsələləri müharibələrdə axtarmaya-



caqlar. Bu ideyalar XVIII əsrdən üzü bəri pasifistlər hərəkatının da əsas şüarlarına çevrilmişdir.

Birinci dünya müharibəsinə girən ABŞ prezidenti V.Vilsonun obrazlı ifadəsilə desək o, dünyanı demokratiya naminə xilas etmək məqsədini güdürdü. ABŞ-da güman edirdilər ki, bu sonuncu müharibədir. Güya bundan sonra bəşəriyyət artıq heç bir müharibə görmədən rahat yaşayacaqdır. Lakin 20 il sonra bəşəriyyət elə bir dəhşətli müharibənin şahidi oldu ki, bu, əsl insan sallaqxanasını xatırladırdı.

9 noyabr 1989-cu ildə Berlin divarları söküləndə çoxları bu qənaətə gəldi ki, nəhayət Avropa əbədi sülh və əminamanlıq dövrünə qədəm qoymuşdur. Hətta tez-tez belə fikirlər də eşidilirdi ki, müharibə elmini sülh elmi ilə əvəz etmək lazımdır.

Müharibə siyasi məqsədlərə silahlı yolla çatmaq vasitəsidir. XIX əsrin Prussiya hərbi nəzəriyyəçisi F.Klauzevits müharibəni siyasətin başqa vasitələrlə davamı hesab edirdi. Soyuq müharibə illərində nüvə müharibəsi təhlükəsi qarşıdurmanın qarşısını kəsən başlıca vasitə rolunu oynayırdı. Lourents özünün «İnsan və atom» kitabında yazırdı ki, atom - nüvə silahları bu gün sülhün keşiyində dayanan əsas amildir. Lakin nüvə silahına yiyələnməklə ABŞ heç də öz iradəsini istədiyi ölkəyə qəbul etdirə bilmədi. Məsələn, ABŞ-ın bütün səylərinə baxmayaraq 1945-1949-cu illərdə SSRİ-nin nüfuzu xeyli yüksəldi və o, dünyanın təxminən yarısı üzərində öz nəzarətini həyata keçirməyə başladı. ABŞ öz nüvə üstünlüklərindən istifadə edib, oraya və Vyetnam müharibələrinə tutarlı bir korrektiv verə bilmədi. Əfqanıstanda müharibə aparan sovetlər sanki nüvə silahına malik olduğunu unutmuşdu. Fransanın nüvə silahı ola-ola o, Əlcəzairdən qovuldu. Argentina İngiltərəyə qarşı müharibəyə başlayanda ingilislərin atoma malik olmaları amilini yada belə salmadılar. Bütün bunlar ölkələr arasında müharibələrdə bir növ «nüvə tabu»sunun olduğunu sübut edir. A.Eynsteyn yazırdı ki, insanın nüvə

silahına malik olması insanın təfəkkür qabiliyyətindən başqa dünyada hər şeyi dəyişdirmişdir. «Nüvə qılıncı» bəşəriyyətin məsuliyyətsizliyi və nadanlığı simvoludur. Lakin bu heç də o demək deyildir ki, nüvə silahına malik olmaq siyasi sahədə heç bir prestic üçün imkan yaratmır. Müharibə elə indinin özündə də siyasətin başqa vasitələrlə davam etdirilməsindən ibarətdir. II İnternasional liderləri olan Kautski, E.Bernşteyn və b. müharibələri hücum və müdafiə müharibələrinə ayırırdılar. Onlara görə hücum müharibələri guya həmişə ədaətli xarakter daşımışdır. Marksizmə görə müharibələr sinifli cəmiyyətlərin və xüsusi mülkiyyətin, cəmiyyətin hakim siniflərinin maraqları ilə əlaqədardır. Deməli, müharibələr insan təbiətilə əlaqədar olmayıb, onun xislətindəki çatışmazlıqlarla şərtlənmir. Müharibələrin mənbəyi ictimai quruluşun özündədir. Lakin marksizm heç də bütün müharibələri pisləmir, əskinə, qabaqcıl istimai quruluşları və eləcə də sosializm uğrunda aparılan müharibələri ədalətli sayırdı. Burada müharibə və sülh problemi siyasi və ideoloji mövqelərdən şərh edilirdi. Müharibə ilə demokratiyanın nisbəti məsələsi müasir şəraitdə ən çox maraq doğuran sosial-siyasi problemlərdən biridir. Demokratiyanın ən nümunəvi idarəetmə forması olmasına baxmayaraq, o da müharibələrin və münaqişəli vəziyyətlərin aradan qaldırılmasına qadir deyil. Qədim Romada demokratik rejimlərin hökm sürdüyü illərdə belə digər xalqlara qarşı işğalçılıq müharibələri davam edirdi. Birinci dünya müharibəsində demokratik İngiltərə və Fransa avtokrat rejimli Rusiya, İngiltərə və ABŞ totalitar quruluşlu SSRİ ilə müttəfiq idilər. ABŞ-ın Cənub-Şərqi Asiya və İraqla apardığı müharibəyə onun demokratik quruluşu mane ola bilmədi. Halbuki bu müharibələr insanlara əzab-əziyyətləri, dağıntıları bəxş etmişdir.

Bütün bunlar göstərir ki, demokratiya milli maraqları inkar etmir, əksinə, milli maraq tələb edəndə daha sərt mövqe tutmalı olur. Müharibə və sülh problemi ilə həmişə



xeyir və şər problemi kimi rəftar etmək qeyri-mümkündür. Çünki elə ölkələr və xalqlar vardır ki, onların apardıqları müharibələrdə şər elementlərinə nisbətən xeyirxah məqsədlər daha çoxdur. Qədim Elladada Demosfen müharibələri ədalətli və ədalətsiz adlandıraraq onları iki yerə bölürdü. Ona görə də onun qiymətləndirilməsi konkret tarixi şəraitdən asılıdır. Demosfenə görə, ədalətli müharibələr doğma vətəni yağı tapdağından qorumağa xidmət edir, ədalət naminə aparılır. Ədalətsiz müharibələr qarət etmək, gəlir əldə etmək məqsədilə aparılır və ədalət prinsiplərinin pozulmasına əsaslanır. «Penegirik» adlandırdığı nitqlərində İ.Sokrat varvar asiyalılara qarşı aparılan müharibəni artıq müharibə deyil, şərqə doğru təşkil olunmuş müqəddəs bir elçilik hesab edirdi. Qədim Romalılar digər xalqlara qarşı aparılan müharibələri ideoloji cəhətdən əsaslandırmaq üçün həmişə nəsə bir bəhanə tapırdılar. Onlar sülh danışıqlarına gedəndə də müharibəyə hazırlaşırdılar. Platon asiyalılara qarşı aparılan müharibələri ədalətli sayırdı və onları heç müharibə də saymırdı. Platona görə, əsl müharibəni, yəni Poloniumu ancaq yunanlar arasında gedən müharibələrə aid etmək olar. Barbarlara qarşı aparılan müharibə isə yunanların məişətinə daxil olan sadə bir işdən başqa şey deyildir. Protaqor demişdir: «İnsan hər şeyin ölçüsüdür». Doğrudan da, insanlara həm xeyirxahlıq, həm də şər əməllər xasdır. Müharibələri də onlar edirlər, sülhü də onlar bağlayırlar. Ona görə də müharibələri yalnız sosial-siyasi quruluşla deyil, habelə insan təbiətinə xas olan bəd əməllərlə də əlaqələndirmək lazımdır. Müharibələr bütün hallarda siyasi-ideoloji aktdır. Onlar həm siyasi münasibətlərin davamı kimi, həm də düşmən zənn olunan qüvvənin fikrinin əksi kimi meydana gəlirlər.

Tarixi təcrübə göstərir ki, insanlar düşmənsiz keçinə bilmirlər. Onlar daim bu obrazı öz daxili aləmindən kənarda axtarır, özlərindən uzaqlaşdırmağa çalışırlar. Bu səbəbdən də düşmən obrazı kənarda yaranır. Sahib Təb-

rizidən soruşurlar ki, sənin bu şəhərdə bu qədər düşmənin ola-ola nə üçün burada yaşamağı üstün tutursan? O demişdir: «Mən dostlarımı qoyub gedə bilərəm, amma düşmənlərimi yox». Düşmən obrazı ibtidai icma quruluşundan indiyədək «özününküləri» özgələrə qarşı birləşdirən bir amil olmuşdur. İqtidar öz çətin böhranlı anlarında düşmən obrazına qarşı təbliğatı gücləndirir və beləliklə də öz mövqelərini möhkəmlətmiş olur. Müharibələr ona görə baş vermir ki, güclü silahlanma gedir. Əksinə, müharibəyə meyllilik silahlanma yaradır. Ona görə də silahların azaldılması müharibənin qarşısını almağa zəmanət vermir.

Maderyaql yazırdı ki, xalqlar bir-birinə inanmırlar, ona görə yox ki, onlar silahsızdırlar, əksinə, ona görə ki, onlar silahlıdırlar. Psixoloq və publisist S.Kin yazır ki, biz özgələrini öldürmək üçün əvvəlcə onların düşmən obrazlarını yaradır, sonra silahlanırıq, təbliğat texnoloğiyadan qabaqda gedir. Soyuq müharibə illərində ABŞ və SSRİ əhalisinin bir-birinə münasibəti buna misal ola bilər. Soyuq müharibənin və ikili dünya nizamının qurtarması ilə bu problem aradan qalxmadı, əksinə yeni formalar aldı. Çünki iki düşmən sisteminin yerini indi çoxlu müstəqil ölkələr və yeni maraqlar tutdu. Onlar öz milli təhlü-kəsizliklərini təmin etmək üçün nəinki tərkisilaha can atırlar, əksinə, yeni vüsətlə silahlanırlar. R.Qiliin 1983-cü ildə yazırdı ki, İslam dininin və mədəniyyətinin yüksəlişi dünyanı yenidən iki cəbhəyə ayıra bilər. Ondan düz 10 il sonra Amerika politoloqu S.Hantinqton özünün məşhur «Sivilizasiyaların toqquşması» adlı məqalələrilə çıxış etdi. Bu məqalələrin əsas leytmotivini aşağıdakı tezis təşkil edir. «Əgər XX əsr ideologiyaların mübarizəsi əsri idisə, XXI əsr sivilizasiyaların və dinlərin mübarizəsi əsri olacaqdır». S.Hantinqton XXI əsrdə bu mübarizənin aşağıdakı yeddi-səkkiz sivilizasiyalar arasında gedə biləcəyini ehtimal edir. Qərb, Çin, Yapon, Hind, Slavyan, Latın Amerikası və Afrika. Ona görə də yeni dünya müharibəsi də məhz bu sivilizasiya arasında baş verəcəkdir. O yazır



ki, bu sivilizasiyaların hər biri ayrı-ayrılıqda Qərb üçün təhlükə törədir və ona görə də Qərb onların hamısına qarşı eyni dərəcədə münasibət bəsləməlidir. O hətta belə bir şüar da irəli sürür: "West is against Rest" ("Qərb hamıya qarşı») S.Hantınqton Qafqazdakı münaqişələrə də bu prizmadan yanaşır və göstərir ki, onların dərin tarixi və sosial-siyasi kökləri vardır. [92] Bu, Haydeggerin «Müharibə Qərbin ruhudur» tezisilə həmahəng səslənir.

Pikasso demişdir: «Müharibə millətlər və xalqlar arasında elə bir dəhşətli mühakimə üsuludur ki, həm mühakimə edəni, həm də mühakimə ediləni məhv edir».

Əgər bir necə qlobal problemi nəzərdən keçirsək görərik ki, kəskinlik dərəcəsinə görə onlar biri-birindən fərqlənirlər. Sözsüz ki, bəşəriyyət qarşısında duran ən kəskin problem müharibə və sülh problemidir. On milyonlarla insan həyatını məhv edən iki dünya müharibəsi, habelə saysız-hesabsız regional (lokal) müharibələr təsdiq etmişdir ki, onlara son qoymadan sivilizasiyanın salamatlığını təmin etmək çətin olacaqdır. XX əsrdə kütləvi qırğın silahlarının yaradılması, onların ehtiyatının həddən artıq toplanması insanı öz varlığına son qoymağa texniki cəhətdən qadir etmişdir. Eyni zamanda dünyamızda sosial xarakterli ziddiyyətlərin qalması bu təhlükəni daha real etmişdir. Uzun müddət dünyanın iki sistemə parçalanması, onların siyasi, ideoloji və hərbi qarşıdurması sürətlə silahlanmaya rəvac vermiş, dünyada xeyli silah toplanmasına gətirib çıxarmışdır. 80-ci illərin ortalırında dünyada toplanmış nüvə silahı ehtiyatları yer kürəsini 18 dəfə dağıtmağa kifayət edərdi. Həm də sürətlə silahlanma bəşəriyyətin maddi və mənəvi sərvətlərinin bihudə yerə məsrəf edilməsi deməkdir. 70-ci illərdə keçmiş Sovet İttifaqı milli gəlirin 40%-ə qədərini hərbi xərclərə sərf edirdi. Müharibələr dövründə hərbi xərclər də artır. Erməni təcavüzünü dəf edən müstəqil Azərbaycan atəşkəsədək (12 may 1994-cü ilədək) büdcənin 50%-nə qədərini hərbi məqsədlərə sərf etmək məcburiyyəti qarşısında qalmışdı.

Müharibələr insanlığa böyük məhrumiyyətlər gətirmişdir. Mütəxəssislər hesablamışlar ki, son yüzildə dünyada irili-xırdalı 2700-dən çox müharibə olmuşdur. Son 2 minillikdə bəşəriyət yalnız 264 il müharibəsiz keçin-mişdir. Son dövrlər lokal (məhəlli) müharibələrin sayı çoxalmışdır. Hal-hazırda 70-dən çox məhəlli münaqişə mərkəzləri mövcuddur. Həm də onların 12-si dağılmış Sovet imperiyasının xərabəliklərində baş vermişdir. Kütləvi qırğın silahlarının yaranması ilə müharibə təhlükəsi ehtimalı daha da artmışdır. Lakin əvvəlki dövrlərdən fərqli olaraq müharibənin qarşısını almaq üçün imkanlar da çoxalmışdır. Son vaxtlar beynəlxalq münasibətlərdə baş verən müsbət dəyişiliklər sülh tərəfdarlarının sıralarını daha da möhkəmlətmişdir.

Bir çoxları müharibələri insanın təbiəti ilə bağlayır və belə heçab edirlər ki, onlar insan mənəviyyatındakı naqisliklərlə bağlıdır. Guya insandakı təcavüzkar instinktlər onu öz həmcinsinə qarşı hərəkətlərə sövq etdiyindən müharibələr bəşər cəmiyyətinin əbədi yol yoldaşı olacaqdır. Hətta böyük alman filosofu Hegel qeyd edirdi ki, əsən küləklər durğun gölü iylənməkdən qoruduğu kimi, müharibələr də bəşər cəmiyyətini çürüməkdən qoruyur. Əlbəttə, bu cür ifrat yanaşmalar mürəkkəb sosial-siyasi hadisə kimi, müharibələrin mahiyyətini bütünlüklə aşkarlanmağa imkan vermir. Bu zaman siyasət məsuliyyətdən azad edilir, soyğunçu müharibələrə haqq qazandırılır. Lakin bəşəriyətin bir çox zəka sahibləri dövlətlərarası münasibətlərdən hərbə-zorbanın yığışdırılmasını ürəkdən arzulamışlar. C.C. Russo inanırdı ki, inkişaf prosesində tədricən insanlararası əxlaqın və ədalətin ali qanunları dövlətlərarası münasibətlərin ali qanununa çevriləcəkdir. V.Q.Belinski bəşər övladlarının hər biri üçün sakitlik olmaqdan «elə-belə, müftə verilən səadəti» arzulamırdı. Böyük Nizami yazırdı ki, «həm ağ, həm də qara yer kürəsinin övladlarıdır», «Həbəş kömür kimi qaradır, qəlbi isə təmizdir».



Hər bir müharibə ona qədər yeridilmiş siyasətlə qırılmaz surətdə bağlıdır. Çünki müxtəlif niyyətlər əldə edilməsinə yönəldilmiş siyasət öz məqsədlərinə çatmadıqda zorakı üsullara çevrilmiş, müharibələrlə nəticələnmişdir. Odur ki, müharibəni həm də siyasətin digər vasitələrlə, yəni zorakı üsullarla davamı kimi də başa düşmək olar.

Tarixdə müxtəlif müharibələr bəllidir. Qulların quldarlara, kəndlilərin mülkədarlara qarşı müharibələrini göstərmək olar. Yeni dövrdə, yəni kapitalizmin meydana gəlməsi və çiçəklənməsi dövründə müstəmləkələr uğrunda müharibələr genişlənir. Elə I və II dünya müharibələri də yeni torpaqlar, yeni nüfuz dairələri uğrunda müxtəlif dövlətlər qrupunun mübarizəsi kim baş vermişdir.

1917-ci ildə ilk sosialist dövlətinin yaranması dünyanı bir-birinə zidd olan 2 sistemə parçalayır. Nəticə etibari ilə siyasi, ideoloji və hərbi qarşıdurmanın sərhədləri daha da genişlənir. 3-cü minillik ərəfəsində qanlı müharibələrdən, biabırçı zorakılıqdan cana gəlmiş dünya yeni sınaqlarla üzləşməli olur. Əgər sosializm zorla bütün dünyaya kommunizmi ixrac etməyi qarşısına məqsəd qoyurdusa, kapitalizm də sosializmi tarixin səhvi kimi qiymətləndirir, onun ideoloji və siyasi təxribatlarına mümkün olan vasitələrlə cavab verirdi. Belə bir vəziyyət dünyanı çalxalayır, onu tez-tez müharibə həddinə gətirib çıxarırdı.

Bu vəziyyət 2-ci dünya müharibəsindən sonra daha da kəskinləşir. Müharibədən qalib çıxmış Sovet rejiminin Şərqi Avropada və Cənub-Şərqi Asiyada möhkəmlənməsi sosialist istiqaməti seçmiş ölkələrin sayını artırır. Bu isə dünyada qüvvələr nisbətinin kəskin dəyişməsinə gətirib çıxarır. Nəticə etibarilə, beynəlxalq münasibətlər iki sistemin-kapitalizm və sosializm sistemlərinin kəskin qarşıdurması şəraitində formalaşmağa başlayır. 1946-cı ildə Amerikanın Fuilton şəhərində İngiltərənin o zamankı baş naziri U. Çerçillin çıxışı ilə iki sistem arasındakı mübarizənin təmərküzləşmiş ifadəsi olan «soyuq müharibə»nin bir növ

startı verilir. Özündə ideoloji, siyasi, iqtisadi təxribatları, habelə psixoloji hücumları birləşdirən «Soyuq müharibə» «isti müharibə»dən - fəal hərbi əməliyyatlar aparılmasından az fərqlənir.

Güclü ideoloji təxribat vasitələrindən - kütləvi informasiya vasitələrinin köməyi ilə təbliğat və təşviqatdan, psixoloji təsir vasitələrindən - şantac və açıq hədədən, hərbi güc nümayiş etdirməkdən, habelə beynəlxalq təşkilatların tribunasından istifadə etməklə biri-birini ittihama geniş rəvac verilir. Adamların beynini, düşüncə və davranışlarını da bu hava üstə köklənməyə çalışırlar. Bu zəmində beynəlxalq həyatın ən kiçicik sahəsi belə ideologiyalaşır, hər bir hadisəyə konkret siyasət prizmasından yanaşılır. Hədsiz şübhəlilik, hər şeydə düşmən obrazı axtarmaq dövlətlərarası münasibətlərə geniş ayaq açır. Sosialist dövlətləri sərhədləri daha da möhkəmləndirməklə «dəmir pərdə» ilə özlərini xarici aləmdən tam təcrid etməyə çalışırlar. İdeoloji mübarizəyə sinfi mübarizənin bir forması kimi baxan sosialist ölkələri sosialist inqilabını ixrac etmək sevdasından da əl çəkmirlər. Belə bir abhavada beynəlxalq münasibətlərin kəskin militaristləşdirilməsi xətti götürülür, sürətlə silahlanma baş alıb gedir. Sosializm və kapitalizm cəhbəsinə daxil olan ölkələr öz büdcələrinin böyük bir hissəsini hərbi xərclərə ayırırlar. Hərbi və siyasi qarşıdurmanın konkret ifadəsi kimi 1949-cu ildə NATO bloku, 1955-ci ildə isə Varşava hərbi paktı yaranır. Bu axında təcavüzkar hərbi doktrinalara geniş rəvac verilir. Hər iki tərəfdən açıqca müharibələrə siyasi məqsədlərə nail olmaq vasitəsi kimi baxılır. Bu hal ABŞ və SSRİ kimi fövqəldövlətlərin hərəkətlərində daha aydın nəzərə çarpır. Vyetnam və Qrenadaya, Əfqanıstan və Çexoslovakiyaya hücum və digər təcavüzkar hərəkətlər bu xəttin açıq təcavüzlərinə çevrilir. Nüvə silahının çəkindirici rolundan istifadə edildikdə isə az qala nüvə fəlakəti həddinə gəlib çatır. Karib böhranı (1961) bunun kulminasiya nöqtəsi olur. Nəticədə uzun müddət militarist dairələr dünya hadisələrinə nüvə təfəkkürü nöqteyi-nəzərindən baxılmasına bəraət qazandırmışlar. Nüvə silahının «çəkindirici», qüvvələr balansındakı «tarazlayıcı» rolu barədə sərsəm uydurmalar geniş yayılmışdı. Beləliklə, militarist təfəkkür tərzü beynəlxalq münasibətlərdə həlledici rol oynayırdı.



Kütləvi qırğın silahları və onları hədəfə çatdıran vasitələrin yeni-yeni növləri icad və istehsal olunurdu. Orta və uzaq mənzilli nüvə raketlərindən sonra kosmosun da sürətlə silahlanma meydanına çevrilməsi başlamışdır. Yerin süni peykləri dinc məqsədlərdən çox hərbi məqsədlərə xidmət edirdi: «ulduz müharibələri» deyilən proqramlar hər iki tərəfdən aparılırdı. Maddi və mənəvi ehtiyatların çox böyük bir hissəsi bu cür sərsəm proqramların həyata keçirilməsinə yönəldilirdi. Vəziyyətin bü cür davam etməsi hər hansı bir təsadüf nəticəsində dünyanı nüvə fəlakətinə yuvarlaya bilərdi. Bu zaman isə bəşəriyyəti nüvə selindən heç «Nuhun ikinci nəğməsi»də xilas edə bilməzdi.

Belə bir şəraitdə dünyanın yeni siyasi təfəkkürə, beynəlxalq hadisələrə yeni yanaşma tərzinə ciddi ehtiyacı meydana çıxırdı. Elə bir təfəkkür tərzinə ki, beynəlxalq iqlimin sağlamlaşdırılmasına, dövlətlərarası münasibətlərin həlimləşdirilməsinə gətirib çıxarmış olsun. Bu cür siyasət son nəticədə belə bir həqiqətin dərk edilməsinə yol açmalı idi ki, beynəlxalq münasibətlərdə zorakılıq son nəticədə insan nəslinin qəbir qazıyanına çevrilə bilər, sivilizasiyanın daşını daş üstə qoymaz.

Son illər dünyada tamamilə başqa bir reallıq formalaşmağa başlamışdır. Deyəsən, zorakılığa əsaslanmayan, nüvəsiz dünya ideyası çətinliklə də olsa, yavaş-yavaş özünə yol açmaqdadır. Son vaxtlar sürətlə silahlanmanın vüsətinin zəifləməsi, bir sıra silah növlərinin ixtisar edilməyə başlaması hər halda bu cür düşünməyə əsas verir. 80-ci illərin ikinci yarısında başlamış beynəlxalq münasibətlərin həlimləşməsi prosesi buna rəvac verir. Artıq 90-

cı illərin əvvəlində «soyuq müharibənin» buzları sürətlə əriməkdə idi. Çoxları bunu gərginliyin zəifləməsi prosesinin uğuru, soyuq müharibə sırasının sonu kimi qəbul edirdi. Keçmiş Sovet İttifaqı ilə ABŞ arasında orta mənzilli nüvə raketlərinin bütünlüklə, strateji hücum silahlarının əvvəl yarıbayarı, daha sonra isə daha üçdəbir qədər azaldılması, habelə kimyəvi silah ehtiyatlarının tam ləğv edilməsi barədə bağlanmış müqavilələr planetdə tərksilah prosesini xeyli sürətləndirdi. Nəticə etibarilə, dünyada kütləvi qırğın silahları ehtiyatı 50%-dən çox azaldıldı. Bunun ardınca adi silahların və silahlı qüvvələrin ixtisarı sürətlə aparılmağa başlayır. Əgər 1985-ci ildə SSRİ-də orduda 8,5 milyon nəfər əsgər və zabit var idisə, 1992-ci ildə Rusiyada bu rəqəm 2,5 milyona enir. Bu zəmində dünyada qarşıdurma qarşılıqlı əməkdaşlığa doğru dönüş edir.

Bu prosesdə bəşər cəmiyyətinin mənəvi zənginləşməsi, beynəlxalq münasibətlərdə yeni mənəvi kateqoriyaların formalaşması kimi müsbət dəyişikliklər baş verir. Ümumisülh ideyası utopik baxışlar çərçivəsindən çıxaraq real perspektivlər kəsb edir. Qarşılıqlı etimadın güclənməsi beynəlxalq həyatın ab-havasını köklü sürətdə dəyişdirir. Dünən regional təhlükəsizlik sisteminin yaradılması inandırıcı görünürdüsə, bu gün bütün dünyanı əhatə edə biləcək kollektiv təhlükəsizlik sisteminin yaradılmasının real üfüqləri görünməkdədir.

Bu gün tam aydın olmuşdur ki, nüvə müharibəsi nə siyasi, nə iqtisadi nə də ideoloji məqsədlərə nail olmağa kömək edə bilməz. Çünki nüvə silahının hər hansı bir formada tətbiq edilməsi son nəticədə bəşər sivilizasiyasının məhvinə gətirib çıxara bilər. XX əsrin axırlarında siyasət Çerçilin Fulton nitqinə, Trumen doktrinasına, ümumdünya proletar inqilabı ideyasına əsaslanan münasibətlər üzərində qurmaq artıq özünü doğrulda bilməz. Çünki ideoloji məqsədlərə baxmayaraq bəşəriyyətin tale ümumiliyi ideyası tədricən formalaşır. Məhz bunun nəticəsində obyektiv şəraitdən doğan bir proses-qarşılıqlı surətdə asılı və bütöv dünyanın təşəkülü prosesi baş verir. İndi beynəlxalq problemlərlə məşğul olan təşkilatların səsi daha ucadan eşidilir. Bu sərgidə Birləşmiş Millətlər Təşkilatının rolu daha da artır. 184 ölkənin daxil olduğu bu təşkilat beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsində həlledici əhəmiyyət kəsb etməyə başlamışdır. Bir sıra lokal münaqişələrin neytrallaşdırılması, tərksilahın həyata keçirilməsi və qarşılıqlı etimadın gücləndirilməsində BMT-nin təşəbbüslərinin misilsiz əhəmiyyəti vardır.

Bütün bunlar belə bir faktı isbata yetirir ki, qlobal problemlər içərisində ən vacibi olan müharibə və sülh məsələsində son vaxtlar müsbət dəyişikliklər baş verməkdədir. Müharibə dövründə sülhün, sülh dövründə isə müharibələrin taktika və strategiyasının işlənib hazırlanması qədim dövrlərdən indiyədək yaşayıb fəaliyyət göstərən bütün siyasətçiləri və strateqləri düşündürən əsas məsələlərdən biridir. İnsanlar daim əbədi sülh sorağında olmuşlar. Onlar daim müharibəsiz, münaqişəsiz, dinc və sakit həyat arzulamışlar. Lakin müxtəlif ambisiyalar və maraqlar, sinfi dini, milli və irqi mənafelər müharibələri labüd etmişdir. Müharibə dövrü özünə uyğun bir ədalət meyarı da yaratmışdır. Aparılmaşı prinsiplərindən asılı olaraq, müharibələrin xarakteri də müxtəlif olmuş, onda iştirak etməyən mülki əhalinin həyatı üçün qarant verə biləcək siyasi və hərbi liderlərin mövqeləri də fərqli olmuşdur. Bəşəriyyətin qabaqcıl dahiləri daim müharibələri, zorakılığı pisləmiş, mehriban qonşuluğu təbliğ etmişlər. Onlar müharibə dövrlərində belə qarşıdakı yad xalqın maddi və mənəvi mədəniyyətinə hörmətlə yanaşmağı, onların mülki əhalisinə, qocalara və uşaqlara, silahsız adamlara rəhmlə yanaşmağı təlqin etmişlər.

BMT özünün yarandığı ilk günlərdən öz nizamnaməsində elan etmişdir ki, "Birləşmiş millətlərin xalqları, gələcək nəsilləri müharibə fəlakətindən xilas etmək qətiyyətilə insanların əsas hüquqlarına, insan şəxsiyyətinin lə-

yaqət və dəyərinə inam hissini yenidən tədqiq etmək və bu məqsədlərlə dözümlülük nümayiş etdirmək və mehriban qonşular kimi bir-biri ilə dinc yanaşı yaşamaq əzmindəyik".

Beynəlxalq miqyasda müharibələrin aparılması, bu zaman mülki əhalinin qorunması, qaçqın və köçkünlərin yerləşdirilməsi, yaralılara yardım göstərilməsi, ölənlərin ailə və uşaqlarına konsepsiyaların verilməsi və s. kimi məsələlər hələ 1949-cu ildən üzü bəri beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş müəyyən hüquqi aktlarla tənzimlənir. [120] Məlumdur ki, humanitar hüquq – beynəlxalq hüququn tərkib hissəsi olub, humanist prinsiplərə əsaslanan və müharibə vaxtı fərdin hüquqlarını qoruyur. 1949-cu il dörd Cenevrə Konvensiyasına və 1947-ci ildə ona əlavə olunan protokollara əsaslanaraq bu sənəd 600 maddədən ibarətdir. Cenevrə hüququ • sırf humanitar xarakter daşıyır və Beynəlxalq Qırmızı Xaç Komitəsinin (MKKK) əsas ideyasını özündə əks etdirir.

Haaqa Hüququndan• fərqli olaraq Cenevrə hüququ müharibə qurbanlarının tam mənafelərini əks etdirir və müharibədə zərər çəkənlərin hüquqlarını tapdalamaq üçün heç bir dövlətə əl yeri qoymur. Haaqa hüququ da dövlətlər arasında müharibələr aparılmasına dair humanist prinsipləri əldə rəhbər tutur. Amma bununla belə, o müharibələrin labüdlüyü, habelə müharibədən məğlub çıxmış dövlətin saxlanılması və s. məsələlərlə daha çox bağlıdır.

1995-ci il YUNESKO-nun təşəbbüsü ilə BMT tərəfindən Beynəlxalq Tolerantlıq ili elan edilmişdir. 1995-ci il noyabrın 16-da da Parisdə YUNESKO-nun 185 üzv dövləti tolerantlıq prinsipləri Bəyannaməsini qəbul etmişlər. BMT-nin üzv dövlətləri hər il noyabrın 16-nı Beynəlxalq tolerantlıq günü elan etmişlər. 1998-ci ilin sonunda isə yenə də YUNESKO-nun təşəbbüsü ilə 2000-ci ili rəsmən Sülh mədəniyyəti ili elan etmişdir. Bununla əlaqədar olaraq, Nobel mükafatları laureatlarının təşəbbüsü ilə 2000-ci il sülh manifesti hazırlandı və YUNESKO bu



təşəbbüsü bəyəndi. Sülh mədəniyyəti qeyri-zorakılığı, əsas hüquqlara və azadlıqlara hörmət, qarşılıqlı anlaşmaya, dözümlülüyə və həmrəyliyə, qadınların fəal iştiraka cəlb edilməsinə və onlara hakim funksiyaların tapşırılmasına, azad məlumat axının qəbul edilməsinə və mübadiləsinə əsaslanmış ümumi məqsədlər, məqamlar, nəzərlər və davranışlar məcmusudur. Onu da deyək ki, Azərbaycan respublikası Sülh manifestini imzalayan ilk dövlətlərdən biridir[3, s.52, 61].

Erməni millətçiləri isə yuxarıda deyilən bu insani dözümlülük və sülh manifesti prinsiplərindən heç birinə əməl etmir, beynəlxalq hüquqi sənədləri belə ayaq altına alıb tapdalayırlar. Onlar mülki əhalini öz ev-eşiklərindən didərgin salır, qoca və uşaqları öldürür, qız və gəlinləri əsir aparır, əlsiz-ayaqsız, köməksiz və kimsəsiz adamları qul vəziyyətinə salırlar. Belə ki, ermənilər özlərindən zəif gördükləri hər hansı bir xalqın nümayəndəsinə rəhm etmir, fəxrlə də bunu "Böyük Ermənistan yaratmaq naminə" etdiklərini bildirirlər. Bütün bunlar ermənilərin bizə qarşı mədəniyyətsiz müharibə apardıqlarını sübut edir. Onlar atəşkəsi pozur, işğal etdikləri torpaqların ilhaq olunmasına çalışır, bu yolda bütün vasitələrdən istifadə edirlər. 1975-ci il Helsinki Sülh müqaviləsinin çıxardığı sərhədləriin toxunmazlığı prinsipi, habelə BMT tərəfindən erməniləin işğal etdikləri torpaqlardan çıxmaq haqda qəbul edilmiş 4 qətnamənin heç biri yerinə yetirilməmiş qalır. Öz havadarlarının dəstəyinə arxalanan bu "qədim mədəni xalq" özgə torpaqlarını tutarkən heç də mədəniliyini göstərmir, əksinə özünün barbar hərəkətlərilə özünə ancaq nifrət qazandırır. İşğal etdiyi yerlərin maddi-mədəniyyət abidələrini çox qəddarlıq və vəhşilik qaydaları ilə aradan qaldırır və yox edir. Bunu hansı mədəniyyətin ayağına yazmaq olar. Bunu vəhşilik və vandalizmdən başqa bir şey adlandırmaq mümkün deyil. Əbədi yaxud, müəyyən müddətli sülh yaratmaq üçün bəzən müharibə zəruri olur. Roma imperiyası hər yerdə "Romana Pax"ın (Roma sülhü) təmin

olunmasına çalışırdılar. Napoleon Bonapart Avropada aramsız müharibələr aparırdı ki, buna oxşar sülhə nail olsun. Ermənilər Azərbaycanın beşdə bir hissəsini işğal etmişlər. Bəhanə də bu olmuşdur ki, bununla onlar "düşmənin atəş nöqtələrini susdururlar", ərazimizin işğal olunduğu bir dövrdə bütün beynəlxalq təşkilatlar və ermənipərəst qüvvələr bizdən tələb edirlər ki, məsələni ancaq sülh yolu ilə həll edək. Sülh yolu isə ermənilərin öz iddialarından əl çəkməsi vasitəsi deyil. Ona görə də xalq silaha sarılıb öz torpaqlarını azad etməlidir. Məsələ belə qoyulmuşdur: "Ya Vətən, ya da ölüm!". Bu, sülhü təmin etməyin ən yaxşı vasitəsidir.

Bütün bunlara görədir ki, bu gün Qarabağ düyünü "nə sülh, nə də müharibə" dixotomiyasında ilişib qalmışdır. Problemin bu şəkildə qalması ermənilərə və ermənipərəst qüvvələrə sərfəlidir. Onlar məsələni bu şəkildə dondurmaqla xalqımızın unutqanlığına və problemin bir növ köhnələcəyinə ümid bəsləyirlər. Daha aydın desək, onlar belə fikirləşirlər ki, yeni gələn nəsillər üçün bu problem bir növ köhnələcək.

F.e.d.,professor Ə.Abbasov yazır: "Demokratiyanın plurallığı şəraitində antimilitarist şüurun yaranması sülh mədəniyyətinin formalaşdırılması istiqamətində bütün siyasi sistemdə deyil, hələlik yalnız vətəndaş cəmiyyətində olsa da "patriarxallıq fəlsəfəsinin" karroziyasının ilk əlamətidir. Deməli, vətəndaş cəmiyyətində sülh mədəniyyəti mentallığının inkişafı-formalaşmış ümumbəşəri dünyagörüşünün dəyişdirilməsi yoludur ki, bu da totalitarizmdən demokratiyaya keçməkdə olan ölkələr üçün xüsusilə vacibdir. Qədər qoymuş XXI əsr bəşəriyyətin, münaqişələrin həllinin güc metodlarının virtuallaşdırılması yollarının mənimsənilməsi dövrünə çevrilməlidir ki, bu da qısa vaxt ərzində sülh mədəniyyətinin və "yeni şüur fəlsəfəsənin" inkişafını tələb edir. Müasir dünyada sülh mədəniyyəti haqqında təsəvvürlər hələ də qeyri-müəyyəndir. Özü də onun əhəmiyyəti və aktuallığının qiymətlən-



dirilməsində fikirlərin kəskin qütbləşməsi mövcuddur. Bununla bağlı əsas məsələ münaqişə tərəflərinə sülh mədəniyyətinin pozitiv və praqmativ rolunu nümayiş etdirməkdən, onun üstünlüklərini əyani surətdə göstərməklə və ətrafında yaranmış stereotip və mifləri tədricən dağıtmaqdan ibarətdir.

Sülh mədəniyyətinin prinsipləri məğlubiyyətçilik, hər şeyi bağışlama ideyaları və ölkənin milli maraqlarının ayaqlama hesabına sülhün bərqərar olması prosesi demək deyil. Onlar əksinə, özləri hücum xarakterinə malikdirlər, insanlığa qarşı cinayət faktlarına münasibətdə barışmazdırlar və bu hadisələri törətmişlərin milli mənsubiyyətlərindən asılı olmayaraq hərbi cinayətkarların mühakimə olunmasını və cəzalandırılmasını tələb edirlər. Digər tərəfdən, sülh mədəniyyəti, tolerantlıq və yolverilən kompromislər əsasında bütün tərəflərin maraqları nəzərə alınmaqla, münaqişələrin dinc həllinin birlikdə axtarılması mühitini yaradır.

Belə bir şəraitdə isə danışıqların gedişi sülhün imzalanmasının elə şəraitinin tapılmasına imkan verir ki, onlar münaqişənin yenidən qızışmasının və onun hərbi yolla həllinin bütün imkanlarını istisna edir. Burada sonuncu bənd xüsusilə vacibdir və onun əhəmiyyəti insanların bunu rasional pozitiv və praqmatik həlli kimi dəstəklədiklərini, iradə və qətiyyətləri ilə bir daha təsdiq etmiş olur. Sülh mədəniyyəti prinsiplərinin praktiki formalaşması keçmiş opponentlərin ümumi demokratiya prinsipləri əsasında, vətəndaş və hüquqi dövlətin çoxsahəli mədəni və elmi əlaqələrin yaranması ilə iqtisadiyyat, dövlət quruculuğu sahəsində tərəf müqabillik və əməkdaşlığın formalaşması və inkişafı yolu ilə gedir. Bu vaxtlat bir-birilə barışmaz surətdə vuruşan, yaxud münaqişə halında olan ölkələrin müasir fəal əməkdaşlığı sülh mədəniyyətinin praktiki olmasına gözəl illustrasiyadır.

Biz inamın dünya seyrinin dəyər əsasları kimi qüvvəni, zorakılığı və məcburiyyəti rədd edən mövqelərdə

duran insanların birləşməsi istiqamətində hərəkət şəklində modernləşdirilməsinin yeni cəhdlərinin şahidləriyik. Və bu cür hərəkatın doğurduğu yeniləşən insan şüurunun transformasiyasının ümumi təmayülləri ilə təsdiqlənir. Bəşəriyyətin müasir dünyagörüşü böhranının aradan qaldırılması yalnız elmə, fəlsəfəyə, dinə və əxlaqa eyni dərəcədə təsir edən formalaşmış stereotiplərin yenidən mənalandırılması kimi insanın fəaliyyətinin və təfəkkürünün müxtəlif sahələrinin birləşdirilməsi yolunda mümkündür. Bu səbəbdən də bəşəri dünyagörüşünün formalaşdırılması məqsədi ilə tədqiqatları, sülh mədəniyyəti, qloballaşma nəzəriyyəsi, o cümlədən sülhyaradıcı, ekumenist hərəkatlar, müasir dini hərəkatlarının bir-birindən dərin asılılığı və bir-birilə dərin qarşılıqlı əlaqələrini nəzərdə tutur. [4, s.47-49]

Haqqında danışdığımız bu problemin aktuallığı özünü onda göstərir ki, hazırda dünyanın təxminən yüzədək nöqtəsində münaqişəli vəziyyətlər mövcuddur və onlar istər regional, istərsə də beynəlxalq təhlükəsizliyin təmin olunması üçün müəyyən əngəllər törədir.

Zor işlətmək siyasəti - dövlətin əlində olan güc strukturlarının müəyyən siyasi təhhüdlərin yerinə yetirilməsi vasitəsinə çevrilməsidir. Zor işlətmək siyasətinə müəyyən siyasi məqsədlərin həyata keçirilməsi naminə aşağıdakı zor vasitələrin cəlb olunması və işə salınması daxildir:

- siyasi qüvvələr;
- terror: represiya, kütləvi qırğınlar;
- adamların öldürülməsi, döyülməsi və incidilməsi;
- evlərin yandırılması;
- əmlakın qarət olunması;
- kommunikasiya vasitələrinin sıradan çıxarılması;
- qiyam, küçə şuluqluqları, üsyanlar;
- vətəndaş müharibəsi;



- silahlı münaqişələr və s.

Öz məzmununa görə zor işlətmək siyasəti aşağıdakı formalarda mövcud ola bilər:

- hərbi;
- mənəvi-ideoloji;
- inzibati;
- mülki;
- tibbi-psixoloji və s.

Avropada belə halların mövcudluğunun etiraf olunmasının tarixi Antik dövrə gedib çıxır və öz əksini stoisizmdə və ilkin xristianlıqda tapır. Orta əsrlərdə bu kimi hadisələrə zəif etirazlar kilsə dairələrində olmuşdur.

XVIII əsrdə zor işlətməmək prinsipi - bir sıra maarifçilərin əsərlərində özünə geniş yer almışdır. Volter, Russo, Kant, Lokk, XIX əsrdə isə utopik sosialistlər, xristian siyasətini kəskin şəkildə tənqid edən bir sıra yazılar çap etdirmişlər.

Ən yeni tarixi dövrdə zor işlətmək siyasəti əleyhinə çıxış edən məşhur şəxsiyyətlər arasında L.Tolstoyun, M.Qandinin, F.M.Dostoyevskinin və T.Toronun adlarını çəkmək olar.

Mahatma Qandinin siyasətində zor işlətməmək ideyası heç də mübarizədən əl çəkmək vasitəsi deyil, əksinə, zor işlətməmək siyasətinə qarşı irəli sürülmüş yeni zor işlətmənin siyasətinin ona qarşı bir mübarizə vasitəsi kimi irəli sürülməsidir. Bu ideyanı əldə bayraq edən M.Qandi Hindistanın müstəmləkə zülmündn xilas olunma üçün mübarizəyə qoşulmuşdur. M.Qandi həm də ölkədə ingilislər tərəfindən qızışdırılan etnik millətçiliyə qarşı uzun illər mübarizə aparmalı olmuş, hindlilərlə müsəlmanların arasında sülh yaratmağa çalışmışdır. Özü də irəli sürdüyü ideyaların qurbanı uğrunda ölsə də onun fikirləri bir reallığa çevrildi, özünə xeyli tərəfdarlar topladı və Hindistanın azadlığa və müstəqilliyə qovuşmasında mühüm rol oynadı.

L.Tolstoya görə zor işlətmək siyasəti - şərdir. Belə ki, şər özündən böyük, daha iri, yeni bir şər doğurur. Bunun sonu yoxdur və ona görə də fəlakətli nəticələr verir. Onun qarşısının alınmasının yeganə yolu onun meydana gəlməsinə lap əvvəldən yol verilməməkdir, daha doğrusu, L.Tolstoyun sosial utopik fəlsəfəsinə görə ona qarşı dayanmamaqdadır, yoxsa o, zəncirvari bir şəkil alıb daha böyük fəlakətlər törədəcək və yenisini doğuracaqdır. F.M.Dostoyevski zor işlətmək siyasətinin əxlaqa sığmadığını təsəvvür edirdi və əsərlərində də bu Prinsipi təlqin edirdi. Amerika yazıçısı və filosofu T.Toro müxtəlif vasitələrin tətbiqini konstitusiyalı dövlət üçün məqbul sayırdı.

Zor işlətmək siyasəti 1960-cı ildə Filippində F. Markos rejiminin dəyişdirilməsində özünü doğrultmuşdu. Marksizm onu illərlə zərərli, utopik bir cərəyan kimi qiymətləndirmiş və onun inqilabi ideyalarla bir araya sığmağını göstərmişdir. Zor işlətmək siyasəti elə indinin özündə də bir sıra alimlər, siyasətçilər və bəzi dairələr tərəfindən dəstəklənir. Martin Lüter Kinq, A.D.Saxarov, A.Şveyster, V.Qabel vəziyyətləri dinc vasitələrlə yoluna qoymağı tövsiyyə edirdilər. 1989-cu ildə Çexoslovakiyada Kommunist rejiminin süqutu zamanı V.Qabelin "hakimiyyətsiz hakimiyyət" şüarı inqilabın əsas ideyası kimi adamlar arasında böyük şöhrət qazanmışdı. [107, s.254-257]

Yuxarıda deyilənlərdən bu qənaətə gəlmək olar ki, zor işlətməmək siyasəti qarşıya çıxan mübahisəli və münaqişəli vəziyyətləri müharibə aparmaq yolu ilə deyil, dinc vasitələrlə nizamlamağı qarşısına əsas məqsəd kimi qoyur və ona nail olmaq üçün tərəflərdən sülh mədəniyyti prinsiplərinə əməl edilməsi tələb olunur.



## NƏTİCƏ

İki əsrin qovşağında dünyada baş verən sosial-siyasi proseslərin və mədəni- konfessional dəyişikliklərin öyrənilməsi milli müstəqillik yoluna yenicə qədəm qoymuş gənc respublikamız üçün mühüm əhəmiyyət kəsb edir. Bu mənada mədəniyyətlərin qarşılıqlı təsiri və dialoqu təxirəsalınmaz vəzifələrin həyata keçirilməsini tələb edir. Xalq istər-istəməz dünyada gedən bu mühüm proseslərə qoşulur və onda iştirak edir. Lakin qloballaşma adını almış bu kimi proseslərdə xalqın iştirak səviyyəsi onun bu prosesləri qəbul etməyə nə dərəcədə hazır olmasından asılıdır. Yalnız yüksək siyasi mədəniyyətə malik olan xalqlar bu prosesləri qəbul edib onu həzm edə bilir, özünün milli inkişaf sücgəcindən keçirərək bir növ özününküləşdirir. Məlumdur ki, qloballaşma müasir dövrün meyllərini müəyyən edir. Bu proses Qərbin (ABŞ və Avropanın) bilavasitə təsiri və təkidilə həyata keçirilməkdədir. Qərb özünün inkişaf modelini, həyat tərzini, mədəniyyətini dünyanın yerdə qalan digər millət və xalqlarına da təlqin edir, onları da «özü olduğu kimi» görmək istəyir. Qərbin təsir istiqamətləri və vasitələri müxtəlifdir. Onlara qarşı dayanmaq asan məsələ olmadığı kimi öz milli özgürlüyünü də buraxıb birdəfəlik Qərb mövqelərinə keçmək də asan məsələ deyildir. Qərbləşmək, qərb texnologiyasına yiyələnmək, Qərbin dövlət idarəçiiliyi modelini qəbul etmək heç də o demək deyildir ki, mütləq Qərbin həyat tərzini və mənəviyyatını da olduğu kimi qəbul edəsən. Burada mənəvi mədəniyyətin özünün qüruba doğru getdiyi bir zamanda (Şplenqer) bizim onun qəbul etməyimiz nə dərəcədə doğru olardı? Amma Qərb bütün vasitələrlə onu kompleks şəkildə qəbul etməyimizi istəyir. Qərb insanları Avropa yönümündə və Avropa biçimində görmək istəyir. Qərb vahid insan modelini yaratmaq istəyir. Bu insan ABŞ və Avropada yaşayan adamları təqlid edən bir varlıq olmalıdır. Qərb buna nail olmaq üçün

qloballaşma ideyasını ortaya atmışdır. Amma bu elə prosesdir ki, onu hamı eyni dərəcədə qəbul edə bilmir. Dünya ölkələrinin inkişaf səviyyələrinin bərabər olmaması buna mane olur. Amma onu da deyək ki, bugünkü dünyada baş verən sosial-siyasi, iqtisadi-mədəni proseslər istər-istəməz bütün insanları və xalqları əhatə edir və onlar vahid dünya inkişafının ümumi axarına qoşulmalı olurlar. Deməli, qloballaşma özlüyündə iki mühüm istiqamətin yaranıb inkişaf etməsinə səbəb olmuşdur. Bir tərəfdən, milli sərhədlər dağılır, insanlar əlahiddəlikdən və qapalılıqdan xilas olur, digər tərəfdən isə milli müstəqillik hərəkatı, milli dövlət və milli mədəniyyət hər cür inkişafın qarantı, başlanğıcı elan olunur. İnsanlar bu gün belə bir dilemma qarşısında qalıb hər iki istiqaməti götür-qoy edir, onların hansının daha məqbul olması üzərində baş sındırır, mühakimələr, fikirlər irəli sürürlər. Hər bir kəs özünün müdafiə etdiyi yolun düzgünlüyünə digərlərini də inandırmağa səy göstərir. İndi söhbət onları birləşidirməkdən, bir məcraya salmaqdan gedir. Amma qloballaşma prosesi mürəkkəb və ziddiyyətli bir fenomendir. Burada bütün dövlətlərin nayı eyni deyildir. İri və böyük dövlətlər daha varlı, kiçik və zəif ölkələr isə daha yoxsuldurlar. Qloballaşma bu prosesi daha da sürətləndirir. Ona görə də bir sıra cəmiyyətlər və təşkilatlar onun əleyhinə çıxış edirlər. Vaxtilə K.Yaspers gələcəkdə dünyanın vahid qlobal vahidə çevriləcəyi proqnozunu vermişdir. Doğrudan da müasir dünyada hamının eyni dərəcədə informasiya almaq imkanı dünya adamlarının yeni, vahid mentalitetinin əsasını qoymuşdur. Dünya vahid tarixi məkana çevrilmək üzrədir. Xalqların ünsiyyətə olan zəruri tələbatı onların mədəniyyətlərinin inteqrasiyası problemini ön sıraya çəkir. İnsanlar bu inteqrasiyaya daxili tələbat hiss edirlər. Ona görə də dövrümüzdə vahid informasiya məkanı formalaşmaqdadır. İnsanlar informasiya vasitələrinin köməkliyi ilə bütün dünyada baş verən hadisələrdən xəbərdar olur, dünya mədəniyyəti sərvətlərinə daha asan qovuşmaq imkanı əldə edirlər. Amma daha güclü dövlətlər daha təkmil informasiya vasitələrinə malik olurlar. Burada siyasi məkanla informasiya məkanı arasında uyğunsuzluq əmələ gəlir. Hər bir ölkə özünəməxsus siyasi məkana malik olduğu halda bu sözü informasiya məkanı haqqında demək mümkün olmur. Böyük və güclü dövlətlər burada da zəifləri sıxışdırırlar. Bir qrup ölkələr informasiya məkanını bölüşdürür və bundan istifadə edərək belə bir imkana malik olmayan ölkələrin əhalisinə hər cür ideoloji təsirlər göstərirlər. «İnformasiya müharibəsi» vasitəsi ilə dünyanın bir çox millət və xalqlarını istədikləri kimi manipulyasiya edir və öz tərəflərinə çəkirlər. Biz bunun parlaq nümunəsini Dağlıq Qarabağ ətrafında baş verən hadisələrdə gördük. İlk illər «İnformasiya müharibəsində» düşmənə güzəştə getməli olduq. Çünki ermənilər öz işlərini planlı şəkildə qurmuş və illərlə onunçün hazırlıq işləri aparmışdılar. Belə ki, onlar dünya ictimaiyyətini aldatmağa və çaşdırmağa nail oldular. Böyük dövlətlərin dəstəyini və informasiya vasitələrini əldə etməklə onlar bir müddət bu sahədə hegemonluğu ələ aldılar və açığını deyək ki, elə indinin özündə də bəzi məqamlarda öz köhnə mövqelərini qoruyub saxlamağa nail olmuşlar. Lakin sonralar ümumilli lider H.Əliyevin və prezident İ.Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində bu sahədə buzlar qırıldı və dünya ictimaiyyətinə həqiqət çatdırıldı. Dünya informasiya agentlikləri Qarabağ həqiqətinin əsl mahiyyətini adamlara bu dəfə başqa şəkildə çatdırmağa başladılar. Qloballaşma, xüsusilə də ABŞ və Qərbi Avropanın başçılığı altında həyata keçirilən qloballaşma istər-istəməz bəzi ölkələri və xalqları narazı salır, onları Qərbin hegemonluğuna qarşı qalxmağa vadar edir. Bjezinski ABŞ-ın başçılığı ilə olan qloballaşmada Qərbi Avropanı özünə birinci müttəfiq sayır. Bu da onların «Qərb hamıya qarşı!» (West is aqainst Rest!) şüarına tam uyğun gəlir. Belə olan şəraitdə məlum olur ki, qloballaşma rəvan getmir, onun ziddiyyətləri də varmış.

İngilis yazıçısı və publisisti Redyard Kiplinqin «Şərq Şərqdir, Qərb isə Qərb. Onlar heç zaman birlikdə ola bilməzlər» tezisi özünü doğruldur. Qərbin Şərqə qarşı bəslədiyi ögey münasibət son anda onun özünə qarşı yönəlir, insanlar məhz Qərbin baçılığı ilə gedən qloballaşmaya qoşulmaq istəmirlər. Şərq xalqları ilə Qərb xalqları arasında olan ənənəvi fərqləri də buraya əlavə edəndə qloballaşmanın şalvarındakı digər yamaqlar da üzə çıxır. Dünya sosializmini məğlub edib bir qütblü dünya sistemi yaradan ABŞ bu dəfə düşmən obrazını İslam dünyasında gördüyündən ona qarşı apardığı mübarizədə bütün Qərbi öz ətrafına toplamağa çalışır. Bu da öz növbəsində həm İslam ölkələrində, həm də Qərbin bir sıra yerlərində əks təsir doğurur. ABŞ-ın qloballaşdırma siyasəti bu regionlarda bir növ iflasa uğrayır, adamlar ondan uzaqlaşmağa çalışırlar. «American qlobalization» (Amerikanın qloballaşdırması) müəyyən mənada Avropanın bir sıra ölkələrində diktat kimi başa düşüldüyündən Avropanın özü ABŞ-ın təsirindən qorunmaq üçün özünü müdafiə tədbirləri görür. Avropasentrizmi Amerikanosentrizmə qarşı qoyur. Lakin dünyanın yerdə qalan əhalisi, xüsusən İslam dünyasında yaşayan millət və xalqlar Amerikanın, eləcə də Avropanın yaratdığı bu mərkəzçilik siyasəti ilə barışmır, onu tənqid edirlər. XIX əsrin sonunda Nitşe belə bir fikrə gəlir ki, XX əsr dünya tarixinin ən qanlı-qadalı əsri olacaqdır. A.Kamyu XX əsri «qorxu əsri» adlandırdı. S Hantinqton XX əsri «sivilizasiyaların toqquşması əsri», F.Fukuyama isə onu «tarixin sonu» kimi səciyyələndirirdi. Rusiyalı filosof Q.Q.Diligenski F.Fukuyamaya cavab olaraq bildirdi ki, «tarixin sonu»na çox var və Rusiya hələ bundan sonra dünya sivilizasiyasına qoşulacaqdır. Amma onun hansı sivilizasiyaya və onun hansı inkişaf mərhələsinə qədəm qoyacağı sual altındadır» [81, s.9]

Z.Bjezinski XX əsri Avropanın hegemonluğunun sonu və ABŞ hegemonluğunun başlanması əsri kimi səciyyələndirir. Başqa bir alim isə XX əsri «burulğan əsri»



adlandırır. Həqiqətən də XX əsr tarixə müharibələr, sosial inqilablar, milli və dini qarşıdurmalar, elmi-texniki tərəqqi əsri kimi daxil olmuşdur. Dünyanın siyasi mənzərəsinin dəyişilməsi, siyasi aləmdə baş verən mühüm hadisələr mədəniyyətə də sirayət etmiş, dünya xalqlarının mədəniyyəti sahəsində də köklü dəyişikliklər baş vermişdir.

Geopolitika nəzəriyyəsinin banilərindən biri olan X.Makkinderə görə, millətlərin yaranması onların qarşıdurması nəticəsidir. İngiltərə ideyası normand istilası, Fransa ideyası isə hunların hücumları nəticəsində yaranmışdır. Hətta cəmiyyətin «şəhərlərə və kəndlərə ayrılması da etnik münasibətlər ucundan yaranmışdır», onların birinin digərinə olan ehtiyacı etnik balansı saxlamışdır. E. Veber yazırdı ki, Fransada feodal münasibətlərinin dağılması ərəfəsində, hətta Fransa inqilabı illərində bir sıra kəndlərdə əhali özünü fransız adlandırmırdı. Onlar heç fransızca da danışmırdılar. Lord Ekten milləti anlamanın yaxşı (ingilis) və pis (fransız) növlərini göstərərək yazırdı ki, «birincidə millət dövlətə uyğundur, ikincidə isə millət dövlətdən əmələ gəlir». Entoni D Smit milləti «ərazi» və «etnik» millətlərə ayırır və yazır ki, onların ideyası siyasi və etnik millətçiliyə uyğun gəlir. [81, s.154-155]

Avropada iri millətlərin və milli dövlətlərin yaranması onların mərkəzləşdirilməsi ilə nəticələndi. İntibah dövründə İtaliyada başlanan bu hərəkat Avropadan Rusiyaya və oradan Şərq ölkələrinə keçdi. Deməli, millətlər və milli dövlətlər kimi, milli dövlət ideyası da Avropada meydana gəlmişdir.

Fransa inqilabından sonra millətçiliyin güclənməsi ilə milli dövlətlərin yaranması uğrunda mübarizə başladı. Dağınıq və pərakəndə halda yaşayan Avropa xalqları ayrı-ayrı knyazlıqları, qraflıqları, hersoqluqları, əyalətləri və s. birləşdirməyə başladılar. Məsələn, Napoleon Bonapart bir əmri ilə 52 alman knyazlıqlarını «Reyn İttifaqı» adı altında birləşdirdi. Əslində Napoleon bununla da yeni yaratdığı alman dövlətini digər alman dövləti olan Prussiyaya qarşı

qoymağı planlaşdırırdı. Lakin özü də bilmədən alman xalqına böyük xidmət göstərmiş oldu. Gələcəkdə onun Bismark tərəfindən birləşdirilməsinin əsasını qoydu. Napoleonun topları bir çox xırda feodal Avropa dövlətciklərinin axırına çıxdı. Ona görə də bu məşhur sözləri onun adına çıxırlar ki, «top feodalizmin axırına çıxdı, kağız-qələm də kapitalizmi yıxacaq».

Avropada iri və güclü milli dövlətlərin yaranması, onların mərkəzləşdirilməsi və tərəqqisi Şərq ölkələrində əks proseslərin genişlənməsi ilə bir vaxta düşürdü. Ona görə də güclü Qərb zəif düşmüş Şərqi əzdi və onun torpaqlarını tədricən işğal etməyə başladı. Avropada «bir birinin yanında yaşamağa qadir olan iri millətlər» (K.Marks) formalaşdı «Dünyanın üç ən sivil xalqı» (V.İ.Lenin)-ingilislər, almanlar və fransızlar millət kimi formalaşdılar. İslam Şərqi ölkələrindəki pərakəndəlik, feodal özbaşınalığı, üstəgəl Qərb ölkələrinin müdaxiləsi burada yaşayan böyük-böyük xalqların (ərəblərin, fransızların, türklərin) millət şəklində formalaşması prosesini ləngitdi. Bu proses XX əsrin əvvəllərinədək davam etdi. XX əsrin əvvəllərində Şərq ölkələrində baş verən yeniləşmə hərəkatı, milli özünüdərk və milli oyanış bu ölkələrdə türk, ərəb, fars millətlərinin yaranıb inkişaf etməsinə səbəb oldu. Onlar da öz növbələrində milli azadlıq hərəkatının güclənməsi ilə müşayiət olundu və nəhayət, İslam şərqində də milli dövlətlər yarandı. Lakin bu milli dövlətlər elə indinin özündə də hələ Avropa və Qərb milli dövlətləri ilə müqayisədə çox zəif və cılız görünürlər. Ona görə də Qərb özünün istədiyi inkişaf modelini asanlıqla ona sırımağa nail olur. Bunun da nəticəsində hazırda Şərqdə milli demokratiya modelləri hakim mövqelərə çıxmışdır.

Milli hüquqi dövlətdə bütün millətlər və milli azlıqlar bərabər hüquq əldə edirlər. Ermənistanı milli hüquqi dövlət adlandırmaq olmaz. Çünki onlar ölkə daxilindəki milli azlıqları repressiyaya və deportasiyaya məruz qoy-



muş, qonşu xalqlara qarşı Şovinist aksiyalar həyata keçirmişlər.

Azərbaycanlıların hüququ təkcə Ermənistanda deyil, bir sıra qonşu dövlətlərdə də pozulur və bu baxımdan onları da milli-hüquqi dövlət adlandırmaq olmaz. Milli hüquqi dövlətə hazırda ən yaxşı nümunəni Avropa dövlətləri, ABŞ, xüsusilə də Almaniya göstərir. Almaniya faşizmin qurbanları olmuş digər xalqlara, ən əvvəl isə yəhudilərə xüsusi qayğı göstərir, onlara dəymiş maddi və mənəvi ziyanı ödəməyə çalışır. Almaniya faşistlərin bütün fəaliyyəti üçün özünü bir növ təqsirkar sayır və ona görə də onu unutdurmaq, onun əvəzini çıxmaq üçün öz qoynunda bu xalqlara isti yer və müxtəlif kompensasiyalar ayırır. Bu gün ABŞ bütün dünya xalqları və irqləri üçün açıq bir dövlətə çevrilmişdir və orada heç bir milli və irqi ayrı-seçkiliyə yer verilmir. Ölkədə milli və dini zəmində böyük tolerantlıq var. Azərbaycan Respublikası da bu sıradadır. Ölkədə yaşayan bütün xalqlar və millətlər milli və dini bərabərliyə malikdirlər.

Bu günkü Azərbaycan regional qloballaşmaya parlaq misal ola bilər. Azərbaycanda millətlərin və xalqların, onların mədəniyyətlərinin bir-birilə qarşılıqlı dialoq azadlığı mövcuddur. Müxtəlif xalqlar və millətlər öz milli-mənəvi və konfessional özəlliklərini hərtərəfli şəkildə inkişaf etdirmək imkanına malik olduqları kimi, başqalarınkından da istifadə etmək imkanlarına malikdirlər. Bu mənada Azərbaycan milli hüquqi dövlət olmaqla yanaşı həm də qloballaşdırıcı bir dövlətdir.

Mədəniyyət, onun inkişaf səviyyəsi, mövcud mədəni mühit bütün tarixi dövrlərdə şəxsiyyətin formalaşması və inkişafında müstəsna dərəcədə böyük rol oynayır, onun davranış ustanovkalarına, nail olmağa çalışdığı məqsədlərə və bütövlükdə fəaliyyətinə güclü təsir göstərir.

Bu günün reallıqları mədəniyyət ilə şəxsiyyətin münasibətlərinin prinsipcə yeni şəkildə qavranılmasına doğru dönüş yaradır. Buna görə də şəxsiyyətin mədəniy-

yətə münasibəti mədəni ənənələrin, dilin, adət və ənənələrin - bütövlükdə mədəni mühiti təşkil edən bütün amillərin qorunub saxlanılması və möhkəmləndirilməsi praktiki vəzifəsini ifadə edir. Bu baxımdan yanaşdıqda, şəxsiyyətin mədəniyyət sistemində varlığı onun real həyat prosesi kimi çıxış edir. Mədəniyyətin şəxsiyyətin formalaşmasına və inkişafına göstərdiyi təsir öz xarakterinə görə birmənalı deyildir, yəni o təkcə müsbət deyil, həm də mənfi istiqamətə yönələ bilir. Bu mənada müasir dünyada qərarlaşmış ümumi mədəni şəraitin neqativ tərəfləri - «kütləvi mədəniyyət»in geniş yayılması, milli münaqişələr, kiçik və zəif ölkələrə müxtəlif növlü siyasi, mədəni təzyiqlər göstərilməsi və başqa amillər, şəxsiyyətin ümumi mədəni inkişafına mane olur. Təsadüfi deyildir ki, tanınmış mütəfəkkirlərin yaradıcılığında bu məqam dəfələrlə qeyd olunur. A.Şveytser sözügedən cəhətə xüsusi diqqət yetirərək göstərirdi ki, «biz mədəniyyətin tənəzzülü ilə səciyyələnən bir şəraitdə yaşayırıq» [123, s.33].

Keçid dövrü şəxsiyyətinin mədəniyyət ilə əlaqələri özünün dinamik xarakteri ilə səciyyələnir. İndi ictimai həyatın bütün sferalarında və tərəflərində baş verən əsaslı dəyişikliklər özünün müvafiq əksini bu dövrün şəxsiyyətində və onun mədəniyyətində də tapır. Onların qarşılıqlı əlaqələrinin dinamizmi öz məzmununa görə zəngin olub, aşağıdakı üç istiqamətdə özünü göstərir: 1) insanın şəxsiyyəti və mədəniyyəti arasında kortəbii qarşılıqlı təsir; 2) onlar arasında ictimai şüur formaları (elm, incəsənət, əxlaq, fəlsəfə), kütləvi şüur və ictimai psixologiya tərəfindən formalaşdırılan mədəniyyət simvollarının sabit sistemi vasitəsilə yaranın spesifik qarşılıqlı təsir; 3) insanın şüuru, onun psixikası, aktiv yaradıcı təbiəti ilə şərtlənən dəyişdirici mənəvi və maddi fəaliyyətdə ifadə olunan qarşılıqlı təsir[85, s.227].

Müasir tipli şəxsiyyəti mədəniyyət kontekstində təhlil edərkən, onun ünsiyyət sistemində dialoqun artan rolu xüsusi qeyd olunmalıdır. Bu işdə genişlənməkdə olan



demokratikləşmə prosesləri, fikir plüralizminə və tolerantlığa real şəraitin yaranması müstəsna dərəcədə böyük əhəmiyyətə malikdir. Şəxsiyyəti səciyyələndirən mühüm əlaməti kimi dialoqun, kommunikativliyin rolunun çoxalması bu və ya digər ölkənin hüdudları ilə məhdudlaşmayan ümumi qlobal prosesdir. Bu hər şeydən əvvəl sivilizasiyanın müasir mərhələsində insanın sosial inkişaf göstəricilərinin yüksəlməsi, ümummədəni səviyyəsinin və yaradıcılıq üfüqlərinin qeyri-adi dərəcədə genişlənməsi ilə izah olunur. Təsadüfi deyildir ki, müasir dövrün ən nüfuzlu fəlsəfi təlimlərindən olan hermenevtika insanın dialoqluluğu və kommunikabelliyi ilə bağlı problemləri özünün mərkəzi mövzularından hesab edir. Həmin təlimin nümayəndələri (H.Qadamer, M.Haydeqqer) dialoqu geniş miqyasda araşdırır və ona şəxsiyyətin yaradıcılığı forması, insanın özünün inkişafı və sosial dünyasının genişlənməsi üsulu kimi yanaşırlar.

Müasir şəxsiyyət özünün bütün rəngarəng mədəni keyfiyyətlərə malik olmasına baxmayaraq, əsasən iki mədəniyyət mərkəzinin (Qərb və Şərq) orbitində fəaliyyət göstərir. Şərq və Qərb mədəniyyətləri bütün tarix boyu bir-birilə qarşılıqlı təsirdə inkişaf edərək yüksəlmişlər, eyni zamanda aralarındakı münasibətlərdə müxtəlif çətinliklər və ziddiyyətlər də özünü göstərmişdir. [40, s.21]

Bizə belə gəlir ki, Qərb və Şərq sivilizasiyalarının münasibətləri problemi geniş təhlil tələb edir, onları bir-birinə qarşı qoymaq əsassızdır. Bu iki region mədəniyyətinin qarşılıqlı əlaqələri və dialoqunu gücləndirmək zəruridir. Belə bir məqamı xüsusi vurğulamaq lazımdır ki, həmin mədəniyyət tiplərinin hər birinə xas olan müsbət cəhətləri əlaqələndirmək və onlardan şəxsiyyətin inkişafı naminə istifadə etmək müasir Azərbaycan cəmiyyəti üçün daha vacibdir. Ölkəmiz coğrafi məkan baxıiından hər iki sivilizasiyanın qovuşma sərhəddində yerləşdiyi üçün, bir tərəfdən burada sözügedən məsələnin həlli baxımından daha əlverişli şərait yaranır (hər iki mədəniyyətə xas olan

mütərəqqi cəhətləri əlaqələndirmək üçün). Digər tərəfdən, Azərbaycan Qərb və Şərq mədəniyyətinin özünəməxsus toqquşma meydanı kimi çıxış edir. Buna görə də cəmiyyətimizin hər bir üzvünün mənəvi-mədəni keyfiyyətlər labirintində düzgün seçim edə bilməsi son dərəcə vacibdir.



# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində


1. H.Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı: Azərnəşr, 2001, 88 s.
2. «525-ci qəzet». 18 aprel 1997-ci il.
3. Abasov Ə., Məmmədov F. Sülh mədəniyyəti nədir?, Bakı: Çaşıoğlu, 2002, 71s.
4. Abbasov Ə. Müasir dövrün sosial mədəni problemləri, Bakı: Təknur, s.47-49
5. Abbasov Ə. Yeniləşən cəmiyyət; Müasir elmi paradiqma və idarəetmə. Bakı: Elm, 1998, 159 s.
6. Aslanova R. İslam və mədəniyyət, Bakı: Az. Universiteti, 2002, 405 s.
7. Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. Bakı: Elm, 2004, 264 s.
8. «Azadlıq» qazeti, 1 oktyabr 1996-cı il.
9. Azərbaycanda mədəniyyət siyasətinin formalaşmasına yardım. Bakı: Sabah, 2001, 194 s.
10. «Azərbaycan» qəzeti, 10 noyabr 2001-ci il.
11. Bammat H. Qərb mədəniyyətinin inkişafında müsəlmanların rolu. Bakı: Azərnəşr, 1999, 61 s.
12. Cəfərzadə İ. «Millətlərin müqəddərat hüququnun eksperiment yozumu / Azərbaycan XXI əsrin astanasında» respublika elmi-praktik konfransının materialları. Bakı: Təfəkkür, 1997, s.776-778.
13. Göyalp Ziya. Türkçülüyün əsasları, Bakı: Maarif, 1991, 175 s.
14. Əhmədov Ə. Külturologiya (dərs vəsaiti). Bakı: Nurlan, 2003, 198 s.
15. Ələkbərova N. Mədəniyyət və siyasət, Bakı: Azərbaycan, 2000, 287 s.
16. Əliyev Ə.H. Mənəvi mədəniyyət və din. Bakı: Səda, 1981, 90 s.
17. Əliyev Q.C., Tağıyev Ə.M., Bayramov M.İ.

Mədəniyyətşünaslığın əsasları (dərs vəsaiti). Bakı: Təbib, 1999, 202 s.
18. Əsədov A. Gözəlliyin fəlsəfəsi, Bakı: Nurlan, 2005, 498 s.
19. Həsənzadə N. Kulturologiya, Bakı: Azərnəşr, 2005, 278 s.
20. Hüseynli Q.İ. Sivilizasiya və biz. / «Keçid dövründə ictimai-siyasi münasibətlər» məcmuəsı. Bakı: ATU, 1996, 48-56 s.
21. Hüseynli Q.İ. Sivilizasiya və milli müəyyənlik. Bakı: Bilik, 1994, 52 s.
22. Hüseynov Q.İ. Sivilizasiya və sivilizasiyalılığın dialektikası. Bakı: Çaşıoğlu, 1991.
23. Hüseynov İ. Azərbaycan milli adət və ənənlərinin bədii- estetik mahiyəti: Fəl.elm.dok... dis. avtoref. Bakı: 2004, 51 s.
24. Hüseynov Ş. Əhməd bəy Ağaoğlunun dünyagörüşü, Bakı: Azərnəşr, 1999, 126 s.
25. Xəlilov S. Elmdən texnikaya və mənəviyyata, Bakı: Az. Universiteti, 1998, 264 s.
26. Xəlilov S. Qloballaşma, yoxsa qlobal sivilizasiya?! // Şərq-Qərb: Sivilizasiyaların dialoqu. Bakı: 2005, № 1, s.24-35.
27. XX əsrin siyasi tarixi. Bakı: ADU, 1994, 421 s.
28. Xoşməramlı Səfir: Bakı: Şəms, 2005, 82 s.
29. Qurbanov S. Cəmaləddin Əfqani və türk dünyası. Bakı: Azərnəşr, 1996, 226 s.
30. Lenin V.İ. Əsərlərinin tam külliyyatı, 14-cü cild, Bakı: Azərnəşr, 1978, 608 s.
31. Lenin V.İ. Əsərlərinin tam külliyyatı. 26-cı cild, Bakı: Azərnəşr, 1981, 643 s.
32. Mədəniyyət dünyası, Bakı: № 5, 2002, 200 s.
33. Mədəniyyət dünyası, № 6, 2003, 352 s.
34. Mədəniyyət dünyası, № 7, 2003, 495 s.
35. Mədəniyyət dünyası, № 8, 2004, 381 s.
36. Məmmədov F. Külutrologiya. Bakı: Səda, 2002, 321 s.



37. Məmmədova S. Mədəniyyətşünaslıq. Bakı: Kooperasiya, 2001, 201 s.
38. Mustafayev R. Mədəniyət və fəlsəfə, Bakı: Araz, 2005, s. 255
39. Mustafayev R. Azərbaycanın inkişafı yolu. Bakı: Araz, 1993, 112 s.
40. Məmmədov R.H. Keçid dövrü şəxsiyyətinin sosial-fəlsəfi təhlili: Fəl.elm. dok... dis. avtoref. Bakı: 2005, 45 s.
41. Nuriyev S. Müasir sivilizasiya və milli inkişafın xüsusiyyətləri, Bakı: Çaşoğlu, 1998, 88 s.
42. Paşayev V. Mədəniyyət fəlsəfəsi (dərs vəsaiti). Bakı: Səda. 1999, 172 s.
43. Robert Dahl. Demokratiya haqqında, Bakı: Azərbaycan, 2004, 248 s.
44. Rüstəmov Y. Beynəlxalq münasibətlər sistemində ABŞ-ın rolu (Z.Bjezinski ilə qiyabi dialoq), Bakı: Elm, 2005, 188 s.
45. Rüstəmov Y. Sivilizasiyaların dialoqu bəşəriyyətin vəhdətinə aparan yoldur // Şərq-Qərb: Sivilasiyaların dialoqu, Bakı: 2005, №1, s. 9-23.
46. Rzayev M.H. Keçid dövrü şəxsiyyətinin sosial-fəlsəfi təhlili: Fəl.elm.dok... dis. avtoref. Bakı: 2005, 45 s.
47. Sosial-siyasi problemlər, II-ci buraxılış, Bakı: ADPU, 2003, 130 s.
48. Stefan Sveyq. Jozef Fuşe. Bakı: Maarif, 1990, 208 s.
49. Şərq-Qərb sivilizasiyaların dialoqu. Bakı: 2005, № 1, 236 s.
50. Şükürov A. Fəlsəfə və qloballaşma. Bakı: Adiloğlu, 2002, 440 s.
51. Şükurov A. Kültrologiya (dərslik). Bakı: Elm 1998, 285 s.
52. Şükürov A. Kültürologiya. Bakı: Elm, 1999, 285 s.
53. Şükurov A. Kültrologiya (dərslik). Bakı: Adiloğlu, 2-ci nəşr, 2003, 273 s.
54. Şükürov A. Müasir dövrün qlobal ekoloji və demoq-

rafik problemlərinin sosial-fəlsəfi mahiyyəti. Bakı: Elm, 1984, 160 s.
55. Tağıyev Ə. Azərbaycan milli gerçəkliyi və onun saxtalaşdırılmasının tənqidi. Tarix və müasirlik: Fəl.elm. dok... dis. avtoref. Bakı: 1993, 50 s.
56. Tağıyev Ə., Əliyev Q. Kültürologiya (dərs vəsaiti), Bakı: Təbib, 1997, 96 s.
57. Tağıyev Ə. İnsan və siyasət, Bakı: AMEA. MBM. 2005, 188 s.
58. Tağıyev Ə. Milli ideya və milli ideologiya: problemlər və onların şərhi. Bakı: Təbib, 2000, 195 s.
59. Tağıyev Ə., Şükürov M. Etnopolitologiya. Bakı: Elm, 2000, 152 s.
60. Tağıyev Ə.M., Şükürov M.S. İki əsrin qovşağında Azərbaycan: Milli və millətlərarası problemlərin həlli yolunda. Bakı: Adiloğlu, 2004, 194 s.
61. Tətbiqi kültürologiya (dərslik). Bakı: Mars-Print. 2004, 412 s.
62. Türkel Y. İnsan, təbiət, cəmiyyət münasibətləri (biososial və fəlsəfi aspektlər). Fəl.elm.dok... dis. avtoref. Bakı: 2005, 68 s.

**Рус дилиндя**

63. Аббасов А. Демократия: Наличная и должная, Баку: Адилоглу, 2005, 180 с.
64. Аббасов А. Диалог цивилизаций-диалог культур-диалог религий / Дюнцш мярщялясиндя глобал идаряетмя. Дяйишилян ъямиййятдя сцлщцн гурулмасына инновасийа йанашмалары, Бакы: Адилоглы, 2003, 215 с.
65. Алиев А. Рол политической культуры в формировании современного государства и общества, Баку: Ширван, 2005, с.198.
66. «Аргументы и факты». 12 январья 1997 г.
67. Асмолов А. Г. Психология личности. М.: Мысль, 2001, с.218



68. Бердяев Н.А. Смысл истории. М.: Мысль, 1990, 285 с.
69. Бжезински З. Великая шахматная доска. Американское господство и геополитические императивы. М.: Международные отнащения. 1998, 248 с.
70. Бжезинский З. Выбор мировое господство и глобальное лидерство. М.: Международные отношения, 2004, 196 с.
71. Боливар С. Изб. Произв. 1812-1830. М.: Наука, 1983, с.78-79.
72. Боливар С. Речь в Нгостуре. М.: Мысль, 1936, с. 215.
73. Бромлей Ю.В. К вопросу о соотношении понятии формации и цивилизации. М.: Наука, 1983, с. 597.
74. Буева Л.П. Человек и общественный прогресс // Вопросы философии, 1982, № 2, с.42-45.
75. Бурлатский Ф. Новое мышление. М.: Мысль, 1989, с.245.
76. Бурлаукий Ф.М., Галкин А.А. Современный Левианафан, М.: Наука, 1985, с. 325.
77. Вебер М. Протестанская етика. М.: Наука, 1972, с.473.
78. Вико Д.Ж.Основанные новой науке об обшей природе науки. Л.: изд. ЛГУ, 1940, 325 с.
79. Виргиния. Новый Плимут. 1606-1642, М.: Наука, 1978.
80. Гаджиев К.С. О природе конфликтов и воин в современном мире // Вопросы филосифии, № 5, 1997, с.3.
81. Гасанов Г. Цель истории, Баку: Елм, 2004, 470 с.
82. Гасанов Р.М. Ислам. Демократия. Гражданское общество, Баку: изд. Бак.университет, 2000, с.123.
83. Гегел Г.В. Соч. т. 8, М.Л.: 1935, 562 с.

84. Гелнер. Э. Нация и национализм. М.: Наука1991, 213 с.
85. Григорьев С.И. Основы построения социологической теории жизненных сил человека // Социология на пороге XXI века // М.: 1998, с. 227.
86. Гусейнов Ш.А. Методологическое значения категорий цивилизации. Автореф. дис... конд. филос. наук. М.: 1990, с.22
87. Данилевский Н.Я. Россия и Европа: Взгляд на культурные и полит. Отношения славянского мира к германо-романскому. СПб.: Изд. Страхова, 1889, 610 с.
88. Дашдамиров А.Ф. Кавказская идентичность и диалог култур. / В Московское эхо Кавказа, М.: 1997, с.92.
89. Дашдамиров А.Ф. Теоретико – методологические проблемы обществоведения. Заметки и размышления о новых подходах. Баку: ЦИИ Иршад, 1996, 78 с.
90. Делигенский Г.Г. Конец истории и смена цивилизации // Вопросы философии. 1991, №3, с. 29-42.
91. Дифин А. Основы геополитики. Геополитическое будуше России. Мыслить пространством. М.: Маладая гвардия. 1999, с. 165.
92. Журнал. «Полит. Исследов.» №1, 1994.
93. Захаров Н.Л. Человеческая цивилизация как социокультурная общности. Автореф. дис... конд. филос. наук. Л.: 1991.
94. Илюшечнин В.П. Цивилизация и общественные формации. М.: Мысль, 1983, 251с.
95. Клаузевиц К. О войне. М.: Госвоениздат, 1934, 692 с.
96. Коган М.С. Философия культуры. Санкт-Петербург: Петрополись, 1996, 283 с.



97. «Латынская Америка» жур., 1982, № 2, с.78-79.
98. Леаполдо С. Философия Американской истории, М.: Прогресс, 1984, 382 с.
99. Мамедзаде И. Введение в этику, Баку: Муаллим, 2004, 156 с.
100. Массаусетс, Мерилеид.1630-1642, М.: Изд, Наука, 1980, 381 с.
101. Мехтиев Р.Э. Межнациональные отношения на исходе XX столетия: проблемы теории и политики. Баку: Аз.гос.изд, 1995, 221 с.
102. Монтгомери Уотт. Влияние ислама на средневековую Европу. М.: Наука, 1976, 128 с.
103. Мустафаев Р. Кавказский дом // Возрождение - XXI век, 1998, № 2, с. 46-51.
104. Наджафов Э.А. Соотношение культуры и цивилизации в общественном развитии, Баку: Универст. Азербайджана, 2000, 206 с.
105. Новикова Л.И.Цивилизация и культура в историческом процессе // Вопросы философии. 1982, №10, с.53-63.
106. Панарин А.С. Возвращение в цивилизацию или информационное одиночество? // Философские науки. 1991, № 8, с. 3-16 с.
107. Политология: элементарный курс. М.: Гардарики, 2001, 270 с.
108. Поппер К. Открытое общество и его враги. М.: Наука, 1992, Т.1., с.393.
109. Разлогов К. Геополитика культуры // Свободный мысль. Теоретический и политический журнал, №9 (1523), 2002, с.58-74.
110. Рожин В.П. К вопросу о понятии «цивилизации» // Вестник Ленинградского Университета. Вып.2., №11, с. 21-43, 1974.
111. Рустамов Ю.И. Ислам и общественная мысль современной Турции. Баку: Елм, 1980, 160 с.
112. Саид Мутегге Рунин Мусави Лари. Западная

цивилизация глазами мусульманина. Баку.: Азернешр, 1992, 212 с.
113. Самедзаде З. Нагорный Карабах: Неизвестная правда: о некоторых аспектах социально-экономического и демографического развития региона. Баку: Азернешр, 1995, 135 с.
114. Тейяр Де Шарден Пьер. Феномен человека, М.: Наука, 1987, 239 с.
115. Тойнби А. Постижение истории, М.: Прогресс, 1991, 730 с.
116. Токвиль Алексис де. Демократия в Америке, М.: Прогресс, 1992, 554 с.
117. Тоффлер Э. Третья волна, М.: Прогресс, 1991, 781 с.
118. Тугаринов В.П. Природа, цивилизация, человек. Л.: Изд. ЛГУ, 1978, 128 с.
119. Федотова В.Г. Цивилизация и исторический процесс. М.: Знание, 1983, 113 с.
120. Фредрик Морис и Жан де Куртен. Действия МККК в интересах беженцев и гражданских перспешениях лиц. М.: Знание 1994, 16 с.
121. Фукуяма Ф. Конец истории // Вопросы философии. М.: 1990, № 3, с 134-148.
122. Человек и война. Общественные науки и современность. М.:1997, №4, с.155.
123. Швейцер А.Культура и этика. М.: Знание, 1979, с.33.
124. Шевченко В.К. Возвращение в цивилизацию или поиск реального пути? // Философские науки. 1991, № 8, с. 17-33.
125. Шикаренко Г.А. Сущность и особенности функционирования цивилизаций. Автореф. дис... конд. филос. наук. Л.: 1992, 24 с.
126. Шпенглер О. Закат Европы, т 1., М.: Наука, 1998, с.432
127. Этнические стероетипы поведения. Под ред.



А.К.Байбурина. М.: Прогресс, 1995, с.137.
128. Эфендиев Ф.С. Этнокультура и национальное самосознание, Нальчик, изд. Центр Эльза, 1999, 304 с.
129. Ясперс К. Истоки истории и ее цел. Смысл и назначение истории, М.: МГУ, 1994, с.415.

**Инэилис дилиндя**

130. Almond Q., Verba S. The civil culture Political attitudes and democratcy in five countries, Princeton: 1963, 218 p.
131. Clark A., Marinov H. New political culture, Westflue press, 1998, 179 p.
132. Hantington S. The clash of civilizations Dorcuhts, 1994, p.78
133. Hantington S.The clash of civilizations and Remarking of world order, New-York: 1996, 234 p.
134. Parker Ch. Western Ceopolitical thouqht in the twentieth century, New-York: 1985, 242 p.
135. Robertson R. Clobality. Clobal culture and images of world order. Social changes and modernity. Berkeley: 1992, 182 p.
136. Worsley P. The three worlds: Culture and world development. London: 1984, 92 p.

*Nəşriyyatın direktoru:* *Hüseyn Hacıyev*
*Texniki redaktor:* *Gülbəniz Məmmədova*
*Dizayn:* *Müşfiq Hacıyev*
*Cildçi:* *Azad Həmzəyev*
*Montajçı:* *Elmira İsmayılova*

---

*Çapa imzalanmış 15.10.2014-cü il*
*Kağız formatı 60x84 1/16, çap 10*
*Sifariş 400, sayı 200*

---

***ADPU-nun mətbəəsi***
***Bakı, Ü.Hacıbəyov küçəsi, 68***
***Tel: (+912) 493-74-10***
***E.mail. ADPU@Box.az***